

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA



№ 2 (25) 2009

# KİTABXANAŞÜNASLIQ
# VƏ
# BİBLİOQRAFİYA

№2 * 2009

BAKI –2009

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ**

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

**№2 (25) * 2009**

1997-ci ilin
**oktyabrından çıxır**

***BAKI –2009***

***KBT- 78***
***K 73***

***Təsisçi və baş redaktor: professor Xəlil İSMAYILOV***

***Məsul katib: dosent Knyaz ASLAN***

***REDAKSİYA HEYƏTİ:***

*Professor Abuzər XƏLƏFOV*

***Professor Zöhrab ƏLİYEV***
***Professor Bayram ALLAHVERDİYEV***
***Dosent Nadir İSMAYILOV***
***T.e.n. Kərim TAHİROV***
***F.e.n. Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ***
***Tamella İSMİXANOVA***
***Mələk HACIYEVA***
***B. m. Solmaz SADIQOVA***

K 73 *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-B.: Bakı Universiteti Nəşriyyatı, 2009.-№2.-172 s.*

*Redaksiyanın ünvanı:*
*AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,*
*2№-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi,*
*«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiyası*
*Telefonlar: 439-05-47; 439-08-03*

**© «Kitabxanaşünaslıq və biblioqrafiya», 2009**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЕ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**
**БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛЬТЕТ**

# *БИБЛИОТЕКОВЕДЕНИЕ*
# И
# БИБЛИОГРАФИЯ

**Научно-теоретический,**
**методический и практический журнал**

**№2 (25) * 2009**

***Выпускается***
с 1997 года

БАКУ-2009

***ББК-78***
***К 73***

***Учредитель и***
***главный редактор:*** ***профессор Халил ИСМАИЛОВ***

***Ответственный секретарь:*** ***Доцент Князь АСЛАН***

***РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:***

**Профессор Абузар Халафов**

**Профессор Зохраб Алиев**

**Профессор Байрам Аллахвердиев**

**Доцент Надир Исмаилов**

**К.и.н. Керим Тахиров**

**К.ф.н. Айбениз Алиева-Кенгерли**

**Тамелла Исмиханова**

**Мелек Гаджиева**
**Ст. преп. Солмаз Садыгова**

**К 73** *Библиотековедение и библиография: Научно-теоретический, методический и практический журнал .- Б., Изд-во Бакинского Университета, 2009.-№2.-172 с.*

*Адрес редакции:*
*Аз –1073/1 г. Баку, ул. Захида Халилова, 23,*
учебный корпус №2, этаж IV, Библиотечно-информационный факультет, редакция журнала

«Библиотековедение и библиография».

*Тел.: 439-05-47; 439-08-03*

**© «Библиотековедение и библиография», 2009**

# MÜNDƏRİCAT


## *RƏSMİ SƏNƏDLƏR*

*"Bakı Dövlət Universitetinin 90 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (24 aprel 2009-cu il)*

*"Bakı Dövlət Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (30 oktyabr 2009-cu il)*

*Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı (2 noyabr 2009-cu il)*

*Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmovun çıxışı (2 noyabr 2009-cu il)*

## *TƏBRİK EDİRİK*

***X.İSMAYILOV*** *Akademik Abel Məhərrəmov – 60*

***A.XƏLƏFOV***
***K.ASLAN*** *Milli mədəniyyətimizin təəssübkeşi "Əməkdar mədəniyyət işçisi"dir*

## *KİTABXANAŞÜNASLIQ*

***A.XƏLƏFOV*** *Professor V.İ.Razumovskidən akademik A.M.Məhərrəmova qədər keçilmiş inkişaf və tərəqqi yolu*

***X.İSMAYILOV*** *Kitabxanaşünaslıq texnoloji biliyin təkamülü kimi*

***S.RZAYEV***
***C.BAXIŞZADƏ*** *Kütləvi kitabxanalarda ədəbiyyat təbliğində əyanilik prinsipi*

***K.ASLAN*** *Cəlil Məmmədquluzadənin felyetonlarında kitab və mütaliə mövzusu*

***Y.QAZIYEV*** *Azərbaycanda məktəb kitabxanalarının inkişaf tarixindən*

***S.MUSTAFAYEVA*** *Kitabxana-biblioqrafiya təsnifatı: yeniliklər və dəyişikliklər*

| | |
|---|---|
| ***P.KAZIMİ*** | *Orta əsr türk xalqlarının kağız istehsalı, əlyazma kitabı və cildçilik mədəniyyəti* |
| ***Z.RZAYEVA*** | *AMEA-nın Mərkəzi Elmi Kitabxanasında informasiya axtarış sistemlərinin formalaşması (1970-80-ci illər)* |
| ***M. DADAŞİ NASRİN*** | *Təbriz Universiteti Kitabxanasının informasiya axtarış sistemi* |
| ***A.RZAYEVA*** | *Müstəqilliyin ilk illərində Azərbaycanda MKS-lərin soraq-biblioqrafiya fondunun formalaşması (1990-2000-ci illər)* |
| ***X.ZÜLFİYEVA*** | *Respublika Elmi-Pedaqoji Kitabxanasının elmi-metodik fəaliyyəti (2002-2009-cu illər)* |
| ***E.ƏJDƏROV*** | *Milli, mədəni-mənəvi irsin qorunmasında kitabxanaların vəzifələri* |
| ***S.SALAMLI*** | *Müasir şəraitdə kitabxanalarda elektron informasiya xidmətinin tətbiqi* |

## *BİBLİOQRAFİYAŞÜNASLIQ*

| | |
|---|---|
| ***N.İSMAYILOV*** ***S.SADIQOVA*** | *Fəlsəfə elminə həsr olunmuş biblioqrafik informasiya mənbələri* |
| ***R.VƏZİROVA*** | *Kitabxanalarda biblioqrafik işin planlaşdırılmasının təşkili məsələləri* |
| ***S.İSMAYILOVA*** | *Uşaq ədəbiyyatına dair biblioqrafik informasiyaya sosial tələbat* |
| ***Ə.MƏMMƏDOV*** | *Biblioqrafik mənbələrdə sənəd haqqında informasiyanın əks olunmasının bəzi məsələləri* |

## *BEYNƏLXALQ ƏMƏKDAŞLIQ*

| | |
|---|---|
| ***Ə. MƏMMƏDOV*** | *Milan Dünya Kitabxana və İnformasiya Konqresinin (İFLA-nın) 75-ci konfransı öz işini uğurla başa çatdırdı* |

# “BAKI DÖVLƏT UNİVERSİTETİNİN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2009-cu ilin sentyabr ayında Azərbaycan Respublikasının aparıcı təhsil ocağı Bakı Dövlət Universitetinin təsis edilməsinin 90 ili tamam olur. Bakı Dövlət Universiteti müsəlman Şərqində ilk Avropa tipli ali məktəb kimi yarandığı vaxtdan bəri ötən müddət ərzində ölkəmizdə ali təhsilin və elmin tərəqqisi naminə əvəzsiz xidmətlər göstərmişdir. Yüksək ixtisaslı milli kadrların hazırlanması, yeni-yeni elmi istiqamətlərin formalaşdırılması, dünya təhsil məkanına inteqrasiya, eləcə də mədəni-mənəvi dəyərlərimizin yaşadılması istiqamətlərində universitet üzərinə düşən vəzifələrin öhdəsindən həmişə layiqincə gəlir. Azərbaycanın simasını müəyyən edən dövlət, elm və mədəniyyət xadimlərinin böyük bir qismi məhz Bakı Dövlət Universitetinin yetirmələridir. Xalqımızın milli sərvətinə çevrilən universitet bu gün dövlət idarəçiliyi, iqtisadiyyat, elm, təhsil və mədəniyyətin müxtəlif sahələrində uğurla çalışan çox saylı məzunları ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir.

Respublikamızda ali təhsilin və elmin ənənələrinin zənginləşdirilməsində, milli dövlətçiliyin qorunub möhkəmləndirilməsində mühüm xidmətlərini nəzərə alaraq, Bakı Dövlət Universitetinin 90 illik yubileyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 aprel 2009-cu il.*

## Bakı Dövlət Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Bakı Dövlət Universitetinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

........

**"Əməkdar mədəniyyət işçisi"**

***İsmayılov Xəlil İsmayıl oğlu***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 oktyabr 2009-cu il*

* * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * * *

## *REDAKSİYADAN:*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 oktyabr 2009-cu il tarixli sərəncamları ilə Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Bakı Dövlət Universitetinin 107 nəfər əməkdaşına müxtəlif fəxri adlar və yüksək dövlət mükafatları verilmişdir. Bu əlamətdar hadisə münasibətilə həmkarlarımızı ürəkdən təbrik edir, doğma universitetimizin inkişafı naminə onların hər birinə uğurlar arzulayırıq!***

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

***(2 noyabr 2009-cu il)***




- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Mən sizin hamınızı Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə ürəkdən təbrik etmək istəyirəm, universitetin bütün kollektivinə xoşbəxtlik və yeni-yeni uğurlar arzulayıram.

Bakı Dövlət Universitetinin çox gözəl və böyük tarixi vardır. 1919-cu ildə təsis edilmiş universitet 90 il ərzində Azərbaycanın hərtərəfli inkişafında çox mühüm rol oynamışdır. Bakı Dövlət Universiteti Azərbaycan müstəqilliyini əldə edəndən bir il sonra Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən təsis edilmişdir. Bu çox düşünülmüş və uzaqgörən bir addım idi. O vaxt ölkəmiz çox gənc idi. Buna baxmayaraq, əhalinin maarifləndirilməsi, Azərbaycanda savadsızlığın aradan qaldırılması və intellektual potensialın gücləndirilməsi üçün universitetin yaradılması çox mühüm hadisə olmuşdur. Bildiyiniz kimi, Azərbaycan Xalq Cümhuriyyəti iki il yaşadı, onun ömrü uzun olmadı, iki ildən sonra süqut etdi. Ancaq Bakı Dövlət Universiteti yaşadı. Düzdür, o zamanın müəyyən ideoloji çərçivələri daxilində fəaliyyət göstərmişdir. Ancaq buna baxmayaraq, Bakı Dövlət Universiteti Azərbaycanın inkişafı, Azərbaycanda təhsilin inkişafı, elmi potensialın gücləndirilməsi üçün çox mühüm rol oynamışdır. Bu rol bu gün də davam edir. Çox sevindirici haldır ki, Bakı Dövlət Universiteti bütün bu illər ərzində Azərbaycanda təhsil sahəsində öz aparıcı rolunu qoruyub saxlaya bilmişdir və bu gün bu rol daha da güclənir. Bu, bir daha onu göstərir ki, universitetin çox zəngin

ənənələri, çox böyük potensialı, professor-müəllim heyətinin təcrübəsi, tələbələrin oxuması və təhsilə verdikləri önəm vardır. Xüsusilə indiki şəraitdə hər şey təhsilin səviyyəsi ilə ölçülür. Hər bir insanın gələcəyi, hər bir gəncin taleyi onun biliyindən, təcrübəsindən, savadından asılıdır.

Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar iqtisadiyyatının öz qanunları vardır. Hər bir insan qarşısında eyni imkanlar, bərabər imkanlar yaradılır. O imkanlardan faydalanmaq, xüsusilə Azərbaycanın indiki inkişaf dövrünü yaşadığı bir vaxtda yaradılan bu imkanlardan faydalanmaq üçün ilk növbədə gənclər bilikli, savadlı olmalıdırlar.

Bakı Dövlət Universiteti müxtəlif dövrlərdə Azərbaycanın hərtərəfli inkişafı üçün öz dəyərli töhfəsini vermişdir. Bakı Dövlət Universitetinin məzunları öz fəaliyyəti ilə ölkəmizin çiçəklənməsinə dəyərli töhfələrini vermişlər. Ulu öndər Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi və bütün dövrlərdə - 1970-80-ci illərdə və müstəqil Azərbaycanın Prezidenti kimi Bakı Dövlət Universitetinin inkişafı üçün çox böyük səylər göstərmişdir. Həmişə universitetə çox böyük diqqət göstərmişdir, universitetin tədbirlərində iştirak etmişdir və Bakı Dövlət Universitetinin belə yüksək səviyyəyə qalxması üçün əməli işlər görmüşdür.

1970-80-ci illərin əvvəllərində və 1990-cı illərdə ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan çox böyük və uğurlu yol keçmişdir. 1970-ci ildə Azərbaycan müttəfiq respublikalar arasında ən axırıncı yer tuturdu. Ancaq 1982-ci ildə Azərbaycan müttəfiq respublikalar arasında birinci sıralarda idi. O illər ərzində sənaye potensialının, intellektual potensialın inkişaf etdirilməsi, gənc nəslin maarifləndirilməsi və Sovet İttifaqının aparıcı ali məktəblərinə onların imtahansız qəbulu sayəsində Azərbaycanın elmi potensialı böyük dərəcədə gücləndirilmişdir. Azərbaycanın ali məktəblərində aparılan islahatlar və görülən işlər bu gün ölkənin intellektual potensialını müəyyən edir.

Müstəqilliyin ilk dövründə - 1993-cü ildə Azərbaycanın qarşısında duran çağırışlar demək olar ki, müstəqilliyimizi sınağa çəkirdi, çox ciddi böhran - həm iqtisadi, həm siyasi böhran yaşanırdı. Buna baxmayaraq, 1993-cü ildən başlayaraq 2003-cü ilə qədər Azərbaycanda təhsilin inkişafı üçün köklü islahatlar aparıldı, lazımi qərarlar verildi. Azərbaycan təhsilinin maddi-texniki bazasının gücləndirilməsi işində çox vacib addımlar atılmışdır. Bu siyasət bu gün davam etdirilir. Bu gün Azərbaycanın demək olar ki, bütün ali məktəblərinin maddi-texniki bazası ən yüksək standartlara cavab verir. Demək olar ki, bütün dövlət ali məktəblərində əsaslı təmir işləri aparılmışdır. Ali məktəblərin maddi-texniki bazası böyük dərəcədə gücləndirilmişdir. Bu onu göstərir ki, Azərbaycan dövləti həmişə olduğu kimi, təhsilin inkişafına çox böyük əhəmiyyət verir. Bu, həqiqətən də belədir. Bunu görmək üçün ancaq Azərbaycanın dövlət büdcəsinə baxmaq kifayətdir. Təhsil xərcləri ordu xərclərindən sonra dövlət xərclərimizdə ikinci yerdədir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı işğalçılardan hərbi yolla azad edək.

Ancaq hərbi xərclərdən sonra ikinci yerdə təhsilə ayrılan xərclərdir. Bu, Azərbaycan dövlətinin prioritetlərini göstərir və bizim siyasətimizin ən bariz nümunəsidir. Çünki hər bir ölkənin inkişafı üçün ən başlıca şərt o ölkənin təhsilinin səviyyəsidir. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, İkinci Dünya müharibəsindən sonra və bəzi ölkələrdə ondan əvvəl, elmi-texniki tərəqqi olan yerlərdə ölkələr inkişaf edib və bu gün dünyanın inkişaf etmiş ölkələri kimi tanınır. Nə təbii resurslar, nə coğrafi vəziyyət, - halbuki bu amillər də çox önəmli-

dir, - bu şərti təmin etmir. Ancaq təhsilin səviyyəsi, elmi-texniki tərəqqi, təhsilə verilən önəm və təhsil sahəsində aparılan islahatlar əsas şərtlərdir. Biz də bu yolu seçmişik. Biz də təhsildə islahatların aparılması ilə bərabər, bizim üçün ənənəvi olan təhsil formalarını saxlayırıq, öz ənənələrimizi qoruyuruq, bütün mütərəqqi təcrübələrə qoşuluruq və ali məktəblərimiz beynəlxalq müstəvidə çox fəal iştirak edirlər.

Bir sözlə, təhsil sisteminin təkmilləşdirilməsi, təhsilin səviyyəsinin qaldırılması üçün bundan sonra da lazımi tədbirlər görüləcəkdir. Son altı il ərzində Azərbaycanda 1800 yeni məktəb tikilibdir. Yüzlərlə məktəbdə yeni korpuslar tikilib, təmir aparılıbdır. Bu nəyi göstərir?! Bu onu göstərir ki, bu sahə prioritet sahədir. Bütün orta məktəblərdə kompüter sinifləri yaradılır, informasiya-kommunikasiya texnologiyaları tətbiq edilir. Bütün məktəblərin internetə qoşulması prosesi uğurla davam edir. Belə olan halda gənclərimiz, uşaqlarımız, yeniyetmələrimiz bilikli və savadlı olacaqlar, həyatda özlərinə layiq yeri tutacaq, eyni zamanda, gələcəkdə - 10 ildən, 20 ildən, 50 ildən sonra Azərbaycanın uğurlu inkişafını təmin edəcəklər. Çünki bir daha demək istəyirəm ki, təbii sərvətlər tükənən dəyərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amillərdir.

Son illər ərzində təhsilin səviyyəsinin qaldırılması işində vacib addımlar atılır, "Təhsil haqqında" Qanun uzun müzakirələrdən sonra qəbul edilibdir. Ancaq bu sahədə inkişaf üçün hələ çox iş görülməlidir. Bir daha demək istəyirəm ki, dünyanın ən mütərəqqi təcrübəsi öyrənilməlidir, eyni zamanda, Azərbaycan gəncləri milli ruhda tərbiyə olunmalıdır. Biz əsrlər boyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq. Ancaq öz milli dəyərlərimizi, ənənələrimizi qoruya bilmişik, saxlaya bilmişik. Öz ana dilimizi saxlaya bilmişik. Nəyin hesabına?! Ona görə ki, Azərbaycan xalqında milli ruh həmişə çox yüksək səviyyədə olmuşdur.

Bu gün qloballaşan dünyada, bəlkə də buna daha da çox diqqət verilməlidir. Qloballaşma təbii prosesdir və yəqin ki, bu proses müəyyən düzəlişlərlə davam edəcəkdir. Xüsusilə belə olan halda milli dəyərlərə önəm vermək, gənc nəsli milli dəyərlər əsasında tərbiyə etmək xüsusi əhəmiyyət daşıyır. Mən çox şadam ki, Azərbaycanda milli ənənələr güclənir, möhkəmlənir və bu prosesləri daha da sürətləndirmək üçün kompleks tədbirlər görülməlidir. Əlbəttə, təhsil bu işlərdə ən prioritet məsələdir. Eyni zamanda, bizim mədəni irsimizin öyrənilməsi, ədəbiyyatımızın təbliği, xalq musiqimizin təbliği və öyrənilməsi böyük əhəmiyyət daşıyan məsələlərdir. Azərbaycanda bütün bu sahələrə çox böyük əhəmiyyət verilir.

Biz öz iqtisadiyyatımızı inkişaf etdiririk. Azərbaycan iqtisadi cəhətdən artıq oturuşmuş dövlət kimi tanınır. Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq. Nəzərə alsaq ki, dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir. Müxtəlif hesablamalara görə Azərbaycan postsovet məkanında iqtisadi islahatlar və iqtisadi inkişaf baxımından birinci yerdədir. Mən hesab edirəm ki, artıq bu sahədə keçid dövrü başa çatıbdır. Dünya İqtisadi Forumu - dünyanın ən mötəbər qurumlarından biri olan bu təşkilat rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı dünya miqyasında 51-ci yerdə görür və bütün MDB məkanında biz bu sahədə birinci yerdəyik. Dünya Bankı 2008-ci ilin hesablamalarına görə Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi tanıdı. Bu, bir daha onu göstərir ki, bizim uğurlarımızın əsas səbəbi ölkədə aparılan siyasi və iqtisadi islahatlardır. Hasilat sənayesi sahələrində şəffaflığın təmin edilməsi ilə əlaqədar Azərbaycan təcrübəsi dünya miqyasında öyrənilir. Birləşmiş Millətlər Təşkilatı Azərbaycanı bu sahə üzrə mükafatlandırıbdır.

Ona görə biz gələcəyə bu prizmadan yanaşmalıyıq. Azərbaycan üçün ən ağır, ən çətin dövr artıq arxada qaldı. Sabitlik dövrü tam bərqərar olundu və biz irəliyə baxmalıyıq. Azərbaycan 20 ildən, 50 ildən sonra necə inkişaf edəcək, hansı resurslar bunu təmin edəcək?! Əlbəttə ki, təbii resurslarımızın mövcudluğu bizə əlavə güc verir. Xüsusilə müstəqilliyimizin ilk illərində və bu gün müstəqil siyasət aparmaq üçün, öz taleyimizin özümüz tərəfindən həll edilməsi üçün çox mühüm rol oynayır. Əlbəttə ki, uzun illər bundan sonra bu amillər nəinki ölkəmizin inkişafına, eyni zamanda regional vəziyyətə mühüm təsirini göstərəcəkdir.

Ancaq biz elə etməliyik ki, Azərbaycan uzun illər, onilliklər bundan sonra, əsrlər boyu müstəqil ölkə kimi yaşasın və nəinki yaşasın, yaxşı yaşasın.

Dünyada müstəqil sayılan ölkələr çoxdur. Ancaq əgər biz bir az dərinə baxsaq görərik ki, onların heç də hər biri müstəqil siyasət aparmaq iqtidarında deyildir. Bunun müxtəlif səbəbləri vardır və bu, təkcə bugünkü siyasi mənzərə deyil, bu, əsrlər boyu belə olubdur. O ölkələr dünyada özünə layiq yeri tutar ki, o ölkələr öz hesabına yaşaya bilsinlər, başqa ölkələrin yardımına onların ehtiyacı olmasın - nə siyasi, nə iqtisadi cəhətdən, nə də ölkələrin ehtiyaclarının ödənilməsi baxımından. Azərbaycan bu ölkələrdəndir. Baxmayaraq ki, biz müstəqilliyi əldə edəndə, bəlkə də Azərbaycan ən ağır vəziyyətdə idi. Çünki ölkə iqtisadiyyatı dağılmışdı, ölkədə siyasi proseslər, faktik olaraq ölkəni uçurum kənarına qoymuşdu. 1990-cı illərin əvvəllərində yaşanan siyasi, iqtisadi, hərbi böhran faktik olaraq müstəqilliyimizi təhlükə altına qoymuşdu. Ancaq buna baxmayaraq, Azərbaycan o dövrdən, xüsusilə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra uğurla çıxa bilmişdir və bu gün uğurla inkişaf edir. Yəni bu tarix hamımızın yadındadır və biz elə etməliyik ki, uzun illər bundan sonra da Azərbaycan öz müstəqil siyasətini apara bilsin. Bunu etmək üçün müxtəlif amillər lazımdır. İlk növbədə, siyasi iradə lazımdır. Digər tərəfdən xalqla iqtidar arasında birlik, sabitlik, əmin-amanlıq, inkişaf, iqtisadi canlanma, siyasi islahatların, demokratiya proseslərinin sürətləndirilməsi lazımdır. Bütün bu amillər Azərbaycanda vardır.

Bu il bütün dünya böhran içindədir və biz dünyada gedən proseslərə bələdik. Azərbaycan iqtisadiyyatı doqquz ayda 6,1 faiz artıbdır. Bütün bu nəticələr onu göstərir ki, biz sözün əsl mənasında, müstəqil dövlətik, müstəqilliyimizi hər şeydən uca tuturuq, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimizdən gələni edirik. Bu müstəqilliyi əbədi, dönməz etmək üçün mən bir daha vurğulamaq istəyirəm, hesab edirəm ki, təhsilin səviyyəsi ən vacib rollardan birini oynayır. Azərbaycanda bu istiqamətdə çox vacib işlər görülüb. Bütövlükdə təhsil sahəsində görülən işlər müsbət qiymətləndirilə bilər. Çatışmayan cəhətlər vardır. Biz də onları bilirik. Onları aradan qaldırmaq üçün biz daha da fəal işləməliyik.

Azərbaycanı irəliyə aparan çox gözəl və milli ruhda böyüyən gənc nəsil yetişir. Müəllimlərin əlbəttə ki, bu işdə rolu, bəlkə də ən önəmli roldur. Çünki müəllimlər həm tələbələrə öz biliyini çatdırırlar. Eyni zamanda, gənc nəslin hansı formada böyüməsinə də müəllimlərin böyük təsiri vardır. Mən bu fürsətdən istifadə edərək Bakı Dövlət Universitetinin bütün professor-müəllim heyətinə uzun illər çox vacib funksiya daşıdıqlarına görə öz minnətdarlığımı bildirmək istəyirəm. Onlara gələcəkdə yeni uğurlar arzulamaq istəyirəm. Tələbələrə isə yaxşı oxumağı, yaxşı biliyə malik olmağı və gələcəkdə Azərbaycanın dövlət müstəqilliyinə öz töhfəsini verməyi arzulayıram. Əziz dostlar, bu gözəl yubiley münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı və yeni-yeni uğurlar arzulayıram.

Sağ olun.

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN REKTORU, AKADEMİK ABEL MƏHƏRRƏMOVUN ÇIXIŞI

***(2 noyabr 2009-cu il)***




-Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyev!

Hörmətli qonaqlar!

Əziz müəllimlər və tələbələr!

Xanımlar və cənablar!

İcazə verin, ilk növbədə sizin hamınızı Azərbaycanın ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetində salamlayım və qonaqlarımıza bu qocaman elm və təhsil məbədinə "Xoş gəlmisiniz!" deyim.

Möhtərəm cənab Prezident, artıq biz Sizin nitqinizi dinlədik. Bu proqram xarakterli tarixi bir çıxış idi. Buna görə universitetimizin kollektivi adından Sizə öz minnətdarlığımızı bildiririk. Siz çıxışınızda universitetin kollektivinin ünvanına çox xoş sözlər dediniz. Biz bunu məmnuniyyətlə qəbul edirik və öz əməli fəaliyyətimizdə həmişə rəhbər tutacağıq.

Hörmətli tədbir iştirakçıları, iki gün bundan öncə, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən Bakı Dövlət Universitetinin bir qrup aliminə - 107 nəfərə Azərbaycanın ən böyük mükafatları, fəxri adları verilmişdir. Bu, universitetə olan böyük diqqətdir, böyük qayğıdır. Nəinki universitetə, mən hesab edirəm ki, Azərbaycan elminə, Azərbaycan təhsilinə böyük diqqət və

qayğıdır. Ona görə, cənab Prezident, icazə verin, bütün təhsil işçiləri adından, o cümlədən Bakı Dövlət Universitetinin kollektivi adından Sizə dərin minnətdarlığımızı bildirək.

Bu gün biz çox şadıq ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev ilə birlikdə Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva da burada iştirak edir. Onun bütün fəaliyyəti həmişə bizi şərəfləndiribdir. O, bizim qürur yerimiz olubdur. Bütün sahələrə kömək və dəstək veribdir. İcazə verin, bu tarixi fəaliyyətinə görə hörmətli Mehriban xanıma da öz təşəkkürümüzü bildirək.

Bakı Dövlət Universitetinin şanlı yubileyində Avropadan, Asiyadan, ümumiyyətlə, dünyanın ən aparıcı universitetlərinin rektorları, nümayəndə heyətləri iştirak edir. İcazə verin, bütün kollektiv adından, bütün tədbir iştirakçıları adından qonaqlarımızı bu qocaman elm və təhsil məbədində bir daha salamlayaq.

Mən çıxışımı ümummilli liderimiz Heydər Əliyevin tarixi sözləri ilə başlamaq istəyirəm: “Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir”. Universitetimiz bu milli sərvət adını qazanmaq yolunda hansı acılı-ağrılı günlərdən keçib, hansı nailiyyətlər əldə edib və bu gün gələcək haqqında nə düşünür - bu istiqamətdə qısa çıxışımı sizin nəzərinizə çatdırmaq istəyirəm.

Bakı Dövlət Universiteti hər zaman xalqın milli şüurunun, milli özünüdərkinin yetkinləşməsi, maarifçilik ideologiyasının bərqərar olması, elm və təhsilin inkişafı, Azərbaycan dili və tarixinin sistemli şəkildə tədqiqi və azərbaycançılıq ideologiyasının formalaşmasında əvəzsiz rol oynamışdır. Hələ 90 il bundan əvvəl, universitetin ilk rektoru Vasili İvanoviç Razumovski demişdir: “Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni bir parlaq səhifə yazıldı. Avropa və Asiyanın qovuşuğunda yeni məşəl yandı. Mən Bakı Dövlət Universitetinin parlaq gələcəyinə inanıram”.

Yarandığı gündən indiyə qədərki bütün fəaliyyəti ilə Bakı Dövlət Universiteti həmin sözləri həqiqətə çevirmişdir. XX əsrin əvvəllərində Azərbaycan demokratik respublika qurmaqla xalqımız Şərq dünyasına respublika məfkurəsini və demokratik idarə üsulunu gətirdi. Mövcud olduğu qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi ən mühüm tədbirlərdən biri də müsəlman Şərqində ilk Avropa tipli ali məktəbin - Bakı Dövlət Universitetinin yaranması oldu. Xalqın maariflənməsini və təhsilin inkişafını düşünən Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin – Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Məmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağayev, Behbud xan Cavanşir və başqalarının başlıca arzularından biri universitet açmaq idi. Qeyd etmək istəyirəm ki, Bakı Dövlət Universitetinin yaradılmasında tarixi xidmətlər göstərmiş bu vətənpərvər ziyalıların əksəriyyəti Avropanın qabaqcıl universitetlərində təhsil almışdılar. Parlamentdə 10 ay sürən gərgin mübahisə və müzakirələrdən sonra onlar həyatlarının bəlkə də ən

böyük arzusuna qovuşdular. Müstəqil dövlətin müstəqil ali təhsil ocağını - Bakı Dövlət Universitetini yarada bildilər.

Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı bir çox təsisatlar, dövlət rəmzləri ləğv edilmiş, ilk müstəqil dövlətimizin özü kimi onlar da yalnız arxiv sənədlərində qalmış, vətənpərvər insanların xatirələrində yaşamışdır.

Xalq Cümhuriyyətinin yaratdığı möhtəşəm elm abidəsi - Bakı Dövlət Universiteti isə təzyiqlərə davam gətirmiş, uzun illər sınaqdan alnıaçıq, şərəflə çıxmış, vətən övladlarına ziya vermək amalını qoruyub saxlamışdır. Azərbaycan mədəniyyəti, elmi, ziyalılığı tarixinə qanlı hərflərlə yazılan 1937-ci il özündə milli təəssübkeşliyi təcəssüm etdirən Bakı Dövlət Universitetinə ağır zərbələr vurdu. 90 illik yubiley ərəfəsində arxiv materiallarını araşdırarkən belə bir acınacaqlı fakt da aşkarlandı ki, təkcə 1937-ci ildə 2 dekan, 2 dekan müavini, 4 kafedra müdiri, kitabxananın direktoru, elmi katib, xüsusi hissənin müdiri, partiya və komsomol təşkilatlarının rəhbərləri, 8 professor, həmçinin universitetin rektoru olmuş dörd görkəmli ziyalı - Tağı Şahbazi, Maqsud Məmmədov, Məmmədkərim Ələkbərli, Balabəy Həsənbəyov ən ağır cəzaya - güllələnməyə məhkum edilmişlər. Bu insanların hər birinin Azərbaycan ziyalılığının formalaşmasında və təşəkkülündə müstəsna xidmətləri olmuşdur.

1930-cu illərin repressiyalarına, İkinci Dünya müharibəsi illərindəki itkilərə baxmayaraq, artıq 1945-1950-ci illərdə Bakı Dövlət Universiteti Azərbaycanda elmi məktəblərin formalaşmasında, fundamental elm sahələrinin əsaslı inkişafında əvəzsiz rolu olan yüzlərlə dəyərli alim yetişdirə bilmişdir. Böyük şərəf hissi duyuruq ki, elmin yüksək zirvələrini fəth etmiş dünya şöhrətli alimlər - Yusif Məmmədəliyev, Abdulla Qarayev, Cəfər Xəndan Hacıyev, Şəfayət Mehdiyev, Zahid Xəlilov, Həsən Əliyev, Murtuza Nağıyev, Mir Cəlal Paşayev, Musa Əliyev, Həmid Araslı, Bəkir Çobanzadə, Nəsir İmanquliyev, Feyzulla Qasımzadə, Heydər Hüseynov, Bəxtiyar Vahabzadə, Mirəli Qaşqay və bir çox başqaları Bakı Dövlət Universitetində çalışmışlar.

Universitet bugünkü fəaliyyətinə görə məhz yuxarıda adlarını çəkdiyim, həmçinin burada vaxt məhdudiyyəti üzündən adlarını çəkə bilmədiyim yüzlərlə elm və təhsil fədaisinin həyatlarının ən mənalı hissəsini bu möhtəşəm elm və təhsil ocağına həsr edən təkrarsız insanlara borcludur.

Universitetin inkişafında yeni keyfiyyət mərhələsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Xalqımızın böyük oğlu, ulu öndər Heydər Əliyev məzunu olduğu elm, təhsil və mədəniyyətimizin möhtəşəm məbədinə - Bakı Dövlət Universitetinə xüsusi həssaslıqla yanaşır, ona hər cür qayğı göstərirdi. Heydər Əliyev cəmiyyətin tərəqqisi, elm, mədəniyyət və mənəviyyatın inkişafında təhsilin qüdrətli vasitə olduğunu bilirdi, ona diqqət və qayğını dövlət səviyyəsində prioritet prinsip kimi ön plana çə-

kirdi. Bu amil Azərbaycanda 1970-ci illərdən başlayaraq Heydər Əliyev epoxasının ölkəmizin mənəvi yüksəliş tarixinin inkaredilməz reallığıdır.

Əlamətdar haldır ki, düz 40 il bundan əvvəl - 1969-cu il noyabr ayının 1-də Heydər Əliyev məhz Bakı Dövlət Universitetinin 50 illik yubileyində yubiley komissiyasının sədri kimi Azərbaycan elminin və təhsilinin inkişaf strategiyasını müəyyənləşdirən möhtəşəm bir nitq söyləmişdir. Onu da xüsusi vurğulamaq istərdim ki, sovet rejiminin bütün qadağalarına baxmayaraq, ulu öndər o dövr üçün inqilaba bərabər bir addım atmış - ana dilində nitq söyləmiş və bu, bütün Azərbaycan cəmiyyəti üçün milli ruha və özünüdərkə qayıdış anı olmuşdur.

Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlardan biri də gənclərimizi keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə təhsil almağa göndərməsi idi. Bu yolla həm Azərbaycanın elmi və kadr potensialı yüksəlir, həm də xalqımızın milli mənəvi, əxlaqi dəyərlərinin təbliği həyata keçirilirdi. 1969-1982-ci illərdə 15 minə yaxın istedadlı gənc Moskva, Leninqrad, Kiyev, keçmiş Sovetlər Birliyinin başqa böyük şəhərlərinin aparıcı universitetlərinə oxumağa göndərilmişdir. İndi həmin gənclər respublikamızda ziyalı təbəqəsinin, elmin, təhsilin və ictimai həyatın digər sahələrinin aparıcı şəxsləri, dövlət idarəçiliyində ali struktur rəhbərləridirlər. Müxtəlif universitetləri bitirdiklərinə baxmayaraq, mən onları Heydər Əliyev universitetinin yetişdirmələri adlandırıram.

Yeri gəlmişkən deyim ki, bu gün həmin siyasəti Prezidentimiz İlham Əliyev qlobal cəmiyyət müstəvisində uğurla davam etdirir. Prezidentin 5 min nəfər istedadlı gəncin dövlət vəsaiti hesabına Avropa və Asiyanın aparıcı ali məktəblərinə təhsil almağa göndərilməsi barədə qəbul etdiyi qərar və bununla bağlı imzaladığı sərəncamlar Azərbaycanın qlobal cəmiyyət məkanına inteqrasiyası prosesində çox uğurlu addımdır.

1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdan Heydər Əliyev Bakı Dövlət Universitetini yaddan çıxarmadı, dövlətin yaradılıb möhkəmlənməsində onun rolunu çox yüksək qiymətləndirdi. Həmin dövrdə Bakı Dövlət Universiteti çox acınacaqlı durumda idi. Tədrisin səviyyəsi aşağı düşmüş, kollektivdə gələcəyə inam hissi qalmamışdı. Təkcə bizim universitet deyil, respublikanın digər təhsil müəssisələri, Milli Elmlər Akademiyası da dağılmaq təhlükəsi ilə üzləşmişdi.

Bir məsələ xüsusi vurğulanmalıdır ki, həmin dövrdə respublikanın üzdə olan bir çox alimləri xarici ölkələrdə çalışmaq məcburiyyətində qalmışdılar. Məhz Heydər Əliyevin qayıdışı və "Təhsil xalqın gələcəyidir" tarixi çağırışı bütün elmi və pedaqoji ictimaiyyətdə, o cümlədən Bakı Dövlət Univesitetinin kollektivində gələcəyə inam hissi oyatdı və bundan sonra alimlərimizin də Vətənə qayıdışı prosesi başlandı.

Bu gün də biz həmin siyasətin davamının şahidiyik. Cəmiyyətin inkişaf konsepsiyasını dəqiq müəyyənləşdirən Prezidentimiz İlham Əliyev bu gün həmin çağırışı qlobal müstəviyə keçirərək, ölkənin iqtisadi potensialını intellekt kapitalına çevirmək istiqamətində Azərbaycan üçün taleyüklü addım atır. Çünki müasir dünyada dövlətlərin mövqeyini əhalisinin sayı, ərazisi, hərbi qüdrəti yox, yalnız intellektual inkişafı, yəni elm və təhsilin səviyyəsi müəyyənləşdirir. Biz ziyalılar hesab edirik ki, çox da uzaq olmayan gələcəkdə əsgərlərin süngülərini qələm əvəz edəcək və qələmdən məharətlə istifadə edən insanlar ölkənin, cəmiyyətin inkişafında daha da həlledici rol oynayacaqlar.



Bu istiqamətdə inkişafa böyük diqqət və qayğı göstərən möhtərəm Prezidentimizin apardığı məqsədyönlü və ardıcıl siyasət elm və təhsil sahəsində 26 dövlət proqramının qəbulu, nou-hau tipli innovasiya texnologiyalarının respublikaya transferi və başqa taleyüklü qərarlarla səciyyələnir. Bu siyasətin ən bariz nümunələrindən birini Bakı Dövlət Universitetinin timsalında əyani şəkildə görmək olar. İnkişafının yeni mərhələsini yaşayan universitetimizdə məhz Prezidentin qayğısı və birbaşa dəstəyi ilə yalnız son bir ildə 4 min tələbənin təhsil aldığı ən müasir texniki avadanlıq və ləvazimatla təchiz edilmiş yeni tədris binası, yeni idman kompleksi, 500 əməkdaş üçün 2 müasir yaşayış kompleksi tikilib istifadəyə verilmişdir.

Hörmətli yubiley iştirakçıları, möhtərəm Prezidentimiz İlham Əliyevin tarixi xidmətlərini yalnız universitetlə məhdudlaşdırmaq olmaz. Onun ümumilikdə Azərbaycan elmi və təhsili qarşısında müstəsna xidmətləri vardır. Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsində, beynəlxalq nüfuzunun

yüksəldilməsində, ölkə iqtisadiyyatının sürətli inkişafında, siyasi sabitliyin qorunub saxlanmasındakı misilsiz xidmətlərini nəzərə alan universitetin Elmi Şurası son iclasında Prezident İlham Əliyevə Bakı Dövlət Universitetinin fəxri doktoru adı verilməsi barədə qərar qəbul etmişdir.

Hörmətli toplantı iştirakçıları, icazə verin, sonda bu şanlı yubiley münasibətilə bir daha hər birinizi təbrik edim və dediyim tarixi missiyanı həyata keçirmək üçün möhtərəm Prezidentimizi səhnəyə dəvət edim.

*BDU-nun rektoru Abel Məhərrəmov dövlətimizin başçısına fəxri doktorluq mantiyasını və diplomunu təqdim etdi.*

**Prezident İlham ƏLİYEV təşəkkür edərək dedi:**

Sağ olun. Bakı Dövlət Universitetinin fəxri doktoru adının verilməsi mənim üçün böyük şərəfdir. Mən müxtəlif universitetlərin fəxri doktoruyam. Ancaq, əlbəttə ki, mənim üçün ən doğma olan Bakı Dövlət Universitetinin fəxri doktoru adını almaq xüsusi məmnunluq hissləri oyadır. Mənim fəaliyyətimə verilən bu yüksək qiymətə görə sizə bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, Bakı Dövlət Universitetinin hərtərəfli inkişafı üçün bundan sonra də əlimdən gələni əsirgəməyəcəyəm.



# AKADEMİK ABEL MƏHƏRRƏMOV – 60

Bu gün fəxrlə deyə bilərik ki, son zamanlar Bakı Dövlət Universitetində böyük quruculuq işlərinin aparılması ali məktəb sistemini dərindən bilən Azərbaycan MEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, millət vəkili, professor Abel Məmmədəli oğlu Məhərrəmovun adı ilə bağlıdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sərəncamı ilə Bakı Dövlət Universitetinə rektor təyin edilmiş Abel Məhərrəmov ilk gündən bütün bilik və bacarığını, potensial imkanlarını doğma universitetin tərəqqisinə, təhsil sisteminin yüksəldilməsinə və təkmilləşdirilməsinə istiqamətləndirmiş, bu ali təhsil ocağını beynəlxalq standartlara cavab verən dünya universitetləri sırasına çıxara bilmişdir.

Akademik Abel Məhərrəmovun düzgün və məqsədyönlü rəhbərliyi sayəsində qısa zaman ərzində BDU-nun maddi-texniki bazası xeyli möhkəmlənmiş, yaraşıqlı universitet şəhərciyi yaradılmış, yeni tədris korpusları və idman kompleksi tikilib istifadəyə verilmiş, güclü elmi-pedaqoji potensiala malik olan kollektiv formalaşmışdır. Universitetin tədris prosesinin daha da təkmilləşdirilməsi, tədrisin keyfiyyətini yaxşılaşdırmaq üçün əsaslı islahatların aparılması, tədris prosesinə müasir kompüter texnologiyasının tətbiq edilməsi, yeni fakültələrin, ixtisasların, kafedraların açılması, nizam-intizamın möhkəmləndirilməsi, dünyanın qabaqcıl ölkələrinin iş təcrübəsindən istifadə olunması, yeni dərsliklərin və dərs vəsaitlərinin yazılıb çap etdirilməsi bunun əyani sübutudur. Bununla da rektor qısa zaman ərzində müstəqilliyin qarşıya qoyduğu vəzifələrə, dövlətin ardıcıl həyata keçirdiyi təhsil islahatının tələblərinə

uyğun olaraq universitet təhsilinin və elminin inkişafında mühüm nailiyyətlər əldə etməyə nail olmuşdur.

Akademik A.Məhərrəmovun rektorluq fəaliyyəti nəticəsində Bakı Dövlət Universiteti son illərdə böyük inkişaf yolu keçmiş, respublikamızdan çox-çox uzaqlarda, o cümlədən dünyanın inkişaf etmiş ölkələrində geniş şöhrət qazanmış, məşhur ali təhsil müəssisələri arasında özünəməxsus yer tutmuşdur.

Hazırda Azərbaycanın ilk və öncül elm və təhsil müəssisəsi olan BDU-nun qarşısında duran ən başlıca məqsəd gələcəyin vətənpərvər, ziyalı vətəndaşını, yüksək səviyyəli mütəxəssisini hazırlamaqdan ibarətdir. Müasir dövrdə bu vəzifəni düzgün dəyərləndirən professor-müəllim heyəti bu ülvi məqsədlərə yetişmək üçün akademik Abel Məhərrəmovun rəhbərliyi ilə bütün imkanlarını səfərbər etmiş, eyni zamanda strateji istiqamətləri dəqiq müəyyənləşdirmişdir.

Elə bunların məntiqi nəticəsi kimi akademik Abel Məhərrəmov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30 oktyabr 2009-cu il tarixli sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Biz də Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim heyəti və tələbə kollektivi adından möhtərəm rektorumuz, akademik Abel Məhərrəmovu həm bu yüksək dövlət mükafatına layiq görülməsi, həm də 60 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı və doğma Bakı Dövlət Universitetinin daha da çiçəklənməsi və inkişafı naminə yeni-yeni ugurlar arzulayırıq!

İnanırıq ki, 90 illik yubileyi dövlət səviyyəsində qeyd olunan Bakı Dövlət Universiteti ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı, akademik Abel Məhərrəmovun səmərəli fəaliyyəti və işgüzarlığı sayəsində daha da inkişaf edəcək, ali məktəblər arasında özünün lider mövqeyini daim qoruyub saxlayacaqdır.

**Xəlil İSMAYILOV**
**Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı,**
**tarix elmləri doktoru, professor**

**Abuzər XƏLƏFOV**
**Əməkdar elm xadimi,**
**tarix elmləri doktoru, professor**

**Knyaz ASLAN**
**pedaqoji elmlər namizədi, dosent**

# MİLLİ MƏDƏNİYYƏTİMİZİN TƏƏSSÜBKEŞİ "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ"DİR

***Tanınmış kitabxanaşünas alim, tarix elmləri doktoru, professor Xəlil İsmayılov fəxri ada layiq görülmüşdür***



Azərbaycan elmi ictimaiyyəti, mədəniyyət xadimləri və kitabxana işçiləri arasında tarix elmləri doktoru, professor Xəlil İsmayılov işgüzar alim, təşəbbüskar təşkilatçı, vətənpərvər ziyalı, zəhmətkeş tədqiqatçı, qayğıkeş insan kimi tanınır. O, bu ad-sana, şan-şöhrətə asanlıqla çatmayıb. Həyatın çətinliklərinə sinə gərib, mübarizə dolu sınaqlardan çıxıb, həmişə işığa-nura doğru irəliləyib...

Ana yurdu Gədəbəy bölgəsinin Düz Rəsullu kəndindən başlanan yol Bakıya doğru pərvazlanıb. Əmək fəaliyyəti burada başlayıb, ali məktəbin qapıları burada üzünə açılıb... O, 1967-1972-ci illərdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində ali təhsil alıb, kitabxanaçı-biblioqraf ixtisasına yiyələnib. 1974-cü ildə BDU-nun Kitabxanaşünaslıq kafedrasının laborantı kimi işə

başlayıb, qısa müddətdə özünü bacarıqlı kadr kimi təsdiqləyib, baş laborant, müəllim və baş müəllim vəzifələrində pillə-pillə irəliləyib.

1976-1979-cu illərdə BDU-nun Kitabxanaşünaslıq kafedrasının əyani aspiranturasında təhsil alan X.İsmayılov 1984-cü ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində ixtisaslaşdırılmış müdafiə şurasında "Sovet hakimiyyəti illərində Azərbaycanda partiya kitabxanaları: tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, pedaqoji elmlər namizədi alimlik dərəcəsinə layiq görülüb.

Qeyd edək ki, sovet dövründə digər müttəfiq respublikalarda olduğu kimi Azərbaycanda da geniş partiya kitabxanaları şəbəkəsi fəaliyyət göstərirdi. Həmin kitabxanalar o zaman Sovet İttifaqında hakimiyyətdə olan yeganə hegemon partiyanın siyasi ideologiyasını təbliğ etməklə yanaşı, həm də çoxsaylı mütəxəssis rəhbər işçilər arasında hərtərəfli kitabxana-informasiya işi də aparırdılar. Sovet hakimiyyəti illərində partiya kitabxanaları bütövlükdə ölkə miqyasında fəaliyyət göstərən çoxmilyonlu ziyalılar arasında kitabxana-informasiya işinin təşkilatçısı kimi müəyyən mədəni işlər görürdülər.

Elə buna görə X.İsmayılov uzun illər bu sahədə araşdırma apararaq böyük bir dövrün arxiv materiallarını diqqətlə öyrənmiş, partiya kitabxanalarının keçdiyi tarixi yolu hərtərəfli təhlil etmiş, onların iş təcrübələrini ümumiləşdirmiş və topladığı zəngin materiallar əsasında qiymətli elmi əsər yazmağa nail olmuşdu.

Bu dissertasiya işinə ixtisaslaşdırılmış müdafiə şurası yüksək qiymət vermiş, onu SSRİ-də partiya kitabxanaları haqqında yazılmış ilk elmi əsər kimi çapa layiq görmüşdü.

Elmi-pedaqoji sahədə mühüm nailiyyətlər qazanan X.İsmayılov 1986-cı ildə BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti vəzifəsinə seçilib. Kollektivin etimadını qazanan gənc alim 1990-1993-cü illərdə həmin kafedranın müdiri vəzifəsini layiqincə yerinə yetirməyə nail olub.

Prof. X.İsmayılov 1993-cü ildən bu günə kimi BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı vəzifəsində çalışır. O, fakültəni Azərbaycan Respublikasında müstəqillik dövrünün tələblərinə uyğun şəkildə daha da inkişaf etdirmiş, özünü universitetin tədris prosesini dərindən bilən ali təhsil mütəxəssisi və səriştəli təşkilatçı kimi tanıda bilmişdir. Qətiyyətlə demək olar ki, mövcud olduğu 60 ildən artıq müddət ərzində özünəməxsus zəngin ənənələr formalaşdırmış Kitabxanaçılıq-informasiya fakültəsi Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmi və təhsili sahələrində əsas elmi-tədqiqat mərkəzi kimi formalaşmışdır.

Müstəqil respublikamızın çoxsaylı kitabxanaları üçün yüksək ixtisaslı kadr hazırlayan yeganə fakültə kimi Kitabxanaçılıq-informasiya fakültəsinin xidmətləri əvəzsizdir. Qeyd edək ki, müasir dövrdə kitabxanaçı kadrlar dünya təhsil sisteminin təcrübəsinə əsaslanmaqla, kitabxana və informasiya işinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla hazırlanır. Respublikamızda çoxpilləli ali təhsilə keçilməsi ilə əlaqədar olaraq 1993-1994-cü tədris ilindən bakalavr, 1996-1997-ci tədris ilindən isə magistr hazırlığı yüksək səviyyədə həyata keçirilməkdədir. Hər iki ali təhsil mərhələsinin tədris planları tərtib olunmuş, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir. Bakalavr hazırlığı tədris planında əsaslı elmlərin, ümumi ixtisas fənlərinin öyrənilməsinə, magistr hazırlığı planında isə ixtisaslaşmalara daha geniş yer ayrılmışdır. Fakültənin yüksək ixtisaslı kadr hazırlığı sahəsindəki müstəsna xidmətləri, böyük elmi potensiala malik olması, universitet fakültələri içərisində tədris-tərbiyə və elmi işlər sahəsində qabaqcıl yerlərdən birini tutması da burada bütün işlərin öz qaydasında olmasının, kollektivin düzgün idarə olunmasının nəticəsidir.

Prof. X.İsmayılov eyni zamanda 2007-ci ildən Kitabxanaçılıq-informasiya fakültəsinin aparıcı kafedralarından biri olan Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasına rəhbərlik edir. Qeyd edək ki, əvvəllər "Kitabxana fondu və kataloqların təşkili" kimi formalaşmış bu kafedranın müasir dövrün tələblərinə uyğun olaraq "Kitabxana resursları və informasiya axtarış sistemləri" adlandırılması təkcə kafedranın adında deyil, burada həyata keçirilən işlərin məzmununda da aşkar şəkildə özünü göstərməkdədir. Məsələn, informasiyalaşdırılmış cəmiyyətdə baş verən dəyişiklikləri özündə əks etdirən "Kitabxana-informasiya resurslarının idarə olunması", "Universal Onluq Təsnifat: Quruluşu və tətbiqi prinsipləri", "Kitabxana sənədlərinin mühafizəsi və bərpası", "Sənədlərin biblioqrafik təsviri, təsnifləşdirilməsi və nəşr standartları" kimi yeniləşdirilmiş fənlərin tədris planına salınması buna misal ola bilər. Hazırda kafedrada respublika kitabxanalarında avtomatlaşdırılmış kataloqlaşdırmanın inkişafına, elektron kataloqun yaradılması sahəsində elmi-tədqiqat işlərinin aparılmasına diqqət yetirilir.

Kafedranın nəzdində ayrıca "Kitabxana resursları və informasiya axtarış sistemləri" tədris laboratoriyası fəaliyyət göstərir. Bu da sevindirici haldır ki, 2007-ci ildən kafedra üçün magistraturaya ayrıca yer ayrılmışdır.

Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının elmi-tədqiqat istiqaməti kitabxanaların informasiya resurslarının tədqiqi və ondan istifadənin səmərəli yollarının müəyyən edilməsidir. Bu istiqamətdə kafedra müdiri prof. X.İsmayılovun fəaliyyəti xüsusi vurğulanmalıdır.

Prof. X.İsmayılov kitabxanaşünaslıq elminin aktual problemlərinə və ölkədə kitabxana işinin daha da yaxşılaşdırılmasına dair 100-dən çox elmi əsərin, o cümlədən monoqrafiya, dərs vəsaiti və elmi məqalələrin müəllifidir.

Alimin 1995-ci ildə nəşr etdirdiyi “Kitabxana işinin idarə edilməsinin metodiki və təşkilati məsələləri” adlı dərs vəsaiti bu gün də müəllimlərin, tələbələrin, gənc tədqiqatçıların müraciət etdiyi kitablardandır.

2000-ci ildə Bakı Universiteti Nəşriyyatında işıq üzü görmüş “Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi (1918-2000-ci illər; tarixi, müasir vəziyyəti və perspektivləri)” adlı monoqrafiya prof. X.İsmayılovun ən sanballı elmi tədqiqatlarından biridir. Bu monoqrafiya əvvəllər elmi-tədqiqat obyekti olmamış problemlərdən birinə – Azərbaycanda kitabxanaların metodik təminat sisteminin yaradılması və təkmilləşdirilməsi məsələlərinin elmi cəhətdən ümumiləşdirilməsi və təhlili məsələlərinə həsr olunmuşdur. Kitabda ilk dəfə olaraq respublikamızda metodik təminatın nəzəri və təcrübi inkişaf yolları tədqiqata cəlb edilmiş, kitabxanaçılıq işi üzrə ilk metodik mərkəzlərin meydana gəlməsi, ayrı-ayrı tarixi mərhələlərdə dövlət kütləvi kitabxana sistemi ilə yanaşı, Elmlər Akademiyası, Həmkarlar İttifaqı, tibb, texnika, kənd təsərrüfatı, təhsil və uşaq kitabxana şəbəkələrinin metodik təminatı zəngin arxiv materialları əsasında araşdırılmışdır.

Qeyd edək ki, bu sanballı monoqrafiya müəllifin doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının əmri ilə Bakı Dövlət Universitetində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının 15 may 2004-cü ildə keçirilən iclasında Xəlil İsmayılov “Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi (1918-2000-ci illər; tarixi, müasir vəziyyəti və perspektivləri)” mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

X.İsmayılovun doktorluq dissertasiyasında geniş faktik, statistik və arxiv materiallarının ilk dəfə elmi dövriyyəyə gətirilməsi əsasında Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin bütün inkişaf mərhələlərinin, vəziyyətinin və müasir problemlərinin öyrənilib ümumiləşdirilməsi diqqəti cəlb edir. Burada kitabxanaların metodik təminatı ilə əlaqədar 80 illik tarixi dövr ərzində meydana çıxmış nəzəri, metodik, təşkilati məsələlərin mahiyyətinin xronoloji ardıcıllıqla, ölkədə kitabxana işinin inkişaf prosesləri ilə vəhdətdə təhlili də maraq doğurur.

Müəllif bu elmi-tədqiqat işində ölkədə kitabxana işinin metodik təminat sisteminin yeniləşməsi konsepsiyasını, onun strateji istiqamətlərini: metodik təminat sisteminin məqsədli proqramlaşdırılması; elmi əsaslarının gücləndiril-

məsi; informasiya funksiyalarının genişlənməsi; kitabxana işçilərinin fasiləsiz təhsil sistemində iştirakı; metodik təminat sisteminin strukturunun təkmilləşdirilməsi; metodistlərin statusu və peşə səviyyəsinin yüksəldilməsi kimi müəyyənləşdirmişdir. Elə buna görə də həm Azərbaycan, həm də Rusiya alimləri bu doktorluq dissertasiyasını yüksək qiymətləndirmiş, onu kitabxanaşünaslıq elmində yeni istiqamət adlandırmışlar.

Tədqiqatçının iki dəfə – 2005 və 2008-ci illərdə nəşr edilərək mütəxəssislərə və tələbələrə təqdim olunmuş "Kitabxana menecmentinin əsasları" adlı dərs vəsaiti də maraqla qarşılanmışdır. Kitabda idarəetmənin daha geniş təzahürü kimi meydana çıxan kitabxana menecmentinin mahiyyəti, hüquqi əsasları, məqsədləri, vəzifələri, prinsipləri və funksiyaları elmi şəkildə ümumiləşdirilmiş və təhlil edilmişdir.

Prof. X.İsmayılovun 2009-cu ildə çapdan çıxmış "Kitabxana-informasiya texnologiyaları" adlı dərs vəsaiti bu sahədə olan çatışmazlığın aradan qaldırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Dərs vəsaitində kitabxana-informasiya texnologiyasının nəzəri əsasları, tarixi, strukturu, fəaliyyət prinsipləri ətraflı şərh edilmiş, informasiya proseslərinin nomenklaturası, toplanması, işlənməsi, informasiya resurslarının təsnifatı, onun kadr resursları, reqlamentləri, eləcə də texnoloji layihələşdirilmənin mərhələləri haqqında geniş təsəvvür yaradılmışdır.

Azərbaycan dilində ilk dəfə nəşr olunan 312 səhifəlik bu dərs vəsaiti Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri, müəllimləri və bu sahənin mütəxəssisləri üçün nəzərdə tutulmuşdur.

Prof. X.İsmayılov eyni zamanda öz təşəbbüsü ilə Azərbaycanda 1997-ci ildən nəşr olunan yeganə ixtisas məcmuəsinin – "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktoru kimi də mühüm bir fəaliyyət sahəsi ilə məşğuldur. Onun ümumi rəhbərliyi ilə bu jurnalın hər il 9 çap vərəqi həcmində 2 nömrəsi nəşr olunur ki, burada kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq, nəşriyyat işi və informatika elmlərinin aktual problemləri ilə bağlı tanınmış alimlərin və digər mütəxəssislərin elmi məqalələri işıq üzü görür. Təsadüfi deyil ki, bu jurnal müvafiq elm sahələri ilə məşğul olan ziyalılar, müəllimlər, həmçinin gənc tədqiqatçılar, aspirantlar, magistrlər və tələbələr üçün ilkin mənbə rolunu oynayır və elmi dairələrdə onun nüfuzu gündən-günə artır.

Bir təqdirəlayiq məsələni də qeyd edək ki, elə bu günlərdə "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübi jurnalının biblioqrafik göstəricisi nəşr edilmişdir. 1997-2008-ci illəri əhatə edən göstəricinin müəllifləri prof. X.İsmayılov və dos. N.İsmayılovdur. Göstəricidə jurnalın çapdan çıxmış bütün

nömrələri təhlil edilmiş, oradakı məqalələrin biblioqrafik təsviri verilmişdir. Ümumilikdə 392 biblioqrafik təsviri özündə əks etdirən göstəricinin əsas hissəsi 9 bölmədən ibarətdir. Göstəricinin sonunda vəsaitdən istifadəni asanlaşdırmaq məqsədi ilə yardımçı aparat verilmişdir.

Əminik ki, jurnalda dərc edilmiş yüksək elmi və təcrübi əhəmiyyətə malik olan elmi məqalələrə tələbatın artması ilə bağlı olaraq onlar haqqında dolğun biblioqrafik informasiya verən bu analitik biblioqrafik göstərici tələbələrin, gənc araşdırıcıların və mütəxəssislərin stolüstü vəsaitinə çevriləcəkdir.

Prof. X.İsmayılov eləcə də 1999-cu ildə fakültənin bir sıra əməkdaşları və respublikanın kitabxana ictimaiyyətinin nümayəndələri ilə birgə təsis edilmiş Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyasının (AKİİA) prezidenti kimi çoxsahəli iş aparır. O, bu qurumun xətti ilə ABŞ, Fransa, Belçika, Norveç kimi dünyanın bir sıra inkişaf etmiş ölkələrində, eləcə də Rusiya və Gürcüstanda beynəlxalq elmi konfranslarda Azərbaycan kitabxana ictimaiyyətini layiqincə təmsil etmiş, elm, təhsil, maarif və kitabxana-informasiya problemləri üzrə maraqlı məruzələrlə çıxış etmiş, həmin mövzular ətrafında aparılan müzakirələrdə fəallıq göstərmişdir.

Prof. X.İsmayılovun rəhbərlik etdiyi AKİİA yaradıldığı vaxtdan dərhal sonra dünyanın bir çox ölkələrində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla sıx işgüzar əlaqələr qurmağa başlamışdır. Bunların arasında ilk növbədə ABŞ-ın Azərbaycandakı səfirliyi, Açıq Cəmiyyət İnstitutunun Bakı ofisi, Amerika Kitabxana Assosiasiyası mühüm yer tutur. Kitabxanaçılıq-informasiya fakültəsinin bir çox beynəlxalq proqramlarda və layihələrdə yaxından iştirakı AKİİA-nın təşkilati dəstəyi ilə mümkün olmuşdur. Bu layihə və tədbirlər təkcə universitetdə deyil, bütün respublikada kitabxana işinə fayda gətirmişdir. Belə tədbirlər içərisində 1999-cu ildə ABŞ-ın Azərbaycandakı səfirliyinin təşkilati və maliyyə yardımı ilə keçirilmiş seminarı qeyd etmək olar. Respublikamızda kitabxana fəaliyyəti ilə bağlı ilk beynəlxalq tədbir olan bu seminara ABŞ-dan, Litvadan və Rusiya Federasiyasından gəlmiş kitabxanaçı mütəxəssislər qatılmışdı. Burada müasir kitabxana-biblioqrafiya fəaliyyətində geniş istifadə olunan maşınla oxunan kataloqlaşdırma (MARC) texnologiyaları müzakirə edilmişdir. Xaricdən gələn qonaqlar fakültədə olan tədris prosesi ilə tanış olmuşlar.

Bundan başqa, həmin il AKİİA-nın və Kitabxanaçılıq-informasiya fakültəsinin alimlərinin təklifi, eləcə də ABŞ səfirliyinin dəstəyi ilə Bakıda Kitabxanaçılar üçün İnformasiya-Resurs və Təlim Mərkəzi təsis edilmişdir. Burada kitabxana işçiləri ilə yanaşı, fakültənin əməkdaşları da yeni kitabxana-informasiya texnologiyalarına dair məşğələlərdə iştirak etmişlər. Bu mərkəzin rəhbərləri amerikalı kitabxana mütəxəssisi Pol Miller və digər mütəxəssislər Kitabxa-

naçılıq-informasiya fakültəsinin beynəlxalq nüfuz və əlaqələrinin genişlənməsinə öz yardımlarını göstərmişlər.

Kitabxanaçılıq-informasiya fakültəsinin beynəlxalq əlaqələrinin inkişafında Avrasiya fondunun dəstəyi ilə həyata keçirilmişdir. “Qafqaz” Treninq layihəsi Cənubi Qafqaz respublikalarında kitabxana təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə yönəlmiş bu layihədə mütəxəssislər üçün yeni tipli interaktiv məşğələlər keçirilmişdir. Bu işdə fakültənin əməkdaşlarına amerikalı və gürcü mütəxəssislər yardım göstərmişlər. Layihə çərçivəsində AKİİA-nın prezidenti prof. X.İsmayılov bir neçə dəfə Tiflis şəhərində olmuş, gürcü həmkarları ilə faydalı görüşlər keçirmişdir.

Kitabxanaçılıq-informasiya fakültəsinin beynəlxalq əlaqələrinin genişləndirilməsində Avropa Şurasının TASIS proqramı çərçivəsində həyata keçirilən “Universitetlərin modernləşməsi” proqramının da böyük əhəmiyyəti olmuşdur. Bu uzunmüddətli proqram Avropanın inkişaf etmiş ölkələrinin, ilk növbədə Fransa və Belçikanın ali təhsil sahəsində təcrübəsinin öyrənilməsində və MDB ölkələrində, o cümlədən Azərbaycanda tətbiq edilməsini nəzərdə tuturdu. Bu layihə çərçivəsində prof. X.İsmayılov 2001-ci ilin iyulunda Belçikanın Namur şəhərində, 2003-cü ilin mayında isə Fransanın müxtəlif şəhərlərində yerləşən ali məktəblərdə təhsil işinin təşkili ilə yaxından tanış olmuşdur. Qeyd edək ki, bu proqram çərçivəsində fakültənin müəllimi Əliyusif Məmmədov da 2002-ci ilin noyabrında Lion şəhərində yerləşən Milli Ali Kitabxanaçılıq İnformasiya Mərkəzində keçirilən təlimlərdə iştirak etmişdir.

Kitabxanaçılıq-informasiya fakültəsinin yaxından iştirak etdiyi digər bir beynəlxalq layihə ABŞ Dövlət Departamentinin yardımı ilə həyata keçirilmiş BDU və İndiana Universitetləri (ABŞ) arasında əlaqə proqramı olmuşdur. Hər iki universitetin pedaqoji kollektivi arasında əlaqələrin yaradılması, təcrübənin qarşılıqlı öyrənilməsinə yönəlmiş bu layihədə əsasən BDU-nun Tarix, Hüquq, Jurnalistika və Kitabxanaçılıq-informasiya fakültələrinin əməkdaşları yaxından iştirak etmişlər.

Qeyd edək ki, AKİİA kitabxana-informasiya fəaliyyəti sahəsində dünyanın ən böyük beynəlxalq təşkilatına - İFLA-ya Azərbaycandan üzv kimi qəbul edilmiş ilk təşkilat olmuşdur. AKİİA-nın prezidenti prof. X.İsmayılov üç dəfə (2001-ci il, Boston (ABŞ); 2005-ci il, Oslo (Norveç); 2006-cı il, Seul (Cənubi Koreya)) İFLA-nın illik konfranslarında Azərbaycan nümayəndə heyətinə başçılıq etmişdir.

2004-cü il noyabrın 4-dən 11-dək Açıq Cəmiyyət İnstitutunun yardımı ilə prof. X.İsmayılovun başçılığı ilə Azərbaycanı təmsil edən nümayəndə heyəti Litvaya səfər etmişdir. Azərbaycanlı mütəxəssislər həmin ölkədə kitabxana-

çılıq işi, kitabxanaçılıq-informasiya təhsili, peşə təşkilatlarının fəaliyyəti, eləcə də Vilnüs Universitetinin işi, bu ali məktəbin elmi kitabxanasının fəaliyyəti və kitabxanaçılıq fakültəsinin işi ilə yaxından tanış olmuşlar.

Prof. X.İsmayılov Azərbaycanda ali kitabxanaçılıq-biblioqrafiya təhsilinin inkşafına, yüksək ixtisaslı mütəxəssis kadrlar hazırlanmasına da xüsusi diqqət yetirir. Elə bunun məntiqi nəticəsidir ki, kafedranın gənc müəllimi Sevda Xələfova prof. X.İsmayılovun elmi rəhbərliyi ilə 2008-ci ildə "XX əsrin 70-80-ci illərində Azərbaycanda dövlət kütləvi kitabxana şəbəkəsinin inkişafı (Azərbaycan Respublikası kütləvi kitabxanalar şəbəkəsinin materialları əsasında)" mövzusunda dissertasiya işini uğurla müdafiə etmiş və tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Bununla yanaşı, alim kitabxanaşünaslıq elmi sahəsində gənc kadrların hazırlanmasında opponent kimi də xüsusi fəallıq göstərir. Hazırda o, dissertasiya işləri üzərində işləyən 2 aspirantın və 1 dissertantın elmi rəhbəridir.

Prof. X.İsmayılov ötən illər ərzində ziyalı bir insan, səriştəli bir müəllim və yorulmaz bir tədqiqatçı alim kimi formalaşmış, elmi-pedaqoji ictimaiyyətin dərin hörmətini qazanmışdır. O, fəal ictimaiyyətçi kimi də ölkəmizin mədəni həyatında yaxından iştirak edir. Alim vaxtaşırı kütləvi informasiya vasitələrində çıxış edərək, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən respublika prezidenti İlham Əliyevin xarici və daxili siyasətini dəstəkləyir, milli dövlətçiliyimizin möhkəmləndirilməsi naminə öz vətəndaşlıq mövqeyini prinsipiallıqla nümayiş etdirir.

Bütün bunlarla yanaşı prof. X.İsmayılov Azərbaycan təhsilinin Avropa təhsilinə inteqrasiyası, Boloniya prosesinin genişlənməsi istiqamətində öncül rol oynayan Bakı Dövlət Universitetində həyata keçirilən təhsil islahatlarının reallaşmasına təcrübəli mütəxəssis kimi öz töhfələrini verməyə çalışır.

Xəlil İsmayılov rəngarəng Azərbaycan şifahi xalq ədəbiyyatına, misilsiz aşıq sənətinə canı-qanı ilə bağlı olan ziyalılarımızdandır. Sözübütöv, ürəyiaçıq, qəlbigeniş insan kimi tanınan Xəlil müəllim eyni zamanda sədaqətli ailə başçısı, qayğıkeş ata, sevimli babadır.

Uzun illərdən bəri elmin və tədrisin inkişafına yüksək səviyyədə rəhbərlik edən prof. X.İsmayılov prinsipial, obyektiv və humanist insan kimi öz müsbət təşkilatçılıq və idarəçilik keyfiyyətləri ilə həm fakültənin professor-müəllim heyətinin, həm də tələbələrin rəğbətini qazanmışdır. Elə buna görə də onun fəallığı, işgüzarlığı və təşkilatçılıq bacarığı Bakı Dövlət Universitetinin rektorluğu tərəfindən dəfələrlə yüksək qiymətləndirilmişdir.

2009-cu ilin noyabrında – Bakı Dövlət Universitetinin təntənəli 90 illik yubileyi günlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sə-

rəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi isə prof. Xəlil İsmayılovun uzun illər ərzində Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində həyata keçirdiyi səmərəli fəaliyyətinin uğurlu bəhrəsidir. Onu da xatırladaq ki, o, prof. A.Xələfov və prof. Z.Əliyevdən sonra fakültədə bu fəxri adı daşıyan sayca üçüncü alimdir.

Şöhrətinin üstünə şöhrət gələn alim dostumuz və həmkarımız bu gün ömrünün müdriklik və kamillik çağlarını yaşayır. Həyatının şan-şöhrətli dövrünə alnıaçıq, üzüağ qədəm qoyan möhtərəm həmkarımız professor Xəlil İsmayılovu dəyərli fəxri ad alması münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, tükənməz yaradıcılıq enerjisi, elmi-pedaqoji fəaliyyətində və şəxsi həyatında böyük uğurlar arzulayırıq!..

**REDAKSİYADAN:**

***Kitabxanaçılıq-informasiya fakültəsinin kollektivi və "Kitabxanaşünaslıq və biblioqrafiya" jurnalının redaksiya heyəti tarix elmləri doktoru, professor Xəlil İsmayılovu Bakı Dövlət Universitetinin təntənəli 90 illik yubileyi ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi münasibətilə səmimi qəlbdən təbrik edir, ona təşkilatçılıq fəaliyyətində, elmi-pedaqoji işlərində yeni-yeni nailiyyətlər, həyatda xoş günlər arzulayır!..***

**Abuzər XƏLƏFOV**
***Azərbaycan Respublikasının Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor***

# PROFESSOR V.İ.RAZUMOVSKİDƏN AKADEMİK A.M.MƏHƏRRƏMOVA QƏDƏR KEÇİLMİŞ İNKİŞAF VƏ TƏRƏQQİ YOLU

*Bakı Dövlət Universiteti Azərbaycan xalqının,*
*Azərbaycan Respublikasının milli sərvətidir.*
**Heydər ƏLİYEV**
***Ümummilli lider***

2009-cu il sentyabr ayının 1-də respublikamızın ilk elm və təhsil məbədgahı olan Bakı Dövlət Universitetinin 90 illiyi tamam oldu. Bu şərəfli tarixi günü dövlətimiz, xalqımız, bütün Azərbaycan ziyalıları, elm və təhsil xadimləri böyük fərəh və iftixar hissi ilə qeyd etdi.

Bakı Dövlət Universitetinin cəmiyyətdə tutduğu böyük mövqeyə, elm, təhsil və mədəniyyətin tərəqqisində oynadığı böyük rola yüksək qiymət verən dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev universitetin şanlı 90 illik yubileyini keçirmək üçün 2009-cu il 24 aprel tarixli sərəncam imzalamışdır. Sərəncamda deyilir: “Bakı Dövlət Universitetinin müsəlman Şərqində ilk Avropa tipli ali məktəb kimi yarandığı vaxtdan bəri ötən müddət ərzində ölkəmizdə ali təhsilin və elmin tərəqqisi naminə əvəzsiz xidmətlər göstərmişdir. Yüksək ixtisaslı milli kadrların hazırlanması, yeni-yeni elmi istiqamətlərin formalaşdırılması, dünya təhsil sisteminə inteqrasiya, eləcə də mədəni-mənəvi dəyərlərimizin yaşadılması istiqamətində universitet üzərinə düşən vəzifələrin öhdəsindən həmişə layiqincə gəlir”.

Görkəmli dövlət və siyasi xadim, ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin verdiyi bu yüksək qiymət universitetin 90 illik yubileyinə əvəzsiz töhfədir.

Azərbaycan xalqının milli sərvəti, milli iftixarı olan Bakı Dövlət Universitetinin keçdiyi keşməkeşli inkişaf və tərəqqi yolu hər şeydən əvvəl milli təhsilin, elmin, mədəniyyətin, mənəviyyatın inkişaf yoludur. Azərbaycanın intel-

lektual sərvəti olan milli ziyalılarımızın təşəkkül tapıb formalaşdığı yoldur. Bu yolun yolçuları olan Azərbaycanın görkəmli alimləri, ziyalıları, elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinin böyük səyi, fədakarlığı, vətənpərvərliyi nəticəsində Azərbaycan ali təhsilinin, elminin təməli, bünövrəsi qoyulmuş, Azərbaycan tarixinin, ədəbiyyatının, dilinin öyrənilməsində, tərəqqisində, soy-kökümüzə qayıdışda böyük elmi əhəmiyyətə malik uğurlar əldə edilmişdir.

Bakı Dövlət Universitetinin professor-müəllim heyətinin böyük səyi nəticəsində Azərbaycan dilinin elmi əsasları işlənmiş, onun lüğət fondunda olan, az işlənən, araşdırılmayan sözlər ortaya çıxarılmış, Azərbaycan dilinin lüğət tərkibi yeni sözlərlə zənginləşmiş, geniş elmi araşdırmalarda, elmi mühazirələrdə müvəffəqiyyətlə işlənən, lüğət tərkibi türk sözləri ilə zənginləşən bir dilə çevrilmişdir. Azərbaycan dilində ilk elmi mühazirələr məhz 1922-ci ildən başlayaraq Bakı Dövlət Universitetinin Şərq və filologiya fakültələrində Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan tarixi fənlərindən oxunmağa başlanmışdır. Çox sevindirici haldır ki, qısa bir zaman kəsiyində mühazirələr hazırlayıb oxuyan müəllimlər cəmisi bir-iki il əvvəl işləməyə başlayan milli kadrlar idi.

Beləliklə, fəaliyyətə başladığı ilk günlərdən Bakı Dövlət Universiteti Azərbaycan dilinin qorunmasında və daha da inkişaf etdirilməsində, Azərbaycan ədəbiyyatı və Azərbaycan tarixinin ən mürəkkəb məsələlərinin araşdırılmasında, milli şüurun, milli ruhun formalaşmasında mühüm rol oynamışdır. BDU-nun professor-müəllim heyəti zamanın keşməkeşli, çətin dövrlərində hər cür təqib və təzyiqlərlə üzləşsə də həmişə öz milli tarixi missiyasına sadiq qalmış, milli-mənəvi özünəməxsusluğunu uğurla davam etdirmişdir. Məhz buna görədir ki, ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetinin milli mənəviyyatın formalaşmasındakı roluna yüksək qiymət verərək yazır: "Universitet həqiqətən axtaran, milli ruhu inkişaf etdirən bir ocaq, bir məktəb olmuşdur."

Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin və mənəviyyatının inkişafında mühüm rol oynayan Bakı Dövlət Universiteti 1919-cu ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradıldı. Ölkənin mövcud durumunda böyük çətinliklərin olmasına, universitetin təşkili əleyhinə mühafizəkar səslərin ucalmasına baxmayaraq universitetin yaranmasını xalqımızın böyük gələcəyi kimi qiymətləndirən Cümhuriyyət liderləri öz qərarında israrlı idi. Azərbaycan hökuməti Bakı Dövlət Universitetinin təsis edilməsinə dair qanun layihəsini parlamentin müzakirəsinə verməyə nail oldu. Uzun müzakirələrdən sonra böyük çətinliklə olsa da 1919-cu il sentyabrın 1-də parlament Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Bu qərarı səbirsizliklə gözləyən universitetin ilk rektoru V.İ.Razumovski yazırdı: "Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovuşuğunda yeni məşəl yandı. Bu böyük tarixi hadisənin şahidləri kimi biz özümüzü xoşbəxt hesab edirdik."

Parlamentin qəbul etdiyi qanunda dörd fakültədən: Şərq şöbəsi olan tarix-filologiya fakültəsindən, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət Dövlət Universitetinin Bakıda təsis edilməsi göstərilmişdi. Universitetin maddi-texniki bazasının yaradılması və fəaliyyətini davam etdirməsi üçün 15 milyon manata yaxın vəsait ayırmışdı. 1919-cu il may ayının əvvəllərində universitetin təsisi ilə əlaqədar rəsmi sənədləri və tədbirləri hazırlayan komissiyanın son iclası oldu. İclasda müvəqqəti Şura və universitetin idarə heyəti təşkil edildi. 1919-cu il noyabrın 15-i birinci dərs günü kimi qərarlaşdırıldı.

Azərbaycan hökuməti universitet komissiyasının tövsiyəsini və Xalq Maarif Nazirliyinin təqdimatını nəzərə alaraq 1919-cu il sentyabr ayının 8-də Bakı Dövlət Universitetinin rektoru və dekanlarının təsdiqi haqqında qərar verdi. Azərbaycanda fəaliyyətə başlayan ilk milli təhsil ocağının ilk rektoru vəzifəsinə görkəmli rus alimi, professor V.İ.Razumovski təyin edildi.

Bacarıqlı elm və təhsil təşkilatçısı, sovet cərrahı, tibb elmləri doktoru, professor, əmək qəhrəmanı, RSFSR-in Əməkdar elm xadimi Vasili İvanovic Razumovski rus tibb elminin görkəmli nümayəndəsi kimi məşhur olmuş, müstəqil cərrahlıq məktəbi yaratmış, onlarla elmi monoqrafiyaların, yüzlərlə məqalələrin müəllifi olmuşdur. O, Rusiya və SSRİ məkanında bir neçə universitetin: Saratov (1909), Tiflis (1918), Bakı (1919) universitetlərinin yaradılmasında fəal iştirak etmişdir. V.İ.Razumovski 1919-cu ilin sentyabrından 1920-ci ilin mayına qədər Bakı Dövlət Universitetinə rəhbərlik etmiş, onun təşəkkül tapıb formalaşmasına böyük əmək sərf etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti qırmızı ordunun müdaxiləsi ilə süqut etdikdən sonra Azərbaycan Sovet hökumətinin maarif naziri Dadaş Bünyadzadə 1920-ci ilin mayın 11-də rektor Razumovskiyə məktub göndərərək universitetin sosialist prinsiplərinə uyğun yeni nizamnaməsini hazırlamağı tapşırdı. Lakin mütərəqqi elm və təhsil quruculuğuna sadiq olan prof. V.İ.Razumovski bir il əvvəl çox çətinliklə tərtib etdiyi nizamnaməni ləğv etməkdən imtina etdi və mayın 26-da rektor vəzifəsindən istefa verdi. Bir neçə aydan sonra Bakını tərk edib, Saratov Universitetinə işləməyə getdi.

Görkəmli alim akademik R.Mehdiyevin dediyi kimi, universitetin tarixini dörd mərhələyə bölmək olar. Bu, Azərbaycan Xalq Cümhuriyyəti dövrü (1919-1920), 1920-1922-ci illər Azərbaycanın ittifaqa daxil olana qədərki nisbətən müstəqil inkişaf dövrü, SSRİ tərkibindəki dövr və Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrdür. Universitetin keçdiyi inkişaf yolu heç də hamar olmamışdır. İnkişaf mərhələlərinin hər birinin özünəməxsus cəhətləri olmuş, çox zaman bu mərhələlərdə baş verən proseslər nəinki bir-birinə oxşamamış, hətta bir-birinə zidd xarakter daşımışdır.

Universitet öz inkişaf prosesində baş verən fərqlərə və ziddiyyətlərə baxmayaraq qarşısına qoyduğu məqsədə: yüksək ixtisaslı kadr hazırlamaq, tədris prosesini təkmilləşdirmək, elmi araşdırmaların səviyyəsini yüksəltmək

üçün milli təhsilimizin flaqmanı kimi daim ləyaqətlə irəli getmiş, xalqımızın milli sərvətinə çevrilmişdir.

1920-ci ildə Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra universitetin strukturunda bir sıra dəyişikliklər edildi. Universitetin nizamnaməsi və adı dəyişdirildi. Yeni nizamnaməyə görə universitetin Şərq fakültəsi istisna olmaqla, digər fakültələrdə rus dili dərslərinin aparılması nəzərdə tutulmuşdu.

Bakı Dövlət Universitetinin tarixində onun fəaliyyətinin ilk onilliyi zəngin hadisələrlə dolu olmuşdur. Bu dövr universitetin maddi-texniki bazasının möhkəmlənməsi, yeni fakültələrin, ixtisasların, laboratoriyaların açılması, elmi kitabxananın yaradılması, tələbə qəbulunun qaydaya salınması, professor-müəllim heyətinin formalaşması, milli kadrların hazırlanması, doğma Azərbaycan dilində mühazirələrin oxunmasına başlanılması, Azərbaycan dili və ədəbiyyatının, Azərbaycan tarixinin araşdırılması, elmi-tədqiqat işlərinin aparılması üçün hazırlıq görülməsi, universitetin elmi xəbərlərinin çap edilməsi ölkədaxili və beynəlxalq əlaqələrin yaradılması, demək olar ki, ali məktəbin fəaliyyət dairəsinə daxil olan bütün iş proseslərinin əsasının qoyulduğu illər olmuşdur.

Bakı Dövlət Universiteti təşkil edilərkən iki fakültə: tibb və tarix-filologiya fakültələri var idi. Tarix-filologiya fakültəsinin tərkibinə üç şöbə - tarix, filologiya və şərq şöbələri fəaliyyət göstərirdi. Artıq 1919-cu ilin noyabrında təşkilat işləri başa çatdırılmış, universitetin elmi şurasının ilk iclasında professor-müəllim heyətinin tərkibi təsdiq edilimişdi. Universitetin professor-müəllim heyəti 44 nəfərdən - 12 professor, 3 dosent və 29 müəllimdən ibarət idi.

15 noyabr 1919-cu ildən sistemli tədris fəaliyyətinə başlayan universitet birinci kurslara qəbulu aparmaqla öz tələbə korpusunu yaratmağa müvəffəq oldu. Tələbələr sırasına qəbul edilən abituriyentlərdən 297 nəfərinin azərbaycanlı olması uğurlu başlanğıc idi.

1920-1921-ci tədris ilində universitet özünün üçüncü fakültəsini - fizika-riyaziyyat fakültəsini yaratdı. Fizika-riyaziyyat fakültəsinin yaranması universitetin tədris və elmi potensialını daha da gücləndirdi, universitetin yeni elmi qüvvələrinin gəlməsinə səbəb oldu. 1922-ci ildə universitet daha bir yeni fakültə- şərqşünaslıq fakültəsi yaratmağa müvəffəq oldu. Bu yeni fakültə tarix-filologiya fakültəsinin şərq şöbəsinin bazasında yaradılmışdı. Onun tarix və dil şöbələri var idi. Dil şöbəsi sonralar iki şöbəyə Türk və İran dili şöbələrinə bölünmüşdü. Həmin ildə Xalq Maarif Komissarlığının tövsiyəsi ilə şərqşünaslıq fakültəsinin tərkibindən tarix şöbəsi götürüldü. 1928-ci ildə isə şərqşünaslıq fakültəsinin yanında etnoqrafiya şöbəsi yaradıldı.

Dövrün tələbinə müvafiq olaraq 1923-cü ildə tarix-filologiya fakültəsi yenidən təşkil edildi. Fakültə üç şöbəsi olan ictimai elmlər fakültəsinə çevrildi. Fakültənin dil-ədəbiyyat, ictimai-tarix və hüquq şöbələri xeyli genişlənməklə onların qəbulu artırıldı. 20-ci illərdə respublikada xalq təhsilinin inkişafı ilə əlaqədar müəllim kadrlara böyük tələbat əmələ gəlmişdi. Bu məqsədlə də

1924-cü ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat və ictimai elmlər fakültəsinin bazasında üç şöbədən – ictimai, riyaziyyat və təbiət şöbələrindən ibarət pedaqoji fakültə yaradıldı. 1929-cu ildə universitetin nəzdində Azərbaycan və rus bölməsi olan qiyabi pedaqoji fakültələr fəaliyyətə başaldı. Bu fakültənin 4 şöbəsi - məktəb, fiziki-texniki, Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı şöbələri var idi. 1928-1929-cu tədris ilində universitetdə hüquq fakültəsi yaradıldı. Bütün göstərilən fakültələrlə yanaşı universitetin yanında 1920-ci ildə təşkil edilmiş fəhlə fakültəsi də fəaliyyət göstərirdi. Fəhlə fakültəsinə bilavasitə istehsalatda çalışmış gənclər qəbul edilirdi.

Bakı Dövlət Universitetinin birinci onillikdəki fəaliyyətini diqqətlə nəzərdən kecirdikdə belə bir həqiqət aşkara çıxır ki, zamanın keşməkeşlərinə, hakimiyyət dəyişikliklərinə, siyasi arenadakın ab-havaya baxmayaraq universitet öz fəaliyyətini uğurla davam etdirmiş, respublikanın elmi, təhsil və mədəni həyatında, yüksək ixtisaslı milli kadrların yetişməsində, milli şüurun formalaşmasında, milli ziyalılar ordusunun daha da mətinləşməsində misilsiz rol oynamış, elmimizin və təhsilimizin inkişaf və tərəqqi yolunu işiqlandırmışdır.

Beləliklə, universitetin birinci onilliyi respublikamızın elm, təhsil və mədəniyyətinin inkişafında silinməz dərin izlər qoymuşdur. Bu dövrdə universitetin maddi-texniki bazası möhkəmlənmiş, yeni tədris korpusları lazımi avadanlıqlarla təmin edilmiş, laboratoriyalar, fənn kabinetləri və s. ilə təchiz edilmiş, universitetin maliyyələşdirilməsinə diqqət artırılmışdır.

Bu dövrdə Bakı Dövlət Universitetinin üzərinə respublikanın ilk ali təhsil müəssisəsi kimi təhsil, elm, mədəniyyət və iqtisadiyyatın bütün sahələri üçün yüksək ixtisaslı kadr hazırlamaq vəzifəsi qoyulmuşdu. Universitet respublikada sürətlə inkişaf edən təhsil, iqtisadiyyat, elm və təhsil müəssisələrini ixtisaslı kadrlarla təmin etməli idi. Bu mühüm dövlət vəzifəsini həyata keçirmək üçün universitet ilbəil yeni-yeni ixtisaslar açır, tələbə qəbulunu artırırdı. Rəqəmlərə diqqət yetirək: Əgər 1919-1920-ci illərdə universitetə 1094 tələbə qəbul edilmişdisə, onların sayı 1928-1929-cu ildə 1925 çatmışdı. Universitetin ilk buraxılışı 1922-ci ildə olmuşdur. Universitetin tibb fakültəsini 30 nəfər bitirmişdi ki, bunun da ancaq 10 faizi azərbaycanlı idi. 1929-cu ildə universiteti 1154 nəfər bitirmişdi ki, bunun da 18 faizindən çoxu azərbaycanlı idi.

On ildə universitetdə tələbə qəbulunun artımı ilə yanaşı professor-müəllim heyətinin tərkibi də həm kəmiyyət, həm də keyfiyyətcə dəyişmişdi. Əgər 1919-1920-ci tədris ilində universitetdə 3 professor, 3 dosent, 29 müəllim -cəmi 44 nəfər çalışırdısa, 1928-1929-cu dərs ilində 52 professor, 30 dosent, 229 müəllim - cəmi 311 nəfər çalışırdı. Sevindirici hal idi ki, professor-müəllim heyətinin tərkibində azərbaycanlıların sayı müntəzəm olaraq artmışdır. Belə ki, əgər 1919-1920-ci tədris ilində azərbaycanlıların sayı 9 nəfər idisə, yəni professor-müəllim heyətinin 20,5 faizini təşkil edirdisə, 1928-1929-cu tədris ilində azərbaycanlıların sayı 128 nəfər olmuşdur ki, bu da 42,2 faiz demək idi. 1919-

1920-ci illərdə universitetin kollektivi tələbə hazırlığını genişləndirməklə yanaşı elmi tədqiqat işlərinin aparılmasında, elmi əsərlərin yaradılmasında dərsliklərin dərs vəsaitlərinin, monoqrafiyaların çap edilməsində də əhəmiyyətli uğurlara nail olmuşdu. 1921-ci ildən "Bakı Universitetinin Xəbərləri" nəşrə başladı. "Xəbərlər"in dörd şöbəsi - təbiətşünaslıq və tibb, ictimai elmlər, şərqşünaslıq və hüquq şöbələri var idi. 1924-cü ildə universitet həmçinin özünün ikinci nəzəri orqanı olan "Tibbin nəzəri-praktiki jurnalı"nın nəşrinə başladı.

Qarşıya çıxan böyük çətinliklərə baxmayaraq Bakı Dövlət Universitetinin 10 il ərzində xalq təsərrüfatının, elm, təhsil və mədəniyyətin müxtəlif sahələri üçün 1500-dən artıq kadr hazırlaması onun böyük uğurları, millətimiz qarşısında şərəfli xidməti idi.

Universitetin 20-ci illərdə əldə etdiyi nailiyyətlərdə universitet rektorlarının fəaliyyəti də mühüm əhəmiyyət kəsb etmişdir. Belə fədakar insanlara misal olaraq universitetin ilk azərbaycanalı rektoru olan Tağı Şahbazini (1926-1929) və Maqsud Məmmədovu (1929-1930) göstərmək olar.

Universitet özünün birinci onilliyində 500 çap vərəqi həcmində kitab, jurnal və salnamə buraxmışdı. Elmi əsərlərdən başqa, universitet 1923-1939-cu illərdə çox qiymətli elmi kitablar nəşr etməyə müvəffəq olmuşdu. Bunlardan E.A.Paxamovun "Azərbaycan tarixinin qısa kursu" (Bakı, 1923); A.V.Baqrinin "Azərbaycan biblioqrafiyası üçün materiallar" (I-III buraxılışda); yenə də onun III buraxılışa aid "Predmet göstəriciləri" (Bakı, 1924); A.O.Makovelskinin "Demokrit: həyatı və təlimi" (Bakı, 1926); yenə onun "V.İ.Lenin adına Azərbaycan Dövlət Universiteti: birinci onillik" (Bakı, 1930); "Elmi nəşrlər. 1919-1930" (Bakı, 1930) və s. kitablar nəşr edilmişdir. Bakı Dövlət Universitetinin Elmi Xəbərləri və nəşr etdiyi elmi əsərlər Azərbaycan elminin bünövrəsinə qoyulan ilk daşlar idi. Azərbaycan elmi məhz bu bünövrə üzərində bərqərar olmuş, inkişaf və tərəqqi etmişdir.

1920-ci ildə universitet nəşriyyatının yaranması və onun gələcək fəaliyyəti respublikada elmi və tədris ədəbiyyatının təşəkkül tapıb formalaşmasında və fənn proqramlarının, metodik göstərişlərin nəşrində mühüm rol oynamışdır.

Bakı Dövlət Universitetinin 20-ci illərdə əldə etdiyi elmi-mədəni nailiyyətlərdən biri də onun zəngin, nadir kitab fonduna malik, universitet təhsilinə və elminə xidmət edən elmi kitabxanasının yaranması olmuşdur.

1919-cu ildə universiteti təşkil etmək üçün yaradılmış komissiya universitetin bir nömrəli laboratoriyası hesab etdiyi kitabxananın yaradılması üçün xüsusi layihə hazırladı və kitabxananın təşkilinə maliyə vəsaiti almaq üçün hökumətə müraciət etdi. Kitabxananı təşkil etmək üçün bina və 3 milyon manat vəsait ayrıldı. Bakıda yerləşən ayrı-ayrı təhsil və elmi müəssisələr öz kitab fondlarını kitabxanaya bağışladılar. 1919-cu ilin sentyabrında kitabxananın tibb şöbəsi fəaliyyətə başladı, noyabrd isə qiraətxana açıldı. Beləliklə, 1919-cu ildə kitabxananın fonduna 4660 kitab var idi. Universitet rəhbərliyinin və professor-

müəllim heyətinin səyi nəticəsində 1922-ci ildə kitabxananın fondunda 14434 kitab toplanmışdı. 1930-cu ildə isə kitabxanada artıq 109309 kitab toplanmışdı.

Böyük çətinliklə olsa da 1926-cı ildən başlayaraq kitabxana beynəlxalq əlaqələr yaratmağa, 700-dən artıq xarici jurnal almağa müvəffəq olmuşdu. Kitabxanada universitetin tələbə və professor-müəllim heyətinə xidmət olduqca səmərəli təşkil edildiyindən demək olar ki, tələbə və professor-müəllim heyətinin əksəriyyəti kitabxananın oxucuları idi. Kitabxana son on ildə 20 minə qədər oxucuya xidmət etmişdi. Kitabxana Zaqafqaziya universitetləri içərisində ən zəngin və ən nadir kitab fonduna malik ilk elmi ali məktəb kitabxanası idi.

Beləliklə, 20-ci illərin axırında Bakı Dövlət Universiteti böyük elmi potensiala malik yüksək ixtisaslı kadr hazırlayan təhsil və elm məbədgahına çevrilmiş, Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin inkişafında həlledici rol oynamağa başlamışdı. Məhz buna görədir ki, universitetin fəaliyyətinə böyük qiymət verən Azərbaycan hökuməti Bakı Dövlət Universitetinin 10 illik yubileyinin qeyd olunması haqqında qərar qəbul etdi. Təntənəli yubiley 1930-cu il yanvarın 12-də Bakı Opera və Balet Teatrında keçirildi. Yubiley iclasında Bakı Dövlət Universitetinin on il müddətində respublikanın təhsil, elm və mədəni həyatında böyük xidmətləri, xüsusilə yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanmasında əldə etdiyi nailiyyətləri qeyd edildi. Universitetin bir çox əməkdaşları yüksək dövlət mükafatlarına layiq görüldülər.

Ancaq çox təəssüflə qeyd etmək lazımdır ki, Avropa və Asiyanın qovuşuğunda məşəl kimi parlayan bu elm və təhsil məbədgahı öz inkişafının çiçəkləndiyi dövrdə - 1930-cu ilin iyunun 19-da Moskvanın göstərişi və Azərbaycan Xalq Komissarlar Sovetinin qərarı ilə fəaliyyətini dayandırdı, fakültələri ayrı-ayrı institutlara çevrildi. Onun əmlakı və 100 min nüsxədən artıq kitab fondu olan kitabxanası da yeni yaradılan institutlar arasında bölüşdürüldü.

Beləliklə, inzibati-amirlik sisteminin formalaşdığı bir zamanda Moskva hər vasitə ilə milli respublikalarda milli mədəniyyətin və ədəbiyyatın, milli şüurun inkişafına mane olur, müxtəlif vasitələrlə və məkrli üsullarla milli oyanışın və milli özünüdərkin inkişafının qarşısını almağa çalışırdı. Bakı Dövlət Universiteti də belə məkrli siyasətin qurbanı oldu.

Respublikamızda universitetin ləğv edilməsinin səhv siyasət olması tezliklə ölkənin elm, təhsil və mədəni həyatında özünü göstərməyə başladı. Məhz buna görə Azərbaycan SSR Xalq Komissarlar Soveti 1934-cü ilin mayında Bakı Dövlət Universitetinin yenidən təşkili haqqında qərar qəbul etdi. 1934-cü ilin sentyabrından universitetin fəaliyyəti bərpa edildi. Keçmiş "Kommunist", indiki "İstiqlal" küçəsində 6 saylı binanın yarısı universitetə verildi. Artıq 1935-ci ildə universitetdə 4 fakültə, 13 kafedra fəaliyyət göstərirdi.

Bakı Dövlət Universitetinin bərpa edilməsi elm, təhsil və mədəniyyət tarixində mühüm hadisə oldu. 1930-cu ildə buraxılmış səhvin düzəldilməsini Azərbaycan xalqı, bütün ziyalılar ordusu böyük rəğbətlə qarşıladılar. Əvvəllər

BDU-da işləmiş görkəmli alimlər, təcrübəli mütəxəssislər və məzunlar universitetə dəvət edildilər. Görkəmli ziyalılar universitetdə işləməyə üstünlük verdiklərindən, qısa zamanda çox yüksək elmi potensiala malik kadr korpusu formalaşdı. 1939-cu ildə professor-müəllim heyətinin sayı 226 nəfərə çatmışdı. Bunlardan 17 nəfəri elmlər doktoru, 54 nəfəri elmlər namizədi, dosent idi. Universitet son beş ildə 500-ə yaxın yüksək ixtisaslı kadr hazırlamışdı.

Bakı Dövlət Universitetinin tarixini ardıcıl olaraq izləyərkən 1920-1944-cü illərdə universitetə başçılıq etmiş V.İ.Razumovskinin (1919-1920), S.V.Davidenkonun (1920-1923), A.D.Quliyevin (1923-1926), T.A.Şahbazinin (1926-1929), V.S.Yelipotevsikinin (1929), M.Q.Məmmədovun (1929-1930), K.M.Ələkbərlinin (1934-1935), Ə.Ə.Əliyevin (1935-1937), C.A.Ələsgərovun (1937-1941), Ş.R.Əliyevin (1941-1944) böyük xidmətləri göz önünə gəlir. Onlar öz dövrlərinin həm görkəmli elm və təhsil xadimləri, həm də vətənpərvər ziyalılar olmuşlar. Məhz buna görədir ki, xalqımız, universitetin professor-müəllim heyəti, tələbələri və məzunları onların əziz xatirəsini həmişə uca tutur.

1941-1945 Böyük Vətən müharibəsi illərində ölkədə yaranmış çox çətin şəraitdə Bakı Dövlət Universitetinin kollektivi öz fəaliyyətini davam etdirirdi. Bütün fəaliyyəti “Hər şey müharibə üçün, hər şey cəbhə üçün” istiqamətinə yönəlmiş universitetdə 1941-ci il iyunun 22-də izdihamlı mitinq keçirildi. Mitinqdə çıxış edən professor-müəllimlər və tələbələrin nümayəndələri ölkənin müdafiəsinə qalxmağı, bütün qüvvələrini faşistlər üzərində qələbəyə sərf edəcəklərini söylədilər. Müharibənin ilk günlərindən universitetin rektoru S.A.Ələsgərov başda olmaqla bir çox müəllim və tələbələr cəbhəyə getdilər. Təkcə 1941-ci ildə universitetdən 1285 nəfər cəbhəyə yollanmışdı. 1941-ci ilin sentyabrında universitetin rektoru vəzifəsinə Ş.R.Əliyev təyin edildi. O, 1945-ci ilin aprelinə qədər bu vəzifəni şərəflə yerinə yetirdi.

Müharibə illərində mövcud şəraitlə əlaqədar ali məktəblərin strukturunda böyük dəyişiklik oldu. 1941-1942-ci illərdə Pedaqoji İnstitut, Qiyabi Pedaqoji İnstitut, Dövlət Bədən Tərbiyəsi İnstitutu və Xarici dillər fakültəsi BDU-ya birləşdirildi. Beləliklə, 1943-1944-cü tədris ilində universitetdə 10 fakültə: fizika-riyaziyyat, kimya, biologiya, tarix, filologiya, hüquq, iqtisadiyyat, xarici dillər, bədən tərbiyəsi, geoloji-coğrafiya fakültələri və 49 kafedra fəaliyyət göstərirdi.

Müharibə illərində Azərbaycan ali məktəb sistemi hərbi şəraitə uyğun olaraq yenidən quruldu. Ali məktəblərin tələbə və müəllimlərinin orduya səfərbər edilməsi ilə əlaqədar olaraq təhsil müddəti qısaldıldı. Yeni keçici xarakter daşıyan tədris planları və ixtisar edilmiş proqram üzrə kadr hazırlığına başlandı. 1941-1942-ci tədris ilində üç illik tədris planına keçildi. Qış tətilləri ləğv edildi, daha intensiv tədris prosesi tətbiq edilməyə başlandı.

1944-1945-ci illərdə universitetin hospitala çevrilmiş binasının özünə qaytarılması onun işində yeni quruculuq mərhələsinin başlanmasını təmin etdi.

Müharibə illərində böyük çətinliklərə, müəllim kadrların çatışmazlığına baxmayaraq universitet kollektivi yüksək ixtisaslı kadr hazırlığı işini davam etdirmiş, 4 ildə 719 nəfər kadr hazırlamışdı. Universitetdə tədris prosesinin təşkili ilə yanaşı, elmi-tədqiqat işinin aparılmasına, aspirantura yolu ilə elmi kadrların hazırlanmasına, namizədlik və doktorluq dissertasiyalarının müdafiəsinə də xüsusi diqqət yetirilmişdi. 1940-1945-ci illərdə 211 aspirant təhsil almış, onların əksəriyyəti öz namizədlik dissertasiyalarını müdafiə etmişdi. 1941-1945-ci illərdə universitetin elmi şuralarında 13 doktorluq və 118 namizədlik dissertasiyası müdafiə edilmişdi. Müharibə illərində universitetin kadr korpusuna cavan kadrlar daxil olmuşdu. Artıq 1945-ci ildə universitetdə 331 müəllim çalışırdı. Bunlardan 29 nəfəri elmlər doktoru, professor, 107 nəfəri elmlər namizədi, dosent, 195 nəfəri isə müəllim idi. Bu, o dövr üçün çox böyük rəqəm idi.

Böyük Vətən müharibəsi 1945-ci ildə qələbə ilə qurtardıqdan sonra universitetin inkişafında yeni mərhələ başlandı. Bu mərhələdə universitetin strukturu təkmilləşdi, maddi-texniki bazası möhkəmləndi, müharibə illərində alınan binalar özünə qaytarıldı, tədris prosesində islahatlar aparılmaqla təkmilləşmiş tədris planına keçildi, kadr potensialı gücləndi, elmi-tədqiqat işi aparılmasında, daha aktual mövzuların tədqiqində, yeni elmi istiqamətlərin müəyyənləşməsində canlanma baş verdi. Müharibədən sonrakı beşillikdə Bakı Dövlət Universitetinə Azərbaycan elminin görkəmli korifeylərindən biri, görkəmli filoloq, Əməkdar elm xadimi, akademik Abdulla Qarayev başçılıq etmişdir. Professor A.Qarayev müharibə illərində universitetdə elmi işlər üzrə prorektor işləmiş, 1945-ci ilin aprelində rektor vəzifəsinə təyin edilmiş, bu vəzifədə 1950-ci ilin noyabrına qədər işləmişdir. Onun rektorluğu dövründə universitetin strukturunda böyük dəyişikliklər baş vermiş, yeni fakültələr, şöbələr, kafedralar, elmi laboratoriyalar, ixtisaslar açılmışdır. 1945-1946-cı illərdə universitetin filoloji fakültəsinin yanında jurnalistika, 1946-1947-ci illərdə incəsənətşünaslıq, yenə həmin tədris ilində məntiq psixologiya, kitabxanaçılıq şöbələri açılmışdır.

Beləliklə, 1946-1947-ci tədris ilində universitetdə 8 fakültə: filologiya, tarix, şərqşünaslıq, geoloji-coğrafiya, hüquq, fizika-riyaziyyat, kimya və biologiya fakültələri fəaliyyət göstərirdi. Bu fakültələrdə 52 kafedra, 52 kabinet və laboratoriya, 2 muzey var idi. Təkcə 1948-1949-cu tədris ilində 7 yeni kabinet və laboratoriya yaradılmışdır. Universitetin professor-müəllim heyətinin tərkibində əhəmiyyətli kəmiyyət və keyfiyyət dəyişikliyi baş vermiş, universitetə çox güclü alimlər, xüsusilə istedadlı gənclər gəlmişdi. 1950-ci ildə artıq universitetdə 21 elmlər doktoru, professor və 155 elmlər namizədi, dosent işləyirdi. Universitetin professor-müəllim heyətinin sayı 316-ya çatmışdı. Müharibədən sonrakı beşillikdə universitetin qəbul planı ilbəil artmış, 1946-1950-ci illər ərzində universitetə 3397 nəfər tələbə qəbul edilmiş, universiteti 1515 nəfər yüksək ixtisaslı mütəxəssislər bitirmişdir.

1950-ci ildə Əməkdar elm xadimi, görkəmli ədəbiyyatşünas alim Cəfər Xəndan Hacıyev Bakı Dövlət Universitetinə rektor təyin edildi. Bu təyinata qədər o, filoloji fakültənin dekanı vəzifəsində çalışmışdı. Təhsil prosesinə və universitetin elmi işlərinə yaxından bələd olan professor Cəfər Xəndan akademik A.Qarayevin apardığı islahatları müvəffəqiyyətlə davam etdirdi. Onun rektor kimi uğurlu fəaliyyəti nəticəsində universitetə ayrılan maliyyə vəsaiti bir neçə dəfə artırıldı. Tələbə qəbulu planında universitetin əyani, axşam və qiyabi şöbəsinə ayrılan yerlərin miqdarı əhəmiyyətli dərəcədə çoxalmışdı. Bu da respublikada müəllim kadrlara olan böyük tələbatla əlaqədar idi. Məhz buna görə də 1940-cı illərdən fəaliyyətə başlayan universitetin qiyabi şöbəsinin işi əsaslı şəkildə yenidən qurulmağa başladı. Əgər 50-ci illərdə universitetin tərkibində 4 fakültənin - filologiya, tarix, riyaziyyat və hüquq fakültələrinin qiyabi şöbəsi var idisə, artıq 60-cı illərdə 7 fakültənin qiyabi şöbəsi fəaliyyət göstərirdi. 50-60-cı illərdən qiyabi şöbə ilə yanaşı axşam şöbəsi də yaradılmağa başladı. İlk axşam şöbələri 1958-1959-cu illərdə fizika və kimya fakültələrində yaradıldı.

1950-60-cı illərdə universitetdə 5 yeni fakültə: şərqşünaslıq (1957), fizika (1959), iqtisadiyyat (1959), əmtəəşünaslıq (1959), kitabxanaçılıq (1962), jurnalistika (1969) fakültələri təşkil edildi. Yeni fakültələrin yaranması və tələbə qəbulunun ilbəil artması ilə əlaqədar universitetdə bina çatışmazlığı hiss edilirdi. Bu çətinliyi nəzərə alan respublika hökuməti universitetə iki yeni bina vermişdir. 1954-55-ci illərdə universitet 11460 kv.m sahəsi olan 4 binada yerləşirdi. Zahid Xəlilov küçəsində Bakı Dövlət Universiteti üçün 50-ci illərdən tikilən yeni binanın 1964-cü ilin sentyabrında istifadəyə verilməsi universitetin auditoriya vəziyyətini xeyli yaxşılaşdırdı.

Beləliklə, 60-cı illərin axırlarında Bakı Dövlət Universitetində təbiət və humanitar elmlərin mühüm sahələrini əhatə edən 12 fakültə: mexanika-riyaziyyat, fizika, kimya, biologiya, ekoloji-coğrafiya, tarix, filologiya, şərqşünaslıq, kitabxanaçılıq-informasiya, hüquq, jurnalistika, ixtisasartırma və xarici tələbələr fakültələri, həmçinin 64 kafedra, 86 laboratoriya, o cümlədən 4 problem laboratoriyası, 42 kabinet, 2 muzey fəaliyyət göstərirdi. Professor-müəllimlərin sayı 710 nəfərə çatmışdı. Universitetin əyani, qiyabi və axşam şöbələrində 12 mindən artıq tələbə təhsil alırdı.

1950-60-cı illərdə universitetə xalqımızın görkəmli şəxsiyyətləri, elm və təhsil təşkilatçıları akademik Y.H.Məmmədəliyev və akademik Ş.F.Mehdiyev başçılıq etmişlər. Azərbaycan elminin inkişafına böyük töhfələr verən, SSRİ məkanında və beynəlxalq aləmdə tanınan bu alimlərin təşkilatçılıq qabiliyyəti nəticəsində universitet böyük tərəqqi yolu keçmiş, beynəlxalq miqyasda tanınmağa başlamışdır. Məhz buna görədir ki, bu görkəmli şəxsiyyətlərin əziz xatirəsi universitet kollektivi tərəfindən əziz tutulur.

Azərbaycanın müasir tarixinə dönüş mərhələsi kimi daxil olan 60-70-ci illər Bakı Dövlət Universitetinin həyatında da əlamətdar olmuşdur. 1969-cu

ildə Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə Azərbaycan özünün həqiqi inkişaf yolunu tapdı. Bu dövrdə respublika ali məktəblərinin bayraqdarı olan Bakı Dövlət Universiteti Heydər Əliyevin qayğısı sahəsində bir çox uğurlar əldə etdi, elm, təhsil, mədəniyyət çiçəklənmə dövrünə qədəm qoydu.

Azərbaycan dövlətinin qərarına əsasən 1969-cu il noyabrın 1-də Bakı Dövlət Universitetinin 50 illik yubileyi keçirildi. Yubiley komissiyasının sədri Heydər Əliyev təntənəli iclasda çıxış etdi. Bu tarixi çıxış universitetin həyatında çox əlamətdar hadisə idi. Çünki universitetin yarım əsrlik yubileyində onun dünya şöhrətli məzunu Heydər Əliyev çıxış edirdi. Universitetin çoxsaylı kollektivi həmişə bu tarixi hadisəyə görə iftixar hissi keçirmişdir. O vaxta qədər formalaşan ənənələrin əksinə olaraq Heydər Əliyevin Azərbaycan dilində çıxış etməsi xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı, milli şüurun formalaşmasına, milli dilin statusunun möhkəmlənməsinə səbəb oldu.

Heydər Əliyev bu parlaq nitqində universitetin 50 ildə keçdiyi inkişaf və tərəqqi yolunu yüksək qiymətləndirərək deyirdi: "Bu gün Azərbaycan Dövlət Universitetinin keçdiyi yarım əsrlik yola yekun vurarkən tam əsasla deyə bilərik ki, yubliyar bu yüksək ada layiq olduğunu özünün bütün fəaliyyəti ilə sübut etmişdir".

Heydər Əliyevin bu proqram xarakterli nitqində universitet kollektivinin qarşısında elmin, təhsilin və mədəniyyətin inkişafına mühüm əhəmiyyət verməklə yüksək ixtisaslı mütəxəssis kadrlar hazırlamaq kimi çox mühüm vəzifə qoymuşdu. Universitet kollektivi bu vəzifələrin öhdəsindən layiqincə gəlmiş və böyük uğurlar qazanmağa müvəffəq olmuşdu. 70-80-ci illərdə universitetin maddi-texniki bazası qat-qat yüksəlmiş, tələbə qəbulu ilbəil artmış, yeni ixtisaslar açılmış, kadr hazırlığının keyfiyyəti yüksəlmiş, universitet yeni elmi istiqamətlərdə inkişaf etməyə başlamış, universitetin beynəlxalq əlaqələri xeyli genişlənmişdi. 1970-78-ci illərdə universitetə 12428 tələbə qəbul edilmiş, universiteti hər il 1200-dən artıq tələbə bitirmişdir. Bu illərdə elmi-tədqiqat işləri də böyük vüsət almış, 1676 mövzuda elmi-tədqiqat işi yerinə yetirilmiş, 148 adda monoqrafiya, 325 adda dərslik, 8423 adda dərs vəsaiti nəşr edilmişdir.

1977-78-ci tədris ilində 9 mərtəbəli 1-ci tədris korpusunun istifadəyə verilməsi universitetin auditoriya problemini həll etmiş, tədris prosesinin səmərəli təşkilinə səbəb olmuşdur. Universitet tələbələri üçün yataqxana şəhərciyinin salınmasına da 70-ci illərdə başlanılmışdır. Bu dövrdə universitetə akademik Faiq Bağırzadə rəhbərlik etmişdir. Universitetin inkişafında mühüm xidməti olan F.M.Bağırzadə universitetin tarixində ən çox işləyən rektor (1970-ci ildən 1987-ci ilə qədər) olmuşdur.

70-80-ci illər Bakı Dövlət Universitetinin həyatında yeni mərhələ - Heydər Əliyev mərhələsi olmuşdur. Bu dövrdə Heydər Əliyev duhası universitetin inkişaf yolunu işıqlandırmış, uğurlu gələcəyə istiqamətləndirmişdir.

70-80-ci illər Bakı Dövlət Universitetinin tarixində universitetin maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi, kadr hazırlığının keyfiyyətcə yüksəldilməsi, dünya elminin aktual problemlərinə həsr edilmiş elmi tədqiqatların aparılması, beynəlxalq əlaqələrin genişləndirilməsi uğrunda mübarizə illəri olmuşdur. Bu dövrdə Bakı Dövlət Universitetinin əldə etdiyi ən böyük nailiyyət onun kadr potensialının, professor-müəllim heyətinin tərkibinin həm kəmiyyətcə, həm də keyfiyyətcə inkişaf edib möhkəmləndiyi illər kimi xarakterizə edilir. Bu illərdə yeni fakültələr, kafedralar, tədris və elmi laboratoriyalar yaradılmışıdır. 1961-ci ildə fəaliyyəti dayandırılmış universitet nəşriyyatı 1979-80-ci tədris ilində yenidən işə başladı. 70-ci illərdə universietdə tədris prosesinə texniki vasitələrin tətbiqinə başlanmış, 15 ixtisaslaşdırılmış auditoriya yaradılmışıdı. Unversitetdə 12 fakültə, 70 kafedra, 15 kabinet və laboratoriya fəaliyyət göstərirdi. Universitet SSRİ-nin və dünyanın 170-dən artıq elmi və tədris müəssisəsi ilə əlaqə yaratmışdı. Bu işdə universitetin 1974-cü ildə Elmi Kitabxana statusu almış kitabxanası mühüm rol oynayırdı. Elmi Kitabxana SSRİ-nin və dünyanın 171 elmi və tədris müəssisələri ilə elmi nəşrlərin mübadiləsini aparırdı. Universitet xarici ölkələr üçün kadr hazırlayan ali məktəblər içərisində aparıcı yerlərdən birini tuturdu. 1983-cü ildə universitetdə dünyanın 61 ölkəsindən 500-dən artıq tələbə təhsil alırdı. Əgər 1970-71-ci tədris ilində universitetdə 710 professor-müəllim çalışırdısa, bunların 56 nəfəri professor, 223 nəfəri dosent, 240 nəfəri baş müəllim, 191 nəfəri müəllim idi. 1988-89-cu dərs ilində 1137 professor-müəllim, o cümlədən 170 professor, 442 dosent, 342 baş müəllim, 198 müəllim çalışırdı. Yəni on ildə müəllimlərin sayı 427 nəfər, o cümlədən professorların sayı 114 nəfər, dosentlərin sayı 219 nəfər, baş müəllimlərin sayı 198 nəfər, müəllimlərin sayı 7 nəfər artmışdı. 1978-79-cu dərs ilində universitetdə 13425 nəfər tələbə təhsil alırdı. Bunlardan 6325 nəfər əyani, 3092 nəfər axşam, 3192 nəfər qiyabi şöbənin tələbələri idi.

80-ci illərin axırı - 90-cı illərin əvvəllərində respublikada baş verən proseslər, iqtisadi, siyasi və sosial böhran Bakı Dövlət Universitetindən də yan keçməmişdi. Ölkədə hökm sürən anarxiya universitetin tədris prosesinə ciddi təsir göstərirdi. Tələbələr arasında dərsə gəlməmək halları ciddi xarakter almışdı. Müəllimlərin sosial durumunun çox aşağı olması bir çox görkəmli alimlərin xarici ölkələrə getməsinə və öz peşəsindən uzaqlaşmasına səbəb olmuşdu. Dövlət büdcəsindən ayrılan vəsaitin dəfələrlə azalması universitetin maddi-texniki bazasının zəifləməsinə səbəb olmuş, tədris və elmi-tədqiqat laboratoriyaları yeni avadanlıq almaqdan məhrum edilmişdi. Universitetdə tez-tez rektorların dəyişməsi ümumi işə olduqca mənfi təsir göstərirdi. 1987-93-cü illərdə universitetdə dörd rektor - Məmmədov Y.M (1987-1989), Quliyev C.B. (1989-1990), Qasımov M.G. (1990-1992), Səməndərov F.V (1992-1993) dəyişmişdi.

Bakı Dövlət Universitetinin 90 il ərzində keçdiyi yolun əsas və olduqca zəngin mərhələlərindən biri Azərbaycan Respublikasının öz dövlət müstəqilli-

yini bərpa etdikdən sonrakı mərhələdir. Bilavasitə ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan bu mərhələ bir çox cəhətdən əlamətdar olmuş böyük hadisələrlə dolu olan bir mərhələ kimi universitetin tarixində dərin izlər qoymuş, onun fəaliyyətinə yeni müstəqilliyin ab-havasını gətirmişdir.

Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə gəlməsi universitetin böhran vəziyyətindən çıxması, təhsil islahatlarının aparılması, təhsilin müasir dünya təhsil sisteminə inteqrasiya edilməsi üçün əlverişli prespektivlər açdı.

1993-cü ildən başlayaraq Bakı Dövlət Universitetinin təhsil və elmi həyatında olduqca böyük dəyişiklik baş verdi. Universitetin maddi-texniki bazasını möhkəmləndirmək üçün ciddi tədbirlər həyata keçirildi. İlbəil universitetə ayrılan vəsait və tələbə qəbulu artırıldı. Tədris prosesində ciddi islahatlar həyata keçirildi. Tədris intizamı möhkəmləndi. Universitetə avadanlıq almaq üçün vəsait ayrılması xeyli artdı. Universitetin beynəlxalq əlaqələri genişlənirdi, belə ki, o, artıq müstəqil dövlətin aparıcı universiteti kimi dünyanın qabaqcıl dövlətləri ilə əlaqələr qurmaq imkanı əldə etdi.

Müstəqil respublikamızın ayrı-ayrı nadir ixtisaslara tələbatının artması və kadr potensialının güclənməsi ilə əlaqədar məhz Heydər Əliyevin qayğısı nəticəsində BDU-da ilahiyyat fakültəsi, beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsi, yeni ixtisaslar açıldı.

BDU-nun beşdən artıq Beynəlxalq Universitetlər Assosiasiyasının üzvü olması onun beynəlxalq əlaqələrini daha da genişləndirdi. 1993-cü ildən başlayaraq universitetin 100-dən artıq tələbə, magistrant və aspirantı xarici ölkə universitetlərində təhsil almışdır.

BDU-nun respublikamızda elm, mədəniyyət və təhsilin inkişafında böyük xidmətlərini yüksək qiymətləndirən, universitetin məzunu olması ilə fəxr edən ulu öndər Heydər Əliyev demişdir: «Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır».

XX əsrin görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin özü də Bakı Dövlət Universitetinin məzunu və böyük iftixarıdır. Heydər Əliyev Bakı Dövlət Universitetinin məzunu olması ilə fəxr etdiyi kimi, bu gün Bakı Dövlət Universitetinin kollektivi də Heydər Əliyevin adı ilə, doğma universitetimizin ləyaqətli məzunu olması ilə fəxr edir. Ona görə ki, dünya şöhrətli dahi şəxsiyyət, beynəlxalq nüfuza malik siyasi lider, müstəqil Azərbaycan dövlətçiliyinin etibarlı qarantı, bugünkü inkişaf etmiş dövlətimizin memarı, Azərbaycan xalqının ümummilli lideri səviyyəsinə qədər yüksələn, Tanrı möcüzəsi olan Heydər Əliyev Bakı Dövlət Universitetinin tarix fakültəsini 1957-ci ildə bitirmişdir. Bu dahi şəxsiyyətin adı tarix fakültəsinin və Bakı Dövlət Universitetinin Qızıl fonduna düşmüşdür.

Heydər Əliyevin təhsil aldığı illərdə və respublikaya rəhbərlik etdiyi dövrdə universitetlə əlaqələri Bakı Dövlət Universitetinin şanlı tarixinin böyük və əlamətdar bir mərhələsini təşkil edir. Bakı Dövlət Universitetinin tərəqqi və

inkişafının ən məhsuldar dövrü olan son 30 il məhz onun adı ilə qırılmaz tellərlə bağlıdır. Ulu öndər Heydər Əliyev universitet rəhbərliyinin yeni kadrlarla möhkəmləndirilməsinə olduqca böyük diqqət yetirirdi.

Məhz buna görədir ki, universitetin Böyük Elmi Şurası 1994-cü il 28 oktyabr tarixli geniş iclasında Azərbaycan xalqı, dövləti, elmi və təhsili qarşısında əvəzsiz xidmətlərinə görə Heydər Əlirza oğlu Əliyevə Bakı Dövlət Universitetinin Fəxri Doktoru adının verilməsi haqqında yekdil qərar qəbul etdi. Universitetimizin kollektivi bununla fəxr edir.

1994-cü ildə görkəmli hüquqşünas alim, hüquq elmləri doktoru, professor Murtuz Ələsgərov universitetə rektor təyin edildi. Professor M.Ələsgərov 1996-cı ildə Milli Məclisin sədri seçildikdən sonra görkəmli elm və təhsil təşkilatçısı, fizika-riyaziyyat elmləri doktoru, Əməkdar elm xadimi, professor Misir Mərdanov universitetin rektoru vəzifəsinə irəli çəkildi. 1998-ci ildə professor M.Mərdanov Azərbaycan Respublikasının təhsil naziri təyin edildikdən sonra rektor vəzifəsinə görkəmli kimyaçı alim, Əməkdar elm xadimi, akademik Abel Məhərrəmov təyin edildi. Göründüyü kimi, hər üç şəxs, respublikamızın görkəmli alimləri, elm və təhsil təşkilatçıları, dövlət xadimləri olmaqla respublika ictimaiyyəti tərəfindən tanınan və müsbət qarşılanan şəxsiyyətlərdir. Məhz 1994-cü ildən başlayaraq Bakı Dövlət Universiteti kollektivinin əldə etdiyi müvəffəqiyyətlərdə bu görkəmli şəxsiyyətlərin rolu az olmamışdır.

Professor M.Ələsgərov tərəfindən başlanan islahatlar professor M.Mərdanov tərəfindən davam etdirilmişdir. Lakin bu islahatların başa çatdırılması və universitetdə böyük quruculuq işinin aparılması universitet kollektivi tərəfindən "qurucu rektor" kimi qəbul edilən akademik Abel Məhərrəmovun adı ilə bağlıdır. Abel Məhərrəmov rektor təyin edildiyi ilk gündən bütün bilik və bacarığını, daxili enerjisini və potensial imkanlarını doğma universitetin tərəqqisinə, təhsil sisteminin yüksəldilməsinə və təkmilləşdirilməsinə istiqamətləndirdi, bu ali təhsil ocağını beynəlxalq standartlara cavab verən dünya universitetləri sırasına çıxara bildi. A.Məhərrəmov sözün əsl mənasında çoxsaylı kollektivi vahid bir orqanizm kimi hərəkətə gətirdi və onun ahəngdar mexanizm kimi zərgər dəqiqliyi ilə sistemli və fasiləsiz fəaliyyətinə, hamını bir nəfər kimi universitetin tədris-metodik, elmi tədqiqat işinə cəlb etməyə nail oldu. Qısa zaman çərçivəsində universitetin tədris-maddi bazası xeyli möhkəmləndi.

Abel müəllimin düzgün və məqsədyönlü rəhbərliyi sayəsində BDU-nun maddi-texniki bazası xeyli möhkəmlənmiş, yeni tədris korpusları istifadəyə verilmiş, tələbələr üçün idman kompleksləri tikilmiş, müəllimlər və tələbələr üçün hər korpusda yeməkxanalar istifadəyə verilmiş, gözəl və yaraşıqlı universitet şəhərciyi yaradılmış və ən mühümü güclü elmi-pedaqoji potensiala malik olan mehriban kollektiv formalaşmışdır. Universitetdə aparılan işlərin miqyasına görə son on ili universitetin intibah dövrü kimi xarakterizə etmək olar. Bu intibah özünü universitetin hərtərəfli, kompleks inkişafında göstərmişdir.

Zənnimizcə, bu kompleks inkişafa daxil olan amillər içərisində aşağıdakı mühüm problemlərə də geniş diqqət yetirilmişdir:

1) universitetin madi-texniki bazasının möhkəmləndirilməsi, on mərtəbəli yeni tədris korpusunun istifadəyə verilməsi, tələbə qəbulunun ilbəil artırılması, kadr potensialının möhkəmləndirilməsi;

2) universitetin tədris prosesinin daha da təkmilləşdirilməsi, tədrisin keyfiyyətini yaxşılaşdırmaq üçün islahatlar aparılması, tədrisin texniki vasitələrlə təmin edilməsi, tədris prosesində kompüter texnologiyasından istifadə edilməsi, yeni fakültələr, ixtisaslar, kafedralar açılması, tədris intizamının möhkəmləndirilməsi, dünyanın qabaqcıl ölkələrinin iş təcrübəsindən istifadə edilməsi, yeni dərsliklərin və dərs vəsaitlərinin yazılıb çap etdirilməsi;

3) universitetdə bu yeni elmi-tədqiqat laboratoriyalarının yaradılması, elmi laboratoriyaların yeni cihazlarla, avadanlıqlarla təchiz edilməsi, kafedrada aparılan elmi-tədqiqatların istiqamətlərinin müasir şəraitlə, respublikanın qarşısında duran çağdaş vəzifələrlə əlaqələndirilməsi, doktorluq və namizədlik dissertasiyalarının keyfiyyətcə yaxşılaşdırılmasına diqqətin artırılması, elmin müxtəlif sahələrinə dair monoqrafiyaların, dərs vəsaitlərinin və dərsliklərin, metodik göstərişlərin çap etdirilməsi kimi mühüm məsələlər geniş yer tutmuşdur. Universitetin elmi xəbərlərinin nəşrinin daha da təkmilləşməsi, universitet nəşriyyatının fəaliyyətinin genişləndirilməsi.

1998-ci ildə universitetin rektoru professor Misir Mərdanov Azərbaycan Respublikasının təhsil naziri təyin edildikdən sonra rektorluq vəzifəsi bir ilə yaxın boş qaldı. Bu müddətdə möhtərəm prezident Heydər Əliyev universitetə kimin rektor göndərilməsini ciddi şəkildə araşdırırdı. Seçim xeyli uzandı. Nəhayət, ulu öndər Heydər Əliyevin seçimi Abel Məmmədəli oğlu Məhərrəmov oldu və o, 1998-ci ildə Bakı Dövlət Unisersitetinə rektor təyin edildi. Öz uzaqgörənliyi ilə həmişə fərqlənən ulu öndər bu seçimində də yanılmamışdı.

Ali məktəb sistemini dərindən bilən Abel Məhərrəmov kiçik bir zaman kəsiyində müstəqilliyin qarşıda qoyduğu vəzifələrə, dövlətin ardıcıl həyata keçirdiyi təhsil islahatının tələblərinə uyğun olaraq universitet təhsilində və elmində mühüm nailiyyətlər əldə etməyə, böyük quruculuq işləri aparmağa müvəffəq oldu. Onun quruculuq sahəsində əldə etdiyi nailiyyətləri sovet dövründə bir neçə onillikdə aparılan işlərə bərabər tutmaq olar. Hər şeydən əvvəl rektor universitetin maddi-texniki bazasını möhkəmləndirmək üçün ciddi tədbirlər görməyə başladı. Rektorun səyi nəticəsində maddi-texniki bazanın möhkəmləndirilməsinə ayrılan vəsait orta hesabla ilbəil 2-3 dəfədən çox artırıldı. Universitetin əsas binası 60-cı illərdən bəri - son 40 ildə təmir edilməmişdi. Binanın həm xarici görünüşü, həm daxili, həm də dam örtüyü bərbad vəziyyətə düşmüşdü. Rektorun ciddi səyi nəticəsində universitetin əsas binasına yeni həyat verildi. Onun çöl divarları təmizləndi, daxilində bütün dərs otaqları, auditoriyalar, laboratoriyalar, böyük və kiçik akt zalları, inzibati binalar əsaslı surətdə,

müasir dünya standartlarına müvafiq təmir olunmuş, qiymətli avadanlıqlarla təchiz edilmişdir. Son 80 ildə universitetin auditoriyaları və laboratoriyaları belə yüksək səviyyəli mebellə təmin edilməmişdir.

Abel Məhərrəmovun ən böyük xidməti universitet şəhərciyinin yaradılması oldu. İnsanların gözü qarşısında xarici ölkələrdə olan universitet şəhərciklərini xatırladan şəhərciyin yaradılması və tədricən bu şəhərciyin gözəl istirahət və mədəniyyət parkına çevrilməsi universitetin çoxminli kollektivi üçün böyük hədiyyə idi. Bu şəhərciyin bəzəyi olan idman kompleksi, 1000 nəfərə qədər tutumu olan örtülü stadion, müasir texnologiyanın son nailiyyətlərinə müvafiq tikilmiş üzgüçülük hovuzu tələbə və müəllimlərin ən çox sevdiyi bir idman qurğusuna çevrilmişdir.

Respublikamızın dövlət büdcəsində ciddi gərginlik olduğu bir zamanda böyük çətinliklə də olsa, Abel Məhərrəmov rektorluğa başladığı ilk günlərdən universitetin yarımçıq qalmış (ancaq tədris korpusunun bünövrəsi qoyulmuşdu) yeni tədris korpusunun tikintisini davam etdirməyə müvəffəq oldu. İndi 10 mərtəbədən 250 otaqdan, 13500 kv metr sahədən ibarət olan bu korpusun tikintisi başa çatdırılmışdır. Tələbələrə və professor-müəllim heyətinə xidmət etmək üçün yeni binada 300 $m^2$ sahədə poliklinika və 350 $m^2$ sahədə yeməkxana yerləşir ki, bu da müasir dünya standartlarına cavab verir. Bu bina universitetin 90 illiyinə dövlətimizin böyük hədiyyəsidir.

Gözoxşayan və yaraşıqlı bu tədris korpusunda tarix, mexanika-riyaziyyat və tətbiqi riyaziyyat fakültələri yerləşir. Müasir standartlara uyğun tikilən və istifadəyə verilən bu korpusda müəllim və tələbələr üçün hər cür şərait yaradılmışdır. Yeni tədris korpusunun təntənəli açılış mərasimində çıxış edən möhtərəm Prezident İlham Əliyev demişdir: "Mən bu gün çox şadam ki, Bakı Dövlət Universiteti təzə korpusunun açılışı ilə tələbələrə və müəllimlərə yeni şərait yaradır…"

Cənab Prezidentimiz bu gözəl gün münasibəti ilə universitetin bütün kollektivini ürəkdən təbrik etdi. Bu, universitet kollektivi üçün böyük fəxrdir və fəaliyyətimizə verilən dəyərli qiymətdir.

Bakı Dövlət Universitetinin tarixinə intibah dövrü kimi daxil olan son on ildə bütün sahələrdə onilliklərə bərabər böyük inkişaf baş vermişdir. Bu inkişafı daha dəqiq və hərtərəfli göstərmək üçün rəqəmlərə müraciət edək: Fakültələrin miqdarı 1999-cu ildə 15, 2008-ci ildə 16; kafedraların miqdarı 1999-cu ildə 113, 2008-ci ildə 125; ixtisasların miqdarı 1999-cu ildə 50, 2008-ci ildə 55; tədris laboratoryalarının miqdarı 1999-cu ildə 70, 2008-ci ildə 73; tələbələrin sayı 1999-cu ildə 14.000-ə yaxın, 2008-ci ildə 17081 nəfər; professor-müəllim heyəti 1999-cu ildə 1287, 2008-ci ildə 1317 nəfər olmuşdur.

Hazırda Bakı Dövlət Universitetində 16 fakültə, 121 kafedra, 2 elmi-tədqiqat institutu, 4 elmi-tədqiqat mərkəzi, 1 elmi-tədqiqat hissəsi, 20 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Bu struktur bölmələrdə 2897 nəfər əmək-

daş çalışır. Professor-müəllimlərdən 300 nəfəri elmlər doktoru, 900 nəfərə qədəri elmlər namizədidir. Müəllimlərin 217 nəfəri professor, 530 nəfəri dosent, 318 nəfəri baş müəllim, 214 nəfəri müəllim, 16 nəfəri isə assistent vəzifəsini tutur. Professor-müəllim heyətinin tərkibində AMEA-nın 10 nəfər həqiqi üzvü (akademik), 14 nəfər müxbir üzvü, 18 nəfər Azərbaycan Respublikasının Əməkdar elm xadimi, 20 nəfər digər fəxri adlara layiq görülmüş şəxs, 40 nəfər orden və medallarla təltif edilmiş əməkdaş vardır. Universitet əməkdaşlarından 13 nəfəri Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.

Fikrimizcə, bu rəqəmlər ötən müddət ərzində Bakı Dövlət Universitetinin elmi-pedaqoji potensialının inkişaf dinamikasını aydın şəkildə göstərir və kollektivimiz bu böyük nailiyyətlərlə fəxr edə bilər.

Universitetin son on illik fəaliyyətində diqqətəlayiq işlərdən biri də müasir dövrün tələblərinə cavab verən nəşriyyat işinin təşkili olmuşdur. Bakı Universiteti Nəşriyyatına ikinci tədris korpusunda 1500 kv.metrlik sahəsi olan bina ayrılmış, nəşriyyat üçün 1 milyon 500 min ABŞ dolları qiymətində yeni mətbəə avadanlığı, çap maşınları, elektron cihazlar və digər müasir çap texnikası alınmışdır. Universitetin büdcəsindən dərsliklər, dərs vəsaitləri, metodik göstərişlər, fənn proqramları çap etmək üçün müntəzəm olaraq vəsait ayrılmışdır. Son on ildə universitet nəşriyyatında 1000 ada yaxın dərslik, dərs vəsaiti, metodik göstəriş, monoqrafiya, fənn proqramları və s. çap çox böyük nailiyyətdir. Nəşriyyatda çap edilən dərsliklərin, demək olar ki, əksəriyyəti universitet alimləri tərəfindən müstəqillik illərində yazılan orijinal dərsliklərdir.

Beləliklə, müstəqillik illərində böyük inkişaf yolu keçmiş Bakı Dövlət Universiteti təkcə respublikamızda deyil, respublikamızdan çox-çox uzaqlarda, dünyanın inkişaf etmiş ölkələrində böyük şöhrət qazanmış, dünya universitetləri içərisində özünəlayiq yer tutmuşdur.

Son on ildə Bakı Dövlət Universitetinin rektoru, akademik A.M.Məhərrəmovun xidmətləri dövlətimiz, respublikanın elm və təhsil ictimaiyyəti, xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Abel Məhərrəmovun xidmətləri universiteti ucaltdığı kimi universitetin nailiyyətləri də Abel Məhərrəmovu ucaltmışdır. Abel Məhərrəmov 11 fevral 2000-ci ildə kimya elmi sahəsində əldə etdiyi böyük nailiyyətlərə görə prezident H.Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adına, 10 iyun 2000-ci ildə Tehranda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının qızıl medalına layiq görülmüşdür.

A.M.Məhərrəmov 2002-2004-cü illərdə Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasının prezidenti olmuş, 2004-cü ildən isə vitse-prezidentdir. O, elm və təhsil sahəsində göstərdiyi təşəbbüskarlığa, milli təhsilin inkişafı və beynəlxalq təhsil məkanında inteqrasiya proseslərinə verdiyi töhfələrə görə 2004-cü ildə Rumıniya Respublikasının ali dərəcəli "Komandoz" ordeninə layiq görülmüşdür.

2008-ci ildə akademik Abel Məhərrəmov Avropanın aparıcı elm və təhsil mərkəzlərindən biri sayılan Rumıniya Respublikasının Konstansa şəhərində yerləşən Ovidus Universitetinin Fəxri doktoru seçilmişdir.

A.Məhərrəmov 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü (akademik) seçilmişdir. 2005-ci ildən isə o, Azərbaycan Respublikası Milli Məclisinin üzvü - millət vəkilidir.

Akademik A.M.Məhərrəmov dəfələrlə bir sıra beynəlxalq elmi konfranslarda və simpoziumlarda, o cümlədən ABŞ, Türkiyə, Yaponiya, İtalya, Rusiya, İran, Bolqarıstan, Macarıstan və b. ölkələrdə maraqlı elmi məruzələrlə çıxışlar etmişdir. O, bir çox ixtiraların, elmi kəşflərin və beynəlxalq patentlərin müəllifidir. Alim 33 müəlliflik şəhadətnaməsinin, 8 monoqrafiya, 37 dərslik və dərs vəsaitinin, o cümlədən Azərbaycan dillində ilk dəfə nəşr olunmuş "Kiçik kimya ensiklopediyası"nın həmmüəlliflərindən biri, Azərbaycanda və xarici jurnallarda nəşr olunmuş 600-ə qədər elmi əsərin müəllifidir. A.Məhərrəmovun rəhbərliyi ilə 21 kimya elmləri doktoru və namizədi hazırlanmışdır.

Akademik Abel Məhərrəmov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30 oktyabr 2009-cu il tarixli sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Müstəqillik illərində Bakı Dövlət Universitetinin maddi-texniki bazasının möhkəmləndirilməsi, tədris prosesinin yenidən qurulması, tədrisin keyfiyyətinin daha da yüksəldilməsi ilə yanaşı olaraq o, respublikamızda elmin inkişafında mühüm rol oynamış, elmi tədqiqatların həcminə və nəticələrinə görə öncül yerlərdən birini tutmaqla beynəlxalq aləmdə xüsusi nüfuz qazanmışdır.

Bakı Dövlət Universiteti Azərbaycan təhsilinin inkişafı ilə yanaşı Azərbaycan elminin inkşafına da mühüm töhfələr vermişdir. Kollektivin son on ildə qazandığı elmi uğurlar və kəşflər deyilənləri bir daha təsdiq edir. Hazırda Bakı Dövlət Universitetinin bütün fakültə, kafedra və digər elmi-tədqiqat qurumlarında təbiət və humanitar elmlərin aktual problemlərinə dair respublikamızın elm, təhsil, mədəniyyət və xalq təsərrüfatının müxtəlif sahələrini əhatə edən, mühüm nəzəri və təcrübi əhəmiyyət kəsb edən elmi-tədqiqat işləri aparılır. Bakı Dövlət Universitetində aparılan elmi-tədqiqat işləri öz aktuallığı ilə yanaşı olaraq geniş istiqamətləri ilə də fərqlənir. Məsələn, 2008-ci ildə 81 istiqaməti əhatə edən 230 mövzuda 1160 elmi iş yerinə yetirilmişdir.

Bakı Dövlət Universitetində təbiət və humanitar elmlər üzrə aparılan elmi işlər böyük elmi-nəzəri və praktik əhəmiyyət kəsb etdiyindən onların bir çoxu AMEA-nın elmi hesabatına mühüm elmi nəticə kimi daxil olur. Məhz buna görədir ik, son on ildə universitet əməkdaşları 85 ixtiraya patent ala bilmişdir.

Universitetdə elmi-tədqiqat işlərinin nəticələri rektor, akademik Abel Məhərrəmovun ciddi səyi nəticəsində təkmilləşmiş, 4 seriya üzrə "Bakı Dövlət Universitetinin Xəbərləri"nin nəşri işi qaydaya salınmışdır. Bununla yanaşı

universitetin ayrı-ayrı fakültələrinin müxtəlif elm sahələrinə dair nəşr etdirdiyi 10 elmi-nəzəri və metodik jurnal da xüsusi əhəmiyyət kəsb edir.

Respublikamızda elmi-pedaqoji kadrların hazırlanmasında Bakı Dövlət Universitetinin xüsusi yeri vardır. Böyük həyati əhəmiyyət kəsb edən bu işə universitet hələ XX əsrin 20-ci illərindən başlamış, sonralar bu prosesi davam etdirmiş, müstəqillik illərində isə onu daha da intensivləşdirmişdir. Universitetdə elmi-pedaqoji kadrların hazırlanması aspirantura, dissertantura və doktorantura yolu ilə həyata keçirilir. Hazırda Bakı Dövlət Universitetinin əyani və qiyabi şöbələrində 60-dan artıq ixtisas üzrə 200-ə yaxın aspirant, 85 ixtisas üzrə 429 nəfər dissertant təhsil alır.

Elmi-pedaqoji kadrların hazırlanması sahəsində hələ 1997-ci ildən fəaliyyətə başalayan magistratura şöbəsi də mühüm əhəmiyyət kəsb edir. Hazırda Bakı Dövlət Universitetinin magistaratura pilləsində 33 istiqamət, 156 ixtiaslaşma üzrə 1200-dən artıq magistrant təhsil alır ki, onların da 40 nəfəri xarici vətəndaşdır.

Bütövlükdə Bakı Dövlət Universitetində 90 il ərzində 80 tələbə buraxılışı olmuş, xalq təsərrüfatının, elm, mədəniyyət və təhsilin müxtəlif sahələri üzrə 120 mindən artıq yüksək ixtisaslı kadr hazırlanmışdır.

Bakı Dövlət Universitetinin 90 ildə keçdiyi inkişaf və tərəqqi yolu, qazandığı böyük uğurlar bir daha təsdiq edir ki, bu ali təhsil ocağı bundan sonra da Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin tərəqqi və inkişaf yolunu nurlu bir məşəl kimi işıqlandıracaqdır.

## ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. *Əliyev H. Müstəqilliyimiz əbədidir: c. 1-28.- B.: Azərnəşr, 1995-2009.*
2. *Heydər Əliyev və Bakı Dövlət Universiteti: - B., 1997.*
3. *Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu. – B., 2001.*
4. *Əliyev İ. Bakı Dövlət Universitetinin yeni korpusunun açılışı münasibətilə nitqi // Respublika qəzeti. – 2008.- 16 sentyabr.*
5. *Əliyev İ. İnkişaf məqsədimizdir: c 1-2.- B.: Azərnəşr, 2008-2009.*
6. *Azərbaycan tarixi 7 cilddə: c. 5-7.- B., 1998-2003.*
7. *Atakişiyev A.M. Bakı Dövlət Universiteti.- B., 2000.*
8. *Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- B., 2003.*
9. *Məhərrəmov A.M. Bakı Dövlət Universiteti.- B., 2000.*


### Rus dilində


10. *Алимирзоев Х.О. Азербайджанский Государственный Университет за 50 лет.- Б., 1969.*
11. *Азербайджанская Демократическая Республика (1918-1920) Законадательные акты.- Б., 1998.*

*12. Багирзаде Ф.М., Казиев М.А. Азербайджанский Государственный Университет 60 лет.- Б., 1969.*
*13. Маковелский А.О. Азербайджанский Государственный Университет имени В.И.Ленина.- Б., 1930.*
*14. Маковелский А.О. Десятилетие Бакинского Государственного Университета имени В.И.Ленина.- Б., 1929.*
*15. Народное образование в Азербайджане:- (1920-1927гг).- Б., 1928.*

***А.А.ХАЛАФОВ***

## ПРОЙДЕННЫЙ ПУТЪ РАЗВИТИЯ И ПРОЦВЕТАНИЯ ОТ ПРОФЕССОРА В.И.РАЗУМОВСКОГО ДО АКАДЕМИКА А.М.МАГЕРРАМОВА

***РЕЗЮМЕ***

*Статъя посвящено 90 летнему юбилею Бакинского Государственного Университета, которая является первой молелъню науки и образования. Пройденный путъ развития и процветания от профессора В.И.Разумовского до академика А.М.Магеррамова был подобно освящен посредством многочисленным цифр и фактов.*

***A.A.KHALAFOV***

## THE DEVELOPMENT AND PROQRESS PATH WICH HAS BEEN COVERED FROM PROFESSOR V.I.RAZUMOVSSKI TO ACADEMIC A.M.MAHARRAMOV

***SUMMARY***

*The article has been devoted to the $90^{th}$ anniversary of playing house of science and education Baku State University. The development and progress path which has been covered from professor V.I.Razumovski to academic A.M.Maharramov has been lightened by the use of many numbers and facts.*

**Xəlil İSMAYILOV**
***Əməkdar mədəniyyət işçisi,***
***tarix elmləri doktoru, professor***

# KİTABXANAŞÜNASLIQ TEXNOLOJİ BİLİYİN TƏKAMÜLÜ KİMİ

Kitabxananın elmi baxımdan cəmiyyətdə sənədli informasiyanın fəaliyyətini təmin edən xüsusi sosial institut kimi dərk edilməsi nəzəri və tətbiqi səviyyələrdə həyata keçirilir. Ənənəvi olaraq, kitabxana və biblioqrafiya elminin strukturunda aşağıdakı bölmələri qeyd etmək olar: nəzəri, tarixi, təşkilati və metodik bölmələr.

Sosial həyatın bütün tərəflərinin informasiyalaşması, yeni informasiya texnologiyalarının müasir kompüter texnikasının bazası əsasında inkişafı kitabxanaşünaslıq bilikləri strukturunda müstəqil texnoloji istiqamətin formalaşmasına təsir göstərmişdir. Cəmiyyətin informasiyalaşdırılması informasiyanın toplanması, işlənməsi, təşkili, axtarışı, saxlanması və yayılması proseslərinin intensivləşdirilməsinə gətirib çıxardı. Kitabxana təcrübəsində yeni istiqamət kompüter informasiya texnologiyalarının öyrənilməsi, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması ilə assosiasiya olunmağa başladı. Kitabxana-biblioqrafiya sahəsində çalışan nəzəriyyəçilərin, metodistlərin, təcrübəçilərin və müəllimlərin birgə səyləri nəticəsində texnoloji biliklər ənənəvi kitabxana fəaliyyətində də yayılmış oldu. Peşəkar baxımdan bu dəyişikliklər kitabxana, nəşriyyat və informasiya işi haqqında Azərbaycan Respublikasının mövcud qanunlarında öz əksini tapmışdır.

Bir çox tədqiqatçıların (məsələn, M.S.Slobodyanik) apardıqları tədqiqatlar nəticəsində məlum olmuşdur ki, kitabxana haqqında texnoloji biliklərin izinə hələ uzaq keçmişdə, məsələn, XIII əsrdə fransız keşişi və teoloqu R.Furnivalın əsərlərində, XVII əsrdə fransız kitabxanaçısı, filosofu və həkimi Q.Nodenin “Kitabxananın təşkili haqqında məsləhət” (“Совет о устроении библиотеки”) adlı əsərində rast gəlmək olar. XIX əsrdə kitabxana fəaliyyətinin texnoloji aspektləri, kitabxana işinin rasional metodları alman kitabxanaşünasları M.Şrettingerin “Kitabxanaşünaslıq üzrə mükəmməl rəhbərlik və ya kitabxanaların müvəffəqiyyətli fəaliyyəti üçün rəhbərlik” ((“Опыт исчерпывающего руководства по библиотековедению, или руководство к успешной деятельности”) (1808-1829) və F.A.Ebertin “Kitabxanaçının təhsili” (“Образование библиотекаря”) (1820-1827) adlı əsərlərində öz əksini tapmışdır.

Rusiya kitabxanaçılıq elmində texnoloji istiqamət “rus kitabxanaşünaslığının banisi” V.İ.Sobolşikovun fəaliyyəti ilə bağlıdır. Müəllif “İctimai kitabxanaların təşkili və kataloqların tərtibi haqqında” (“Об устройстве общественных библиотек и составление каталогов”) (1859) adlı əsərində kitabxana

istehsal prosesini hərtərəfli təsvir edərək (kitabın fonda daxil olması və rəfdə yer almasından başlamış ta oxucuya verilməsi və yenidən kitabsaxlayıcıda ona ayrılan yerə qoyulmasına qədər) ayrı-ayrı əməliyyatlar arasındakı qarşılıqlı əlaqəni göstərmişdir.

F.A.Brokhauz və İ.A.Efronun (1890) ensiklopedik lüğətində kitabxanaşünaslıq qaydalar məcmusu kimi izah edilir ki, bunun da bir hissəsi nəzəri əsaslara, digəri isə kitabxananın təşkili və idarə olunması ilə bağlı əldə olunmuş təcrübəyə əsaslanır. Bütün bu qeyd olunanlar isə aşağıdakı formulda öz əksini tapır: "Az vəsait sərf etməklə işin düzgün qurulmasına nail olmaq üçün imkan daxilində kitabların mühafizəsini təmin etmək, yüz minlərlə kitab içərisindən lazım olanını çox əmək və vaxt itkisinə yol vermədən tapmaq lazımdır".

Bu cür görüşlər L.B.Xavkinanın "Kitabxanalar, onların təşkili və texnikası" ("Библиотеки, их организация и техника"), (1904), P.M.Boqdanovun "Kitabxana texnikası haqqında qeydlər" ("Заметки о библиотечной технике") (1910-1911), V.A.Nevskinin "Kitabxana texnikasının sadələşdirilməsi" ("Упрощение библиотечной техники") (1924) adlı əsərlərdə daha da inkişaf etdirilmişdir. Sovet dövründə isə kitabxana texnologiyası istiqamətində o qədər də irəliləyişlər əldə olunmamışdır. Yəni o zaman kitabxana texnologiyası - işin texnikası, kitabxana işində mövcud olan üsulların toplusuyla (məsələn, kitabxana kartoçkalarının yazılması, kitablara cibliklərin yapışdırılması, sorğu blanklarının hazırlanması və s.) əvəz olunmuşdur. Lakin hələ o vaxtlar kitabxana mütəxəssisi B.S.Bodnarski qeyd edirdi ki, kitabxanaçı necə xeyirxah niyyətli olursa-olsun, əgər texnikanı mənimsəməzsə, kitabxanada işəyarar bir şey etmək iqtidarında olmayacaqdır.

Kitabxana haqqında texnoloji biliyin tarixi baxımdan digər sələfi və konseptual mənbəyi təcrübi kitabxana fəaliyyətinin prinsiplərini, üsullarını və qaydalarını özündə birləşdirən **metodika** sayılır. Metodik bilik özünün tətbiqi istiqamətinə, nəzəriyyə ilə təcrübə arasındakı vəziyyətinə, elmdə, peşəkar fəaliyyətdə və təhsildəki yerinə görə hər zaman kitabxana ictimaiyyətinin diqqətini cəlb etmişdir. Lakin metodik biliyin tərkib hissəsindəki bəzi çatışmazlıqlar onun vacibliyini obyektiv şəkildə qiymətləndirməyə imkan vermir. Məsələn, metodik "qaydalar" və "prinsiplər" arasındakı fərqi müəyyən etmək olduqca çətindir; yaxud "metod" və "üsul" anlayışları (hərəkət üsulu mənasında) müəyyən mənada sinonim hesab olunur.

Nəticədə isə cəmiyyətdə üstün olan siyasi görüşlərin və ideoloji təsirin asılılığına düşmək ehtimalı çoxalır. Məsələn, Sovet hakimiyyətinin ilk illərində kitabxana metodikası kitabxana işi prinsiplərinin əsaslandırılması (kitabxananın fəallığı, diqqətin əhalinin xidmət işinə yönəldilməsi və s.) və onun formalarının işlənilməsi (savadlılığın təlimi, sərgilərlə iş bacarığı, ucadan oxu vərdişinin aşılanması və s.) ilə mərkəzləşdirilmişdir. Sonra isə metodistlər kitabxana fəaliyyətinin konkret istiqamətlərinin təhlili, praktik təcrübənin ümumiləşdiril-

məsi, müxtəlif təyinatlı və məzmunlu metodik məhsulların yaradılmasına səy göstərdilər. Bunun nəticəsində kitabxana fəaliyyətinin məqsədini, vəzifələrini müəyyən edən, konkret istiqamətlərinin məzmununu açan ("Universal elmi kitabxanalara köməklik", "Xalq təsərrüfatı işçilərinə informasiya xidmətinin vahid sisteminin təşkili" və s.) ümumi xarakterli metodik sənədlər meydana gəldi. Bundan əlavə, kitabxana-biblioqrafiya məhsullarına ("MKS-lərin kataloq və kartotekaları", "Sahəvi kitabxanalarda SBA", "Retrospektiv, elmi-köməkçi biblioqrafik göstəricilərin tərtib olunması") və xidmətlərinə ("MKS-lərdə informasiya xidmətinin formaları"), texnoloji proseslərə ("Sənədlərin sistemləşdirilməsinin texnoloji proseslərinin təşkili"), əməyin təşkili və idarə olunmasına ("MKS-lərdə kargüzarlıq işlərinin təşkili", "Sahəvi kitabxananın illik plan və hesabatının işlənilməsi") qoyulan ümumi və xüsusi tələbləri əhatə edən materiallar da geniş yayıldı.

Bu cür tövsiyələr peşəkar Sovet kitabxanaçılarının bir neçə nəslinin yetişməsinə səbəb olsa da, metodik fəaliyyətdəki ideoloji prioritetlər onları əsas işin qayəsindən uzaqlaşdırmış oldu. Nəticədə SSRİ məkanına daxil olan bütün respublika kitabxanaları, o cümlədən, Azərbaycan Respublikasının kitabxanaları da metodik baxımdan qlobal informasiyalaşma və cəmiyyətin kitabxana xidmətinin dəyişən tələblərə cavab verəcək səviyyədə olmadıqlarını sübut etdilər.

Biz bir vaxtlar özünü təsdiqləmiş metodik qərarların dəyişən informasiyalı cəmiyyətə nə qədər zidd olduğunun şahidinə çevrilirik. Strukturlu informasiya kütləsindəki (kataloqlar, biblioqrafik göstəricilər, verilənlər bazası) axtarış metodikası hipermətn resurslarındakı yeniliklərdən prinsipcə çox fərqlənir. Artıq tematik-biblioqrafik axtarış tammətnli axtarışa çevrilir. Praktiklər informasiya, kitabxana və biblioqrafiya xidməti arasındakı sərhədin "şəffaf"lığını gördükləri zaman metodistlər qətiyyətlə onlar arasındakı fərqi sübut etməyə çalışırlar. Kitabxana fondunun komplektləşdirilməsi və təşkili, oxuculara ədəbiyyat verilişi və tövsiyəsi, kitabxana-biblioqrafiya biliklərinin təbliğinin ənənəvi metodu ilə bərabər, elektron resursların üzə çıxarılması, uçotu, onlardakı dəyişikliklərin izlənilməsi, şəbəkə hipermedia məkanındakı yeniliklər, istifadəçilərə informasiyanın əldə olunması sahəsində özünəxidmətin təşkili formasıdır.

İ.Q.Morqenştern belə hesab edir ki, metodika ümumi və xüsusi iş metodlarının, texnologiya isə konkret hərəkətlərin ardıcıllığının təsvirini əks etdirir.

Avtomatlaşdırılmış kitabxana proseslərin layihələşdirilməsi və tətbiqi təcrübəsinin ümumiləşdirilməsi kitabxanaşünaslığın metodik potensialını əhəmiyyətli dərəcədə artırmış olur. Avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin (AKİS) yaradılması və fəaliyyətinin bir sıra baza prinsipləri elə kitabxanaların avtomatlaşdırılmış "intellektual konsepsiyası" sayılır. Beləcə, proqram və texniki vasitələrin qurulmasının modul prinsipi AKİS-in fəaliyyəti prosesində onların dəyişdirilməsi və mövcud olmasının mümkünlüyünü təmin etmiş olur.

Hələ 1960-cı illərin sonunda kitabxanaların avtomatlaşdırılması ilə bağlı xarici ölkələrdə aparılan tədqiqatlara yaranan maraq "Kitabxana texnologiyası" anlayışının meydana gəlməsinə səbəb oldu. Məsələn, ABŞ-da kitabxana əməyinin məzmununun öyrənilməsi, yeni texnikanın mənimsənilməsi, kitabxana təcrübəsinə informasiya texnologiyalarının tətbiqi ilə bağlı tədqiqatların "texnoloji" istiqaməti yaranmış olur. Almaniyanın kitabxana işində isə struktur və təşkilatı dəyişikliklərin təsiri altında kitabxanaların idarə olunmasına "İstehsal nöqteyi-nəzərindən" baxılması vacibliyi haqqında fikirlər meydana gəlir. SSRİ-də isə texnoloji biliklər haqqında ilk məlumat İ.M.Fruminin səyləri nəticəsində mümkün olmuşdur. O qeyd edirdi ki, "kitabxana texnologiyası kitabxanaların normal fəaliyyətini təmin edən proseslərin məcmusudur". Bu tərif uzun müddət kitabxana işinə dair lüğətlərdə öz əksini tapmış oldu. Məhz onun təşəbbüsü ilə "dövr-proses - əməliyyat" anlayışlarının ierarxiyası qurulmuş, əsas kitabxana dövriyyələri: işləmə prosesində kitabın keçdiyi yol, oxucu tələbnaməsinin, biblioqrafik arayışın keçdiyi yol xarakterizə olunmuşdur.

Peşəkar cəmiyyət isə kitabxana reqlamentlərinin yeni nəslinin yaradılması ilə vəziyyəti dəyişməyə çalışırdı. 1980-ci illərdə İnformasiya, kitabxana və nəşriyyat işi sahəsində standartlar sistemi (SİBİD) işlənib hazırlanır, çoxlu sayda tövsiyələr və müddəalar (fəaliyyətin koordinasiyası, kitabxanaların biblioqrafik işi, toplu kataloqlar sistemi və ödənişli xidmətlər haqqında və s.) qəbul olunur, kitabxanaların təcrübəsinə texnoloji sənədləşdirmə (texnoloji göstərişlər, texnoloji proseslərin xəritələri, nəqliyyat xəritələri, texnoloji kartoteka) tətbiq olunur, "Kitabxanaçının məlumat kitabçası" (M, 1985) nəşri işıq üzü görür ki, burada da kitabxana fəaliyyətinin əsas istiqamətləri üzrə normativ sənədlərin, metodik materialların və təcrübi tövsiyələrin toplusu öz əksini tapmışdır.

Beləliklə, kitabxana texnologiyası dedikdə ilk növbədə kitabxana prosesləri, eləcə də üsulları, metodları və vasitələrinin məcmusu başa düşülür. Onların həyata keçirilməsi isə kitabxana məhsullarının yaradılması və mühafizəsi, həmçinin kitabxana xidmətinin yerinə yetirilməsinə yönəldilmişdir. Kitabxana texnologiyası eyni zamanda:

- Kitabxananın istifadəçilərinə informasiya məhsulları və informasiya xidmətinin göstərilməsi, eləcə də informasiya məhsullarının istehsalı sahəsində həyata keçirilən təcrübi fəaliyyət;
- Həmçinin kitabxanada həyata keçirilən istehsal prosesinin texnoloji prinsip, norma və qaydaları haqqında tətbiqi elmi bilik və tədris fənnidir.

Göründüyü kimi, bu təriflərdə "kitabxana texnologiyası" anlayışının həcmi informasiya xidməti və məhsullarının istehsalı miqyasına qədər genişlənmişdir.

Kitabxana fəaliyyətinə texnoloji yanaşmanın işlənib hazırlanması aktuallığı aşağıdakı məsələlərlə şərtləşir:

a) stereotiplərin peşəkar düşüncəsində yaranan, o cümlədən "kitabxana fəaliyyətinin prosesləri və əməliyyatlarının" toplusu kimi kitabxana texnologiyasının məhdudlaşdırılması fikirlərinə tənqidi yanaşmanın vacibliyi kitabxananın texnoloji sistem kimi dərk edilməsi üçün resurs yanaşmaya alternativ sayılır. Belə ki, bu zaman kitabxananın fəaliyyət effektivliyi fondun həcminə və oxucuların sayına görə qiymətləndirilir. Məhz kitabxana tərəfindən hazırlanan informasiya məhsullarının və təqdim olunan xidmətlərin çeşidliliyi onun funksional təyinatını və resursların istifadəsinin effektivliyini müəyyən etmiş olur;

b) kitabxanaların kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasına olan tələbat. Yeni informasiya texnologiyalarının tətbiqi kitabxana istehsalı problemini üzə çıxardı, mütəxəssislərin onun əsas komponentləri (əməyin predmeti, istehsal prosesləri, yekun məhsullar) və onların qarşılıqlı əlaqələrinin öyrənilməsi ilə məşğul olmaları məcburiyyətini yaratdı. Evristik metod və üsulların əsasında intuisiya və analogiya üzrə fəaliyyətin əvəzinə kitabxana əməyinin alqoritmləşdirilməsinə tələbat artmaqdadır;

c) elmi ideyalar və onların təcrübəyə tətbiq edilməsi əlaqələndirici bənd rolunu oynayan kitabxanalar haqqında sistemli texnoloji biliyə artan sorğu kitabxana fəaliyyətinin optimal xarakterini təmin edir və çox asanlıqla mənimsənilir. Texnoloji yanaşma, nəinki konkret məsələnin həlli aləti, həmçinin effektli peşəkar düşüncənin üsuludur.

Texnoloji biliyin kitabxana fəaliyyətinə keçməsi, kitabxanaya istehsal sistemi kimi baxmağa imkan verir. Fikrimizcə, kitabxana istehsalı informasiya istehsalının xüsusi bir halı hesab olunur. Bu isə onların texnoloji strukturlarını adekvat hesab etməyə, kitabxana istehsalının komponent tərkibini xarakterizə etməyə imkan verir.

Kitabxana fəaliyyətinin texnoloji məqsədi kimi kitabxanada informasiya, tədris, sosial-mədəni məhsul və xidmətlərin az resurs itkisi ilə istehsalına nəzər salaq. Bu məqsəd – kitabxananın informasiya, mədəni, tədris kimi əsas sosial funksiyaları ilə uyğunlaşdırılır. İstifadəçilərin sorğuları (informasiya tələbatları) və sənədlər (sənədləşmiş informasiya) kitabxana fəaliyyətinin predmeti hesab edilir. Kitabxana fəaliyyəti (klassik mənada) kitabxanaya daxil olan sənədlərə və abonent sorğularına "reaksiya" sayılır. İnformasiyanın uzaq məsafədən əldə edilməsi texnologiyasının inkişafı ilə kitabxana – lokal fondun məhdudluğunun qarşısını almaq və öz fəaliyyətinin predmet sahəsini genişləndirmək imkanı əldə edir.

Kitabxana fəaliyyəti prosesləri (onun texnoloji struktur elementləri kimi) istehsal və texnoloji kitabxana prosesləri qismində təqdim olunurlar ki, onlar da öz növbəsində texnoloji əməliyyatlar, üsullara və keçidlərə bölünürlər.

Kitabxana fəaliyyətinin proses baxımından strukturlaşdırılması birmənalı həlli olmayan mürəkkəb nəzəri və texnoloji problemdir. Kitabxana, nəşriyyat və informasiya işi ilə əlaqədar sistemin terminoloji standartlarının əsasında

kitabxana fəaliyyətinin strukturunda əsas prosesləri (baza kitabxana-biblioqrafiya texnologiyalarının mahiyyəti) ayıraq. Bunlar fondun formalaşması, kataloqlaşdırma, biblioqrafiyalaşdırma, informasiya axtarışı, kitabxana xidməti, biblioqrafik xidmətdir.

Kitabxana fəaliyyəti proseslərinin reallaşdırılması, istehsalın müvafiq resurs və vasitələrlə təmin edilməsini tələb edir. Sənəd resursları kitabxana texnologiyasının başlıca maddi resursu (ilkin "xammalı") hesab edilir. Bu planda sənədin əhəmiyyəti ən çox onun material konstruksiyası ilə deyil (əgər bu, əlyazma mənbəyi, tarixi abidə və incəsənət əşyası deyilsə), onun tərkibi, məzmunu ilə (informasiya) müəyyən edilir. Bununla bərabər sənədin quruluşu, onun formatı, daşıyıcının növü qəbul olunan texniki qərarlara (sənədin işlənmə növü, düzülüş üsulu, mühafizə rejimi və s.), texnoloji proseslərin təşkilinə (funksional ixtisaslaşma, mərkəzləşdirmə və koordinasiyanın, ardıcıl və paralel əməliyyatların uyğunluğu və s.) təsir göstərir.

Artıq qeyd olunduğu kimi, kitabxana xidmətinin klassik metodikası konkret kitabxananın (kitabxana sisteminin) sənəd fonduna istiqamətlənmişdir. Ənənəvi biblioqrafik metodika axtarışı real fondun hüdudlarından çıxararaq, onun bazasını tematik, dil, növ, ərazi aspektlərində genişləndirərək, bu məhdudiyyətləri aradan qaldırır. Lakin bu halda da istifadəçilərin informasiya sorğularının təmin edilməsinin resurs bazası real soraq-biblioqrafiya fondunun – informasiya, biblioqrafik, soraq nəşrlərinin mövcud repertuarının hüdudlarında məhdudlaşdırılır. Eyni zamanda informasiya texnologiyaları istifadəçilər üçün vacib olan informasiyanın istifadəsindəki məkan məhdudiyyətlərini aradan qaldıraraq elektron resursların (biblioqrafik, tammətnli, faktoqrafik və s.) dünya (virtual) "fonduna" girişi təmin edir.

Maddi resursların digər qrupunu kitabxana istehsalında istifadə olunan əsas və köməkçi materiallar təşkil edir. Bunlar informasiya daşıyıcıları, surətçıxarma, dizayner və tərtibat işləri üçün sərf olunan digər materiallardır.

Maddi resursların digər bir qrupunu kitabxana istehsalı vasitələri təşkil edir. Onların köməyi ilə əməyin predmetinə təsir prosesi həyata keçirilir. Bu, ilk növbədə texniki təchizat, eləcə də istehsal binaları və tikililəri, texnoloji xətlər və sahələrdir. Müasir kitabxana sənəd mənbələrinin ictimai istifadəsinin təşkili ilə bağlı ənənəvi xidmətlərdən əlavə tirajın təyin edilməsi, informasiyanın ötürülməsi, nəşriyyat fəaliyyəti məhsullarının istehsalı, informasiyanın analitik-sintetik işlənilməsi proseslərini ifadə edir, verilənlər bazasını yaradır və istifadə edir, multimedia, hipermətn, şəbəkə texnologiyalarını əhatə edir. İnformasiya istehsalının və servisinin müxtəlif növlərinin inteqrasiyası hesabına kitabxana öz texniki potensialını zənginləşdirmişdir. Bu gün kitabxana fəaliyyətinin texniki vasitələri kimi fərdi kompyuterlər və periferiya qurğuları (printerlər, skanerlər, modemlər, multimedia vasitələri), müasir telekommunikasiya və şəbəkə avadanlıqları, məişət elektronikası, nəşriyyat kompleksləri və

s. geniş tətbiq edilir. Elektron hesablama texnikasının bazasında komplektləşdirici, kataloqlaşdırıcı, biblioqraf, metodist, inzibatçı və digər kitabxana ixtisasçılarının istehsal funksiyalarının yerinə yetirilməsinə istiqamətlənmiş ixtisaslaşmış avtomatlaşdırılmış işçi yerlərinin yaradılması geniş vüsət almışdır.

Kitabxana fəaliyyəti spesifik proqram və linqvistik vasitələrə malikdir ki, onların da seçimi (hazırlanması) və istifadəsi (aprobasiyası) sahələrin, konkret kitabxana və birliklərin miqyasında aktual texnoloji məsələləri əhatə edir. Kitabxana heyəti kitabxana fəaliyyətinin subyekti, informasiya məhsulları və xidmətlərinin istehsalçısı kimi mütəxəssislərin və köməkçi heyətin kəmiyyət və keyfiyyət tərkibi ilə, eləcə də peşəkar mənsubiyyətlik bölgüsündə vəzifə statusunun, təhsil səviyyəsinin, istehsal təsnifatının yerləşdirilməsi ilə xarakterizə olunur. Kitabxananın ştatında olan heyətin bölgüsü aşağıdakı kateqoriyalar üzrə həyata keçirilir: kitabxana mütəxəssisləri, digər sahələrin mütəxəssisləri (filoloqlar, psixoloqlar, sosioloqlar, iqtisadiyyatçılar, hüquqşünaslar, mühəndislər, proqramçılar və s.), köməkçi (texniki) heyət. İFLA-nın standartlarına uyğun olaraq, ştatda olan heyətin 1/3 (bu göstəricidən aşağı ola bilməz) hissəsi ixtisaslı işçilər olmalıdır. Kitabxana mütəxəssisləri ilə kitabxananın digər işçi kateqoriyaları arasındakı nisbət müxtəlif ölkələrdə 2:3-dən 1:3 hüdudlarında tərəddüd edilir, ən çox isə 1:2 nisbətinə rast gəlmək olar.

Təbiidir ki, kitabxana fəaliyyətinin effektli və səmərəli olması üçün əməyin bölgüsü düzgün aparılmalı, əsas üstünlük işçilərin peşəkarlığına, biliyinə, bacarığına, təcrübəsinə verilməlidir. Əməkdaşların peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi, onlar tərəfindən texnoloji intizamın gözlənilməsi göstəricilərinin qiymətləndirilməsi də öz növbəsində kitabxana proseslərinin kifayət qədər normalaşdırma səviyyəsindən, dəqiq tələblər və texnoloji təlimatların mövcudluğundan asılıdır. Buradan da kitabxana fəaliyyətinin struktur xarakteristikasını reqlamentləşdirən informasiyanın əhəmiyyəti müəyyən edilir. Bu informasiya kitabxana proseslərinin normalarını, tələblərini, qaydalarını və ardıcıllığını təyin edir, istehsal olunan məhsulların və xidmətlərin nümunələrini və etalonlarını müəyyənləşdirir. Kitabxanada tələb olunan çeşid, kəmiyyət və keyfiyyətdə informasiya məhsulları və xidmətlərinin istehsalı üçün vacib olan informasiyanın yaradılması, təşkili və istifadəsi kitabxana texnologiyasının normativ-metodik təminatının mahiyyətini təşkil edir. O, nəzəri, metodik biliyin və praktiki təcrübənin təhlilini; tələb, qayda və tövsiyələrin müəyyənləşdirilməsi; real və potensial məsələlərin həlli üçün onların dəfələrlə istifadəsini nəzərdə tutur.

Nəhayət, kitabxana fəaliyyəti strukturunun yekunlaşdırıcı komponenti, onun nəticəsi olan müxtəlif məzmunlu və təyinatlı informasiya məhsulları və xidmətləridir. Məhz bu komponent kitabxananın servis sistemi kimi fəaliyyətinin mənasıdır.

## ƏDƏBİYYAT


*1. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının "Elektron resursların yaradılması" şöbəsinin 2006-2007-ci illər üzrə hesabatları.*

*2. Астапович, Е.Г. Библиотечная технология (Текст):основы библ.технологии: учеб. пособие / Е.Г.Астапович.-М.: Изд-во Моск. гос. ин-та культуры, 1991.-Ч.1.- 54 с.*

*3. Гиляревский, Р.С. Основы информатики (Текст): курс лекций / Р.С. Гиляревский.- М.: Экзамен, 2003.- 319 с.*

*4. Пилко, И.С. Информационные и библиотечные технологии (Текст): Учеб. пособие / И.С.Пилко.- СПБ.: Профессия, 2006.-342 с. - (Серия «Библиотека»).*

*5. Земсков, А.И. Электронные библиотеки (Текст): Учеб. для вузов/ Земсков, А.И. Шрайберг, Я.Л. - М.: Либерея, 2003.-352 с.*

*6. Шрайберг, Я.Л. Основные положение и принципы разработки автоматизированных библиотечно-информационных систем и сетей (Текст) /Я.Л. Шрайберг // М.: Либерея, 2001.-103 с.*

*7. Фрумин И.М. Библиотечное дело: орг. и управление (Текст) / И.М. Фрумин // М.:Книга, 1980.-272 с.*



***Х. И.ИСМАИЛОВ***


## КНИГОВЕДЕНИЕ КАК ЭВОЛЮЦИЯ ТЕХНОЛОГИЧЕСКИХ ЗНАНИЙ


***РЕЗЮМЕ***

*В статье говориться, что книговедение является эволюцией технологических знаний, и здесь было освящено переход технологических знаний на деятельность библиотек, рассматривание библиотек как производственные системы, а также обработка технологического подхода к деятельности библиотек.*



***Kh.İ.İSMAİLOV***


## LIBRARY SCIENCE AS EVOLUTION OF TECHNICAL KNOWLEDGE


***SUMMARY***

*In article is shown, that the library science is evolution of technical knowledge and there is lightened the transition of technical knowledge to activities of libraries, looking through of libraries as industrial systems, also technological approach to activities of libraries which has been worked out.*

**Sahib RZAYEV**
***Kitabxanaşünaslıq kafedrasının dosenti,***

**Cəlalə BAXIŞZADƏ**
***magistrant***

# KÜTLƏVİ KİTABXANALARDA ƏDƏBİYYAT TƏBLİĞİNDƏ ƏYANİLİK PRİNSİPİ

Müxtəlif oxucu qruplarının və fərdlərin mütaliə tələbatına müvafiq olaraq ayrı-ayrı elm sahələri üzrə ədəbiyyatı məqsədəmüvafiq şəkildə təbliğ etmək kitabxanaların qarşısında qoyulan başlıca vəzifədir. Bu baxımdan kitabxanalar ədəbiyyatın həm fərdi, həm də kütləvi təbliğat üsullarına müraciət edirlər.

Mütaliənin geniş ictimai məzmun kəsb etdiyi bir şəraitdə ədəbiyyatın kütləvi təbliğat formasına müraciət etmək daha vacib sayılır. Müxtəlif oxucu qruplarının daha çox müraciət etdiyi kütləvi kitabxanalarda ədəbiyyatın kütləvi təbliğatına daha çox müraciət olunur. "Kütləvi kitabxanaların cəmiyyətin mənəvi həyatındakı mövqeyi xeyli möhkəmlənmiş, əhalinin ən çox sevdiyi və xidmətindən istifadə edib bəhrələndiyi bir müəssisəyə çevrilmişdir" (1). Belə ki, müxtəlif təhsil, peşə, bilik və intellektual səviyyə baxımından fərqlənən oxucularla işdə kütləvi təbliğat üsulundan istifadə etmək effektiv sayılır.

Kitabxanalarda ədəbiyyatın kütləvi təbliğatı formaları sırasında əyani təbliğat mühüm təsir gücünə malikdir. Əyanilik prinsipinə əsaslanan bu təbliğat forması oxucuların nəzər diqqətini cəlb etməklə, onların hər birinə psixoloji təsir göstərir, maraq oyadır. Ədəbiyyatın əyani təbliği tövsiyə olunması vacib sayılan çap məhsullarının müəyyən formada bilavasitə nümayiş etdirilməsidir. Canlı hissi qavrayış (xüsusilə görmə duyğularımız) mövcud əşyaları və hadisələri bilavasitə əks etdirir. Bizim təfəkkürümüzün qidalanması bu əksetdirmənin nəticəsində baş verir. Çünki təfəkkür cisim və hadisələrin mahiyyətinin, onlar arasındakı əlaqə və asılılıqların insan şüurunda ümumiləşmiş və vasitəli inikasından ibarət olan idrak prosesidir. Görmə duyğularımıza güclü təsir edə bilmək cəhətdən əyanilik mühüm əhəmiyyət kəsb edir ki, kitab təbliğində kitabxanalar üçün vacib sayılan vasitədir. "Hissi idrakın mühüm mərhələsini təşkil edən qavrayış prosesi cisim və hadisələri bütün əlamət və xüsusiyyətləri ilə birlikdə, yəni bütövlükdə əks etdirir" (2). Ona görə də əyani vasitələrin ayrı-ayrı növlərindən istifadə etmək zərurəti yaranır.

Ətraf aləm haqqında əldə etdiyimiz məlumatlar duyğularımız vasitəsilə baş verir. Duyğularımız isə beşdir: görmə duyğusu, eşitmə duyğusu, dad bilmə duyğusu, iy bilmə duyğusu, nəhayət toxunma duyğusu. Bu duyğular içərisində bizim təfəkkürümüzü aydın və inandırıcı şəkildə qidalandıran görmə duyğusu-

dur. Çünki gördüklərimiz bizi daha çox inandırır, təsirləndirir və yaddaşımızda dərin iz qoyur. Ona görə də istər dərketmə prosesində, istərsə də təbliğat-təşviqat, təhsil və tərbiyə işində əyanilik mühüm prinsip kimi qəbul edilmişdir (3).

Bakı şəhəri Xətai rayon Mərkəzləşmiş Kitabxana Sisteminin oxuculara xidmət işini, eləcə də ədəbiyyat təbliği ilə əlaqədar fəaliyyətini araşdırarkən burada əyani vasitələrdən daha geniş istifadə edildiyinin şahidi olduq. Bununla əlaqədar kitabxananın illik hesabatında deyilir: "Kitabxanamıza daha çox oxucu cəlb edilməsinə və onların mütaliə marağına təsir göstərmək üçün əyani vasitələrə - kitab sərgilərinə, kitabxana plakatlarına və kitabxana albomlarına daha çox müraciət etməyi vacib bilirik" (4).

Bir cəhəti də qeyd edək ki, kitabxanalarda əyanilik prinsipinə müraciət olunması oxucuların idrak prosesinin üçüncü pilləsində, yəni təcrübi fəaliyyət zamanı xüsusi təsiredici rol oynayır. Kitabxanada hər hansı problemə həsr olunmuş əyani vasitə ayrı-ayrı oxucuya, özünün konkret biliyinə və təcrübəsinə əsaslanmaqla kitabın və mütaliənin onun həyatında necə müsbət rol oynayacağına inanmağa kömək edir.

Kitabxana şəraitində ədəbiyyatın əyani təbliği iki üsula əsaslanır. Bu üsulların biri çap məhsullarının bilavasitə özünün nümayiş etdirilməsi, digəri isə çap məhsullarının, xüsusilə kitabların şəklinin, müəyyən kitabların lazım gələn səhifələrinin təsviri sənət və ya foto vasitəsilə nümayiş etdirilməsidir. Kitabların, müxtəlif çap məhsullarının özünü nümayiş etdirən kütləvi təbliğat üsulu kitab sərgiləri hesab olunur. Kitabların şəklini müxtəlif cəhətdən nümayiş etdirən, bu vasitə ilə onların məzmunu haqqında məlumat verən kütləvi təbliğat üsulu isə kitabxana plakatları və kitabxana albomlarıdır.

Kitabxanaların təcrübəsi təsdiq edir ki, əyani təbliğat üsulları sırasında kitab sərgiləri daha çox kütləvi xarakter daşıyır. Çünki kitab sərgiləri kitabxana-biblioqrafiya fəaliyyətinin bütün iş növlərində istifadə olunur. Xətai rayon MKS-də keçirilən hər bir kütləvi tədbir zamanı istər kitab müzakirəsi zamanı, istər ayrı-ayrı müəlliflərlə, şair və yazıçılarla görüşlərdə, biblioqrafik icmallar keçirilərkən kitab sərgilərindən istifadə edilmişdir.

Bir cəhəti qeyd edək ki, oxucu sərgi vasitəsilə buradakı kitablarla təmasda olarkən onu araşdırır, hər hansı kitabın özü üçün nə dərəcədə lazımlı olduğunu müəyyənləşdirə bilir. Bununla bərabər tövsiyə olunan ədəbiyyatla sərgi vasitəsilə tanışlıq oxucuda həmin kitaba daha dərin məqsədyönlü maraq oyadır. Kitabxanaçıların da qarşısında duran mühüm vəzifələrdən biri oxucularda mütaliə marağını gücləndirmək, hər hansı elm, ixtisas və peşə ilə əlaqədar ədəbiyyata sabit, dərin marağı formalaşdırmaqdır.

Kitabxanalarda təşkil edilən kitab sərgiləri məqsədinə və məzmununa görə iki növə bölünür: a) Məlumat xarakterli universal sərgilər, b) Tövsiyə xarakterli sərgilər. Bu gün müxtəlif oxucu qrupları üçün tövsiyə xarakterli sərgilər (mövzu sərgiləri) daha əhəmiyyətli hesab olunur. Çünki hər hansı ixti-

sas və peşə sahibi olan oxucu üçün müvafiq mövzu üzrə ədəbiyyatı bütöv şəkildə görüb onu araşdırmaq, lazım olanları seçib götürmək imkanı yaranır.

Bu gün bütün kitabxanalarda, xüsusilə kütləvi kitabxanalarda təşkil olunan hər hansı tematik sərginin başlıca məqsədi həmin kitabxananın fondu əsasında hər hansı aktual mövzuya və ya problemə dair kitabları oxucuların nəzərinə çatdırmaq və oxunmasına maraq yaratmaqdır. Tematik sərgilər həm də kitabxananın oxucularını fondun ayrı-ayrı şöbələrinin tərkibi ilə tanış edir. Bütün bunları nəzərə alaraq hər bir kitabxanaçı oxucuların ümumi ehtiyacı baxımından və elmin, istehsalatın tələbatından asılı olaraq özünün işlədiyi kitabxananın fondunun məzmununun açılması üçün rəngarəng mövzularda sərgilərin təşkilinə böyük əhəmiyyət verməlidir. Bu cəhətdən Xətai rayon MKS-də planlı şəkildə məqsədyönlü iş aparılır. Kitabxananın fondunda siyasi, iqtisadi, mənəvi, təhsil və tərbiyə, səhiyyə sahəsindəki uğurlardan, eləcə də mövcud problemlərdən bəhs edən ədəbiyyata oxucuların nəzərini cəlb etmək üçün “Bizim gələcəyimiz”, “Milli qəhrəmanlarımız”, Azərbaycana qarşı ermənilərin soyqırım siyasəti ilə əlaqədar “Tarixi həqiqətlər”, Heydər Əliyevin doğum günü ilə əlaqədar “Ulu öndər” və s. sərlövhəli tematik sərgilər həmin mövzularda mövcud kitabların oxunuşuna təsir göstərmişdir.

Kitabxananın uşaq şöbəsində uşaqları şair və yazıçıların həyat və fəaliyyəti ilə tanış etmək, məktəbli oxucuları onların əsərlərini mütaliə etməyə yönəltmək üçün maraqlı tematik sərgilər təşkil edilmişdir. Bu sərgilərdə əyanilik böyüklər üçün təşkil olunan sərgilərlə müqayisədə daha güclü olmalıdır. Çünki böyüklərlə müqayisədə hər bir məsələ barədə əyanilik uşaqlarda daha aydın təsəvvür yaradır. İstər yaşlı oxucular, istərsə də uşaq oxucular üçün tematik sərgi təşkil edərkən onun mövzusunun məqsədəmüvafiq seçilməsi vacib şərtdir. Çünki tematik sərginin mövzusunun seçilməsi kitabxananın oxucularının ümumi marağının nəzərə alınması və sərginin oxucu istiqamətinin müəyyənləşdirilməsi ilə sıx əlaqədardır. Oxucuların marağının və sorğularının nəzərə alınması sərgidə nümayiş etdiriləcək materialları müəyyənləşdirməyə kömək edir.

Tematik sərgilər təşkil edərkən birinci növbədə uğurlu sərlövhə seçilməlidir. Sərginin sərlövhəsi diqqəti cəlb edən, hər kəsdə maraq oyadan, bir qədər də pafoslu olmalıdır. Tematik sərgidə əyaniliyi gücləndirmək üçün müxtəlif vasitələrdən, belə ki, mövzunun məzmununun açılmasına kömək edən şəkillərdən, faktlar və rəqəmlərdən istifadə olunmalıdır. Çünki sərginin mövzusunun əhəmiyyətinin aşkar edilməsində sitatların mühüm əhəmiyyəti vardır. Sərgi üçün sitat seçərkən görkəmli elm, maarif, ədəbiyyat və mədəniyyət xadimlərinin, eləcə də tanınmış ictimai xadimlərin fikirlərinə müraciət edilməlidir.

Kitabxanalarda ədəbiyyatın kütləvi əyani təbliğat üsullarından danışarkən kitab sərgiləri ilə bərabər kitabxana plakatlarından yan keçmək olmaz. Çünki plakat təsviri sənətin kütləvi növü olub, əyani təbliğatın təsiredici vasitələrindən biridir. Plakatlardan yalnız kitabxanalarda deyil, müxtəlif idarə və təşki-

latlar özləri üçün vacib sayılan fikir və anlayışları, ideyaları əhalinin nəzərinə çatdırmaq üçün plakatın müxtəlif növlərindən məqsədəmüvafiq şəkildə istifadə edirlər. Kitabxanalarda isə plakatın müxtəlif növlərinə daha çox müraciət olunur. Plakatın üç növü mövcuddur ki, kütləvi kitabxanalarda hər üç növdən təbliğat, təşviqat və təlimat məqsədli plakat növlərindən geniş istifadə olunur.

Adından da məlum olduğu kimi təbliğat plakatları konkret mövzu üzrə lazımi ədəbiyyatı kitabxana şəraitində təbliğ etmək üçün tərtib edilir. Bu cür plakatlar tematik sərgilər kimi tövsiyə xarakteri daşıyır və tərtibatında tematik sərgilərin tərtibi qaydalarındakı prinsiplər gözlənilir. Lakin təbliğat plakatında sərgiyə nisbətən əyanilik daha güclü olmalıdır.

Kitabxanalarda təşviqat plakatlarını tərtib etməkdə başlıca məqsəd oxucuların diqqətini müəyyən bir anlayışa yönəldib, ondan nəticə çıxarmalarına nail olmaqdır. Bu baxımdan Xətai rayon MKS-də kitabxana şəraitində oxucuların fəaliyyəti zamanı müsbət və mənfi halları oxucuların nəzərində canlandırmaq üçün təşviqat plakatlarına müraciət olunur.

Bütün kitabxanalarda olduğu kimi, kütləvi və uşaq kitabxanalarında da geniş istifadə olunan plakat növlərindən biri təlimat plakatlarıdır. Təlimat plakatları oxucularda mütaliə mədəniyyəti tərbiyə etmək, onlara kitabxanadan və kitabdan istifadə qaydaları aşılamaq məqsədi daşıyır. Kitabxanalarda bu cür plakatlar adətən "Kitabxanadan necə istifadə etməli", "Sistemli kataloqdan ədəbiyyatı necə seçməli", uşaq kitabxanalarında və uşaq şöbələrində "Kitablarla necə rəftar etməli", "Kitaba rəyi necə yazmalı" və s. başlıqlar altında tərtib olunur. Bu cür plakatlarda verilən metodik izahatlar adətən müvafiq şəkillərlə müşayiət olunmalıdır.

Müxtəlif növlü kitabxanalarda, xüsusilə uşaq kitabxanalarında əyanilik kütləvi təbliğat formalarından olan kitabxana albomlarının tərtibinə də mühüm əhəmiyyət verilir. Bu sahədə ayrı-ayrı uşaq kitabxanalarının iş təcrübəsinə müraciət etmək olar ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fəaliyyətini xüsusi qeyd etmək olar. Kitabxananın müxtəlif yaş qrupları üzrə mövcud oxu zallarının kitabxanaçıları məktəblilərin fəal iştirakı ilə məktəblilər üçün əhəmiyyət kəsb edən və məktəb proqramına uyğun olan mövzuları əks etdirən kitabxana albomları hazırlayırlar. Bu məqsədlə hər bir məktəbliyə müvafiq bir mövzu verilir və həmin mövzuda albom tərtib etmək üçün lazımi materiallar adətən kitabxanaçıların köməyi ilə kitabxana şəraitində toplanılır. Məktəblilər tapşırılan mövzularda albomların tərtibi modelini tapşırığı verən kitabxanaçının iştirakı ilə hazırlayırlar.

Bir cəhəti qeyd edək ki, Xətai MKS-in uşaq şöbəsinin kütləvi işləri ilə tanış olarkən uşaq oxucular üçün maraq doğuran kitabxana albomlarının tərtibi ilə əlaqədar nümunələrə rast gəlmədik. Uşaq kitabxanalarında və uşaq şöbələrində kitabxana albomlarının tərtibini, uşaqların bu işdə fəal iştirakını ona görə vacib hesab edirik ki, bu cür albomlar görkəmli şair və yazıçıların, elm, mədə-

niyyət və ictimai xadimlərin həyat və yaradıcılığına həsr olunur. Belə albomların tərtibi zamanı məktəbli oxucular lazımi materialları araşdırmalı olur, tanınmış şəxsiyyətlərin həyatı ilə yaxından tanış olur ki, bu da onların tədris fəaliyyətində mühüm köməkçi vasitə olur.

Nəticə olaraq onu deyə bilərik ki, əyani təbliğat formaları kütləvi kitabxanalarda ədəbiyyat təbliği ilə bərabər, həm də oxucuların intellektual səviyyələrinin yüksəlməsində və mənəvi tərbiyəsində təsiredici rola malikdir.

## ƏDƏBİYYAT


1. *Xələfov A.A. Kitabxanşünaslığa giriş: Dərslik. Hissə 3. – B., 2003, s.38.*
2. *Bayramov Ə.S. və Əlizadə Ə.Ə. Psixologiya: Dərslik. B., 2002, s.257.*
3. *Rzayev S.M. Kitabxana xidməti: Dərslik. B., 2009, s.24.*
4. *Xətai rayon MKS-in 2007-ci il hesabatı.*
5. *Xətai rayon MKS-in 2008-ci il hesabatı.*



***С. РЗАЕВ***
***Д. БАХЫШЗАДЕ***


## ПРИНЦИП НАГЛЯДНОСТИ ПРОПАГАНДЫ ЛИТЕРАТУРЫ В МАССОВЫХ БИБЛИОТЕКАХ


***РЕЗЮМЕ***

*В статье говорится о формах наглядной массовой пропаганды литературы. В связи с этим приводятся примеры проводимой работы в массовых библиотеках в том числе ЦБС Хатаинского района.*



***S. RZAYEV***
***J. BAKHİSHZADEH***


## THE PRİNCİPLE OF OBVİOUSNESS İN THE PUBLİCITY OF THE LİTERATURE AT MASS LİBRARİES


***SUMMARY***

*The article is about obvious mass publicity forms of the literature. According to this, it was given work examples doing at mass libraries, also CLS of Xatai region.*

**Knyaz ASLAN**
***pedaqoji elmlər namizədi,***
***dosent***

## CƏLİL MƏMMƏDQULUZADƏNİN FELYETONLARINDA KİTAB VƏ MÜTALİƏ MÖVZUSU

2009-cu ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, məşhur yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 140-cı ildönümü tamam olur. Milli mədəni, ictimai və pedaqoji fikrin inkişafı yolunda mühüm xidmətlər göstərmiş ustad sənətkarın yubileyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il fevralın 6-da xüsusi sərəncam imzalamışdır (4).

Cəlil Məmmədquluzadə ədəbi fəaliyyətə başladığı illərdən xalqımızın mədəni geriliyinə, dini xürafata, mövhumata, cəhalətə, avamlığa, mürtəce çarizm siyasətinə qarşı inadla mübarizə aparmış, milli mədəniyyətin yüksəlməsi üçün mühüm xidmətlər göstərmişdir. Usatad sənətkar ömrü boyu kitabın, mütaliənin, kitabxananın, elmin, mədəniyyətin rolunu yüksək qiymətləndirmiş, xalqın savadlanmasının qayğısına qalmış, doğma xalqının digər millətlərdən mədəni səviyyəcə geridə qalması faktı ilə heç cür barışa bilməmişdir. O, istər ədəbi-bədii əsərlərində, istərsə də publisistik məqalələrində özünəməxsus şirin dillə, sadə üslubla kitabı və mütaliəni təbliğ etmiş, xalqın və vətənin xoşbəxtliyini elmdə, bilikdə görmüşdür. Böyük ədib bu məqsədlə özü də Azərbaycan balalarının savadlanması və millətə xeyir verməsi üçün bir sıra dərs kitabları yazmış, həm Borçalıda, həm də Bakıda məktəbdə çalışarkən kitabın və mütaliənin əhəmiyyətini əhaliyə başa salmağa çalışmışdır. Cəlil Məmmədquluzadə hər bir xalqın milli varlığını, mədəniyyətini qorumaq üçün hər şeydən əvvəl həmin xalqın azadlıq qazanmasını birinci şərt hesab edirdi. Ona görə də Azərbaycanda sovet hakimiyyəti qələbə çaldıqdan sonra müəyyən müstəqillik qazanmış respublikamızda elmin, təhsilin, mədəniyyətin, o cümlədən kitabxana işinin inkişafı onun diqqət mərkəzində dayanmışdı.

Mirzə Cəlil əsrimizin əvvəllərində məktəb, mədəniyyət, dil, din və s. məsələlər ətrafında gedən qəliz dilli yazılara, eləcə də dini mövhumatı, köləliyi təbliğ edən kitablara özünün şirin, təmiz ana dilində yazdığı əsərləri ilə ağır zərbə vururdu. O öz əsərləri ilə sübut etdi ki, aydın, sadə ana dilində yazılan və xalqın həyatına güzgü tutan əsərlərlə yüksək bədii sənət nümunələri yaratmaq və oxucuların qəlbinə nüfuz edib onların hörmət və rəğbətini qazanmaq olar. Görkəmli jurnalist əxlaqi-tərbiyəvi düşüncələrini “Molla Nəsrəddin” jurnalında dərc etdirdiyi məqalə, felyeton və digər ədəbi-publisistik əsərlərində geniş əks

etdirirdi. Bu isə jurnalın o dövrün ziyalıları, ilk növbədə işıqlı gəncləri arasında sevilməsinə və müntəzəm oxunmasına imkan yaradırdı. Seyid Hüseyn kimi istedadlı yazıçıların və maarifpərvər gənclərin "Molla Nəsrəddin" jurnalının Tiflisdən gətiriləcəyi gün "iş-güclərini buraxıb, poçt qapısına gələrək saatlarla gözləmələri, hətta dövlətli cavan oğlanın qəzetsatan uşağa məcmuə üçün on manat verməsi" də bu faktı təsdiqləyir.

Bu gün də öz əhəmiyyətini və aktuallığını saxlayan C.Məmmədquluzadə irsi bütün nəsillərdən olan insanlar üçün qiymətli xəzinə olaraq qalır. Bunu yazıçının və "Molla Nəsrəddin" jurnalının müxtəlif illərdə keçirilən yubiley tədbirləri, aparılan çoxsaylı tədqiqatlar, dövri mətbuatda çap olunan elmi məqalələr və s. sübut edir. Əlbəttə, bütün bunlar heç də böyük yazıçının həyat və fəaliyyətinin tam olaraq öyrənilib araşdırılması demək deyil. Son illərdə ədibin bəzi məktublarının və çap olunmamış əsərlərinin üzə çıxarılması, müxtəlif arxivlərdə saxlanılan mühüm sənədlərin tapılması bundan sonra da ciddi tədqiqatlar aparılmasını aktuallaşdırır.

Uzun illərdən bəri C.Məmmədquluzadə yaradıcılıgının bir çox sahələri müstəqil mövzu kimi tədqiq və təhlil olunaraq oxucuların nəzərinə çatdırılsa da, ədibin zəngin irsinin mayasını və özəyini təşkil edən kitab, mütaliə və kitabxana məsələlərinin araşdırılması nədənsə diqqətdən kənarda qalmışdır. Ən yaxşı halda isə bu məsələlər ayrı-ayrı əsərlərin müxtəlif bölmələrində ümumiləşdirilərək verilmişdir. Halbuki C.Məmmədquluzadənin zəngin kitabxanasının olduğu, orada dunya və Azərbaycanın ən mütərəqqi şair va yazıçılarının, filosof və pedaqoqlarının əsərlərinin toplandığı məlumdur. Deməli, "C.Məmmədquluzadənin irsini, yaradıcılıq qaynaqlarını öyrənməkdən ötrü onun mütaliə aləminə baş vurmaq, yazıçını bir oxucu kimi arayıb tanımaq da maraqlıdır."

M.Şahtaxtinski, F.Köçərli, Ə.Nazim, M.İbrahimov, Ə.Şərif, C.Xəndan, A.Zamanov, M.Arif, M.Rəfili, M.Hüseyn, Anar və başqa görkəmli ədəbiyyat xadimləri müxtəlif dövrlərdə bu zəngin irsin tədqiqatçıları olmuş və onu yüksək qiymətləndirmişlər.

1994-cü ildə böyük yazıçının anadan olmasının 125 illiyinin təntənəli şəkildə dövlət səviyyəsində qeyd olunması onun bütün həyatını sərf etdiyi haqq işinə, hər zaman aktual və lazımlı irsinə verilən ən dəyərli qiymət idi. Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin həmin il Respublika Sarayında keçirilən təntənəli gecədəki çıxışı bu baxımdan çox maraqlıdır. Heydər Əliyev C.Məmmədquluzadə haqqında deyirdi: "O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır. Bu yaradıcılıq elə bir dəryadır ki, onun dibinə gedib çatmaq mümkün deyildir və hələ bir necə nəsil bu xəzinədən yeni-yeni kəşflər edəcək" (6).

Heydər Əliyev ədibin ölümündən sonra “Molla Nəsrəddin” jurnalının nəşrinin dayanmasına, XX əsrin 50-ci illərində bu məktəbi davam etdirmək məqsədi ilə yaradılan “Kirpi” jurnalının o səviyyəyə çata bilməməsinə təəssüflənərək, bu gün də “Molla Nəsrəddin”ə çox möhtac olduğumuzu vurğulayır. Prezidentin çıxışından o da məlum olur ki, ədibin ev muzeyinin açılması barədə qərarın 1978-ci ildə qəbul olunmasına, 1981-ci ildə isə muzeyin yaranması üçün bütün şəraitin yaradılmasına baxmayaraq, C.Məmmədquluzadənin ev muzeyinin açılışı ancaq 1993-cü ildə həyata keçirilmişdir (6).

Cəlil Məmmədquluzadə irsinin ən üstün cəhəti geniş əhatə dairəsinə malik olmasıdır. Böyük yazıçı ayrı-ayrı əsərlərində yaşadığı mühitin qiymətli sərvətə – kitaba, insanı mənən zənginləşdirən mütaliəyə, mədəniyyət ocağı olan kitabxanalara ögey münasibətini də kədərlə qələmə almışdır. Bu məqalədə mahir publisistin əsasən XX əsrin əvvəllərində qələmə aldığı bir çox felyetonlarında bu problemlə bağlı fikirlərini təhlil etməyə və ümumiləşdirməyə çalışacağıq.

1906-cı ilin mayında Mirzə Cəlilin “Molla Nəsrəddin” jurnalında çap etdirdiyi “Hansı elmlər lazım?” adlı felyetonunda müxtəlif mövqelərdə duran iki baxışı əks etdirən iki kitab müqayisə olunur. Burada görkəmli ədib Hacı Zeynalabdin Marağalının “Səyahətnameyi-İbrahim bəy” əsəri ilə Əbutürab Axund oğlunun anlaşılmaz ibarələrlə dolu məqaləsini üz-üzə qoyulur. Yazıçı xalqın dərd-sərindən bəhs edən lazımlı kitablara qiymət qoyulmadığından ürək ağrısı ilə söz açır.

Qeyd edək ki, “Hansı elmlər lazım?” sualı hələ XIX əsrdə “Əkinçi” qəzetinin səhifələrində qoyulmuşdu. Başda Həsən bəy Zərdabi olmaqla, sonralar C.Məmmədquluzadə, M.Ə.Sabir kimi tərəqqipərvər ziyalılar “elmi-əbdan”ı (dünyəvi elmləri), Əbutürab Axund oğlu və başqaları kimi mürtəce şəxslər isə “elmi-ədyan”ı (dini elmləri) ön plana çəkir, bu məsələ ətrafında çox qızğın mübahisə edirdilər (15, 30-32).

1906-cı ildə məşhur müəllim və istimai xadim M.Mahmudbəyovun redaktorluğu ilə nəşr edilən “Rəhbər” jurnalının ilk nömrəsinin əvvəlindəki məqalə ilə bağlı olaraq Mirzə Cəlil də öz münasibətini bildirir. C.Məmmədquluzadə də məqalə müəllifinin fikrini təsdiqləyərək, bu qənaətə gəlir: “bir millətin ki, məktəbi və kitabı olmasa, o millət puça çıxar” (15, 74).

Bu acı həqiqəti Mirzə Cəlil özünəməxsus satirik dillə belə etiraf edir: “Bu sözlərin əslsiz və mənasız olmağına əvvəlinci dəlil budur ki, islam aləmində bircə dənə məktəbə oxşayan məktəb və kitaba oxşayan kitab yoxdur; amma yer üzündə müsəlman milləti firəng, ingilis, alman, rus, yəhudi, erməni, Yaponiya – müxtəsər cəmi millətlərdən çoxdur” (15, 74).

Göründüyü kimi, sayca digər millətlərdən çox olan bir xalqın ziyalıların öz müqəddəs borcunu yerinə yetirməməsi yazıçıda qəzəb hissi doğurur və o, həmin üzdəniraq elmli və ədəbli adamlara nifrətini çəkinmədən bildirir.

Mirzə Cəlil "Həmşəri" adlı felyetonunda o dövrdə çörək pulu qazanmaq ümidi ilə İrandan Bakıya axışan məzlum həmşərilərin hüquqsuzluğundan bəhs edir. Vəziyyəti daha acınacaqlı olan bu insanlara nəinki təhsil almağı, kitab oxumağı, hətta məscidə girməyi belə qadagan edirdilər. Odur ki, otuz nəfər həmşəri "Molla Nəsrəddin"in ünvanına şikayət məktubu göndərib kömək istəyirdi. Molla Nəsrəddin (Mirzə Cəlil) onlara satirik üslubda cavab olaraq yazırdı: "Əvvələn, ay İrani-viranın xaki-pakının yetim balaları həmşərilər! Əvvələn, gərək bir-birinizlə əl-ələ verəsiniz... Xülasə, cəmi həmşərilər gərək yapışsınlar bir-birinin əlindən; yəni birləşsinlər!

Saniyən, ... keçən vaxtlarda vətənpərəsti-həqiqi və alimi-yeganə çənab Mirzə Mülkümyans məzlumlar barəsində bir kitab yazıb; ... tapın həmin kitabı və açın qabağınıza və oxuyun. Oxuyandan sonra həmin kitabı vurun qoltuğunuza və Arazı hoppanın, keçin tarmar vətəninizə və orada açın bir tərəfdə həmin kitabı və bir tərəfdə İbrahim bəyin "Səyahətnamə"sini oxuyun, oxuyun, oxuyun!

Və oxuyandan sonra bir qədər fikir edin.

Ey mənim yolçu, dilənçi, lüt-müt qardaşlarım, həmşərilər! Əgər istəyirsiniz ki, sizi də adam bilib məclislərə qoysunlar, gərək mənim bu nəsihətlərimə əməl edəsiniz. Çünki vallah, billah, yer haqqı, göy haqqı, bundan başqa sizdən ötrü nicat yolu yoxdu" (15, 108-109).

Maraqlıdır ki, oxucu C.Məmmədquluzadə yaradıcılığı ilə tanış olduqca təkcə kitabların əhəmiyyətini, o dövrdə əhalinin kitablara olan marağının dərəcəsini müəyyənləşdirmir, həm də hansı kitabların dövr, zaman üçün xarakterik olduğunu, hansı kitabların millətə gərəkli və xeyirli olduğunu dərk etmək imkanı qazanır.

Bəs görəsən müsəlmanların – azərbaycanlıların o vaxtlar hansı kitabları olub, onlarda nələrdən bəhs edilib?

C.Məmmədquluzadə 1907-ci ildə dərc etdirdidiyi "Baş yarmaq" adlı felyetonunda "İrşad" qəzetində məhərrəmliklə əlaqədar yazılmış bir məqalədən bəhs edir. Qəzet yazır: "Baş yarmaq, zəncir vurmaq, Qasım otağı gəzdirmək adətlərinin cümləsi artıq bir günahdır və bunlar islam şəriətində heç bir kitabda və qanunda yoxdur və hər kəs ki, bu işləri əmələ gətirirsə, böyük günahkar hesab olunur".

Mirzə Cəlil bu məqalə ilə bağlı olaraq öz münasibətini belə bildirir: "Bəli, müsəlman qardaşlar, indi Bakıda sizə qazılar deyirlər ki, müsəlman kitablarında baş yarmaq yazılmayıb; amma bir il bundan qabaq sizə deyirdilər ki, müsəlmanın yetmiş iki min kitabı var və bu kitabların əsl və mötəbəri "İxtiyarat" kitabıdır və bu kitabda yazılıb ki, Təbrizin kənarında bir çeşmə var ki, hər baş yaran gedib bu çeşmədə başının yarasını yusa, haman dəm yarası yaxşı olar" (15, 115).

Deməli, biçapə müsəlmanın “İxtiyarat” kimi dini mövhumat yayan kitablardan başqa kitabı yoxdur. Özünü elmli və oxumuş hesab edən axund və qazıların oxuduqları və təbliğ etdikləri də ancaq belə gülünc dini rəvayətlərdir.

Böyük satirikin “Binamuslar” adlı felyetonu da elə bu məsələyə aiddir. Felyeton bu sözlərlə başlayır: “Hər bir müsəlman qəzet və məcmuəsini əlimizə alıb oxusaq, hər bir təzə yazılmış müsəlman kitabına baxsaq, görərik ki, başdan axıra kimi müsəlman millətlərinin dalda qalmağını təsdiq edib çığırırlar və bağırırlar ki, “ey biçarə millət, oyan xabi-qəflətdən, elm öyrən və qeyri millətlər kimi tərəqqi et...”

Mirzə Cəlil bu çağırışa guya etirazını bildirərək yazır: “Mənə qalsa, mən Molla Nəsrəddin, deyirəm ki, müsəlmanlar barəsində “xabi-qəflət” sözünü danışmaq və “özgə millətlər kimi tərəqqi etr” nəsihətini müsəlmanlara eləmək eyni biqeyrətçilikdir...

...Yəni hansı millətlərin cərgəsinə daxil olaq? Kimdirər o mədəni millətlər? Bilirsiniz kimdirlər? Haman firəng və ingilislər, haman rus və almaniyalılar, haman amerikan və yaponlar...

...Hansı elmləri oxuyaq ki, tərəqqi edək və haradadır o elmlər? Məgər kimya elmindən savayı yenə elm var?

Bəli, maarif. Necə yəni maarif? Məgər maarif bir uzaq yerdədir? Hansı millətlərin alimləri “İxtiyarat” kitabı kimi bir kitab yaza bilər? Məgər rəvadır ki, biz müsəlman ola-ola özümüzü əcnəbi millətlərdən bu dərəcədə alçaq tutaq? Bəs harada qaldı bizim etiqad və əfkarımız, ibadət və itaətimiz?” (15,119-121).

Alimləri ancaq “İxtiyarat” kimi kitablar yazan xalqın “həyatda cəhənnəm əzabı çəkən” həqir, miskin övladları “xəyalən cənnətdə dövran sürür”, o dünyada kaşanələrə, hurilərə nail olacaqlarına bütün varlıqları ilə inana-inana ömürlərini mənasız işlərlə başa vururdular.

“Cəfəngiyat” felyetonunda oxumuş həkimin müsəlmanlara lazım olub-olmaması sualını qoyur və ona elə müsəlmansayağı cavab axtarır. Müəllif həkim sözünə baxmayan, beləliklə, anasının ölümünə səbəb olan şuşa əhli Yəhya kişinin dili ilə müsəlman kitabların satirik tərifini verir: “...Hər millətin bir kitabı olar; biz də ki, müsəlmanıq, – bizim də kitabımız “İxtiyarat” kitabıdır və bu kitaba da ki, bir kəsin sözü ola bilməz. Və aşkardır ki, bu kitabın barəsində heç kəsin hünəri yoxdur bir söz danışsın; çünki bu kitab elə bir kitabdır ki, mən çarsu ilə keçən vaxt həmişə görmüşəm ki, bizim mömün hacılarımız və mollalarımız “İxtiyarat” kitabını əllərinə alanda əvvəl gərək öpələr, sonra açıb oxuyalar...

Və həmin kitabın 89-cu səhifəsində ... yazılıb: “Hər kəs ayın onunda qan aldırsa, dərdi artar və zəif düşər”. İndi, ay Molla dayı, mən başıma nə çarə edəydim ki, urus həkimi bizə gələn günü ... ayın onu idi...” (15, 154).

Əlbəttə, o dövrdə Yəhya kişinin anası cəhalət qurbanı olmuşdu və bu cür mənasız cəfəngiyatların qurbanı olan qadınlar, kişilər, uşaqlar çox idi. Avam

müsəlmanlar arasında geniş yayılmış "İxtiyarat" kimi dini kitablara inanaraq təbabətdən və həkimlərdən qaçan mövhumatçılar son nəticədə ölümə tuş gəlir və bunu qəzavü-qədərlə – alın yazısı ilə bağlayaraq təsəlli tapmağa çalışırdılar. Bu cür zərərli kitabların əsl mahiyyətini isə Mirzə Cəlil qələmi aydınlaşdırır, avam camaatı mövhumatdan uzaqlaşdırmağa və cəhalətdən ayıltmağa səy göstərirdi.

Görkəmli publisist 1908-ci ildə yazdığı "Əbvabül-Cınan" felyetonunda oxucuları mənasız cəfəngiyatlar yayan daha bir kitabla tanış edir: "Əbvabül-Cınan" bizim dildə "behiştin qapıları" deməkdir. Müsəlman aləmində "Əbvab" kitabını oxuyub çıxmayınca heç kəsin ixtiyarı yoxdur özünə alim adı qoysun və müsəlman kitablarının içində heç kitab "Əbvab" kimi hörmət qazanmayıb və çox adamlar bu kitabı əllərinə götürəndə qabaqca öpüb sonra açırlar" (15, 236).

Mirzə Cəlil satirik dillə izah edir ki, bu kitab kişilərin qadınla hər cür məşvərətini rədd etdiyinə görə hörmət qazanıb. "Yəni bir tərəfə baxanda müsəlmançılıqda övrətlə məşvərət eləməyin heç mənası yoxdur; çünki bizim cəmi kitablarımızda yazılıb ki, övrətlərin ağlı naqisdir" (15, 238).

Satirik yazıçı böyük ustalıqla qeyd edir ki, əgər kişilər övrətlərlə məşvərət-məsləhət eləsələr, onda qiyamət qopacaq: "İşlərin axırını xarab görürəm: bax ki, indi hər yanda müsəlmanlar başlayıblar qızlarını dərsə qoymağa... Axırda bu qızlar oxuyub qayıdacaqlar vətənlətinə və hər biri bir cür elm sahibi olacaq. Kişiləriniz də başlayacaqlar lazım olanda bu qızlarla məşvərət eləməyə...

Allah baisin evini yıxsın!" (15, 237).

Elə bu məsələnin davamı kimi Mirzə Cəlil başqa felyetonlarında da həmin mövzunu müxtəlif yönlərdən incələməyə və qabartmağa çalışır. Məsələn, "Gələcək" felyetonu bu baxımdan maraq doğurur. Yazıçı rusca alayarımçıq təhsil alan və öz ana dillərinə ögey münasibət bəsləyən müsəlman ziyalılarını lağa qoyur, milli təəssübkeşliyi yad dillərə qurban verdiklərinə görə onları ifşa edir: "Hər nə qədər rus darülfünunu qurtaran müsəlman var, – bunların hamısı rusca yazı-pozu eləyirlər və analarına da kağız yazanda rusca yazırlar... Hətta türk dilinin müəllimi, hərgah bir üç il rusca oxuyubsa, yoldaşına rusca kağız yazır.

...Bir otaqda ya qiraətxanada stol üstə iki qəzet qoyaq: biri türk və biri rus qəzeti. Buraya əgər bir müsəlman daxil ola... əvvəl rus qəzetini götürüb baxacaq...

Hələ mən kitab oxumağı demirəm ki, rusca və müsəlmanca bərabər savadlı müsəlmanlarımız ildə yüz dəfə rus kitabı əllərinə alıb oxuyanda, bəlkə bircə dəfə müsəlman kitabını açalar, amma acanda da heç kitabın və yazanın adını tapmayıb "eh" - deyib kitabı qoyurlar yerə..." (15, 257).

Mirzə Cəlil 1910-cu ildə yazdığı "Nəcasət" felyetonunda oxuculara müsəlmanların daha üç üzdəniraq kitabı haqqında məlumat verir. Bu kitablardan birincısini Axtılı Hacı Əbdürrəhman Əfəndi yazıb və o, "Əsasüddin

vəl iman" adlanır. "Bir nəfər bu kitabı açıb görsün ki, bu fazil iqtisad və siyasət məsələlərini necə şərh etmiş"dir. Amma kitabı açan kimi gözünə elə sözlər sataşır ki, "biçarə utandığından kitabı büküb qoyur kənara" (16, 245).

İkinci kitabın müəllifi neçə milyon məşədi və hacıların allahı sayılan Fazili-Məclisidir. "Və mən həmişə Fazili-Məclisinin kiyabını açan kimi və "adabi-cima" səhifələrini görən kimi xəcalət çəkib xəlvətcə kitabı gizlətmişəm ki, həyalı adamların gözünə sataşmasın" (16, 245).

Üçüncü isə Hacı Mirzə Məhəmməd Həsən Şirazinin "Məcmüəl-məcail" kitabıdır. "Ağanın "Məcmüəl-məcail" kitabını insan oxuyub utanmasa, əlbəttə, bihəyadır!..

...Bu ağaların bərəkətindəndir ki, mən dünyada müsəlmanlardan biədəb millət yer üzündə nişan verə bilmərəm" (16, 245).

C.Məmmədquluzadə təkcə müsəlman millətinin kitaba münasibətindən yazmaqla kifayətlənmir, xristianların bu sahədə gördükləri işlərlə müqayisəli təhlil edir. Bu müqayisədə öz millətinin necə kiçik görünməsi, fikirlərdəki, ruhlardakı kəsafətin böyüklüyü dahi yazıçımızın intəhasız təəssüfünə, dərindən kədərlənməsinə səbəb olur.

Fikrimizi əsaslandırmaq üçün "Tacül-hac" felyetonuna müraciət edək.

Felyeton katoliklərin mərkəzi Vatikanda baş verən siyasi dəyişikliklərdən kədərlənərək yazılmışdır. Müəllif oxucularından xahiş edir ki, məşhur fransız yazıçısı Emil Zolyanın "Rim" adında kitabını tapıb oxusunlar. "Belə ki, məsələn, Emil Zolyanın kitabları Firəngistanda intişar tapan kimi zehinlər bir neçə ilin içində o dərəcə oyandılar ki, firənglər nəinki Rim papaslarının ziyarətinə getməyi tərgitdilər, hələ bəlkə öz içlərində katolik keşişlərin qalmağını artıq hesab etdilər...

Odur ki, iki qonşunun biri – Firngistan maarif vasitəsilə gözünü açıb, üz qoydu tərəqqiyə, amma İspaniya hələ qalmışdı qaranlıqda; çünki mətbuat hələ tənəzzüldə idi.

İyirminci əsrin bərəkətindən, bir gün oldu ki, cəmi ispaniyalılar qırmızı baydaq götürüb, "Yaşasın maarif və puç olsun cəhalət!" – deyib düşdülər küçələrə: hər oğlan və qızın əlində bir kitab və milli marş oxuya-oxuya kitabı yuxarı qalxızıb deyirdilər: "Yaşasın bu kitabı yazan əl-alim-əl-kamil..." "Yaşasın bu kitabın çap olunmağına bais olan vücudi-şəriflər..."

...Dünya və aləm bir-birinə dəymişdi; Rusiyada millətlər baş qaldırıb, özlərinə nicat yolu axtarırdılar, mətbəələrdə gecə və gündüz elmə və fənnə dair kitablar tərcümə olunub çapa verilirdi..."

Bəli, bütün dünyada elm, maarif, kitab uğrunda mübarizə gedir, xalqların mədəni-siyasi şüurunun inkişafı üçün cild-cild kitablar yazılır, tərcümə və nəşr olunurdu. Bəs Azərbaycanda nə baş verirdi? Xalqın mədəni inkişafı yolunda hansı addımlar atılır, hansı kitablar işıq üzü görürdü? Təəssüf ki, dini sxolastika, gülünc və iyrənc hədislər, dualar təbliğ edən kitablar, daha doğrusu, müsəl-

manların dini kitabı olan "Quran"la heç bir əlaqəsi olmayan kitablar daha çox yazılır və yayılırdı. Budur, Mirzə Cəlil dahiyanə sənətkarlıqla felyetonun davamında yazır: "...Həmin günlərin bir günü Mirzə Möhsün adında bir bambılı gəlir "Kaspi" mətbəəsinə və Həsənağa Həsənova deyir ki, "bir kitab yazmışam, kömək elə çap olunsun, ta ki, mllətimizin balalarına bir yadigar qalsın.

– Çox gözəl, de görək nə yazmısan?

– Bəli bax gör nə yazmışam: "Cəhəte mali-məsruqə. əgər kəsi bexahəd ki, peyda künəd, in tilsimi-əzəmra dər həman xanə dəfn künənd (səhifə 252).

– Çox əcəb, mən kömək edərəm ki, kitabın çap olunsun ki, millət üçün bir yadigar qalsın. Hacının canı sağ olsun, bir neçə min manatı da qoy bu kitaba xərcləsin" (16, 248).

Göründüyü kimi, Mirzə Möhsün adlı bambılının millətə yadigar qoymaq istədiyi sərvətin məzmunu farscadan azərbaycancaya tərcümədə belə səslənir: "Oğurluq mal haqqında. Əgər bir kəs oğurlanmış şeyi tapmaq istəsə bu böyük tilsimi həmin şey oğurlanmış otaqda bacdırsın..."

Mirzə Cəlil felyetonu bu cümlələrlə bitirir: "Bu haman kitabdır ki, bir nüsxəsi gedib çıxıb İspaniyaya, orada oxuyub, birdın gözlərini açıblar və yaxşı ilə yamanı biliblər və həmin tilsim vasitəsilə millətin oğrusu olan katolik keşişlərin yaxasından yapışıb, oğurlanmış olan hüquqlarını geri istəyiblər. Bu haman kitabdır ki, 1324-cü ildə Hacı Zeynalabdin ağanın mətbəəsində Həsənağa Həsənovun hümməti ilə çap olunubdur. Bu haman kitabdır" (16, 248).

Beləliklə, nəşrinə xeyli pul xərclənən müsəlman kitabının səhifələrini belə cəfəng dualar bəzəyirmiş. Digər millətlərin yazıb çap etdirdiyi kitablarla müsəlmanların bir ətək pul töküb "millətin balaları üçün yadigar" qoyduğu kitabları müqayisə edən ustad Mirzə Cəlil fəryad edir, qələm çalır, yatmış milləti qəflət yuxusundan oyatmağa çalışırdı.

Dahi publisist "Politika aləmindən" felyetonunda isə ayrı-ayrı xalqların azadlıq mübarizəsindən bəhs edir və bu intibahın meydana gəlməsində maarifin, təhsilin, kitabın, mədəniyyətin rolunu çox yüksək dəyərləndirir. XX əsrin əvvəllərində Bolqariyanın Osmanlı sultanının itaətindən çıxaraq müstəqil hökumət olmağını rəsmi surətdə elan etməsini, Avstriya hökumətinin Osmanlının Bosniya və Hersək vilayətlərinə sahibləndiyini xəbər verən ədib bütün bunlara təəccüb eləmədiyini bildirir. Onun fikrincə, Osmanlı qardaşlarımızın başına gələn bəla "insaniyyət və mədəniyyət yoluna təzə qədəm qoyduqları"ndan dolayıdır. Yazıçı soruşur: "Kimdir müqəssir?" Cavab aydındır: Özümüz! Daha doğrusu elmdən, maarifdən, məktəbdən, kitabdan uzaq düşmüş müsəlmanların özləri!

Müəllif müsəlmanlarla xariciləri müqayisə edərək yazır ki, hələ XIX əsrin səksəninci illərindən "tərəqqiyə üz qoymuş Bolqariyada hökumət qanununa görə altı yaşından on iki yaşına kimi uşaqlar məcburən gərək məktəbə gedələr.

Amma biz?.. Bolqariya və Avstriya bizi təsxir eləyəndə biz darülfünunlarımızda, məsələn, bir kitabı açırıq tələbənin qabağına və deyirik: “Hey, oxu”, və tələbə də səcdəyə düşən kimi başını aşağı əyib yırğalana-yırğalana oxuyur: “Fəsli-çəharüm. Dər təxsiri-afitab. Şəxsi ki..” və s.

Bu mücərrəd mətnin qısa məğzi belədir ki, hər kim ruhu gözəl şəkillərə düşən günəşlə danışmaq istəyirsə, onda gərək bu düsturu-duanı əzbərləsin. Bizim məktəblərdə uşaqlara oxutdurulan kitabların məzmunu bax bundan ibarətdir!.. “Vəssalam. Dəxi nə istəyirsən?... Yoxsa nə bilim, bolqariya belə gəldi, Avstriya elə getdi. Cəhənnəmə getsin hər ikisi. Başım ağrıyır” (16, 231).

Mirzə Cəlil uşaq kitablarının həm də onların yaşlarına uyğun yazılmasını tələb edirdi. Yazıçı “Zina” felyetonunda bu məsələyə ciddi şəkildə toxunur: “...Sən indi hazırsan sübuta yetirəsən ki, qızların oxumağı vacib olan əmrdir... Tutaq ki, qızın oxudu oldu basavad; yəni əli qələm tutan, oxuyan və yazan. Belə tutaq ki, bir gün sənin qızın bir kitabçı dükanına gəlib gördü ki, kitabların içində üç dənə gözəl cildlənmiş kitab var. Birisıni aldı əlinə, gördü ki, başdan yekə hürufat ilə yazılıb: “Kəşfül-həqayiq”, təfsiri-Qurani-Şərif...

Sənin qızın haman kitabın 587-ci səhifəsini açsa görəcək ki, qaziyi-şəhri-Bakı Mir Məhəmməd Kərim ağa bir şirin rəvayət başlayıb; bu rəvayət bir kişi ilə bir arvadın zina eləməyi barəsindədir...

Qazı cənabları bu əhvalatı çox şirin nağıl eləyir; o qədər ləzzətli rəvayət edir ki, hər bir on yaşında müsəlman uşağı oxusa, atasının yanına gəlib deyəcək: “Ata, məni evləndir, dəxi mən elmli və təcrübəliyəm, dəxi uşaq deyiləm, çünki Mir Kərim ağanın Quranının təfsirində kişi ilə övrətin yatmağının və müqaribət eləməyinin hər bir əməlini və hər bir təfsilini öyrəndim...” (16, 251).

Elə burada görkəmli yazıçı Mirzə İbrahimovun da vurğuladığı vacib bir məqamı mütləq qeyd etmək lazım gəlir. Təbbi ki, Cəlil Məmmədquluzadə Azərbaycan xalqının azadlığı və qurtuluşu üçün maarifin, mədəniyyətin mühüm əhəmiyyət daşıdığını yaxşı başa düşürdü. Hətta ilk zamanlar o da bir sıra mütərəqqi ziyalılar kimi maarifçiliyin illüziyalarına inanmışdı. Əvvəllər ona da elə gəlirdi ki, bütün bədbəxtliklərin səbəbi avamlıqdır, cəhalətdir, savadsızlıqdır. Guya xalqın savadı, elmi, biliyi artdıqca bütün bəlalar asanlıqla aradan qalxacaqdır. Lakin yazıçı çox tezliklə həyatın iç üzünü görüb analayandan, xalqla sıx ünsiyyətdə olub onların məşəqqətləri ilə tanış olandan sonar böyük dərdlərin “məktəb”, “maarif” deməklə sağalmayacağına inandı. Həyatın acı çılpaqlıqları Mirzə Cəlili inandırdı ki, savadsızlıq, cəhalət, mövhumat, fanatizm kimi ictimai bəlaları aradan qaldırmaq üçün daha radikal addımların atılması lazım gəlir. Əks halda daha dərinə işləmiş yaraları sağaltmaq mümkün olmayacaqdır. Bu baxımdan ustad publisistin 1908-ci ildə “Molla Nəsrəddin” jurnalında dərc etdirdiyi “Mikroblar” felyetonu daha təqdirəlayiqdir: “Elə həmin sözlərdi ki, eşidirik. Hər bir qəzeti əlimizə alsaq görəcəyik ki, elə həmin sözlərdir ki, ha eşidirik” (15, 208).

Burada Mirzə Cəlil burjua ziyalılarının maarifə, mədəniyyətə, uşaqları oxutmağa mücərrəd çağırışlarını nəzərdə tutaraq deyir ki, indi müsəlman qardaş bu cür quru, boş sözləri eşidəndə dinməz-söyləməz qəzeti büküb qoyur kənara və “eh!” deyib durur gedir işinə. Çünki bu, naxoşun üstünə gələn həkimin onun dərd-azarını müəyyənləşdirib dava-dərman yazmaq əvəzinə sağlamlığın faydasından boş-boş moizə oxumağına bənzəyir: “Bizim bəzi boşboğaz yazıçılarımız da oxşayırlar həmin təbiblərə ki, azarlının nəbzinə baxandan sonra “xudahafiz” deyib börklərini axtarırlar” (15, 209).

Elə buna görə də Cəlil Məmmədquluzadə qətiyyətlə qeyd edirdi ki, bizim də borcumuz xalqın geridə qaldığı, cəhalət və ehtiyac içində yaşadığı haqqında moizə oxumaqdansa, kitabın, məktəbin, təlimin faydası barədə boş-boş danışmaqdansa, xalqın əsas dərdini, başlıca azarını dürüst tapıb müəyyənləşdirmək, bu xəstəliyə düzgün diaqnoz qoymaq və onu uyğun dərmanla müalicə etməkdir. O yazır: “Qərinələrlə millətimizin şirin canına milyonlarca ac mikroblar daraşıb qanını sormaqdadır və məhz bu həşəratdır milləti xəstə edən, məhz bu mikroblardır onu bədnam edən!

“Nicat, nicat” deməklə nicat yolu öz-özünə tapılmaz! “Məktəb, məktəb” deməklə məktəb öz-özünə açılmaz və açılsa da, “Cameyi-Abbas” kitabından savayı orada bir özgə dərs verilməz.

Müftə-müftə “nicat”, “məktəb” deməklə “Fatıya tuman olmaz!” Lazımdır mikrobları millətin bədənindən kənar eləmək! Yoxsa nə göz yaşı tökməklə azarlə şəfa tapar, nə dua yazmaqla! (15, 209).

Göründüyü kimi, Cəlil Məmmədquluzadə “mikroblar” deyərkən xalqın qanını zəli kimi soran, onu mənəvi və cismani əzab-əziyyətlər məngənəsində içində boğan, daimi ehtiyac içində saxlayan tüfeyli istismarçıları nəzərdə tutur, yalnız həmin mikrobları xalqın bədənindən çıxarıb atmaqla maarifə, məktəbə, nicata qovuşmağın mümkünlüyünü açıq-aşkar söyləyirdi.

Ömrü boyu ana dilinin təmizliyi uğrunda çarpışan dahi yazıçı ərəb əlifbası ilə yazıb-oxumağın çətinliyini də bu problemin əsas əbəblərindən biri kimi göstərir, qəliz ərəb əlifbasının azsavadlı müsəlmanları savadsızlaşdırdığını, çox savadlıları isə yorduğunu mənəvi ustadı Mirzə Fətəli Axundov kimi qətiyyətlə, özü də kəskin şəkildə söyləyirdi.

Ona görə də MİrzəCəlil yazırdı: “Qafqazda “Tərəqqi”, “Tazə həyat”, “Molla Nəsrəddin” altı-yeddi mindən artıq oxucusu yoxdur. Amma həmin Qafqazda... müsəlmanların içində yeddi mindən çox artıq rus qəzeti oxuyan cavanlarımız var. On ildən sonra müsəlmanca oxuyanların yenə bir qədəri... əksilib, rusca oxuyanlar beş o qədər olar. Heç kəs... razı olmaz ki, əlifi lama, ... mimi nuna çalıb, cimlərin qarnına girən nəqtələri çıxardıb qoysun yerinə” (15, 284).

Əlbəttə, az-çox savadı olanlar da ərəb hərflərinin nöqtələrini saymaqla vaxt itirmək istəmirdilər və sonralar ondan yaxa qurtarmaq üçün sözdən əmələ keçməyin vacibliyini dərindən başa düşdülər.

Mirzə Cəlil 1914-cü ildə qələmə aldığı "Ruhanilər yığıncağı" felyetonunda da eyni məsələyə toxunur. O, müsəlmanca oxuyub-yazmağın və oxuduğunu "qanmağın" bir hünər olması göstərilir, bu hürufat ilə oxuyub-yazmağa məcbur olduqları üçün özlərinin və oxucularnnın da halına yanır: "İndi mən bu sözləri yazıram və bilmirəm ki, mənim bu sözlərimi oxuyan başa düşəcəkmi ki, nə yazıram və nə deyirəm, yainki başa düşməyəcək. Bunu hamı bilir ki, müsəlmanca oxumaq və qanmaq bir hünərdir. Əvvələn, o hürufatilən ki, biz yazırıq, onu oxumaq çətin məsələdir. Bu barədə çox danışmışıq. Hazır bu yazdığım "danışmışıq" kəlməsinin on beş nöqtəsinin biri artıq-əskik düşsə, oxumağı çətin olacaq. Vay bizim halımıza, vay mürəttiblərimizin gununə, heyif oxucularımızın gözlərinin işığına" (15, 187).

Əlbəttə, ustad yazıçı-publisist felyetonlarındakı kitab və mütaliə haqqında fikirləri bu kiçik məqalədə araşdırmaya cəlb etdiyimiz misallarla məhdudlaşmır. Xalqın mədəniyyətinin yüksəlməsində və maarifinin güclənməsində kitabı və mütaliəni qiymətli vasitə hesab edən Cəlil Məmmədquluzadənin bu müdrik kəlamlarının ümumiləşdirilməsi və təhlili üçün daha geniş elmi araşırmalar aparılması günümüzün tələbidir.

## ƏDƏBİYYAT


1. *Anar. Dünya bir pəncərədir. – Bakı: Yazıçı, 1986. – 560 s.*
2. *Aslan K. Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu: Monoqrafiya. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008. – 324 s.*
3. *Cəlal M., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. – Bakı: 1982. – 428 s.*
4. *Cəlil Məmmədquluzadənin anadan olmasının 140-cı ildönümünün qeyd olunması haqqında: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı: 6 fevral 2009-cu il // "Azərbaycan" qəzeti. – 2009. – 7 fevral.*
5. *Eyvaz Y. Cəlil Məmmədquluzadənin şəxsi kitabxanasının təsviri // Ədəbiyyat. – 1994. – 6 may.*
6. *Əliyev H. Cəlil Məmmədquluzadənin 125 illiyi ilə əlaqədar Respublika Sarayında çıxış // Azərbaycan. – 1994. – 30 dekabr.*
7. *Həbibov İ. Cəlil Məmmədquluzadə. – Bakı: İşıq, 1987. – 190 s.*
8. *Həsənzadə T.C. Məmmədquluzadənin Cənub səfəri və "Molla Nəsrəddin" jurnalının Təbrizdə nəşri. – Bakı: Elm, 1991. – 194 s.*
9. *Hüseynov Ə. Sənət yanğısı (C.Məmmədquluzadə haqqında). – Bakı: Yazıçı, 1979. – 454 s.*
10. *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. C.1. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004. – 328 s.*
11. *İbrahimov M. Satira ustası (C.Məmmədquluzadə haqqında). – Bakı: Azərnəşr, 1966. – 94 s.*

12. Məmmədquluzadə C. Əsərləri: 6 clddə. Müqəddimə Ə.Mirəhmədovundur.-Bakı: Azərnəşr, 1983-1985.
13. C.1: Nəsr əsərləri. – Bakı: Azərnəşr, 1983. – 310 s.
14. C.2: Dram əsərləri. – Bakı: Azərnəşr, 1984. – 196 s.
15. C.3: Felyetonlar. – Bakı: Azərnəşr, 1984. – 292 s. 2
16. C.4: Felyetonlar. – (1909-1921). Bakı: Azərnəşr, 1985. – 276 s.
17. C.5: Felyetonlar. – Bakı: Azərnəşr, 1985. – 160 s.
18. C.6: Məqalələr, məktublar, müxtəlif əsərlər. – Bakı: Azərnəşr, 1985. – 312 s.

***К.И.АСЛАН***

## ТЕМА КНИГИ И ЧТЕНИЯ В ФЕЛЬЕТОНАХ ДЖАЛИЛЯ МАМЕДКУЛИЗАДЕ

### *РЕЗЮМЕ*

*Джалиль Мамедкулизаде (1869-1932) один из великих представителей Азербайджанской литературы. Он был крупным сатириком. Этот талантливый и самобытный художник являлся редактором демократического журнала «Молла Насреддин».*

*В данной статье отражены выдающиеся мысли Дж. Мамедкулизаде о книги и чтения.*

***K.I.ASLAN***

## SUBJECT OF BOOK AND READING IN FEUILLETONS WROTE JALIL MAMMADGULUZADEH

### *SUMMARY*

*Jalil Mammadguluzade (1869-1932) is one the most powerful representatives of Azerbaijan literature. That big satirist writer was. This talented writer was/were editor of the democratic journal of "Molla Nasreddin".*

*Ideas and thoughts of Jalil Mammadguluzade about books, reading and the importance of the library are studied in the current article.*

**Yusif QAZIYEV**
***276 saylı məktəbin ali kateqoriyalı müəllimi,***
***pedaqoji elmlər namizədi***

## AZƏRBAYCANDA MƏKTƏB KİTABXANALARININ İNKİŞAF TARİXİNDƏN

V əsrin əvvələrində Albaniyada 52 hərfdən ibarət alban əlifbası tərtib olunduqdan sonra kilsənin ixtiyarında olan əyan və ruhani uşaqlarının təhsil alması üçün məktəblər açılır, orijinal əsərlər yazılır, kitabların üzü köçürülür, məktəblər yanında kitablar toplanırdı (1, s.116-117).

Mənbələrdə alban əlyazmalarında məktəblər nəzdində külli miqdarda dastan kitabları və 5 növ ədəbiyyat nümayış etdirildiyi qeyd edilir: a) dini etiqad ədəbiyyatı, b) hüquqşünas ədəbiyyatı (kanonlar və qanunlar), c) tarixi salnamə və xronoloji ədəbiyyat, ç) bədii ədəbiyyat, d) qrammatika ədəbiyyatı. Kilsələr və məktəblər yanında şagirdlər göstərilən elm sahələrinə aid kitablardan mütaliə edirdilər (1, s.305-306). Lakin alban məktəbləri ərəb işğalı dövründə dağıldı və kitablar məhv edildi.

Ərəblər Azərbaycanı işğal etdikdən sonra islam dinini təbliğ etmək məqsədi ilə məscidlər açır, məscidlər yanında müsəlman məktəbləri - məktəb və mədrəsələr təşkil edirdilər (3). Bu məktəblərin nəzdində kitabxanalar yarandı. Məktəblərdə azərbaycanlı uşaqlar ərəb dilində yazılmış Quranı oxuyur, elementar hesab və yazı vərdişləri öyrənirdilər. XI əsrin əvvəllərində Azərbaycanda müsəlman məktəblərinin yeni yüksək tipi - mədrəsələr yarandı. Mədrəsə kitabxanalarında ilahiyyat kitablarından başqa dünyəvi elmlərə – astronomiya, tibb, fəlsəfə, riyaziyyat və s. fənlərə dair kitablar toplanırdı (1, s.141-143).

XII əsrdə Azərbaycanda Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Əfzələddin Xaqani kimi şairlər yazıb-yaratmışlar. Məktəb və mədrəsələrdə təşkil edilən kitabxanalar onların əsərləri ilə bir daha zənginləşirdi. Azərbaycan alim və ediblərinin, mədəni-maarif işçilərinin mövcud şəxsi kitabxanalarından şagirdlər və yaşlı adamlar istifadə edirdilər. XI əsrin görkəmli şəxsiyyətlərindən olan Xətib Təbrizi haqqında deyilirdi: "Ədəbiyyatı yaxşı bilən bu alim Abbasilər dövründə Bağdadda kitabxana sahibi, Nizamiyyə mədrəsəsində ümumiədəbiyyə müdərrisi və bir çox alimlərin müəllimi olmuşdur (3).

Nizami Gəncəvinin şəxsi ev kitabxanasının olmasını Sultan Toğrulun Gəncəyə gəldiyi zaman etdiyi müraciətdən görürük: "Böyük və möhtərəm şair... kitabxanasına baxmaq üçün icazə versəydi, mən özümü tarixi bir şərəfə nail olmuş hesab edərdim" (18).

XI-XII əsrlərdə məktəb, mədrəsə və şəxsi kitabxanalarla yanaşı, ictimai kitabxanalar da mövcud olmuşdur.

Xaqani o dövrdə böyük bir kitabxana olması haqqında məlumat verir:

*Gördü ki, bələdəm hər nişanəyə,*
*Apardı bir böyük kitabxanəyə,*
*Gördükdə olmuşam doğrudan heyran,*
*Oxutdu əvvəlcə "Xələqəl insan"* (15).

1258-ci ildə Marağa şəhərində rəsədxana tikilir. Nəsirəddin Tusinin rəhbərliyi ilə buraya 400.000 kitab toplanır (17).

Atabəy Məhəmmədin vəziri olan Xacə Əbülqaim Rəbibəddinin Təbrizdə böyük bir kitabxanası olmuşdur (19).

Monqol işğalçıları dövründə bu tip məktəblər və onların kitabxanaları darmadağın edildi. K.Marks monqol işğalçıları dövründən bəhs edərək yazırdı: "...incəsənət, zəngin kitabxanalar, mükəmməl kənd təsərrüfatı, saraylar və məscidlər - hər şey yerlə yeksan edilirdi (6). Monqol istilasının başlanması ilə müsəlman mədəniyyəti böyük iflasa uğrasa da, zaman keçdikcə geniş ərazini əhatə edən dövlət aparatını əldə saxlamaq üçün monqolların özləri yerli mədəniyyətə, eləcə də islam dininə böyük ehtiyac hiss edirdilər. Bu məqsədlə monqol işğalından təxminən 75-80 il sonra Qazan xan Azərbaycanın bir çox şəhərlərində məscid, məktəb, mədrəsə və ali tipli müəssisələr tikdirməyə başladı.

XIV-XV əsrlərdə Azərbaycanda təşkil edilmiş məktəb, mədrəsə və ali tipli təhsil müəssisələri nəzdində isə kitabxanalar vardı. Alimlər tərəfindən yazılmış, məşhur xəttatlar tərəfindən üzü köçürülmüş, müzəhhiblər və nəqqaşlar tərəfindən haşiyələrlə bəzədilmiş kitablar burada saxlanılırdı. Hər bir mədrəsənin kitabxanasında tədris tdilən fənlərin təmayülünə uyğun kitablar olurdu. Məktəb müəllimsiz ola bilmədiyi kimi, mədrəsə də kitabxanasız deyildi (19).

Mədrəsə kitablarının kitab fondu vəqf hesabına artırdı. Hər bir mədrəsə kitabxanasında 100-200 kitab olurdu. Məktəblərdə isə vəziyyət başqa cür idi. Hər bir şagird valideynin icazəsi ilə məktəbə bir kitab gətirməli idi.

XIV-XV əsrlərdə məktəb və mədrəsə kitabxanalarının fondu bu cür idi: Quran, şəriət kitabları, Şafei və hənəfi təriqətlərinə dair fiqh, təfsir, hədis kitabları, dini-idealist fəlsəfi əsərlər. Burada Nizaminin, Xaqaninin, Sədinin əsərləri, Qazan xanın vəziri, məşhur alim Rəşidəddin Fəzlullahın 24 cildlik "Əl-Əhya-vəl asar" əsəri, Əvhədi Marağayinin "Dəhnamə", şair Əlinin "Qisseyi Yusif" dastanı, Həsənoğlunun "Divan"ı, Nəsirəddin Tusinin əsərləri də var idi (2).

Şagirdlər kitaba, mütaliəyə böyük həvəs və maraq göstərirdilər. Onlar 10 dinar tapdıqda belə kitab alırdılar və ondan istifadə edirdilər. Şagirdlər müstəqil mütaliə etməyi bacarırdılar (2).

XVI-XVII əsrlərdə Azərbaycanda kitabxanaçılığın inkişafı əvvəlki dövrlərə nisbətən üstünlük təşkil edirdi. "...Hələ XVI əsrin əvvəllərində I Şah İsmayıl özünün Təbrizdəki sarayında və Səfəvilərin ruhani mərkəzi olan Ərdəbildə böyük kitabxanalar təsis etmişdir. Ölkədə qədim əlyazmaları, məşhur şair və alimlərin əsərləri toplanırdı. Məşhur xəttatlar onların əsərlərinin üzünü köçürür, Azərbaycan miniatürçüləri isə onlara bəzən möhür vururdular. Azərbaycan us-

taları kitabların ömrünü uzatmaq üçün dəri və başqa möhkəm materiallardan nəfis cildlər hazırlayır, kağız, mürəkkəb və rənglərin keyfiyyəti qayğısına qalırdılar. Dövlət vəqf hesabına, ayrı-ayrı şəxslər isə şəhər və kəndlərdə yeni-yeni məktəb və mədrəsələr açıb, kitabxanalar təşkil edirdilər. Onu demək kifayətdir ki, XVII əsrin ortalarında (1647-ci ildə) yalnız Təbrizdə 47 mədrəsə fəaliyyət göstərirdi (3). Hətta ayrı-ayrı müəllimlər öz evlərində məktəb və kitabxana təşkil edirdilər. Belə məktəblərin sayı Təbrizdə 600-ə çatmışdı (20).

Bu dövrdə məktəb və mədrəsələrin kitab fondunu dini dərsliklər, hesab, həndəsə, cəbr, astronomiya, təbabət, fəlsəfə, tarix (Mirxondun "Rövzət-üs-səfa" əsəri), coğrafiya, ədəbiyyat dərslikləri, Sədinin "Gülüstan" və "Büstan"ı, Hafizin "Divan"ı, Füzulinin "Leyli və Məcnun"u, Caminin əsərləri, Nəsirəddin Tusinin əsərləri, Aristotel, Evklid, Arximed və Qalileyin əsərləri, İsgəndər Münşinin "Tarix-i-aləm-arayi Abbasi" əsəri, Məhəmməd Tahir Vahidin "Abbasnamə" əsəri, Azərbaycan filosofu Yusif Məhəmmədcan oğlu Qarabağinin əsərləri və digər görkəmli Azərbaycan və fars xadimlərinin əsərləri təşkil edirdi. Hətta Qarabağinin əsərləri Orta Asiya mədrəsələrində də öyrənilirdi (1).

Məktəb və mədrəsələrin kitab fondu şagirdlərin öz zəhmətləri hesabına da artırdı. Belə ki, yaxşı xətti olan şagirdlər oxuduqları müddət ərzində müxtəlif əsərlərin üzünü yaxşı xətlə köçürüb, gündə 10 dinar əmək haqqı alıb, onunla dolanır və təhsil xərclərini çıxarırdılar (20).

Şagirdlər bədii yaradıcılıqla məşğul olur, sinifdənxaric mütaliə yolu ilə biliklərini zənginləşdirirdilər. 1633, 1636, 1639-cu illərdə Azərbaycana və İrana səyahət etmiş alman Adam Oleari Azərbaycanın məktəb və mədrəsələrində oxuyan şagirdlərin dərsdən sonra çox həvəslə və maraqla bədii yaradıcılıqla və sinifdənxaric mütaliə ilə ciddi məşğul olduqlarını qeyd edərək göstərirdi ki, şagirdlər Hafiz, Xaqani, Şəms Təbrizi, Nəsimi, Nəvai, Şahidi, Dəqiqi, Cami, Valeh və b. Azərbaycan və fars şairlərinin əsərlərini öyrənirdilər (26).

XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin tənəzzülə uğraması ilə əlaqədar məktəb və mədrəsələrin kitabxanaları dağıldı. Arasıkəsilməz İran-Türkiyə müharibələrində kitablar qarət edilirdi. Lakin XVIII əsrin ortalarında Azərbaycan xanlıqları meydana gəlməyə başladı. Ayrı-ayrı xanlıqlar öz paytaxtlarında (Şamaxı, Şəki, Gəncə, Təbriz, Naxçıvan, Quba, Bakı və s.), digər şəhər və kəndlərində yeni məktəb, mədrəsə, dünyəvi məktəblər təşkil edib, onların nəzdində kitabxanalar yaradırdılar.

Bu dövrdə məktəb və mədrəsə kitabxanalarının kitab fondu coğrafiyaşünas Zeynalabdin Şirvaninin, tarixçi Əbdürrəzzaq bəyin, Arif Təbrizinin, Arif Şirvaninin, Ağa Məsih Şirvaninin, Nəbinin, Baba Şirvaninin, Xəstə Qasımın, Molla Vəli Vidadinin, Molla Pənah Vaqifin və başqalarının əsərləri ilə bir daha zənginləşirdi. Şagirdlər mütaliə prosesində bədii yaradıcılıqla da məşğul olur, şeirlər yazırdılar (1).

Çar Rusiyası Şimali Azərbaycanın istilasına nail olduqdan sonra məktəb və mədrəsələrdən başqa qəza, şəhər, müsəlman və s. tipli məktəblər açıldı. İstila dövründə təşkil edilən məktəb və mədrəsə kitabxanalarında kitablar əlverişsiz otaqlarda və guşələrdə pis vəziyyətdə saxlanırdı. Kitab fondunun mühafizə edilməsinə və saxlanılmasına məktəbdarlar rəhbərlik edirdi. Məktəb və mədrəsə kitabxanalarının sayına və kitab fonduna gəldikdə, bu barədə arxiv sənədlərində, dövri mətbuatda dəqiq məlumat azdır. Yalnız kitab fondunu təşkil edən kitabların məzmununa, bəzi məktəb və şagirdlərin sayına dair məlumatlara rast gəlmək olar. Bunlar da müəyyən dövrlərdə gah azalmış, gah da çoxalmışdır. 1842-ci ildə məscid məktəblərinin sayı Xəzər vilayətində 605 (şagirdlərin sayı 637) olmuşdur (10). Ancaq mədrəsələrin sayı haqqında məlumat yoxdur.

Məktəb və mədrəsə kitabxanalarında ana dilində uşaqların yaş və bilik səviyyələrinə uyğun dərslik və bədii ədəbiyyat kitabları tamamilə yox idi. Bu tədris müəssisələrində əsas dərs kitabları "Çərəkə", "Quran", bunları bitirdikdən sonra isə farsca yazılmış Sədinin "Gülüstan" və "Büstan"ı, Hafizin "Divan"-ı, "Nisab", "Tənbeh-qafil", "Tarixi-Nadir", "Came-Abbas" və s. idi. Sinifdənxaric mütaliə üçün "Əhmədiyyə", "Məhəmmədiyyə" və sair əfsanəvi nağıl və hekayələrdən ibarət kitablar oxunurdu (5).

Şagirdlər bədii ədəbiyyatın mütaliəsinə də xüsusi maraq göstərir, bədii yaradıcılıqla məşğul olurdular. Bu münasibətlə İ.Şopen 1837-ci ildə "Ermənistan vilayətində maarifin vəziyyəti haqqında" adlı məqaləsində yazırdı: "Gənclər bədii ədəbiyyatla daha çox məşğul olurlar. Onlardan bir çoxu Rudəki, Firdovsi, Ənvəri, Nizami, Cami, Hafiz, Sədi və digər məşhur söz ustalarının əsərlərini əzbərdən bilirdilər. Hətta bəzi orijinal şairlər İrəvan muzlarını ilhama dəvət edir və müxtəlif hadisələrə həsr edilmiş xüsusi şeirlər qoşurdular. Öz əqlini poeziyanın ən əsas cəhətlərinə həsr edən bir mirzə isə özünə Mirzə Bülbül təxəllüsü götürmüşdür" (22).

Məktəb kitabxanalarında kitab və digər tədris vəsaitlərinin çatışmazlığı şəraitində şagirdlərin sinifdənxaric mütaliəsinin bu deyilən keyfiyyəti öz başına yaranmamışdır. Dövrün qabaqcıl müəllim və alimləri, mütəfəkkir və yazıçıları istilalar dövründə şəxsi kitablarını mühafizə etməklə yanaşı, şagirdlərin sinifdənxaric mütaliələrinə geniş əhəmiyyət verir, azərbaycanlı uşaqların təlim-tərbiyəsinə himayədarlıq edir, onları bədii yaradıcılığa alışdırırdılar.

Belə maarifçilərdən biri də A.Bakıxanov (1794-1846) olmuşdur. Onun Bakı və Quba şəhərlərində zəngin kitabxanaları var idi. Bu kitabxanalarda qiymətli əlyazmalar və çap kitabları saxlanırdı. Alim öz kitabxanasındakı kitabların hamısında bu cür mənalı qeydlər etmişdir: "Neməti başəd kitabi-dilguşə" ("Ürək açan kitab nemətdir"), "Əlanəli fəsəyagunə kəmə kane miceyri" ("Bu gün mənimdir, sonra başqalarının olacaq").

A.Bakıxanovun ədəbi yaradıcılığı və kitabxanası o zaman Avropa və Rusiyanın bir çox alimlərini maraqlandırmışdır. Fransız səyyahı qraf Süzanne,

Kazan Universitetinin professoru İ.N.Berezin 1840-cı ildə Zaqafqaziyaya səyahət etdikləri zaman Qubaya da gəlmiş, Bakıxanovla və onun kitabxanası ilə tanış olmuşdular. İ.N.Berezin A.Bakıxanovun Bakıdakı zəngin kitabxanasındakı əlyazmaların siyahısını tutaraq, onu 1843-cü ildə Kazanda "Dağıstan və Zaqafqaziyaya səyahət" adlı əsərinin əlavəsində çap etmişdir. Bu kitabxanada Nizami, Cami, Savəci, Saib Təbrizi, Nəvai, Əttar, Ənvəri, Hafiz, Münşi, A.Bakıxanov və başqalarının 253 nüsxədən ibarət qiymətli əlyazmaları var imiş (4).

Şübhəsiz, A.Bakıxanovun bu şəxsi kitabxanası Azərbaycanda kitabın və kitabxanaçılığın inkişafında böyük rol oynamış, o zamankı Azərbaycan ziyalıları bu zəngin kitab xəzinəsindən istifadə etmişlər.

A.Bakıxanovun kitabxanalarında uşaq mütaliəsinə dair ədəbiyyat az olsa da, o öz pedaqoji yaradıcılığında şagirdlərin sinifdənxaric mütaliəsinə böyük əhəmiyyət vermişdir. Belə ki, "təlim kitablarının dilcə uşağın yaş və bilik səviyyəsinə müvafiq olmamasını, onların bəzilərini dərs deyən müəllimin də başa düşməməsini görən A.Bakıxanov özü təşəbbüs edib, uşaq və gənclərin mütaliəsinə xidmət göstərən "Təhzibül-əxlaq" və "Nəsayeh" əsərlərini yaratmışdır, digər tərəfdən isə tərcümələri vasitəsilə bu sahədəki boşluğu doldurmuşdur (8). Onun Krılovdan etdiyi tərcümələr o zamankı uşaq ədəbiyyatını daha da zənginləşdirmişdir. Məşhur ədəbiyyat tarixçilərindən olan F.Köçərli Bakıxanovun tərcüməsi haqqında yazırdı ki, bizim şairlərin bir neçəsi "Eşşək və bülbül" adlı təmsili uşaqlar üçün tərcümə etmişdir: lakin onlardan heç kəs həmin təmsili Bakıxanov qədər gözəl, bədii, sadə, ustalıqla tərcümə edə bilməmişdir. Bu gözəl şairanə tərcümə bizim dərsliklərin bəzəyi ola bilər (21).

Uşaq mütaliəsi ilə dərindən maraqlanan A.Bakıxanov məktəbdə uşaqların mütaliəsinə kimlərin rəhbərlik edəcəyini, hansı siniflərdən mütaliəyə başlamaq lazım olduğunu da göstərmişdir. Belə ki, o, Bakıda azərbaycanlı uşaqlar üçün dünyəvi təhsil məktəbi açmağın müfəssəl bir layihəsini tərtib edərək onu Qafqazın o zamankı baş hakimi olan general V.Q.Rozenə təqdim etmişdir. Layihə belə adlanırdı: "Mayor Abbasqulu ağa Bakıxanovun 1832-ci il fevralın 20-də tərtib etdiyi müsəlman məktəbinin təsis edilməsi layihəsi". "Layihə"nin 3-cü maddəsində şagirdlərə özünün zəngin kitabxanasından istifadə etməyə icazə verir. Həmçinin "layihə"də Bakıda təsis ediləcək müsəlman məktəbinin tədris planında müxtəlif bədii əsərlərin tədrisini II və III siniflərdə nəzərdə tutur. O, bu məsələnin həyata keçməsi üçün məktəbdə kitabxana ştatına yer verir (8).

Çarizmin müstəmləkə siyasəti ilə əlaqədar olaraq A.Bakıxanovun bu layihəsi 15 il gecikdi və Azərbaycanda ilk müsəlman məktəbi 1849-cu il aprelin 10-da Gəncədə açıldı (1, 23). Tiflisdə isə ilk müsəlman məktəbi 1847-ci ildə təsis edilmişdir.

Bu dövrdə Tiflis gimnaziyasının Azərbaycan dili müəllimi, görkəmli maarifpərvər şair Mirzə Şəfi Vazeh şagirdlərin sinifdənxaric, mütaliəsinə ciddi fikir verərək tədrisin ana dilində aparılmasını irəli çəkmişdi. O, İ.Qriqoryevlə

birlikdə dili sadə və bədii, uşaqların yaş və bilik səviyyələrinə uyğun "Müntəxəbat" dərsliyini, məktəblilər üçün "Tatar-rus lüğəti" kitabını tərtib etmişdi (19). Azərbaycan dilində ilk dəfə tərtib olunmuş, geniş məzmunlu bu dərslik və lüğət kitabı o zamankı məktəb, mədrəsə və yeni yaranan müsəlman məktəblərinin kitabxanalarına böyük hədiyyə idi.

XIX əsrin 40-cı illərindən başlayaraq yeni müsəlman məktəbləri yaranmağa başladı. 1847-1856-cı illərdə Zaqafqaziyada 12 (Tiflisdə 2, Gəncədə 1, Şuşada 1, Nuxada 1, Şamaxıda 1, Bakıda 1, Lənkəranda 1, Dərbənddə 1, Zaqatalada 1, Teymurxan-Şurada 1, Salyanda 1 müsəlman məktəbinin nəzdində kitabxanalar təşkil edildi (11). Məktəb mədrəsə, yeni müsəlman məktəblərinin kitabxanaları məktəblər, məscidlər nəzdində və ya şəxsi evlərdə yerləşirdi. Kitab fondunun mühafizəsinə məktəbdarlar rəhbərlik edirdi (17).

Bu dövrdə məktəblərdə kitabxanaçı ştatının olmaması kitabxana fondlarının mühafizəsinə, onlardan istifadənin kefiyyətinin yüksəldilməsinə və onların təliminə öz mənfi təsirini göstərirdi. Məktəb kitabxana fondlarının komplektləşdirilməsinə dövlət vəsaiti ayrılmırdı. Bu səbəbdən də məktəb kitabxanalarının fondu şagirdlərin ədəbiyyata olan tələbini ödəmirdi.

Məktəb, mədrəsə və müsəlman məktəblərində kitab və dərslikləri, digər dərs vəsaitlərini məktəbi açan şəxs öz hesabına əldə edirdi (11). Kitablar məzmunca keyfiyyətsiz, sayca az idi.

Yeni yaranan müsəlman məktəbləri və onların kitabxanalarının təşkili, müəllimlərin əmək haqqı və sair xərclər camaat tərəfindən toplanmış ianə hesabına olurdu. Yalnız rus dili müəllimi dövlət hesabına - canişinin büdcəsindən əmək haqqı alırdı. Müsəlman məktəblərinin kitabxanaları acınacaqlı vəziyyətdə idi, kitablar çatışmırdı. Azərbaycanda mövcud olan məktəb, mədrəsə və müsəlman məktəblərinin kitabxanalarında mövcud olan kitabların əksəriyyəti Türkiyə və İrandan gətirilirdi. Hətta rus dilində olan kitab və sair tədris vəsaitləri da çatışmırdı. Bu də çar Rusiyasının müstəmləkə siyasətinin təzahürü idi.

Bu mülahizəni arxiv materialları da təsdiq edir. Zaqafqaziya ölkəsinin müfəttişi Məhəmməd Əfəndi Müftizadənin Qafqaz canişini baş idarəsinin rəisinə Tiflis müsəlman məktəbinin yenidən təşkili haqqında yazdığı 14 mart 1863-cü il tarixli məlumatında müsəlman məktəblərinin kitabxanalarında kitabların çatışmaması və yox dərəcədə olması haqqında geniş izahat verilirdi. Tiflis müsəlman məktəbinin yenidən təsisi haqqındakı vərəqədə qeyd edilirdi: "Məndə Vostokovun 1 ədəd qrammatika kitabı, Qalaxovun bir hissə müntəxəbatı, Zuyevin üç hissə tarix kitabları vardır. Mən işlədiyim vaxtdan bəri tədris vəsaitlərindən coğrafiya xəritəsi və Zolotovun qarşılıqlı təlim cədvəli əldə edilmişdir ki, axırıncı qeyd edilən tədris vəsaitinin istifadəsi 4 ildən artıqdır, ... bu dərs ilində də şagirdlər çətinliklə həmin tədris vəsaitlərindən oxuyurlar ki, bununla təlim ləngiyir. Baxmayaraq ki, mən bu haqda müdiriyyətə məlumat vermişəm, ancaq hələlik mənim xahişimin yerinə yetirilməsi nəzərə alınmamışdır" (12).

Tiflis müsəlman məktəbləri popeçitelinin (müdirinin) müsəlman məktəblərinin vəziyyəti haqqındakı 9 sentyabr 1863-cü il tarixli məktubunda qeyd edilirdi: "Mən şəxsən Tiflis müsəlman məktəblərində tədris vəsaitlərinin-kitabların, ölkə xəritələrinin, qlobusların və şairlərin çatışmamasını, eləcə də pis vəziyyətli mebelin olmasını fürsət tapıb yəqin etdim və mənim fikrimcə, göstərilən əşyaların əldə edilməsi üçün hər məktəbə 500 rubl buraxmaq zəruridir. Şagirdlər üçün Şərq dillərində lazım olan kitabları bizim missiyalar vasitəsi ilə İrandan, Türkiyədən gətirmək olar... Rus dilində olan kitabları və başqa tədris vasaitlərini Peterburqdan satın əldə etmək mümkündür" ( 12, v.31).

Müsəlman məktəblərinin (məktəb, mədrəsə və yeni yaranan, müsəlman məktəbləri) maddi bazasının acınacaqlı vəziyyətini çar Rusiyasının məmurları da mətbuatda etiraf edirdilər. Qafqaz təhsil dairəsi popeçitelinin 1882-ci il hesabatında deyilirdi: "Qafqaz üzrə 1920 müsəlman məktəbi olmuşdur. Bunlardan 108-i Tiflis quberniyasında və Zaqatala dairəsində, 377-si Gəncə quberniyasında, 301-i Bakı quberniyasındadır. Göstərilən məktəblərin əksəriyyəti olduqca qaranlıq, soyuq, rütubətli, pis binaya və lazımsız mebelə malikdir" (17).

Bu məktəblərin kitabxanalarında kitab fondu yox dərəcəsində idi. Dövri mətbuatda yazılırdı: "S.Ə.Şirvaninin təşəbbüsü ilə 1874-cü ildə açılmış Şamaxı məclis məktəbinin kitabxanası 7 il ərzində heç bir tədris vəsaiti əldə etməmişdi. "Şagirdlərin sayı 20-ni ötür, rus dili və hesab müəllimi yoxdur, heç bir tədris vəsaiti yoxdur, tatar (Azərbaycan - Y.Q.) dili müəllimi heç bir əmək haqqı almır, bir sözlə nə məclis, nə də camaat tərəfindən heç bir yardım yoxdur" (16).

Müsəlman məktəblərinin kitabxanalarında kitab fondu necə idisə, təlim keyfiyyəti və təhsil də elə idi. Qafqaz təhsil dairəsi popeçitelinin 1882-ci il hesabatında deyilirdi: "Müsəlman məktəblərində tədris ərəb dilində uşaqlara aydın olmayan dualar öyrətməkdən ibarətdir, uşaqların tatar (Azərbaycan - Y.Q.) dilində oxu və yazı bilikləri uzun illər məktəbə gəldikdən sonra əldə edilir, ona görə ki, bütün təlim şüursuz surətdə aparılır. Tədrisin məzmunu məktəbdarın öz biliyindən asılı idi, bütün məktəblərdə Quranın mütaliəsi məcburi idi, onu ehtirasla oxuyurdular, möminliklə dinləyirdilər, ancaq başa düşmürdülər" (17).

Tədrisin gedişi kimi şagirdlərin mütaliəsi də səmərəsiz olmuşdur. Bu da ondan irəli gəlmişdir ki, kitabxana fondunun əksəriyyətini ana dilində olmayan və heç bir dünyəvi bilik verməyən dini-idealist kitablar təşkil etmişdir ki, bunların içərisində həm tədris, həm də sinifdənxaric mütaliədə başlıca kitab "Quran" olmuşdur. A.Çernyayevski yazırdı: "Quranın mexaniki mütaliəsini, əlbət ki, ərəb dili biliyi adlandırmaq olmaz" (7). Müsəlman məktəblərinin müəllimlərinin maddi vəziyyəti də çox dözülməz halda idi. Dövlət tərəfindən heç bir maddi kömək almayan müəllimlər valideynlərin və şagirdlərin cüzi maddi yardımlarının ümidinə qalmışdı. Azərbaycanın XIX əsr maarifçilərindən olan M.A.Şahtaxtlı "Müsəlmanların məktəb aləmi" məqaləsində göstərirdi: "Mək-

təbdarların maddi vəziyyəti həqiqətən müsibətdir. Nə ictimaiyyət, nə dövlət, nə də ali ruhanilər məktəbdarlara heç bir şey vermirlər. Onlar həmişəlik cüzi aylıq əmək haqqı (ayda 30 qəpikdən bir manata qədər) və arabir şagirdlər tərəfindən verilən hədiyyələrlə dolanırlar" (23).

Ancaq şagirdlər məktəbdə aldıqları elementar biliklərini sinifdənxaric mütaliə vasitəsi ilə genişləndirirdilər. Məsələn, mənbələrin birində deyilir: "Qax məktəbinin şagirdləri təlim zamanı əldə etdikləri elementar bilikləri məktəbdə dərsdən sonra ana dili və rus dilində olan kitabların mütaliəsi ilə tamamlayırlar" (14, v.34).

Beləliklə, 1860-cı illərdə yeni yaranan müsəlman məktəbləri binanın, tədris vəsait və vəsaitlərinin çatışmaması, müəllimlərin maaşının az olması və s. səbəblərin ucbatından tədricən bağlanıb (1849-1879), kitabxanaları dağıdıldı. 60-cı illərdən sonra yalnız Tiflis və Zaqatala müsəlman məktəbləri qaldı. Zaqatala məktəbi isə üçsinifli ibtidai məktəbə çevrildi ki, bu da sonralar qəza məktəbi adlanırdı (11, v. 58).

## ƏDƏBİYYAT


1. *Azərbaycan tarixi. I-II c. – B., 1961.– 500 s.*
2. *Azərbaycan ədəbiyyatı tarixi. I-II c. – B., 1943. – 346 s.*
3. *Azərbaycanda xalq maarifinin inkişafı yolu. – B., 1945.–S.159.*
4. *Черняевский О. Итоги народного образования кавказских мусульман // Газета «Кавказ», 1895, №24.(Тифлис).*
5. *Əhmədov Ə. A.Bakıxanovun məlum olmayan layihəsi haqqında // BDU-nun «Elmi əsərləri». – B., 1995.*
6. *XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişafı tarixi. – B., 1972.*
7. *Gürcüstan Resp. Dövlət Tarix Arxivi, fond 423, siyahı 1, iş 171, vərəq 246, 58.*
8. *Gürcüstan Resp. Dövlət Tarix Arxivi, fond 416, siyahı 3, iş 415, vərəq 47, 31.*
9. *Gürcüstan Resp. Dövlət Tarix Arxivi, fond 425, iş 502, vərəq 337.*
10. *Gürcüstan Dövlət Tarix Arxivi, a) fond 416, 58; b) fond 422, s.1. iş 171 58; c) fond 425, iş 422, v. 34, 27.*
11. *Xaqani Şirvani. Seçilmiş əsərləri. – B, 1956.*
12. *Хутесов И.М. Меджлиская школа В Шемахе // Газета «Кавказ», 1881, №188 (Тифлис).*
13. *Qafqaz Tədris Dairəsinin 1882-ci il hesabatı. – Tiflis, 1883.*
14. *Onullahi S. Azərbaycanda XIV-XV əsrlərdə maarif və məktəb // "Azərbaycan məktəbi" jurnalı.– B., 1973, №7, S.50-55.*
15. *Onullahi S. Azərbaycanda Səfəvilər dövründə maarif sistemi // "Azərbaycan məktəbi" jurnalı.– B., 1974. №7, S.71-75.*

16. *Seyidov Ə. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən. – B., 1958.*

17. *Шопен И. О положении просвешения в Армянской области. – Ереван, 1836.*

18. *Шахтахтинский М.А. Школьная жизнь мусульман // Газета «Кавказ», 1892, № 30, (Тифлис).*

19. *Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi (XII əsrdən 1920-ci ilə qədər). – B, 1964.*

***Ю. ГАЗИЕВ***

## ИЗ ИСТОРИИ РАЗВИТИЯ ШКОЛЬНЫХ БИБЛИОТЕК АЗЕРБАЙДЖАНА

### *РЕЗЮМЕ*

*После распространение христианства на севере Азербайджана в церкви занимались образованием и воспитанием молодого поколения. Там были библиотеки, которые состояли из 5 видов книг.*

*Но через определенное время Азербайджан подвергалось нападению арабы. Албанские школы с библиотеками, и храмы были разбиты, новые школы, медресе, и мусульманские школы были образованы. После Российского нападения наравне со школами, медресе и другими очагами образования, существовали и библиотеки.*

***Y.GAZİYEV***

## HİSTORY OF THE SCHOOL LİBRARİES İN AZERBAİJAN

### *SUMMARY*

*After spreading Christianity in the north of Azerbaijan (Albania) churches have leaded young generation's study-bring-up function. There have been 5 libraries that they have been consisted of 5 kinds of books.*

*But, after passing time, Azerbaijan has been exposed to Arabian occupation, Albanian schools with their libraries and temples have been ruined down, new schools, madras and Muslim schools, libraries have been formed. After Russian occupation libraries also have been existed at the same time with schools, madras and education centers.*

*The noted libraries have widely served to the growing generation.*

**Sənubər MUSTAFAYEVA**
***Kitabxana resursları və informasya axtarış sistemləri kafedrasının baş müəllimi***

# KİTABXANA - BİBLİOQRAFİYA TƏSNİFATI: YENİLİKLƏR VƏ DƏYİŞİKLİKLƏR

Qədim zamanlardan indiyə kimi kitabxanaların əsas funksiyaları insanlara informasiya vermək, cəmiyyət üzvlərinin informasiyadan istifadə etməsini təmin etməkdir. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda deyilir: “Kitabxana fəaliyyəti – oxucuların sərbəst surətdə informasiya almaq huququnu təmin etmək, onların kitablara, dövri nəşrlərə və kitabxana fondunu təşkil edən digər sənədlərə olan tələbatını ödəmək məqsədilə həyata keçirilən fəaliyyət”dir (4).

Kitabxanalar qədər sənədlərin ictimai istifadəsini təşkil edən başqa bir elmi-məlumat idarələri yoxdur. “Kitabxanalar həmişə sosial tələbatı ödəmək üçün yaranmış və onun inkişafı fikir tarixi ilə sıx əlaqədə olmuşdur. Kitabxanalar fəaliyyət göstərdiyi imkan daxilndə sosial vasitə kimi həmişə sosial mühitdən asılı olaraq formalaşmışdır” (3, s.6). Kitabxanalarda informasiya xidmətinin düzgün təşkilinin spesifik xüsusiyyətləri vardır. Ən mühüm problem kitabxana fondlarını müxtəlif oxucu qruplarının tələbatına uyğun təşkil etməkdən, onların istifadəsini operativ təmin etməkdən ibarətdir. Kitabxanalara sənəd axını nə qədər çoxalırsa, onların axtarılması da çox vaxt tələb edərək mürəkkəbləşir. Bu çətinliklərin aradan qaldırılması məqsədilə müxtəlif dövrlərdə müxtəlif təsnifat sistemləri yaranmışdır. Təsnifat sistemləri əsasında kitabxana fondları təşkil edilir, oxucuların tematik sorğuları ödənilir, sənədlər məzmununa görə təsnifləşdirilir, həm də onların əsasında kataloqlar yaradılır. Müasir dövrdə kitabxanalarda ən geniş tətbiq edilən Universal Onluq Təsnifat (UOT) və Kitabxana Biblioqrafiya Təsnifatı (KBT) cədvəlləridir.

Məlumdur ki, XX əsrin əvvəllərindən başlayaraq Rusiya kitabxanalarında Universal Onluq Təsnifat tətbiq edilirdi. Lakin Rusiyada UOT cədvəllərinin nəşrinin ləngiməsi və digər səbəblər yeni təsnifat sisteminin yaradılması problemini irəli sürmüşdür. Rusiya kitabxanaşünasları XX əsrin 50-ci illərindən başlayaraq yeni kitabxana-biblioqrafiya təsnifatı yaratmaqla məşğul olmuş və 60-cı illərin sonunda bu işi başa çatdırmışlar.

Təsnifatın yaradıcıları Rusiya Dövlət Kitabxanası, M.Y.Saltıkov-Şedrin adına Sankt-Peterburq Dövlət Kitabxanası, Rusiya Elmlər Akademiyası və Rusiya Dövlət Kitab Palatasının kollektivləri olmuşdur.

Kitabxana-Biblioqrafiya Təsnifatı (KBT) universal, xüsusi və elmi kitabxanalarda sənədlərin təsnifləşdirilməsi, sistemli kataloqun yaradılması, bir sıra soraq-məlumat və biblioqrafik işlərin görülməsi üçün tərtib olunan təsnifatdır.

Təsnifatda bütün bilik sahələri obyektiv aləmin tərkib hissələrinə uyğun olaraq üç qrupa bölünmüşdür.

1. Cansız təbiət haqqında elmlər – dəqiq elmlər
2. Canlı orqanizmlər haqqında elmlər –biologiya elmləri
3. Cəmiyyət haqqında elmlər – ictimai elmlər

Hazırda KBT-nin fəlsəfi-metodoloji əsasını obyektivlik və inkişaf perspektivləri əsasında elmlərin təsnifləşdirilməsi təşkil edir. Burada elmlər materiyanın hərəkət formasına əsasən sadədən mürəkkəbə doğru prinsipi əsasında düzülmüşdür. KBT-də təkcə elmlər sistemi deyil, elmlər vasitəsilə öyrənilən obyektlər sistemi də nümayiş etdirilmişdir. Burada fənlərin, problemlərin anlayışları ilə bərabər, ictimai həyatın, praktiki fəaliyyət sahələrinin, incəsənətin müxtəlif növlərinin əks etdirilməsinə də yer verilmişdir. Cədvəllərdə çap əsərlərinin oxusu istiqamətinin, nəşr növünün və formasının müəyyənləşdirilməsinə də diqqət yetirilmişdir.

Cədvəllərin bölgülərinin bölmələrə və şöbələrə bölünməsinin əsasını müxtəlif kateqoriyalar təşkil edir: öyrənmə obyekti, tədqiqat obyekti, obyektin quruluşu, xüsusiyyətləri, proseslər, əlaqələr, ərazi, tarixi dövr və s.

1960-cı illərdən etibarən Kitabxana-Biblioqrafiya Təsnifatı (KBT) nəşr edilməyə başlamış və onun müxtəlif variantları çap edilmişdir. KBT-nin əsasən 5 variantı hazırlanmışdır (5, s.112).

1. KBT. Tam variant (iri elmi kitabxanalar üçün – 25 buraxılış 30 kitabdan ibarət 1961-1968-ci illərdə çap edilmişdir);
2. KBT. Elmi kitabxanalar üçün qısaldılmış cədvəllər (5 buraxılış, 6 kitabdan ibarət 1969-1972- ci illərdə çap edilmişdir);
3. KBT. Vilayət kitabxanaları üçün ( 4 kitabdan ibarət, 1980-1983-cü illərdə çap edilmişdir);
4. KBT. Kütləvi kitabxanalar üçün 1 cilddən ibarət (ilk nəşri 1977-ci ildə çap edilmişdir);
5. KBT. Uşaq və məktəb kitabxanaları üçün 1 cilddən ibarət ( ilk nəşri 1986-cı ildə çap edilmişdir).

KBT-nin elmi kitabxanalar variantının əsas cədvəlləri 21 şöbədən ibarətdir. Elmlər təsnifatına uygun olaraq bu şöbələr aşağıdakı kimi yerləşdirilmişdir:

A - Ümumelmi və fənlərarası biliklər (əvvəllər bu şöbə marksizm-leninizm adlandırılmışdır)

Б - Təbiətşünaslıq elmləri

В - Fizika-riyaziyyat elmləri

Г - Kimya elmlər

Д - Yer haqqında elmlər

E - Biologiya elmləri və s.

Təsnifatda böyük rus hərfləri ilə işarə edilmiş bütün şöbələr obyektiv aləmin tarixi inkişafı baxımından, yəni təbiət-cəmiyyət-təfəkkür silsiləsinə əsasən qurulmuşdur. KBT-nin tam nəşrinin əlifba-predmet göstəricisi də verilmişdir. Bu göstəricidə 20 minə yaxın rubrika vardır.

1972-ci ildə KBT-nin elmi kitabxanalar üçün xüsusi variantı hazırlanmışdır. Bu variant bir sıra cəhətlərinə görə əsas variantdan fərqlənir.

1. Təsnifatın tam nəşrində olan əsas və köməkçi cədvəllər həm miqdarına, həm də detallaşdırma həddinə görə xeyli qısaldılmışdır;

2. Təsnifatın müəyyən bölgü həddlərində təsnifləşdirmək üçün metodik göstərişlər verilmişdir;

3. Təsnifatın tam cədvəllərinə nisbətən elmi kitabxanalar üçün işlənmiş qısaldılmış variantında rubrikaların miqdarı beş dəfə azalmışdır;

4. Elmi kitabxanalar üçün hazırlanmış variantda "KBT-də dəyişiklik və əlavələr" nəzərə alınmışdır. Dəyişiklik və əlavələrdə bəzi rubrikalar təkmilləşdirilmiş, burada elmdə və ictimai həyatda yaranan yeniliklər öz əksini tapmışdır.

Sonralar KBT-nin nəşrləri bir qədər inkişaf etdirilərək kütləvi kitabxanalar, uşaq və məktəb kitabxanaları üçün variantları yaranır. KBT-nin kütləvi kitabxanalar üçün ilk variantı 1977-ci ildə, ikinci variantı isə 1986-ci ildə çap olunmuşdur. Sonrakı illərdə də təkmilləşdirilmiş variantları çap edilmişdir.

Təsnifatda iki və hətta üç elmin qarşılıqlı əlaqəsi nəticəsində (məsələn, kibernetika, bionika, psixologiya) bir sıra elmlər yaranmışdır. KBT-nin kütləvi kitabxanalar variantında tətbiqi elmlər, texnika, kənd təsərrüfatı, tibb elmləri də ayrı-ayrı qrup halında verilmişdir.

Kütləvi kitabxanalar üçün nəzərdə tutulmuş KBT cədvəlləri 3 hissədən ibarətdir: əsas cədvəllər, nümunəvi bölgülər, əlifba-predmet göstəricisi.

Qeyd etmək lazımdır ki, KBT cədvəllərinin hazırda təkmilləşdirilmiş variantları hazırlanmışdır. Təkmilləşdirilmiş varianta görə KBT-nin əsas cərgəsini "Ümumelmi və fənlərarası biliklər şöbəsi" idarə edir. Bu bölmədə ümumnəzəri elmi biliklərin müasir elmi biliklərlə, yəni təbiətşünaslıq, texnika, sosial, humanitar biliklərin inteqrasiyası nəticəsində yaranmış (informatika, kibernetika, insanşünaslıq və s.) əks etdirilməsi nəzərdə tutulmuşdur.

Sonrakı bölmələr elmi biliklərin 3 əsas sahəsini əhatə edir: təbiətşünaslıq elmləri, tətbiqi elmlər (texnika, kənd təsərrüfatı, tibb), ictimai və humanitar elmlər. KBT-nin əsas cərgəsinin sonuncu bölməsini "Universal məzmunlu ədəbiyyat" təşkil edir.

Cədvəlin 2-ci, 3-cü və s. bölgüləri əsas cədvəlin birinci şöbəsinin xırdalanması nəticəində əmələ gəlir.

KBT-nin kütləvi kitabxanalar, uşaq və məktəb kitabxanaları üçün nəzərdə tutulmuş variantlarında ixtisarlar aparılaraq bütün elm sahələri 9 şöbə daxilində qruplaşdırılmışdır. Şöbələr ərəb rəqəmləri ilə işarə edilmişdir:

1. Ümumelmi və fənlərarası biliklər.
2. Təbiətşünaslıq elmləri
3. Texnika. Texniki elmlər
4. Kənd və meşə təsərrüfatı. Kənd təsərrüfatı və meşə təsərrüfatı elmləri
5. Səhiyyə. Tibb elmləri

6/8. İctimai və humanitar elmlər

9. Universal məzmunlu ədəbiyyat (2)

KBT-nin kütləvi kitabxanalar üçün işlənmiş variantının mühüm hissəsini köməkçi cədvəllər təşkil edir. Təsnifatın bu variantında aşağıdakı nümunəvi bölgülərdən istifadə olunur: ümumi nümunəvi bölgülər, ərazi nümunəvi bölgüləri, xüsusi nümunəvi bölgülər. Ümumi və ərazi nümunəvi bölgülər (təyinedicilər) bütün əsas cədvəllərdə tətbiq edilir, xüsusi nümunəvi bölgülər isə ayrı-ayrı elm sahələrinin tərkibində tətbiq edilir.

Hazırda 1993-1995-ci illərdə ideoloji və siyasi aləmdə baş verən sosial dəyişiklikləri özündə əks etdirən KBT-nin yeni nəşrləri hazırlanır.

1998-ci ilin oktyabrında KBT-nin nəşrinin 30 illiyinə həsr edilmiş Beynəlxalq konfransda dünya standartlarına cavab verə bilən KBT-nin nəşrlərinin yeni variantlarının hazırlanması məsələsi irəli sürülmüşdür. Əvvəlcə KBT-nin tam nəşrinin hazırlanması fikri əsas götürülmüşdür. Bu variant məlum olduğu kimi 1960-1968-ci illərdə 30 kitabdan ibarət çap edilmişdir. Belə bir həcmdə olan nəşrin çapı baha başa gəldiyindən qərara alınmışdır ki, elmi kitabxanalar üçün olan qısaldılmış variantın (1970-1972-ci illər, 6 kitabdan ibarət) təkrar çapı hazırlansın və burada tibb və kənd təsərrüfatı şöbələrinin detallaşmasına xüsusi diqqət yetirilsin.

Bunun nəticəsi olaraq Rusiyada elmi-tədqiqat mərkəzi KBT cədvəllərinin yeniləşməsinə ictimai elmlər şöbəsindən başlamışdır. 2000-ci ildən başlayaraq müəlliflər kollektivi arasında iş birliyi yaradılmışdır.

Elmi kitabxanalar üçun ixtisar edilmiş variantın nəşrinin 8 ciddən ibarət çap edilməsi qərara alınmışdır. Ayrı-ayrı buraxılışlar üçün materialların aşağıdakı qayda üzrə yerləşdirilməsi nəzərdə tutulmuşdur.

А, Я 1,9 Ümumelmi və fənlərarası biliklər. Universal məzmunlu ədəbiyyat.

Bu buraxılışda həmçinin giriş, tipik bölgülər cədvəlinin verilməsi nəzərdə tutulmuşdur.

Б/Е 2 Təbiət elmləri.

Ж/О 3 Texnika. Texniki elmlər.

П/Р 4/5 Kənd və meşə təsərrüfatı. Kənd və meşə təsərrüfatı elmləri. Səhiyyə. Tibb elmləri.

С/Т 60/63 İctimai elmlər ümumilikdə. Sosial fəlsəfə. Sosiologiya. Statistika. Demoqrafiya. Tarix. Tarix elmləri

У/Ц 60/68 İqtisadiyyat. İqtisadi elmlər. Siyasət. Siyasi elm. Hüquq. Hüquq elmləri. Hərbi iş. Hərbi elm.

Ч/Ю 70/88 Mədəniyyət, elm, maarif. Filologiya elmləri. Bədii ədəbiyyat. İncəsənət. İncəsənətşünaslıq. Din. Mistika. Azad düşüncə. Fəlsəfə. Rsixologiya (1, s.5).

8-ci cilddə bütün cildlərə aid toplu əlifba-predmet göstəricisi veriləcəkdir. Digər cildlərin hər birində də əlifba-predmet göstəricisinin verilməsi nəzərdə tutulmuşdur.

Buraxılışlar hazırlandıqca çap edilir. Hər bir buraxılış çap edilib istifadəyə verildikcə ona dair əlavə və dəyişikliklər də çap ediləcəkdir.

Təsnifat cədvəlinin bu variantı bütün kitabxanalar üçün (universal, elmi, milli, kütləvi və s.) nəzərdə tutulmuşdur. 2001-ci ildən başlayaraq KBT-nin buraxılışlarla nəşrləri çap edilir.

Kitabxana-Biblioqrafiya Təsnifatında 2-ci şöbə təbiətşünaslıq elmləri şöbəsi adlanır. Təbiətşünaslıq - təbiət haqqında elmlər sisteminin sahələrindən biridir. Təbiətşünaslığın predmeti olan təbiət insan fəaliyyəti ilə qırılmaz vəhdətdə araşdırılır. Təbiətşünaslığın vəzifəsi hərəkətdə olan materiyanın müxtəlif növlərini dərk etmək, təbiət qüvvələrindən insanın mənafeyi naminə istifadə etmək məqsədilə maddi aləmin qarşılıqlı əlaqədə olan qanunauyğunluqlarını öyrənməkdir. Təbiətşünaslıq təbiət hadisələrinin mahiyyətini, qanunlarını tədqiq edir və bu zəmində yeni hadisələri irəlicədən görür, yaradır, həmçinin dərk olunan qanunlardan praktik istifadə imkanlarını açıb göstərir.

Əgər XX əsrin ortalarına qədər təbiətşünaslığın mərkəzində fizika dururdusa, hazırda bununla yanaşı təbiət elmləri qrupunda – biologiya, kimya aparıcı rol oynayır. Astronomiyada baş verən inqilab kosmosun tədqiqinə imkan vermişdir. Atom enerjisinin praktiki tətbiqi təbiətşünaslığın böyük nailiyyətidir. Ekologiya, ətraf mühiti mühafizə problemləri böyük əhəmiyyət kəsb edir.

Təsnifat cədvəlində təbiətşünaslıq elmləri 4 bölgü üzrə qruplaşdırılmışdır: 22 fizika-riyaziyyat elmləri, 24 kimya elmləri, 26 yer haqqında elmlər, 28 biologiya elmləri. Şöbədə ayrı-ayrı elmlər qrupunun düzülüşü materiyanın hərəkət formalarına uyğun olaraq cansız təbiətdən canlı təbiətə, sadədən mürəkkəbə doğru istiqamətində düzülmüşdür.

20 “Təbiətşünaslıq elmlər bütünlükdə” bölməsində təbiətşünaslığın bir neçə sahəsi əhatə edilmişdir. Bu bölmədə təbiətşünaslığın fəlsəfi məsələlərinə dair, təbiətşünaslığın tarixinə dair nəşrlər əks etdirilir.

20.1 bölməsi “İnsan və onu əhatə edən aləm. İnsanın ekologiyası. Ekologiya ümumilikdə” adlanıar.

XX əsrin 70-ci illərindən etibarən “insanın ekologiyası” elmi geniş məna daşıyır. Ekologiya mövzusu o qədər geniş yayılmışdır ki, artıq ümumiyyətlə

elmi biliklərin və təbiətşünaslığın ekologiyasından danışmaq olar. Alimlər ekologiyanı fənnlərarası biliklərə aid edirlər. Hazırda KBT-nin 1-ci bölməsi üzərində dəyişikliklər aparılır. Ona görə də bu bölməyə hansı elmlərin aid edilməsi hələ dəqiq məlum deyil. Ola bilsin ki, ekologiyaya aid ədəbiyyatın bir qismi 1-ci şöbədə, yəni fənlərarası biliklər sistemində verilsin.

22-ci bölmə "Fizika-riyaziyyat elmləri" adlanır. Son dövrdə bu şöbədə aparılan dəyişikliklər cüzidir. "22.1 Riyaziyyat"bölməsində dəyişikliklər aparılaraq bu bölmədən "22.10 Elementar riyaziyyat" və "22 Ali riyaziyyat" bölmələri çıxarılmışdır. Bu bölmələr altında dərslik xarakterli ədəbiyyat toplandığına görə həmin ədəbiyyatları 22.1 bölməsi altında qruplaşdırmaq və Я7 Ümumi Nümunəvi Bölgülər (ÜNB) ilə indeksləşdirmək tövsiyə olunur. Belə bir dəyişikliyin "22.1 Riyaziyyat" bölməsi üçün xüsusi əhəmiyyəti vardır ki, həmin şöbəyə gələcəkdə yeni bölmələrin əlavə edilməsi üçün şərait yaranmışdır.

26-cı şöbədə yer haqqında bütün elmlər kompleks şəklində əhatə olunmuşdur. UOT-da bu elmlər 2 müstəqil şöbədə yerləşdirilmişdir ( məsələn, 55 coğrafiya və 91 coğrafiya, ölkəşünaslıq). Bu şöbəyə "26.0 Bütünlükdə yer" adlı yeni bölmə daxil edilmişdir ki, burada yer nəzəriyyəsi haqqında bütün ədəbiyyatlar öz əksini tapır. Kartoqrafiya üçün "26.17 Kartoqrafiya" adlı yeni bölmə yaradılmışdır.

"26.2 Coğrafiya elmləri" bölməsinə 1980-ci illərdən sonra yeni anlayışlar daxil edilmişdir. Elmlərin strukturunun dəyişməsi ilə əlaqədar olaraq 26.221 Okeanşünaslıq, 26.23 Meteriologiya indekslərinə yanaşma dəyişilmişdir. Burada xüsusi bölmə "26.233 Atmosferin fizikası" bölməsi yaradılmışdır. "26.234.6 Hava proqnozu" bölməsində dəyişiklik edilmiş və yeni bölmə "26.236 Sinoptik meteriologiyası" bölməsi yaradılmışdır.

"26.221 Okeanşünaslıq" bölməsi "26.233 Atmosferin fizikası" indeksi altında yerləşdirilmişdir.

"26.3 Geologiya elmləri" bölməsində də bəzi dəyişikliklər edilmişdir. Burada indekslər qrupunun bir neçəsi çıxarılmış, dinamik geologiya, tektonika, dəniz geologiyası və s. elmlər üçün xüsusi bölmələr yaradılmışdır.

Coğrafiya elmləri bölməsində coğrafiyaya dair ümumi xarakterli ədəbiyyatlar yerləşdirilir. Ölkəşünaslıq, fiziki coğrafiya (iqtisadi, tibbi coğrafiya və s.) və digər elmlər öyrənmə obyektinə yaxınlaşdırılmışdır. Məsələn, iqtisadi coğrafiya - iqtisadiyyata, tibbi coğrafiya - botanikaya və s. aid edilir.

"26.8г Coğrafiyanın və coğrafi kəşflərin tarixi" bölməsində ümumi xarakterli məsələlərə dair ədəbiyyatlar toplanmışdır. 28.0 "Ümumi biologiya" bölməsində ümumi xarakterli ədəbiyatlar, ümumi genetika, ümumi morfologiya, ümumi biofizika və s. dair ədəbiyyat yerləşdirilir.

1988-ci ildən "Biologiya elmləri" bölməsində ciddi dəyişiklər aparılmışdır. Cədvələ son dövrün tədqiqatlarının aktual istiqamətləri daxil edilmişdir.

Bunların arasında immunologiya, inkişafin biologiyası, fiziki-kimyəvi, molekulyar, kvant biologiyasının adını qeyd etmək olar.

"28 Ümumi biologiya" şöbəsinə də yeni bölmələr daxil edilmişdir. Bunlar "28.01 Həyat və onun yaranması", "28.074 İmmunologiya", "Biocoğrafiya", "Tətbiqi biologiya" yarım bölmələrindən ibarətdir.

"Biologiya elməri" bölməsində son dövrlərdə aparılan dəyişikliklərdən biri də 28.8, 28.9 bölmələrinə aiddir. Belə ki, "28.8 Embriologiya, anatomiya və insanın histologiyası" (orqanizmin toxumalarının mikroskopik quruluşundan bəhs edən elm) və "28.9 İnsanların və heyvanların fiziologiyası, biofizika və biokimyası" bölmələri şöbədən çıxarılmışdır. Bu elmlər daha aşağı pillələrdə özünə yer tapmışdır. "28.7 Antropologiya" bölməsi "28.7 İnsanın biologiyası" bölməsilə əvəz edilmişdir.

Biologiya şöbəsində dəyişikliklərin aparılması orqanizm haqqında elmlərin daha dəqiq qruplaşdırılmasına gətirib çixarır. Burada elmlər sadədən mürəkkəbə doğru istiqamətində qruplaşdırılmışdır: viruslar, mikroorqanizmlər – bitkilər, heyvanlar, insan.

Kitabxana-biblioqrafiya təsnifatının 6/8-ci şöbəsini ictimai və humanitar elmlər qrupu təşkil edir. Birinci hissədə ictimai elmlərin ümumi bölgüsü verilmişdir. Buraya ictimai elmlər, sosiologiya, statistika, tarix və digər elmlər daxildir. İkinci hissədə isə humanitar elmlər verilmişdir. Buraya elm, mədəniyyət maarif, din, incəsənət və digər elmlər daxildir.

Son dövrlərdə ölkədə gedən ictimai-siyasi proseslərin gedişi ilə əlaqədar olaraq tarix bölməsində mühüm dəyişikliklər aparılmışdır. Bu dəyişikliklər əsasən yeni və ən yeni tarixin müasir dövrləşməsi ilə, SSRİ-nin dağılması və bir sıra Avropa ölkələrinin dağılması ilə (Yuqoslaviya, Çexoslovakiya) bağlı olmuşdur. Təsnifat cədvəlində tarixi proseslərin inkişafı ilə əlaqədar olaraq cəmiyyətin bu proseslərə münasibəti (xüsusilə XX əsr) nəzərə alınmışdır.

Cədvəlin hazırlanmasında nümunəvi bölgülər nəzərdən keçirilmiş və yeni detallaşmalar aparılmışdır. Məsələn: "28-sosial quruluş" bölməsi və onun yarımbölmələri müxtəlif ictimai, içtimai-siyasi hərəkatlar, əhalinin ayrı-ayrı təbəqələri və qrupları üçün yeni indekslərin yaradılmasının əsasını təşkil edir. Ayrı-ayrı müharibələr haqqında nəşr edilən ədəbiyyatı daha dəqiq detallaşdırmaq məqsədilə bölmələr yaradılmışdır.

"63.3 Tarix bölməsinin " əsas yarımbölmələri.

63.3(0) Ümumdünya tarixi

63.3(2) Rusiyanın tarixi

63.3(4/8) Qitələrin, ayrı-ayrı ölkə və regionların tarixi

Ümumdünya tarixi 63.3 (0) bölməsi altında bir neçə ölkələrin və yaxud bütün ölkələrin tarixini əks etdirən nəşrlər toplanır. Bu bölmə aşağıdakı yarımbölmələrə ayrılmışdır.(1,s.120)

63.3(0)2 İbtidai icma cəmiyyəti

63.3(0)3 Qədim dünya
63.3(0)4 Orta əsrlər (V-XV əsr)
63.3(0)5 Yeni dövr (XVI əsr – 1918-ci il)
63.3(0) Ən yeni tarix (1918 - )

İbtidai icma cəmiyyəti indeksi altında ibtidai cəmiyyətin tarixindən bəhs edən, arxeoloji, etnoqrafik və yazılı mənbələrə əsasən tərtib edilən ictimai xarakterli nəşrlər yerləşdirilir.

"63.3(0)3 Qədim dünya" indeksi altında qədim Şərq ölkələrinin tarixindən (Hindistan, Çin, Koreya), qədim Misirin tarixindən, Assuriya, Kiçik Asiya, Zaqafqaziya, Suriya, Fələstin, İran, Qədim Roma, İtaliya və digər ölkələrin tarixindən bəhs edən nəşrlər əks etdirilir.

Qafqaz ölkələri Gürcüstan, Qafqaz Albaniyası kimi verilmişdir ki, Azərbaycan bunun tərkibinə daxil edilərək 63.3 (5 Aze) indeksi ilə işarələnmişdir.

63.3(0)4 indeksi altında orta əsrlərdə (V-XV) nəşr edilmiş ədəbiyyatlar yerləşdirilir. Burada IV əsrdən XV əsrə qədər Bizans imperiyası dövründən bəhs edən nəşrlərə yer ayrılmışdır.

63.3(0)5 indeksi altında yeni dövrə aid edilən nəşrlər yerləşdirilir. Burada XVI əsrdən 1918-ci ilə qədərki dövr nəzərdə tutulur. Bu indeks altında xüsusi əhəmiyyətə malik olan coğrafi kəşflərdən, birinci dünya müharibəsindən bəhs edən nəşrlərin, müharibədə itki və dağıntılardan bəhs edən nəşrlərin yerləşdirilməsinə diqqət yetirilmişdir.

63.3(0)6 indeksi altında ən yeni tarixlə bağlı olan nəşrlər əks etdirilir. Burada 1918-ci ildən başlayaraq XX əsrin axırına qədərki dövrü əhatə edən nəşrlər toplanır. Bu bölmə altında sosial-iqtisadi münasibətlərə dair, beynəlxalq münasibətlərə dair, II Dünya müharibəsinin başlanması və bu müharibənin xarakterinə dair nəşrlər əks etdirilir.

Təsnifat cədvəlində siyasi proseslərin gedişinə müvafiq olaraq 63.3(0)64 bölməsi yaradılmışdır ki, onun da yarımbölməsi 63.3(0)64.8 indeksini almışdır. Bu bölmə altında dünyada sosializm sisteminin dağılmasından bəhs edən nəşrlərin əks etdirilməsi nəzərdə tutulmuşdur.

63.3(2) bölməsi altında Rusiyanın tarixinə dair nəşrlər yerləşdirilir. Rusiyanın tarixi dövrlər üzrə təsnifat cədvəlində özünə yer tapa bilmlşdir. (1,s.135)

63.3(2)2 Rusiyanın ərazisində b.e.əv. I əsrdən yeni eranın IX əsrinə qədər qədim dövlətlər və icmalar
63.3(2)4 Rusiya IX – XVII əsrlərdə
63.3(2)5 Rusiya XVIII - əsrdən – 1917-ci ilə qədər
63.3(2)6 Rusiya (oktyabr 1917 - ). SSRİ –nin tarixi (1922-1991)

Bu bölmələr altında Şərqi Avropa və Sibir xalqlarından, Şərqi slavyan xalqlarından, qədim Rus dövlətinin yaranmasından, xristianlığın qəbul edilmə-

sinin tarixi və mədəni əhəmiyyətindən, Rusiyanın xarici siyasətindən, müharibələrdən, din və dövlətlərdən, Rusiyanın mədəniyyətindən, I Pyotrun islahatlarından, sosial iqtisadi münasibətlərdən bəhs edən nəşrlər yerləşdirilir.

Təsnifat cədvəlində 63.3(4) indeksi altında Avropa ölkələrinin tarixinə dair nəşrlər əks etdirilir. Burada orta əsrlərdən başlayaraq (V- XV əsr) 1918-ci ilə qədər Avropa ölkələrinin inkişafı məsələlərindən bəhs edən nəşrlər üçün müxtəlif bölmələr ayrılmışdır. 63.3(4)61 indeksi altında isə 1918-ci ildən 1939-cu ilə kimi Avropa ölkələrinin (Almaniya, Böyük Britaniya, Belçika, Fransa) inkişafından bəhs edən nəşrlərə yer verilmişdir. Bölmələr aşağıdakı ardıcıllıqla qruplaşdırılmışdır:

63.3(4)4 Avropa orta əsrlərdə (V-XV əsrlər)
63.3(4 )5 Avropa XVI əsrdən – 1918-ci ilə kimi
63.3(4)6 Avropa 1918-ci ildən sonra
63.3(40/47) Avropanın qeyri administrativ əraziləri (Skandinav ölkələri, Baltikyanı ölkələr, Balkan ölkələri)

Təsnifat cədvəlində 63.3(5) indeksi altında Asiya ölkələrinin tarixinə yer verilmişdir. Bu bölmə altında həmçinin ümumilikdə Şərqin tarixinə dair nəşrlər də əks etdirilir. Bölmənin daxilində qruplaşma bu şəkildə verilmişdir.

63.3(5)4 V-XVII əsrlərdə Asiya ölkələri
63.3(5)5 XVIII əsrdən – 1918-ci ilə qədər Asiya ölkələri
63.3(5)6 1918-ci ildən sonra Asiya ölkələri
63.3(5)64 XX əsrin 80-ci illərindən sonra Asiya ölkələri

Təsnifat cədvəlində Azərbaycan dövləti üçün 63.3(5Aze) rubrikası ayrılmışdır. Bölmələrin ardıcıllığı isə bu qayda üzrə verilmişdir. (1,s.145)

63.3(5Aze)3 Qədim dünyada Azərbaycan ərazisi
63.3(5Aze)4 Azərbaycan XV-XVIII əsrlərdə
63.3(5Aze)5 Azərbaycan XIX əsrdən -1917-ci ilə kimi
63.3(5Aze)6 Azərbaycan 1917-ci ildən sonra
63.3(5Aze)64 Azərbaycan 1992-ci ildən sonra

63.3 (5Aze)3 bölməsi altında qədim Azərbaycan dövlətlərindən Manna, Atropatena, Qafqaz Albaniyası və s. bəhs edən nəşrlərin əks etdirilməsi nəzərdə tutulmuşdur.

63.3(5Aze)4 bölməsi altında VII əsrdən IX əsrin I yarısına qədər (Xəlifənin hakimiyyəti dövründə), XIII-XIV əsrlərdə (monqolların hakimiyyəti dövründə) Azərbaycan tarixini əks etdirən nəşrlər yerləşdirilir. Bu bölmə altında həmçinin Azərbaycanda İran və Türkiyə hakimiyyəti dövrünü əks etdirən nəşrlər də toplanır. Bölmədə ayrı-ayrı Azərbaycan xanlıqlarını əks etdirən: Qarabağ (1742-1822), Quba (XVIII əsrin II yarısından- 1806-cı ilə qədər), Şəki (XVIII əsrin ortalarından 1805-ci ilə qədər), Şirvan (1748-ci ildən 1805-ci ilə qədər) nəşrlərə yer verilmişdir.

63.3(5Aze)5 bölməsi altında Şimali Azərbaycanın Rusiyaya birləşməsi məsələrindən (1813-1828) bəhs edən nəşrlər əks etdirilir.

63.3(5Aze)6 bölməsi altında müstəqil Azərbaycan Respublikası dövründən (1918-1920), Azərbaycanda vətəndaş müharibəsindən, Azərbaycan Respublikasının SSRİ dövründəki fəaliyyətindən (1922-1991) bəhs edən nəşrlərə yer verilmişdir.

63.3(5Aze)64 indeksi altında 1992-ci ildən sonra Azərbaycan Respublikasının inkişafından bəhs edən nəşrlər əks etdirilir. Bu bölmədə Dağlıq Qarabağ ətrafında gedən münaqişələrdən bəhs edən nəşrlərə də yer verilir.

Təsnifat cədvəlində 63.3(5) bölməsi Asiya ölkələrinin tarixi üçün nəzərdə tutulmuşdur. Asiya ölkələri bölməsi altında Gürcüstan, Əfqanıstan, Hindistan, İndoneziya, İordaniya, İraq, İran, Qazaxıstan, Qırğızıstan, Çin, Pakistan, Səudiyyə Ərəbistanı, Suriya, Tacikistan, Tayland, Özbəkistan, Yaponiya, Türkiyə və digər ölkələrin tarixini əks etdirmək üçün indekslər müəyyənləşdirilmişdir. Cədvəldə Türkiyənin tarixi aşağıdakı ardıcıllıqla verilmişdir.

63.3(5 Туц) Türkiyə XIII əsrin sonundan - XVIII əsrə qədər. Burada Osmanlı İmperiyasının yaranması və digər məsələlərdən bəhs edən nəşrlərin əks etdirilməsi nəzərdə tutulmuşdur.

63.3(5Туц) Türkiyə XIX əsrdən 1918-ci ilə qədər. Burada XIX əsrin 20-30-cu illərində Türkiyədə aparılan islahatlardan, türk xalqının milli azadlıq hərəkatından, 1908-ci ildə Türkiyə inqilabından, Türkiyənin milli məsələlərindən (erməni-türk münaqişələri) bəhs edən nəşrlərin əks etdirilməsi nəzərdə tutulmuşdur.

63.3(5 Туц)6 bölməsi altında Türkiyənin 1918-ci ildən sonrakı dövrləri əks etdirilir.

Təsnifat cədvəlində 63.3(6) bölməsi Afrikanın tarixi, 63.3(7) bölməsi Amerikanın tarixi, 63.3(8) bölməsi isə Avstraliya və Okeaniyanın tarixini əks etdirən nəşrlər üçün nəzərdə tutulmuşdur.

63.3(6) bölməsi və onun yarımbölmələri altında Afrikanın, Əlcəzairin, Anqolanın, Misir, Mərakeş, Mozambik, Efiopiya və digər ölkələrin tarixinə dair nəşrlər əks etdirilir.

Təsnifat cədvəlində 63.3(T5) bölməsi "Etnologiya (etnoqrafiya, xalqşünaslıq)" adlanır.

63.500 yarımbölməsi altında etnologiyanın nəzəriyyəsindən bəhs edən nəşrlərə yer verilir. Burada etnologiyanın predmeti və məqsədindən, etnologiyanın metodologiyasından, etnologiyanın əsas anlayış və kateqoriyalarından (qəbilə, etnos, millət və s.), etnik ərazilərin və etnik sərhədlərin problemindən, millətlərarası münasibətlərdən bəhs edən nəşrlər əks etdirilir. Bu bölmə altında həmçinin etnik problemlərin proqnozlaşdırılması, etnik tədqiqatların metod və texnikasından, etnik xəritəşünaslığın metodikasından və digər məsələlərdən bəhs edən nəşrlərə yer verilir.

“63.501 Etnologiyanın tarixi” bölməsi altında retrospektiv xarakterli nəşrlər əks etdirilir. Burada həmçinin müxtəlif istiqamətlərin və məktəblərin tarixini xarakterizə edən ədəbiyyat yerləşdirilir. Məsələn, Amerika məktəbi, Britaniya sosial antropologiyası, sovet etnoqrafik məktəbi və s.

“63.51 Tarixi etnologiya” bölməsi altında müxtəlif qəbilələr, bütün xalqlar və yaxud dünyanın bir neçə xalqları haqqında ədəbiyyat əks etdirilir. Bu bölmənin müxtəlif yarımbölmələri altında qədim dünyanın tarixi arxeologiyası, qədim Şərqin qəbilə və xalqları haqqında (Qədim Hindistan, Çin, Cənub-Şərqi Asiya və s.), Antik dünya xalqlarının etnologiyası haqqında, orta əsrlər dövrünün tarixi etnologiyası haqqında, Rusiyanın tarixi etnologiyası haqqında nəşrlər yerləşdirilir.

63.51 (4/8) bölməsi altında ayrı-ayrı xarici ölkələrin etnologiyası haqqında ədəbiyyat əks etdirilir.

63.52 bölməsi və onun yarımbölmələri altında müasir xalqların etnologiyasından bəhs edən nəşrlər əks etdirilir. Burada ayrı-ayrı xalqların etnologiyasının müəyyən edilməsi üçün tipik etnik bölgülər cədvəli müəyyənləşdirilmişdir. Məsələn, 63.521 (=41) Slavyan xalqları, 63.521 (=43) alman xalqı, 63.521 (=521) İran xalqları (farslar, taciklər, kürdlər, əfqanlar, osetinlər və s.), 63.521 (=63) türk xalqları, 63.521 (=49) albanlar, 63.521 (=60) Qafqaz xalqları.

Çox təəssüflə qeyd etmək lazımdır ki, təsnifat cədvəlində Azərbaycan xalqı üçün ayrıca indeks müəyyənləşdirilməmişdir. Ona görə də Azərbaycan xalqına məxsus olan ədəbiyyatı 63.521 (=60) Qafqaz xalqları indeksi altında təsnifləşdirmək lazım gələcək.

Etnologiya bölməsinin “Müqayisəli etnologiya” (63.57) yarımbölməsi altında müxtəlif xalqların maddi mədəniyyəti, sosial quruluşu, mənəvi mədəniyyəti haqqında müqayisəli planda yazılmış ədəbiyyat yerləşdirilir.

“63.58 Qarışıq ekoloji fənlər” bölməsi altında isə etnodemoqrafiya (60.75), etnopsixologiya (88.58), etnoekologiya və s. qarşılıqlı əlaqəsi olan fənlər yerləşdirilir.

Beləliklə, ölkənin ictimai-siyasi proseslərindəki dəyişiklik nəzərə alınaraq Kitabxana Biblioqrafiya təsnifatı cədvəlində də mühüm dəyişikliklər aparılmış və aparılmaqdadır. XXI əsrdə yaşadığımızı nəzərə alaraq modernləşmə prosesini dayandırmaq olmaz. Biz həmişə yeni problemlərlə üzləşirik, ona görə də bütün bu problemlər təsnifat cədvəlində öz əksini tapmalıdır.

## ƏDƏBİYYAT

*1. Библиотечно-библиографическая классификация (Текст):Средние таблицы: Практическое пособие / Рос.Гос.б-ка, Б-ка Рос.акад.наук.- М.: Изд-во Либерея, 2001.- Вып.1.С/Т- Социальные науки в целом. (Обществознание). История и исторические науки.- 320 с.*

*2. Библиотечно-библиографическая классификация (Текст):Рабочие таблицы для массовых библиотек.-М.: Либерея, 1997.-687с.*

*3. Xələfov A.A. İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri (Mətn): /A.Xələfov // Kitabxanaşünaslıq və biblioqrafiya.-2005.-2.-S.5-17.*

*4. Kitabxana işi haqında Azərbaycan Respublikasının qanunu (Mətn) // Azərbaycan.-1999.-14 mart.*

*5. Kitabxanaşünaslıq (Mətn): (Kitabxana kataloqları): Dərs vəsaiti / A.Xələfovun red. ilə.- B.: BDU nəşr-tı, 1996.-210 s.*

***С.МУСТАФАЕВА***

**БИБЛИОТЕЧНО-БИБЛИОГРАФИЧЕСКАЯ КЛАССИФИКАЦИЯ: НОВШЕСТВА И ИЗМЕНЕНИЯ**

***РЕЗЮМЕ***

*В данной статье рассказывается о новых изданиях библиотечно-библиографической классификации и о внесенных изменениях в эти издания в связи с общественно-политическими процессами. В статье также освещены вопросы усовершенствования разделов классификационной таблицы и создания новых разделов.*

***S.MUSTAFAYEVA***

**CLASSİFİCATİON OF THE LİBRARY BİBLİOGRAPHY: İNNOVATİONS AND CHANGES**

***SUMMARY***

*An article deals with new publications of the classification of the library bibliography and changes related with the social-political processes in these publications. An article deals also with the improvement of the section of the classification schedule and creation new sections.*

**Pərviz KAZIMI**

## ORTA ƏSR TÜRK XALQLARININ KAĞIZ İSTEHSALI, ƏLYAZMA KİTABI VƏ CİLDÇİLİK MƏDƏNİYYƏTİ

Hər bir kitab üçün bu və ya digər formatı tətbiq etmək baxımından kitab sənətkarlarının əldə rəhbər tutacaqları müəyyən standartlar haqqında danışmaq çox çətindir. Bununla belə, adətən əlyazmanın formatı 20 x 30 və 30 x 20 sm arasında olurdu. Demək olmaz ki, böyük və kiçik formatlarda əlyazmalar hazırlanmırdı, lakin qeyd etdiyimiz formatlar əksəriyyət təşkil edirdi. Poetik albomlar və toplular kitabın xüsusi forması ilə fərqlənirdi. Məzmununa və təyinatına görə onlar cüng, bəyaz, yaxud məcmuə adlanırdılar.

Adətən belə kitablar nazik, uzun formada olurdular və bir yerdən başqa yerə gedərkən, səyahət vaxtı və s. cibdə gəzdirmək rahat idi. Sifarişçilərin və müəlliflərin zövqü də bu zaman əhəmiyyətli rol oynayırdı, öz əsərlərinin təyinatını və istifadə şəraitini nəzərə alaraq, müəlliflər bir çox hallarda hazırlanan kitabın formasını özləri müəyyən edirdilər. Oxumağı və saxlanmağı rahat, oxucular arasında geniş yayılan və populyar olan adi əlyazma formatları barədə mənbələr heç bir məlumat vermir. Burada göstərilənlər isə yalnız bizim əlyazmalar üzərində iş zamanı şəxsi təcrübəyə əsaslanır. Bununla yanaşı, demək olmaz ki, mənbələrin müəllifləri bu məsələdən tamamilə yan keçirlər. Qeyd edildiyi kimi, bir çox hallarda onların diqqətini nadir, qeyri-adi, yəni ənənəvi çərçivədən kənara çıxan hadisələr cəlb edirdi. Bunlar ya çox böyük, ya da çox kiçik əlyazmalar olurdu. Qazi Əhməd «altılığın» ustası Ömər Aktaya (Təkəlliyə) həsr etdiyi kiçik mətndə yazır: "Bu xəttat xırda xətlə Quranın üzünü köçürür və üzük qaşının yuvasına sığışa biləcək əl işini Teymura bağışlamaq istəyir". Lakin o, kitabı qəbul etməmiş və belə işlər barədə mənfi rəy söyləmişdir. Ömər Akta sonra Quranın hər sətri bir zar (yəni 49,875 sm) olan üzünü köçürür və nəticədə ölçüsünə görə nəhəng bir kitab alınır. Fateh bu işinə görə ustanı tərifləyir. Elə həmin müəllif məlumat verir ki, Mirzə İbrahim Sultan b. Şahruh (838-1435 vəfat etmişdir) suls xətt üslubu ilə uzunluğu iki, eni bir yarım zar ölçüdə Quran yazmış və onu Baba Lütfəllah İmad əd-Dinin məzarına bağışlamışdır. Hazırda bu kitab Şirazda Pars muzeyində saxlanılır. Məşhəddə Astani Qüds kitabxanasında daha nəhəng Quranın yeddi vərəqi saxlanılır. Onları İbrahim Sultanın qardaşı Mirzə Baysünkür (1434-cü ildə vəfat etmişdir) mühəkkək xətt üslubu ilə köçürmüşdür. Onun ölçüləri 177 x 101 santimetrdir. Belə iri əlyazmalar öz ölçüləri ilə onları görənlərdə böyük təəssürat yaradırdılar. Onların müəllifləri isə bu barədə oxuculara məlumat verməyə tələsirdilər, çünki Quranın üzünü köçürmək həmişə savab iş hesab edilirdi. Biz bilirik ki, orta əsrdə hakimiyyət nümayəndələrinin bir çoxu onun üzünü köçürüb müsəl-

man ziyarətgahlarının kitabxanalarına vəqf ediblər. Belə formatlarda dünyavi məzmunlu əlyazmaların hazırlandığı barədə məlumat verilmir.

Görünür, ona ehtiyac da yox idi, çünki onlardan istifadə etmək çətinliklər yaradırdı, oxumaq və daşımaq çətin idi. Sonda qeyd etmək lazımdır ki, hazırki tədqiqatın çərçivəsi daxilində orta əsrlərdə türk xalqlarının və ona qonşu ölkələrin mədəni həyatında əlyazma kitabın rolu və əhəmiyyətinin bəzi problemlərinə toxunduq. Hazırda əlimizdə olan, lakin çox vaxt özünün bir tərəfliliyi baxımından bizi qane etməyən materialdan istifadə edərək əlyazma kitabın yaradılması, üzköçürmə, mövzu və repertuar, xətt üslubları, onların inkişafı və modifikasiyası və onun yayılması, kitabın dəyəri, kitab ticarəti, kitabın yaradıcıları, xəttatlarla bağlı məsələləri nəzərdən keçirməyə çalışdıq. Bu zaman bilərəkdən bədii yazı ilə köçürülən, gözəl tərtib olunan, incə miniatürlərlə bəzədilən, yaraşıqlı cildlərə salınan hədiyyə nüsxələrinə toxunmadıq. Bu barədə ayrıca qeyd olunacaq. Onlar dünya mədəniyyətinin qızıl fonduna daxil edilən incəsənət əsərləridir. Ancaq onların sayı azdır, on bir əsrə yaxın bir dövrdə yaradılmış sadə, bəzədilməmiş kitab kütləsinin cüzi hissəsidir. Belə əlyazmalar dünya mədəniyyət aspektində kitabçılığın inkişafının öyrənilməsi baxımından daha çox maraq kəsb edir.

Bizə gəlib çatan erkən orta əsr ərəb qrafikalı Orta Asiya və Şərqi Türküstan əlyazmaları kağız üzərində yazılmışdır. Kağızı təyin etmək üçün "kağaz" sözündən istifadə olunmuşdur. Orta Asiyada VIII əsrdən başlayaraq kağız əsasən Səmərqənddə hazırlanmışdır. Başqa iri kağız istehsalı mərkəzləri Buxara, özbək xanlıqları dövründən başlayaraq Kokand şəhəri, daha doğrusu Kokandın yaxınlığında yerləşən Kokozqar və Çorku kəndləri olmuşdur. İri mərkəzlərdə kağız istehsalında adətən su dəyirmanlarından istifadə edilmişdir. Bununla əlaqədar Babur belə məlumat verir: «Dünyada ən yaxşı kağız Səmərqənddən alınır», - o, öz qeydlərində yazır, - «kağız dəyirmanları üçün bütün su Kani Çildən gəlir. Kani Çil Siyah Abinin sahillərində yerləşir, bu kiçik çayı Abi-Rəhmət də adlandırırlar». Daha sonra o, dəqiqləşdirir ki, «orada su yeddi – səkkiz dəyirmana çatar». «Kağız dəyirmanları həmçinin Heratda da vardı. Kustar üsulu kağızı istehsalı Orta Asiyanın bir çox rayonlarında da yayılmışdı».

Yazı üçün kağız bir neçə növdə istehsal edilirdi. Onun ən geniş yayılmış növü "kağız-e nimkatani" idi. Kağızın hazırlanması üçün əsas xammal çətənə lifləri sayılırdı. Kağız istehsalı prosesi çox əmək tutumlu olub, çox vaxt və fiziki qüvvə tələb edirdi. Xammalı əvvəlcə su vasitəsilə hərəkətə gətirilən dibəyə basırdılar; xırdalanmış kütləni yuyur, sıxırdılar və oraya müəyyən nisbətdə ağ qələvi məhlul (potaş) və əhəng əlavə edirdilər. Sonradan xəmiri yenidən qarışdırır, qurudur və dibəyə basırdılar. Bu cür əməliyyat bir neçə dəfə təkrar olunurdu. Kütlənin hazırlanması prosesi başa çatdıqdan sonra kağız vərəqlərinin qəlib tökülməsi başlayırdı. Kağızın tökülməsi forması barmaqlıq və tordan ibarət idi. Barmaqlıq tut ağacından hazırlanırdı, torun forması isə paralel uza-

dılmış və at tükləri ilə bağlanmış nazik zoğlarından düzəlirdi. Vərəqi tökmək üçün tor barmaqlığın üstünə qoyularaq kütlənin içərisinə salınırdı. Qurudulmuş kağız vərəqlərini çıxararaq xüsusi bıçaqla kəsirdilər. Kağıza parlaqlıq vermək üçün onu hər iki tərəfdən buğda unundan hazırlanmış nişasta ilə örtürdülər. Qurudulduqdan sonra hər vərəqin iki üzünü də armud ağacından düzəldilmiş taxta üzərində xüsusi balıqqulağı ilə sığallayırdılar.

Əlyazma üçün kağız müxtəlif tona və rənglərə boyanırdı. Yazı kağızının rənglənməsi müxtəlif reseptlərdə və çox vaxt mürəkkəb olurdu. Ancaq rəngli kağız, bir qayda olaraq, bədii tərtibatlı əlyazmalarda istifadə olunurdu. Adi əlyazmalar əsasən bərk boz “kağız-e nimkatani” tipli kağızlarda yazılırdı. Demək olar ki, belə hallarda bütün əlyazmalar şərq, yəni yerli istehsal olan kağızlarda yazılmışdır. Orta Asiya və Şərqi Türkistan əlyazmaları içərisində Avropada hazırlanmış kağıza yazılanların miqdarı cüzidir, vaxt baxımından onlar XIX-XX əsrin əvvəlinə aiddir. Bununla yanaşı, Avropada istehsal edilən kağızın, məsələn, Türkiyəyə ilk gəlişi XIV əsrin sonuna təsadüf edir. Artıq XVII yüzillikdə Avropa istehsalı olan kağıza yazılmış əlyazmaların sayı artır.

Yazı aləti qələm – qamış idi. Qələmin hazırlanması üçün müəyyən vərdiş və təcrübə tələb olunurdu. Qələm üçün seçilib götürülmüş qamışı suda tündpalıdı rəng alana qədər saxlayırdılar. İlkin emaldan sonra qamışı kəsir, düyünlü yerdə xüsusi qələmqədləyən bıçaqla (qələmtəraş) ucluq və yarıq açırdılar. Bu zaman məsləhət görülürdü ki, yarığın ünsi adlanan sağ tərəfini “vaxşi” adlanan sol tərəfinə nibətən bir az nazik düzəldilsin. Qamışı kəsmək üçün xüsusi sümük yaxud buynuz altlıqdan “naykat” yaxud qələmkatdan istifadə edilirdi. Bədii xəttatlıq yazıçısı üçün qələmin qədlənməsi və bu işin nöqsansız yerinə yetirilməsi xüsusi əhəmiyyət kəsb edirdi. Hazırlanmış qələmi torpaqla sürtürdülər ki, yağdan təmizlənsin, sonra yazıda yoxlayırdılar. Əgər qələmin nöqtəsi düzgün forma alırdısa o, yazıya yararlı hesab edilirdi.

Orta Asiya xəttatları və ədibləri adətən tuşla və mürəkkəblə yazırdılar. Tuş qurumdan və albalı kütləsindən, mürəkkəb isə zəydən və mürəkkəb qozasından hazırlanırdı. Xəttatlıq üçün xüsusi davamlı qara və rəngli mürəkkəb hazırlanması resepti olduqca mürəkkəb idi və tərkibinə çoxlu komponentlər qarışdırılırdı. Məsələn, qurum, mürəkkəb qozası, çuğundur ağacı və s. A.A.Semyonovun sözlərinə görə «ən son dövrlərə qədər yaxşı mürəkkəblər böyük əmək sərf etməklə və çox diqqətlə hazırlanırdı. Buxarada xüsusi mürəkkəb ustaları onu ancaq özlərinə məlum olan reseptlə hazırlayırdılar. Bədii əlyazmalar tərtib edilərkən onun yüngül, xoşa gələn iy verməsi üçün mürəkkəbə qızıl gül suyundan tutmuş kəskin konsentratlı ambraya qədər lazımi miqdarda müxtəlif aromatlı qatışıqlar əlavə edirdilər.

Orta əsrlər müsəlman Şərqi ölkələrində çoxlu xətt üslublarından istifadə olunurdu. Onlar xarici görünüşü ilə bir-birindən fərqlənirdi; onlardan istifadə üçün dəqiq qaydalar vardı. XV əsrə qədər Orta Asiyada əsas xətt üslubları

nəsx, talik, suls hesab olunurdu. Orta Asiya mirzələri və ədəbiyyatçıları az da olsa, digər xətt üslublarından da istifadə edirdilər. XIV əsrdə yeni xətt üslubu – nəstəlik yarandı. O, adətən Quranın köçürüldüyü nəsx və əsasən dəftərxanada və işgüzar yarışmada istifadə olunan surətli talik yazı üslubunun elementlərinin birləşməsindən yaranmışdı. Nəstəlik xəttinin inkişafında və geniş yayılmasında XIV-XV əsrin birinci yarısı nəstəlik ustalarının əsərləri ilə yanaşı, görkəmli yazı ustası Sultan Əli Məşhədinin (1432-1520) yaradıcılığı da böyük rol oynamışdır. Nəstəlik xətt üslubunun nəzəri və texniki məsələləri işıqlandırılan xəttatlıq üzrə xüsusi traktat onun qələminin məhsuludur. İlkin vaxtlarda zəngin əlyazmaların və kitabların xətti kimi meydana gələn nəstəlik qısa dövr ərzində başqa xətt üslublarını sıxışdırıb çıxararaq Orta Asiyada hakim xətt üslubuna çevrildi. XV-XIX əsrlərdə İranda, Orta Asiyada, Şərqi Türkistanda məzmunundan, təyinatından və həcmindən asılı olmayaraq yaradılmış əlyazmaların, demək olar ki, hamısı bu xətt üslubu ilə yazılmışdır.

Əlbəttə, yüksək bədii əlyazmalar tərtib olunarkən xəttə çox ciddi tələblər qoyulurdu. Belə əlyazmanın mükəmməl sayılması üçün ilk səhifədən son səhifəyə qədər o eyni bədii xətlə yazılmalı idi. Bu əlyazmalar ünvanlarla, başlıq şəkillərlə, miniatürlərlə və başqa daxili bəzəklərlə adətən zəngin tərtib olunurdular. Ona görə də bu işdə rəngli mürəkkəb və tuşla yanaşı boyadan, maye qızıl və gümüşdən də istifadə edilirdi. Yüksək rütbəli əsabələrin və tanınmış şəxslərin sifarişi ilə bədii əlyazmaların tərtibatı zamanı adəti üzrə üç peşə ustasının əməyinin birləşdirilməsi tələb olunurdu: xəttatın, miniatürçü rəssamın, cildləmə ustasının. Son onilliklərin tədqiqatları göstərir ki, orta əsrlərdə Orta Asiyada yerli orijinal miniatür rəssamlığı məktəbi fəaliyyət göstərmişdir. Müasir sənətşünasların qəbul etdiklərinə görə, Mavərənnəhr miniatür rəssamlığı məktəbi nümayəndələrinin əsərləri Orta Asiya xalqları mədəniyyəti xəzinəsinə, türk xalqları, bununla yanaşı, həm də dünya mədəniyyəti xəzinəsinə qiymətli hədiyyələrdir.

Hər bir kitabın vacib tərkib hissəsi olan cild ayrıca hazırlanırdı. Orta Asiyada və Şərqi Türkistanda cildləmə incəsənətinin qədim ənənəsi var, ancaq xüsusi özünəməxsusluğu XVIII-XIX əsrlərdə qazanmışdır. Türkistan tarixinin və mədəniyyət tarixinin böyük bilicisi A.A.Semyonovun sözlərinə görə həmin dövrün Orta Asiya kitab cildi «tam orijinal idi. Şərqin başqa yerlərində heç bir nümunə onunla müqayisəyə gələ bilməzdi».

Orta Asiya mənşəli kitab cildləri tipinə, formasına, materialına görə rəngarəngdir. Burada dəri və karton cildlər, oymalı ağac (çinar) cildlər, gümüşdən tökülmüş cildlər və s. vardır. Ancaq dəri cildlər daha çoxdur. Burada iki dəri cild fərqlənir: karton üzlüyə çəkilmiş tam dəri parçası və mükəvva – kökcüklü yarım dəri cildlər. Bu cildlər Orta Asiyada çox yayılmışdı. Belə cildlərin kökcükləri erkək heyvanın xüsusi üslubla emal edilmiş dərisindən hazırlanırdı.

Belə dəri saur yaxud savra adlanırdı. Dəri cildlər müxtəlif rənglərdə olurdu, ancaq yaşıl, qırmızı, sarı rənglər üstünlük təşkil edirdi.

Cild üçün karton adətən yazı kağızlarının yapışqanlı birləşdirilməsi yolu ilə düzəldilirdi. Yapışqanlı kartonlar məğziyi saxta adlanırdı. Başqa növ cild kartonu məğziyi rixtə, yəni tökülmüş karton adı daşıyırdı. Belə karton cildləyicilərin kitab cildləndikdən sonra kəsilən zaman həmişə topladıqları kağız parçalarından düzəldilirdi. Karton cildləri yağlı boya ilə rəngləyir və üstünə lak çəkirdilər. Çox vaxt onlar haşiyə, damğa, medalyon və b. formalarında basma naxışla bəzədilirdi.

Orta Asiya cildləmə ustalarının yüksək sənətkarlığını onların əl işləri sübut edir. Onların ən yaxşı nümunələri «Özbəkistan Elmlər Akademiyası Şərq əlyazmalar külliyyatının» on cildlik nəşrində təmsil edilmişdir.

Cildləmə işinin əsas mərkəzləri Buxarada, Səmərqənddə, Kokanda, Daşkənddə, Xivədə yerləşirdi. XIX əsrin ikinci yarısında kokandlılər ən yaxşı cild ustaları sayılırdı. Cildləyiciləri səxxaf, (saof) yaxud mükəvvasaz adlandırırdılar. Çox vaxt kitab ticarətçiləri də cildləmə işi ilə məşğul olurdular. XVIII əsrdən başlayaraq Orta Asiyada hazırlanmış cildlərdə, bir qayda olaraq, ustaların dəyişməz formada adları yazılırdı – «hansısa cildçi düzəltmişdir».

Ölkəşünas Y.O.Yakubovskinin məlumatına görə XIX əsrin ikinci yarısında hazırlanma səviyyəsinə görə hər cildin orta qiyməti birdən ikiyədək tənqə – 15-30 qəpik idi. Metal üzərində naxışlarla bədii tərtibatlı cildin dəyəri 4 manata yaxın olurdu. Kitabın eni, hündürlüyü, bəzən qalınlığı nəzərə alınmaqla əlyazma kitabının formatı müxtəlif olurdu. Tədqiqatçıların müşahidələrinə görə, Orta Asiya üçün xarakterik olan format belədir: cildin hündürlüyü 24-27 sm, eni 17-18 sm. Həmçinin 18 x 11 formatlar dəbdə idi. Nadir hallarda böyük formatlı (hündürlük 30-45 sm, en 27-28 sm) kitablara rast gəlmək olur.

Qarşıya qoyduğumuz problem bir məqalənin imkanları xaricindədir. Lakin mövzudakı materialların təhlili əsas verir ki, orta əsr türk xalqlarının kağız istehsalı, əlyazma kitabı və cildçilik sənətinin zəngin və müştərək mədəniyyəti olmuşdur. Bu mədəniyyətin ümumi xüsusiyyətlərini miniatür sənətkarlığında, poeziyada və kitabxana mədəniyyətinin təşəkkül və təkamülündə görə bilərik.

## ƏDƏBİYYAT


1. *Allahverdiyev B. Ümumi kitab tarixi. – B., 2003.*
2. *Baburnamə. Daşkənt. – 1958.*
3. *Bartold. Seçilmiş əsərləri.- M.: 1973. – C.7.*
4. *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi.-B., 2001*
5. *Рукописная книга в культуре народов востока. – Т. 1. – М. – 1987.*
6. *Рукописная книга в культуре народов востока. – Т.2. – М. – 1988.*

***П. Ф.КАЗЫМИ***

# ПРОИЗВОДСТВО БУМАГИ, РУКОПИСНОЙ КНИГИ И ПЕРЕПЛЕТНЫЕ РАБОТЫ ТЮРКСКИХ НАРОДОВ СРЕДНИХ ВЕКА

## *РЕЗЮМЕ*

*Книжная культура тюркских народов средних веков имеет множество общих черт, о которых было анализированно в данной статье.*

*Особенно производство бумаги, приготовление рукописных книг, техника письма, переплетная работа был  рассмотрена в контексте интеграции тюркских народов от восточного тюркистана до восточной Турции. К исследованию были привлечены материалы русских и советских востоковедов. Данная статья является попыткой обобщения широкого аспекта материалов в данном контексте.*

***P.F.KAZIMI***

# THE PAPER MANUFACTURE, HAND-WRITTEN BOOKS AND BINDING WORK OF THE TURKIC PEOPLE OF THE MIDDLE AGES

## *SUMMARY*

*The book culture of the Turkic people of the Middle Ages has many common features, which are analised in this article.*

*Especially paper manufacture, preparation of hand-written books, technics of the letter, binding work has been considered in a context of integration of the Turkic people from east Turkistan to east Turkey. Materials of Russian and Soviet orientalists have been involved in research.*

*This article is attempt of generalisation of wide aspect of materials in the given context.*

**Zahidə RZAYEVA**
*Kitabxana resursları və informasiya*
*axtarış sistemləri kafedrasının dissertantı*

## AMEA-nın MƏRKƏZİ ELMİ KİTABXANASINDA İNFORMASİYA AXTARIŞ SİSTEMLƏRİNİN FORMALAŞMASI (1970-80-ci illər)

Müasir informasiya cəmiyyətində elmin, təhsilin, mədəniyyətin və istehsalın inkişaf səviyyəsi, məlumat axının artımı, oxucuların məlumat tələbatının mürəkkəbləşməsi elmi kitabxanaların fəaliyyətinin daim təkmilləşməsini tələb edir. Belə elmi kitabxanalardan biri də Azərbaycan Milli Elmlər Akademiyasının əsas struktur vahidlərindən olan, 85 illik fəaliyyəti dövründə ölkənin ən iri kitabxana-informasiya müəssisələrindən birinə çevrilərək elmin inkişafında, elmi kadrların yetişdirilməsində əvəzsiz rol oynayan Mərkəzi Elmi Kitabxanadır. Elmlər Akademiyası sistemində və digər elmi müəssisələrdə aparılan elmi-tədqiqatların analitik-informasiya təminatı, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq, kitabxana fondlarının konservasiyası və bərpası, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, müasir informasiya texnologiyasının istifadəsi və tətbiqi sahəsində fəaliyyət göstərən MEK elmi müəssisə kimi Milli Elmlər Akademiyası sisteminin baş kitabxanasıdır.

AMEA Mərkəzi Elmi Kitabxanası Azərbaycanın görkəmli ziyalıları tərəfindən təşkil edilmiş "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" nəzdində yaradılmışdır. Bu Cəmiyyətin nəzdində yaradılan "Biblioqrafiya bürosu" MEK-nın təşəkkülü üçün ilkin baza olmuşdu. Cəmiyyətin ilk iclaslarının birində kitabxananın yaradılması haqqında məsələ qaldırılmış, qərar qəbul edilmiş və rəsmi fəaliyyətə başlamışdır. Məhz bu illərdə kitabxananın 300-350 nüsxə kitab fondu vardı.

XX əsrin 70-80-ci illərində böyük öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi və qayğısı sayəsində Azərbaycan elmi böyük nailiyyətlər qazanmışdır. Bu dövrdə elmə ayrılan maliyyə vəsaiti və SSRİ Elmlər Akademiyası tərəfindən ayrılan digər ayırmalar xeyli çoxalmışdı. Azərbaycan hökumətinin qarşısında yeni elm mərkəzlərinin yaranması, Milli Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi vəzifəsi qoyulmuşdu. Görülən tədbirlər nəticəsində ali məktəblər də daxil olmaqla elmi müəssisələrin sayı 142-dən 151-ə, o cümlədən elmi-tədqiqat institutları və onların filiallarının sayı 73-dən 85-ə çatmışdı. Elm sahələrində çalışan elmi işçilərin sayı 17 min nəfərdən 32,3 min nəfərə, elmlər doktorlarının sayı 1,8 dəfə artaraq 1186 nəfərə, elmlər namizədlərinin sayı isə 1,7 dəfə artaraq 8905 nəfərə çatmışdı (4, 34).

Bu illərdə AMEA xüsusilə çiçəklənmə dövrünü yaşayırdı. Akademiyanın apardığı fundamental elmi-tədqiqat işləri SSRİ miqyasında yüksək qiymətləndirilmiş, bir çox elmi-tədqiqat işləri isə beynəlxalq arenaya çıxmağa müvəffəq olmuşdu. Təkcə 1970-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında 30 elmi müəssisə, o cümlədən 22 elmi-tədqiqat institutu, 3,3 min elmi işçi, o cümlədən 209 elmlər doktoru, 1311 elmlər namizədi fəaliyyət göstərirdi. Akademiyanın 54 həqiqi və 41 müxbir üzvü var idi (4, 35).

70-80-ci illərdə AMEA-nın mühüm elmi bazası olan Mərkəzi Elmi Kitabxananın işində də canlanma baş vermiş, elmi kitabxana nəinki respublikanın, həmçinin SSRİ-nin ən böyük elmi kitabxanaları səviyyəsinə yüksəlmişdi. Məhz bu dövrdə akademiyanın kitabxanası yeni binaya köçürülmüş, müasir avadanlıqlarla təmin edilmiş, yeni kitabxana texnikası ilə təchiz edilmişdi. Öz fəaliyyətində kitabxana işi sahəsində baş verən yenilikləri dönmədən öz işinə tətbiq edən, yeni kitabxana texnologiyası ilə zənginləşən, kitabxana xidmətinin müasir problemlərindən bacarıqla istifadə edən kitabxana tamamilə yeni tipli elmi-informasiya müəssisəsinə çevrilmiş, yüksək ixtisaslı akademiya oxucularının ən çox istifadə etdiyi bir elm xəzinəsinə çevrilmişdi.

AMEA-nın Mərkəzi Elmi Kitabxanası həm respublikamızda, həm də SSRİ miqyasında ilk dəfə olaraq akademiya kitabxana şəbəkəsini mərkəzləşdirməyə nail olmuşdu. Məlum olduğu kimi, o dövrdə SSRİ miqyasında ilk növbədə kütləvi kitabxanaların mərkəzləşdirilməsi ideyası irəli sürülmüş, bu işi həyata keçirmək üçün Rusiyanın bir neçə rayonunda eksperiment aparılmışdı. Azərbaycanda mərkəzləşdirmə işinə 1974-cü ildən başlandı. Tamamilə yeni və mürəkkəb bir proses olan mərkəzləşdirməni həyata keçirmək ciddi təşkilatçılıq və elmi-metodik hazırlıq işi tələb edirdi. Bununla belə, AMEA-nın Mərkəzi Elmi Kitabxanası onu həyata keçirərkən bir sıra çətinliklərlə üzləşsə də, bu mürəkkəb prosesi yerinə yetirməyə hazır olduğunu nümayiş etdirdi. Bir tərəfdən akademiyanın ayrı-ayrı institutları, laboratoriyaları və digər qurumları kitabxanaların mərkəzləşməsinin əleyhinə çıxırdılar, digər tərəfdən, mərkəzləşməni aparmaq üçün mühüm elmi-metodik məsələləri həll etmək çətinlik törədirdi. Vəsaitin çatışmazlığı da işin sürətli təşkilinə mane olurdu. Bütün bu çətinliklərə baxmayaraq, mərkəzləşmə işinə ciddi hazırlıq görmüş Mərkəzi Elmi Kitabxana qısa bir müddət ərzində bu işin öhdəsindən müvəffəqiyyətlə gəldi. Mərkəzləşmə 1972-ci ildə başlandı və 1976-cı ildə başa çatdırıldı. Bir-birindən ayrılıqda fəaliyyət göstərən kitabxana şəbəkəsinin bazası əsasında vahid kitab fonduna, kadr potensialına, ştata, yeniləşdirilmiş və möhkəmləndirilmiş maddi-texniki bazaya malik olan, oxuculara xidməti yüksək səviyyədə təşkil etməyə qadir olan vahid kitabxana kompleksi meydana gəldi. Bu sistemə akademiyanın 24 elmi-tədqiqat institutunun və digər qurumlarının kitabxanaları daxil edildi. Mərkəzləşmiş vahid kitabxananın fondunda 3 milyon nüsxəyə qədər kitab var idi. Kitabxana fondunun sistemdaxili mərkəzləşdirilmiş qayda-

da komplektləşdirilməsi fondun gələcək inkişafı üçün geniş perspektivlər açmışdı. Kitabxana fondunun idarə edilməsinə vahid sistemli prinsipin tətbiqi onun məqsədyönlü komplektləşdirilməsi üçün əlverişli şərait yaratmışdı. Fondun tərkibinin keyfiyyətcə təkmilləşməsi, dünya elmi-texniki fikrinin son nailiyyətlərini əks etdirən əsərlərlə və dövri mətbuatla tamamlanması oxuculara kitabxana-informasiya xidmətinin yeni əsaslarla qurulmasını təmin edirdi. Kitabxanaların yanında təşkil edilmiş komplektləşdirmə şuraları mərkəzləşmiş kitabxana şəbəkələrinin komplektləşdirilməsi üçün plan tərtib edirdi. Komplektləşdirmə planında hər bir kitabxananın profili, oxucuların sorğu və tələbatı, elmin müasir inkişaf istiqamətləri nəzərə alınırdı.

Cari və retrospektiv komplektləşdirməni ardıcıl olaraq aparmaq məqsədi ilə Mərkəzi Elmi Kitabxananın yanında komplektləşdirmə şurası yaradılmışdı. Bu şura ilk dəfə olaraq bütün akademiya kitabxana şəbəkələrinin komplektləşdirilməsini həyata keçirirdi. Yarandığı ilk günlərdən şuranın işinin səmərəliliyi və effektivliliyi aydın oldu. Akademiya kitabxanalarının komplektləşdirmə işi keyfiyyət və kəmiyyət baxımından xeyli yaxşılaşdı və təkmilləşdi. Təkcə 1984-cü ildə AMEA-nın kitabxana sisteminə 96 min 141 nüsxə yeni ədəbiyyat daxil olmuşdu. Bunlardan 58.918 nüsxəsi Mərkəzi Elmi Kitabxananın, 37.223 nüsxəsi isə filialların fondlarına verilmişdi. Mərkəzləşmə nəticəsində Mərkəzi Kitabxananın maliyyə vəziyyətinin sabitləşməsi kitabxana fonduna xarici dillərdə ədəbiyyat alınmasını xeyli yaxşılaşdırmışdı. Hər il kitabxanaya daxil olan ədəbiyyatın 10-12 faizini xarici dillərdə kitablar təşkil edirdi. Bu isə öz növbəsində alimlərə dünya elminin və texnikasının son nailiyyətləri ilə tanış olmaq imkanı verirdi (4, 22).

1970-80-ci illərdə kitabxananın fəaliyyətində baş verən müsbət keyfiyyətlərdən biri də beynəlxalq kitab mübadiləsinin təşkili olmuşdur. Kitabxana zəngin və məzmunlu mübadilə fondu yaratmağa müvəffəq olmuşdu ki, bu da respublikamızın kitab sərvətini dünyanın ən böyük kitabxanalarına göndərməyə imkanlar yaratmışdı. Belə ki, 70-ci illərin axırlarında kitabxana dünyanın 50 ölkəsinin 570 müəssisəsi ilə kitab mübadiləsi edirdi. Bunların arasında 28 elmlər akademiyası, 120 universitet və institut, 29 milli kitabxana, 209 kitab ticarəti müəssisəsi, 23 nəşriyyat və firma, 27 muzey və başqa müəssisələr var idi. 1984-cü ildə Mərkəzi Elmi Kitabxanaya 10615 nüsxə xarici nəşr daxil olmuşdu. Kitabxana respublikamızda ən çox dövri nəşrlər, xüsusilə elmi, elmi-texniki jurnallar alan müəssisə idi. Təkcə 1984-cü ildə kitabxana 1246 adda xarici jurnal almışdı. Kitabxananın dövri mətbuat və jurnal fondu respublika alimlərinə dünya elminin son nailiyyətləri ilə tanış olmaq imkanı verirdi ki, bu da elmi ictimaiyyət tərəfindən çox yüksək qiymətləndirilirdi. Kitabxananın xarici ədəbiyyat fondunun ardıcıl olaraq komplektləşdirilməsi nəticəsində bu fond respublikanın kitabxanaları içərisində ən böyük fonda çevrilmişdi. 1986-cı ildə bu fonda 1 milyon nüsxədən artıq ədəbiyyat toplanmışdı (4, 122).

Milli Elmlər Akademiyasının kitabxana şəbəkəsinin mərkəzləşməsi, qısa müddət içərisində oxuculara xidmət işinin yenidən qurulmasında, keyfiyyətcə yaxşılaşmasında və səmərəliliyinin artırılmasında özünü göstərdi. Əgər mərkəzləşmədən əvvəl - 1974-cü ildə kitabxananın 18 min oxucusu var idisə, 1984-cü ildə onların sayı 38 min 800 nəfərə çatmışdı. Oxuculara kitabxana xidməti sahəsində həyata keçirilən yeni qabaqcıl iş üsulları oxucuların kitabxanaya gəlişinə müsbət təsir göstərmiş, elmi-tədqiqat institutlarının elmi işçilərinin əksəriyyəti kitabxanadan istifadə etməyə başlamışdılar. Elmi tədqiqat institutlarının 23 min 601 nəfər elmi işçisi Mərkəzi Elmi Kitabxananın oxucularına çevrilmiş, kitab fondundan istifadə etməyə başlamışdılar. Görülən işlərin nəticəsində 1984-cü ildə Mərkəzi Elmi Kitabxanada və onun filiallarında oxuculara 3 milyon 184 min 868 nüsxə kitab verilmişdi. Bunların 1 milyon 768 min nüsxəsi Mərkəzi Kitabxananın payına düşürdü. Kitabxana oxucuların sorğularını ödəmək və öz fondlarında olmayan kitabları əldə etmək üçün KAA-dan geniş surətdə istifadə edirdi. 1984-cü ildə SSRİ-nin 1870, xarici ölkələrin 27 kitabxanası ilə əlaqə yaradılmış, onlardan 13.050 nüsxə ədəbiyyat alıb oxuculara verilmişdi (4, 120).

Mərkəzləşmə illərində akademiya kitabxanasında meydana gəlib formalaşan və demək olar ki, oxuculara kitabxana xidmətinin təşkilində mühüm mərhələ hesab edilən elmi-texniki informasiya xidmətinin yaradılması olmuşdur. Uzun illərdən bəri elmi-texniki informasiya xidmətini həyata keçirməyə çalışan kitabxana bu işin formalaşmasına 60-cı illərin axırlarından başlamış, ardıcıl olaraq iş aparmış, təcrübə qoymuş, nəhayət, 1973-cü ildə oxuculara informasiya xidməti işini müvəffəqiyyətlə həyata keçirən elmi-texniki informasiya xidmətini yaratmağa müvəffəq olmuşdur. Mərkəzi Elmi Kitabxana 1976-cı ildən isə respublikada ilk dəfə olaraq bu sistemi qismən də olsa avtomatlaşdırmağa başladı. 1980-1984-cü illərdə akademiya kitabxanası bu sistem vasitəsilə 300 elmi problem üzrə 289 elmi-tədqiqat laboratoriyasının 3000-ə qədər elmi işçisini müntəzəm olaraq cari informasiya ilə təmin etmişdir. Bu dövrdə respublikamızda elmi ədəbiyyatı təbliğ etmək üçün MEK-də ilk sərgi salonu təşkil edilmişdi. Bu salon oxuculara xidmət etmək üçün vaxtaşırı olaraq daimi yeni kitablar sərgisi və müxtəlif elm və bilik sahələrinə aid tematik sərgilər təşkil edirdi. Təkcə 1984-cü ildə bu salonda 25 tematik sərgi, yeni ədəbiyyat haqqında 65 informasiya sərgisi təşkil edilmişdi. Bir il müddətində bu sərgilərdə 7717 nüsxə ədəbiyyat nümayiş etdirilmişdi. Mərkəzi Kitabxana, həmçinin ayrı-ayrı elmi müəssisələrdə də sərgilər təşkil etməyə başlamışdı. 1980-84-cü illərdə elmi müəssisələrdə 92 tematik sərgi təşkil edilmişdi. Müəssisələrdə təşkil edilən tematik sərgilər kitabxana oxucularının sayının çoxalmasına və kitab verilişinə olduqca müsbət təsir göstərirdi (4, 32).

Göstərilən illərdə Azərbaycan Milli Elmlər Akademiyasının həyatında baş verən böyük inkişaf və tərəqqi kitabxananın işinə də müsbət təsir etmiş,

kitabxananın maddi-texniki bazası möhkəmlənmiş, yeni bina və avadanlıqla təchiz edilmişdi. Bu dövrü kitabxananın həyatında yeni inkişaf mərhələsi hesab etmək olar. Kitabxana məhz bu illərdə yeni ədəbiyyatla fasiləsiz və mükəmməl təmin olunmaqla, müasir avadanlıqdan istifadə edərək informasiya axtarış sistemlərini, kitab fondlarını yenidən qurmuşdu. Minlərlə kitablar qapalı otaqlardan çıxarılaraq kitabxana rəflərində işlək hala gətirilmişdi. Kitabxananın məlumat-biblioqrafiya aparatı, kataloq və kartotekaları yenidən təşkil və redaktə edilərək müasir tələbatlara cavab verə bilən operativ vasitəyə çevrilmişdi. Akademiyanın kitabxana sistemində elmi işçilərə və mütəxəssislərə xidmət etmək üçün 27 növ yardımçı kataloq və kartoteka yaradılmışdı (4, 45).

1974-cü ildə kitabxananın tarixində ilk dəfə olaraq Kitabxanaşünaslıq və biblioqrafiya elmi-tədqiqat şöbəsi yaradılmış, kitabxanaya aspirant hazırlamağa icazə verilmişdi. Kitabxanada fəaliyyət göstərən bu şöbə kitabxanaşünaslığın və biblioqrafiyanın müasir problemlərinə dair tədqiqatlar aparmış, elmi məcmuələr nəşr etmiş, biblioqrafik göstəricilərin “Elm və mədəniyyət xadimləri” seriyasını yaratmışdı. Bu seriyadan akademiklərdən Y.Məmmədəliyevin, M.Qaşqayın, M.Nağıyevin, Ə.Quliyevin, M.Arifin və başqalarının biblioqrafiyaları buraxılmışdı.

AMEA-nın Mərkəzi Elmi Kitabxanasının nəşriyyat fəaliyyətinin genişlənməsi respublikamızda kitabxanaşünaslığın, biblioqrafiyaşünaslığın, kitabşünaslığın və informasiyanın inkişafına müsbət təsir göstərirdi. Elmi-tədqiqat və biblioqrafiya şöbəsi ildə 20-30 çap vərəqi həcmində elmi əsərlər və biblioqrafik göstəricilər nəşr edirdi.

MEK 1970-80-ci illərdə də informasiya axtarış sistemlərini planlı şəkildə inkişaf etdirmək üçün bir sıra tədqiqat işləri aparmışdır. Məsələn: “MEK-nın hazırladığı biblioqrafik göstəricilərin istifadəsinin effektivliyinin öyrənilməsi”; “Kitabxananın soraq-biblioqrafiya aparatının (kataloq və kartotekaların) oxucular tərəfindən istifadəsinin effektivliyinin öyrənilməsi”; “MEK-nın təşkil etdiyi kitab sərgilərinin istifadəsinin effektivliyinin öyrənilməsi” və s. Kitabxana-biblioqrafiya, elmi-tədqiqat və elmi-metodik işlər sahəsində araşdırmaların nəticələri mətbuat səhifələrində dərc edilmişdir.

Bu dövrdə kitabxananın elmi əməkdaşları, akademiklər, MEA-nın Rəyasət Heyətinin üzvləri üçün “Xarici dövri nəşrlərin kataloqu” (Təbii elmlər seriyası) hazırlanmışdır. Bununla yanaşı, kitabxananın elmi-texniki informasiya şöbəsi 21 elmi-tədqiqat inistitutunu araşdırılan 265-dən çox elmi problemlərlə bağlı informasiya ilə təmin etmişdir.

MEK-nın bütün şöbələrinin gördüyü işlərin keyfiyyətini artırmaq məqsədilə daim soraq-iformasiya xarakterli tədqiqat işləri aparılır və bu tədqiqatların nəticələri elmi məqalə halında çapa hazırlanır. Bu baxımdan həmin illərdə kitabxananın Elmi-Metodik Şurasında müzakirə edilmiş bir sıra məsələlər şöbələrdə aparılan tədqiqatların nəticələri əks olunmuşdur: “KAA-ın yeni şəra-

itdə təkmilləşməsi”, “Azərbaycan və rus dillərində MEK-ya daxil olan kitablar”, “Biblioqrafik informasiya bülleteninin istifadəsinin effektivliyi”, “Azərbaycan xarici mətbuatda kartotekasının və göstəricisinin tərtib edilməsi təcrübəsindən”, “Oxucu borcları ilə mübarizə tədbirləri” haqqında Azərbaycan Elmlər Akademiyasının MEK-nın əməkdaşlarının müxtəlif məqalələr məcmuəsi və dövri mətbuatda nəşr edilmiş məqalələrin toplanıb küll halında yenidən çap edilmişdi.

MEK-də ilk elmi-tədqiqat işi 70-ci illərdə “Azərbaycan Elmlər Akademiyasının kitabxanalarının fondlarından istifadə səmərəliliyi və onların kompleks elmlər üzrə oxucuların informasiya sorğularına uyğunluğu” mövzusunda işlənmişdir. Sonrakı illər alim və mütəxəssislərə göstərilən kitabxana-biblioqrafik xidmətinin yaxşılaşdırılması məqsədilə kataloq və kartotekaların, ədəbiyyat fondlarının, həmçinin kitabxana tərəfindən nəşr edilmiş biblioqrafik göstəricilərin istifadə səmərəliliyinin öyrənilməsi elmi-tədqiqatların əsas istiqaməti olmuşdur.

Bu dövrdə kitabxananın Elmi-Metodik Şurasında müzakirə edilmiş bir sıra işlərin nəticələri “MEK-ya daxil olan xarici jurnalların toplu sistemli kataloqunun təşkili”, “Əlifba kataloqunda əlavə qeydlərin məhdudlaşdırılması yolları”, “Elmi biblioqrafiya şöbəsinin hazırladığı göstəricilərin vəziyyəti”, “Azərbaycan EA MEK-da biologiya təmayüllü alimlərə müqavilə ilə və müqaviləsiz biblioqrafik informasiya xidməti”, “Oxucu borcları ilə mübarizədə qarşıya çıxan problemlər və onların həlli yolları” və s. elmi-tədqiqat işinin bir qolunu təşkil etmişdir.

Həmin illərdə kitabxananın ədəbiyyatin elmi sistemləşdirilməsi şöbəsinin qarşısında mühüm əhəmiyyət kəsb edən bir vəzifə qoyulmuşdu. Bu vəzifə sistemli kataloqlardan istifadənin səmərəliliyinin öyrənilməsi ilə bağlı olmuşdur. Mövzunun tədqiqat obyekti sistemli kataloqdan istifadə prosesi və bu prosesin səmərəliliyinə təsir edən amillər kimi seçilmişdi. Tədqiqat işinin qarşısında bir sıra vəzifələr dururdu:

– Kataloqdan istifadənin səmərəliliyinə təsir edən amillərin öyrənilməsi;

– Sistemli kataloqun oxucuların elmi-məlumat, informasiya tələbatına uyğunluğunun aydınlaşdırılması;

– Sistemli kataloqun əlifba-predmet göstəricisindən istifadə edilməsi haqqında arayışlar, ümumiyyətlə, kataloqun vəziyyətinin öyrənilməsi.

Aparılan tədqiqat işi üç mərhələdə olub, böyük bir iş kimi uzunmüddətli həyata keçirilməsi nəzərdə tutulmuşdu. Birinci mərhələdə şöbənin əməkdaşları sistemli kataloqların yanında növbətçilik edərək müşahidə aparmış, qeydlərini cəmləşdirərək müzakirədən keçirmişlər. Növbətçilik həftədə iki dəfə yarım iş günü olmaqla keçirilmişdir.

İkinci mərhələdə sorğu anketləri hazırlanaraq oxuculara paylanmışdır. Sorğu anketinə daxil olan suallara gələn cavabların nəticəsi müzakirə edilmişdir. Anketə aşağıdakı suallar daxil edilmişdir:

–Oxucunun maraqlandığı mövzu və onun sorğusu.

–Oxucuya kataloqun bölməsinin növbətçi tərəfindən təklif edilməsi.

– Əlavə materialların seçilməsi.

–Oxucunun tələbatının yerinə yetirilməsi keyfiyyəti.

– Oxucu haqqında məlumat (elmi dərəcəsi və s.).

– Sistemli kataloqun əlifba-predmet göstəricisindən oxucunun istifadə etməsi.

– Növbətçinin qeydləri.

– Oxucunun qeydləri və iradları.

– Tarix, növbətçinin adı, soyadı.

Üçüncü mərhələ bütün aparılan tədqiqatların yekunlaşdırılması, təhlili və nəticələrin müəyyən edilməsi mərhələsi olmuşdur. Nəticədə oxucular 4 irad və 5 təklif vermişlər. Ortaya çıxan nəticə göstərir ki, kataloqa aid tələblərin mövzusu və xarakteri oxucuların elmi tələblərinə uyğunlaşdırılmışdır.

Sistemli kataloqdan istifadənin daha səmərəli imkanlarını öyrənmək üçün MEK-da ümumi anket sorğusu keçirilmişdir. Anket formasının nümunəsi belədir:

1) Oxucunun ixtisası
2) İş yeri
3) Elmi dərəcəsi, elmi adı
4) Tədqiqat problemi
5) Axtarışın konkret mövzusu
6) Axtarış zamanı istifadə olunan elm sahələri və mövzuların siyahısı
7) Sistemli kataloqda əks olunmuş ədəbiyyatla təmin olunma
8) Sistemli kataloqun qiymətləndirilməsi
9) Sistemli kataloqun əlifba-predmet göstəricisinin qiymətləndirilməsi
10) Rus və Avropa dillərində sistemli kataloqların yeniləşdirilməsinin məqsədəuyğunluğu haqqında sizin fikriniz və təklifləriniz-?
11) Kataloqun tərtib edilməsi haqqında sizin fikriniz-?
12) Arzu və təkliflər.

Bu anket formasından 120 ədədi oxuculara paylanmış və yalnız 94 ankete cavab alınmışdır. Anketləşdirmə zamanı MEK-nın sistemli kataloqlarına müraciət etmiş oxucu tələbnamələri haqqında məlumatlar toplanmış, kataloqun tərkibi və təşkili məsələlərinə dair suallara fikir bildirən oxucular iradlarını, arzu və təkliflərini də ifadə etmişlər.

Anketlərdə kataloqa müraciət edən oxucuların tərkibi, onların elmi dərəcəsi, ixtisas fəaliyyətinin xarakteri, təhsil səviyyəsi kimi məsələlərin öyrənilməsinə də diqqət yetirilmişdir.

Nəticə etibarilə MEK-nın sistemli kataloqlarından oxucuların istifadəsinin səmərəliliyinin öyrənilməsi məqsədi ilə aparılan tədqiqat zamanı ədəbiyyatin sistemləşdirilməsi şöbəsinin əməkdaşlarının növbətçilik üsulu ilə oxuculara xidməti zamanı apardığı müsahibələr, anketlərə verilən cavablar sistemli kataloqun rolunu və əhəmiyyətini qiymətləndirməyə əsas vermişdir.

Bütün bunlar bir daha təsdiq edir ki, 70-80-ci illərdə AMEA-nın Mərkəzi Elmi Kitabxanası informasiya axtarış sistemlərinin təkmilləşdirilməsi, kitabxana fondunun təşkili, komplektləşdirilməsi, qorunub saxlanması, xidmət işinin səmərəliliyinin yaxşılaşdırılması, kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-tədqiqat və metodik işin inkişaf etdirilməsi sahəsində bir sıra uğurlar əldə etmişdir. Mərkəzi Elmi Kitabxana müasir dövrdə intensiv inkişaf edərək akademiyanın yüksək intellektual səviyyəyə qalxmasında, elmi potensialının formalaşması və təşəkkülündə mühüm rol oynayır. Dünya elmi fikrinin tarixi nailiyyətlərini əks etdirən, alimlərin təfəkkürünün bəhrəsi, Azərbaycan elmini yaşadan və inkişaf etdirən mənəvi xəzinə olan MEK-nın beynəlxalq əlaqələri alimlərin dünya elmi-texniki fikrinin nailiyyətləri ilə tanış olmasında və Azərbaycan elminin dünya miqyasında təbliğ edilməsi və yayılmasında mühüm vasitədir.

## ƏDƏBİYYAT


1. *"Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan. – 2007. – 24 aprel.*
2. *Əliyeva-Kəngərli A., Hüseynova F. Azərbaycan MEA MEK-da elmi-tədqiqat işləri: inkişaf tarixi, müasir vəziyyəti və perspektivləri // Elmi əsərlər.– B.: MEA MEK. – 2004. – VI buraxılış. – 138 s.*
3. *Əliyeva-Kəngərli A. AMEA Mərkəzi Elmi Kitabxanası – 80 // Elmi əsərlər.– B.: MEA MEK. – 2004. – VI buraxılış. – 196 s.*
4. *Hüseynova F. AMEA MEK-da biblioqrafiya fəaliyyətinin təşəkkülü və inkişafı // Elmi əsərlər.– B.: MEA MEK, 2004. – VI buraxılış. – 196 s.*
5. *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. I hissə. – Bakı, 2004. – 326 s.*
6. *Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. – Bakı: Azərnəşr, 2006. – 312 s.*
7. *Xələfov A.A. Kitabxanşünaslığa giriş: Dərslik 3 hissədə. I və II hissə. – Bakı, 2001. – 398 s.*
8. *Xələfov A., Kazımov R. Azərbaycan elminin qızıl fondu (AMEA MEK-nın bu günü və sabahı) // Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq. Elmi-nəzəri təcrübi jurnalı. – B.: BDU, 2002. – №2. – 120 s.*

9. *İsmayılov X.İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000): Monoqrafiya. – Bakı, 2000. – 440 s.*

10. *Kərimova Ş. Sistemli kataloqdan istifadənin səmərəliliyinin öyrənilməsi// Elmi əsərlər.– B.: MEA MEK. – 2004. III buraxılış. – 138 s.*

11. *Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qəzeti, 1999, 14 mart.*

12. *Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının 1970-1980-ci illər hesabatları.*

***З.РЗАЕВА***

## ФОРМИРОВАНИЕ ИНФОРМАЦИОННО-ПОИСКОВЫХ СИСТЕМ В ЦЕНТРАЛЬНОЙ НАУЧНОЙ БИБЛИОТЕКЕ НАН АЗЕРБАЙДЖАНА (1970-1980 г.г.)

### *РЕЗЮМЕ*

*В статье рассматривается важнейщие аспекты развития Центральной Научной Библиотеки НАН Азербайджана в 70-80-х годах XX века.*

*В работе проанализирована состояние информационно-поисковых систем и сделаны выводы по формированию документов информАционной значимости книжных фондов от читательских потребностей, запросов, интересов, от профиля занимаемой специальностей.*

***Z.RZAYEVA***

## INFORMATION FORMING OF THE SYSTEMS OF SEARCH IN THE SCIENTIFIC LIBRARY OF CENTRE OF THE NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN

### *SUMMARY*

*This article information have been devoted to forming of the systems of search in the scientific library of centre of the National Academy of Sciences of Azerbaijan.*

*Situation and development in 1970-1980 of the information systems of search have been analysed in this article in the Scientific Library of Centre of the National Academy of Sciences of Azerbaijan.*

**Mitra DADAŞİ NASRİN**
*Aspirant*

# TƏBRİZ UNİVERSİTETİ KİTABXANASININ İNFORMASİYA AXTARIŞ SİSTEMİ

İnsanlar kitabları və digər informasiya daşıyıcılarını qoruyaraq gələcək nəsillərə çardırmaq məqsədilə qədim dövrlərdən kitabxanalar yaratmağa başlamışlar. Kitabxanalar elmi-texniki tərəqqiyə kömək göstərməklə yanaşı, elm və texnikanın nailiyyətlərini, mütərəqqi istehsal təcrübəsini yaymaq sahəsində də mühüm işlər aparırlar. Məlum olduğu kimi, kitabxanalar ictimai-iqtisadi formasiyaları dəyişdirməsə də, cəmiyyətin hərtərəfli inkişafına təsir göstərir, milli, elmi, mədəni və digər ictimai-iqtisadi amillərin təkamülünə xidmət edir. İran İslam Respublikasında  kitabxana izləri tarixin çox qədim dövrlərinə gedib çıxır. Tarixi mənbələrdən məlum olduğu kimi, ilk kitabxana Əhəmənilər dövründə (b.e.ə.VI əsrin sonu-V əsrin əvvəli) təşəkkül tapmışdır. Bu kitabxana “İstəxr kitabxanası” adlanmışdır. Makedoniyalı İsgəndər İranı məğlub etdikdən  sonra bu kitabxananın bütün kitablarını yandırtdı. XIV əsrdə Təbrizdə və digər şəhərlərdə məscid kitabxanaları, mədrəsə kitabxanaları və zəngin şəxsi kitabxanalar da mövcud idi. (1, 2, 3, 6, 7).

Tehran Universitetidən sonra İranın ikinci universiteti 1946-cı ildə "Azərbaycan universitet" adı altında təsis olmuşdur. Bu universitet müəyyən səbəblərə görə bağlandı və yenidən 1948-ci ildə  “Təbriz universiteti” adı altında işə başladı. Hazırda bu universitetdə 13183 nəfər tələbə təhsil alır.  Universitetdə 600 nəfər müəllim çalışır, onların da 50 nəfəri professordır (12,14).

Təbriz Universitetində 12 fakültə, 7 ixtisasda 3 ikiillik kurs kolleci, 1 ali təhsil kompleksi var. Həmçinin bu universitetdə bakalavr pilləsində 81 ixtisas, magistraturada 99 ixtisaslaşma və doktoranturada 76 ixtisas üzrə kadr hazırlıqı həyata keçirilir (12,13,14).

Təbriz Universitetinin mərkəzi kitabxanasının yeni binası 2008-ci ildə dövlət həftəsində işə başladı. Bu kitabxananın 14000 kv.metr ərazisi var və oxucu zalında 900 nəfər yerləşə bilir. Bu kitabxananın oxucuları Təbriz Universitetinin tələbə, müəllim və köməkçi işçi heyətidir (11,20).

1968-ci ildə Təbriz universitetində “Manqala” adlı hind professorunun köməkliyilə kitabxanaçılıq və informasiya ixtisası üzrə bakalavr və bir ildən sonra magistratura pilləsində kadr hazırlığına başlandı. Hazırda bu universitetdə təkcə bakalavr pilləsi üzrə kadr hazırlığı həyata keçirilir (21).

Məlumdur ki, kitabxanalar daima əsaslı dəyişikliklərə məruz qalırlar. Təkcə bir əsrin dörddə biri müddətində kitabxanalar mövcud kitab kataloqu təqdim etmək üçün istifadə etdiyi ənənəvi kartoçka-kataloq sisteminə, çap əməliyyatından isə CD-ROM üsuluna və CD-ROM üsulundan informasiyanı

axtarma əməliyyatına qadir olan veb axtarış sisteminə qədər dəyişikliyə uğramışdır (10).

Bu gün kitabxana yalnız kitab və kartoçka ilə işləmir, eyni zamanda ən müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə ənənəvi fəaliyyətin keyfiyyətini yüksəldir, internet informasiya resursları, elektron kataloq, elektron məlumat bazaları yaradır, onlayn rejimində oxucularla əlaqə qurur. Müasir dövrdə kitabxana işi cəmiyyətin informasiyalaşdırılmasının mühüm atributlaından biri kimi getdikcə mürəkkəbləşən, müasir texnologiyalara əsaslanmaqla yeniləşən fəaliyyət sahəsi kimi formalaşmaqdadır (3, 8).

Hər bir şəxsin, qrupun, kollektivin inkişafı mövcud informasiyaları axtarmaq və istifadə etmək bacarığdan asılıdır. Bu, şagirddən tutmuş alimə qədər bütün insanlara həm gündəlik, həm də gələcək fəaliyyətinin daha səmərəli qurmaq üçün lazımdır (9).

Kitabxana proqram təminatı texnologıyasının geniş formada inkişaf etdirilməsi əsasında kitabxanalar bu imkandan faydalanıb və çox keçmir ki, bir çox kitabxanaçılıq işlərinin həyata keçirilməsi üçün kompüterdən istifadə etməyə başlayıb və bu da kitabxana proqram təminatının qaydaya salınmasına səbəb olur. Kitabxana proqram təminatı sənədləri saxlamaq, axtarmaq və kitabxana işlərinin (o cümlədən informasiyanın axtarışı, sənədlərin evdə oxumaq üçün oxuculara verməsi, kitabxana sənədlərin kataloqlaşdırılması işlərinin) yerinə yetirilməsi üçün yaradılmışdır. Şübhəsiz ki, qeyd olunan işləri proqram təminatı ilə qaydaya salmaqla əvvəlcə informasiyanı az müddət ərzində rahatlıqla əldə etmək imkanı qazanmış oluruq. İkincisi kitabxana işlərini diqqətli və effektiv, az kadr və az pul xərcləməyi həyata keçirilir. Xüsusi olaraq yaradılan informasiya-axtarış sistemləri (İAS) informasiya axtarışının məqsədinə xidmət edir. Belə sistemlər böyük həcmli informasiyaların saxlanılması; tələb olunan informasiyanın tez bir zamanda axtarışı; saxlanılan informasiyanın artırılması, redaktəsi və xaric edilməsi; informasiyanın istifadəçi üçün münasib olan şəkildə çıxarılması və s. funksiyaları yerinə yetirirlər. Həmin səbəbdən də Təbriz Universitetinin Mərkəzi kitabxanası 2001-ci ildə «Pars Azərəxş» şirkətinin kitabxana proqram təminatı əsasında kitabxana işlərinin kompüterləşdirilməsini həyata keçirmişdir (8, 21).

«Pars Azərəxş» şirkəti 1988-ci ildə ölkənin kitabxana və sənəd mərkəzlərinə kitab və qeyri-kitab materiallarını hazırlamaq hədəfi ilə işə başladı. Bu şirkət 1981-ci ildən İranda şəxsi kompüterlərin əksəriyyəti dövlət idarələrində, o cümlədən kitabxana-informasiya mərkəzlərində informasiyanı toplamaq və saxlamaq və axtarış üçün istifadə olunurdu. Kitabxana proqram təminatının dizaynına başladı. 1989-cu ildə "Mükəmməl kitabxana proqram təminatı" adı altında bu şirkətin proqram təminatı mütəxəssisləri və bir qrup kitabxanaçı vasitəsilə ilkin tədqiqat və layihə quruculuğu proyekti həyata keçirməyə başladı. 1990-cı ilin əvvəllərindən bu proqram təminatın layihələşdirilməsi

ciddi şəkildə başlandı və sonrakı ilin sentyabrında bu layihənin ilkin versiyası DOS əməliyyat sistemi adı altında və bir istifadəçi formasında təqdim olundu.

Bu sistemin öhdəsindən gəldiyi işlər və ondan istifadə etməyin asan üsulu kitabxanaçıların və kitabxana məsulların diqqətini cəlb etdi və qısa müddət ərzində istifadəçilər arasında çoxlu tərəfdarı oldu. Beləliklə də, kitabxana və informasiya işi ilə məşğul olan qrupunun bu gözlənilməyən qarşılaşması və onların qiymətli məsləhətlərinin köməyilə bu proqram təminatının ikinci versiyası daha geniş imkanlar ilə «Novell» lokal şəbəkəyə əlaqələndirmək və neçə istifadəçi qabiliyyəti ilə 1992-ci ildə meydana çıxdı.

Son illərdə daha qüvvətli kompüterlərin WINDOWS əməliyyat sistemi ilə bazara daxil olması bu şirkətin DOS əməliyyat sistemi olan təcrübələrindən istifadə etməklə yeni kitabxana proqram təminatı WINDOWS əməliyyat sistem əsasında layihələşdirməsinə səbəb oldu. Beləliklə, 2000-ci ildə WINDOWS-NT şəbəkə mühitinə əlaqələndirmək qabiliyyəti əsasında ərsəyə gətirdi. WINDOWS əməliyyat sistemi mühitində artıq asanlıqla mətn yazmağa, hər hansı bir qrafiki mühitində işləyib mausun düyməsinin sıxmaqla bir çox digər əməliyyatları həyata keçirmək mumkundur. Bu əməliyyat sistemi mühitində mətnə şəkil, slayd, animasiya və s. informasiya daşıyıcısını əlavə etmək olar.

Qüvvətli www mühitindən istifadə edərək yeni proqram təminatı kitabxanalar və sənəd mərkəzlərinin biblioqrafik informasiyalarını internet mühitində yayılması üçün «WinLib 2000» adı altında layihəsi hazırladı və ilk versiyası 2000-cı ilin ortasında həyata keçirildi. Hal-hazırda ölkədə bir çox kitabxanalar, universitet sənədlərin mərkəzləri, nazirliklər, mədəniyyət mərkəzləri bu proqramdan istifadə edirlər (21).

WinLib 2000 proqram təminatının dili *Borland Delphi*-dir. Bu proqram təminatının məlumatlar bazası *İnterbase 705* dir. Onun arxitekturası *Klient-Server* nümunəsi yeni xidmət qəbul edən və xidmət göstərən əsasında proqramlaşdırılmışdır. Bu arxitektura əsasən kitabxananın proqram vəzifələrini iki qismə ayırır:

*1. Server*: Bu bölmə informasiyanı qorumaq, saxlamaq və idarə etmək vəzifəsini daşıyır. Yəni sənədlərin və oxucuların və həmçinin sənədləri oxucuya vermək üçün əlaqədar informasiya bu bölmədə saxlanır.

*2. Klient*: Bu bölmə kitabxanaçı və oxucu ilə əlaqə saxlamaq və informasiyanı qəbul, təqdim və emal etmək vəzifələrini həyata keçirir.

Adətən kitabxana proqram təminatı tətbiq olunmuş kitabxanalarda bir neçə kompüter istifadəçilərin öhdəsinə verilir. Belə olduqda da kompüterlərin sayında *Klient* (xidmətləri qəbul edən) proqramı quraşdırılır. Yalnız bir kompüterdə *Server* proqramı quraşdırılır.

*Klient/Server* arxitekturasının üstünlüyü, informasiyanın təhlükəsizliyidir. Bu belə izah olunur ki, əgər *Klient* kompüterləri işdən düşsə və dağılsa,

informasiya heç bir ziyana məruz qalmır çünki informasiya bir kompüterdə *Server* də saxlanır.

WinLib 2000 proqram təminatı tamamilə **İP Based** (internet protokolu) proqramıdır. Bu proqramı şəbəkədə istifadə etmək üçün **TCP/İP** (ötürməni idarəetmə protokolu/internet protokolu) protokolundan faydalanmaq lazımdır. Proqramdan istifadə edənlərin çoxluğu heç bir məhdudiyyətlə qarşılaşmır (18).

WinLib 2000 proqram təminatını kitabxanada istifadə etmək üçün öncə onun quraşdırır, CD-ni kompüterin CD drayverinə daxil edib gözləyirlər ki, proqramın avtomatik icra olunması fəaliyyətə başlayıb və quraşdırma mərhələri icra olsun. Proqram təminatını quraşdırandan sonra informasiyanın daxil edilməsi işi başlayır. İnformasiyanın daxil edilməsi bir başa və vasitəli həyata keçirilir. Bu proqram təminatında etibarlı məlumatlar bazalardan informasiyanı mübadilə etmək imkanı yaradılıb. Məsələn, İSO 2709 standartı, Z 39.5 standartı, İran milli biblioqrafik məlumat bazası.

Bu proqram təminatının çıxış yollarından biri İSO 2709 standartıdır. Bu standart zamanı, məsələn, hər hansı bir idarədə bu proqram təminatı istifadə edilərkən o idarənin informasiyasının bütün və ya bir hissəsini başqa bir idarəyə ötürmək mümkün olur. O mərkəzlərdə ki, Pars Azərəxş proqram təminatından istifadə edirlər, informasiyanı mübadilə etmək üçün İSO 2709 standartından istifadə olunur. Beləliklə, proqram təminatına informasiyanı daxil etmək üçün tələb olunan vaxt minimuma enir.

Dünyada internet şəbəkəsinin yayımlanmasından sonra ABŞ Konqres Kitabxanası informasiyasının yayımlanması üçün bu kitabxananın kataloqlarını internetdə öz veb saytında bu ünvanda www.1cweb.1oc.gov/z 39.50 yerləşdirdi. Bu şəbəkədən istifadə etməklə həmin sayta daxil olub, istənilən sənədlərin biblioqrafik axtarışını həyata keçirib, axtarışın nəticəsini HTML faylda yadda saxlayıb, sonra bu faylı kitabxana proqram təminatına ötürmək olar.

İran milli biblioqrafik məlumat bazası İran İslam Respublikasının milli kitabxanasının istehsalıdır ki, onda kitabxanada mövcud olan 500000-dən artıq fars kitablarının biblioqrafik informasiyası göstərilir. Bu məlumat bazasından istifadə və informasiyanı mübadilə etmək üçün əvvəlcə istənilən yazını axtarış edib və axtarış nəticəsi İSO 2709 formatda olan faylda yadda saxlanır və proqram təminatına köçülür.

İnformasiyanı bir başa daxil etmək üçün bu proqram təminatının işçi səhifəsində menyu lövhəsindən "informasiyanı daxil və islahat" seçimi seçilir və sonra informasiyanı daxil etmək üçün işçi səhifəsində sənədin növünü (fars dilində kitab, latın dilində kitab, jurnal və s.) seçib və kompüterə biblioqrafik informasiyanı klaviatura vasitəsilə daxil edirlər.(16)

Təbriz Universitetinin mərkəzi kitabxanasının computerləşdirilməsinin ilkin mərhələsində bütün sənədlər haqqında informasiya kompüterə daxil edildi. Bu kitabxanada Amerika Konqres Kitabxanası (LC) təsnifatından istifadə edilir.

Bu proqram təminatının başqa imkanlarından biri mövzu başlığı məlumat bazasından istifadə etməkdir. İranda mövzu başlığı kitabların standart məzmununu tanımaq və təyin etmək üçün hazırlanır. 1969-cu ildə İran milli kitabxanası "Fars Mövzu Başlıqları"nın birinci versiyasını hazırladı. Bu işlə əlaqədar yeni versiyalar növbəti illərdə hazırlandı və kitabxanaların ixtiyarına verildi. Burada göstərilmiş məqsədlərə diqqət yetirməklə bu proqram təminatında latın və fars mövzu başlığından istifadə etmək üçün lazım olan proseslər nəzərə alınıb. Bu proqram təminatında fars mövzu başlığın yardımcı faylı var ki, özündə 20 mindən artıq mövzu başlığını birləşdirir ki, o da kataloqları tərtib edəndə kitabların mövzularının daxil edilməsi üçün istifadə olunur. Yəni mövzuya bağlı olan informasiyanı klaviatura ilə yazmaq əvəzinə mövzu başlığı faylından istifadə edilib və mövzu istənilən yerə daxil edilir.

İran Milli Kitabxanası bir formada və rahat istifadə üçün müəlliflərin haqqında informasiyaları yığıb, sənədləşdirir. Bu proqram təminatı sənədləşmiş məşhurlar məlumat bazasından istifadə etmək imkanı yaradır. Qeyd olunmalıdır ki, İran milli kitabxanası fars mövzu başlığı və sənədləşmiş məşhurlar məlumat bazasını hazırlayıb və yeniləşdirir və proqram təminatı yaradan şirkətlərin ixtiyarına verir.

Bu proqram təminatda bir və ya bir neçə faylı, yaddaşda saxlanan yazıya əlavə etmək mümkündür. Bu imkandan elektron kitabxana və arxiv yaratmaq üçün istifadə edilir. Məsələn, məqalələrin tam mətnini və ya dissertasiyanın xülasəsini və ya kitabın mündəricat siyahısını skaner edib və fayl formasında yazıya əlavə etmək olur, beləliklə istifadəçilər axtarışdan sonra istənilən yazını tam mətn formasında oxuya bilərlər.(15)

Bu proqram təminatı vasitəsilə hesabat yaratmaq mümkündür, yəni informasiyanın daxil edilməsindən sonra xüsusi standart hesabat növlərini məsələn sərlövhə kataloq kartoçkaları, mövzu kataloq kartoçkaları, oxucuların oxucu biletləri və s. hazırlayıb və çapa təqdim etmək mümkündür. Sürət və diqqətlə informasiyanı əldə etmək bu hissənin xüsusiyyətlərindən biridir. Bu hissənin digər imkanları aşağıdakılardan ibarətdir:

1. Əsas (toplu) kataloq kartoçkasının hazırlanması.
2. Mövzu kataloq kartoçkasının hazırlanması.
3. Sərlövhə kataloq kartoçkasının hazırlanması.
4. Müəllifin kataloq kartoçkasının hazırlanması və s.

Bu proqram təminatı vasitəsilə müxtəlif növlü məlumatları istənilən formada layihələşdirib, çap etmək mümkündür. Məsələn, hər hansı bir tanınmış yazıçının kitablarının siyahısını hazırlamaq mümkündür (19).

Həmçinin oxucuların şəxsi informasiyalarını daxil etmək mümkündür, bunun üçün işçi səhifədə lazım olan sahələrdə (məsələn adı və soyadı, peşə, ünvan, götürdüyü sənədlərin sayı və s.) layihələşdirilib. Hətta fərdin şəklini də skaner edib və fayl formada yadda saxlayib və daxil edilmiş yazıya birləşdir-

mək mümkündür. Bu hissədə daxil olunmuş informasiyadan oxucu bileti və ştrix kodun hazırlanma və çap olması üçün istifadə olunur. Ştrix kodun hazırladıqdan sonra onu oxucu bileti arxasına yapışdırmaq ilə, ştrix kodun oxuyucu qurğu vasitəsilə oxucunun informasiyasını klaviaturadan istifadə etmədən proqram təminatına daxil etməsi mümkündür. Bu bölmənin ən mühüm informasiya sahələri aşağıdakılardan ibarətdir: oxucu nömrəsi, adı, soyadı, doğulduğu tarixi, təhsil aldığı sahənin adı, təhsil səviyyəsi, şəkli, oxucu biletinin etibarlılıq tarixi, üzvlük tarixi, tələbə və ya işçi vəsiqəsinin nömrəsi, peşəsi, iş yerinin ünvanı, iş yerinin telefon nömrəsi, e-mail(elektron) ünvanı və s. (19).

Kitabxananın fəal bölmələrindən biri də abonement şöbəsidir. Sənədlərin mütaliə üçün oxuculara verilməsi, qaytarılması, geri qaytarılma müddətinin uzadılması və s. burada yerinə yetirilir. Bu hissənin iş strukturu kitabxananın qeydiyyat dəftərində olan nömrələrin əsasındadır. Beləliklə, bu proqram təminatı ilə o sənədlərin ki qeydiyyat nömrəsi yoxdur oxuculara vermək olmaz, bu vəziyyətdə bu iş əl üsulu əsasında yerinə yetirilir. Proqram təminatında bu hissənin müxtəlif imkanları ibarətdir:

1. Sənədləri oxumaq üçün oxuculara vermək, əvvəlcə sifariş etmək (rezerv), geri qaytarılma vaxtının uzadılması.
2. Sənədi götürən fərdin və sənədin vəziyyətinin yoxlanılması. Bu iş deyilən hallarda həyata keçirilir:
3. Oxucu biletinin nömrəsi və sənədin nömrəsi əsasında, sənədləri ştrix kodun oxuyucu qurğusu və ya klaviatura vasitəsilə oxucuya vermək imkanı.
4. Oxucu biletinin nömrəsi mövcud olmadığı zaman adı və soyadını təqdim edərək informasiyanı əldə etmək imkanı.
5. Oxucuya verilmiş sənədlərin siyahısını müşahidə etmək imkanı.
6. Proqram təminatının mövcud təqvimin əsasında sənədin geri qaytarılma gününün təyin edilməsi.
7. Ekranda sənədin geri qaytarılma tarixinin yazılması.
8. Kompüterdə sənədləri oxuculara verən hissədən rahatlıqla informasiya-axtarış hissəsinə daxil olmaq imkanı.
9. Proqram təminatı vasitəsilə şəxsə aid səciyyəvi xüsusiyyətlərin yoxlanılması və avtomatik formada sənədinin oxucuya verilməsinə icazə və ya geri qaytarılma vaxtının uzadılması və geri qaytarılma tarixinin təyin edilməsi.

Kitabxananın məsul işçiləri bu proqram təminatı imkanlarından istifadə etməklə müxtəlif zaman və fasiləsiz müddətində üzvlərin xahiş və tələblərini və kitabxananın əməliyyat fəaliyyətini kitabxana rəhbərliyə çatdırır. Bu hesabat vasitəsilə kitabxana işçiləri gələcəkdə görüləcək işlər haqqında məlumat alır və bunun əsasında informasiya sənədlərinin sifarişi və hazırlanması, iş saatının tənzim edilməsi və s. planını hazırlanır.

Bu proqram təminatı vasitəsilə müxtəlif diaqramlar yaratmaq mümkündür. Məsələn, kitabxanadan sənəd alan oxucuların diaqramı, hər mövzuda olan sə-

nədlərin diaqramı, təsnifat əsasında sənədlərin diaqramı və s. Proqram təminatının bir hissəsində oxuculara və sənədin qeydiyyat informasiya əsasında ştrix kodu yaradılır. Sonra kitabxananın sənədi oxuculara verən hissəsində ştrix kodun oxucu qurğusu bu ştrix kodunu oxuyur, beləliklə, sənəd və oxucu haqqında olan məlumat klaviaturadan istifadə etmədən kompüterə daxil olur. Bu əməliyyat ilk öncə iş surətinin irəliləməsinə, ikinci məlumatın kompüterə daxil edilməsi zamanı qarşılanan səhvlərin miqdarının azalmasına səbəb olur (17).

Əl sistemində sənədləri sərlövhə, müəllif, mövzu girişlərdən axtarış etmək mümkündür. Amma bu proqram təminatında yuxarıda qeyd olunmuş girişdən əlavə istənilən digər bir girişdən axtarış aparmaq mümkündür. Bunlara naşir, nəşr ili, informasiyanın tərtib edildiyi dil, saxlanılan yer, beynəlxalq standartlara uyğun nömrə (İSBN, İSSN) daxildir. Axtarış zamanı nəzərdə tutulmuş söz və ya söz birləşmələri bütün və ya xüsusi sənədlərdə tapmaq olar. İnformasiyanın axtarış metodu indeks yaratmaq üzrə həyata keçirilir (15).

## ƏDƏBİYYAT


1. *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik, İ hissə (Ən qədim dövrlərdən XX əsrə qədər ).- Bakı, 2004.-327 s.*
2. *İsmayılov X. Kitabxana-informasiya texnologiyaları: Dərs vəsaiti . - Bakı, 2009 .- 312 s.*
3. *İsmayılov X. Milli Kitabxana Azərbaycan elm və mədəniyyətinin xəzinəsidir // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal.-2008.-№2(23).-S.34-40.*
4. *İsmayilov N., Abbasov S. Kitabxananın biblioqrafik məlumat bazasının yaradılması problemləri//Humanitar elmlərin öyrənilməsinin aktual problemləri.Ali məktəblərarası elmi məqalələr məcmuəsi.-B.: BUN,2003.-№ 4.-S.263-267.*
5. *İsmayilov N.Hacıyeva M. və b. Azərbaycan kitabxana-biblioqrafiya ehtiyatlarının təşkili və istifadəsinin aktual problemlərinə həsr olunmuş seminar// Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal.- B.:BUN.,2000.-S.142-147.*
6. *Karapınar A. Azərbaycanda kitab və kitabxana tarixinə nəzər//Elmi Əsərlər.-2008.-№ 9.-S.79-91.*
7. *Kazımi P. Səfəvilər dövründə Azərbaycanda kitabxana işi.- Bakı, 2008.- 177 s.*
8. *Kazımova R. Azərbaycan kitabxanalarında elektron resursların yaradılmasının bəzi məsələləri // Elmi əsərlər.2008.-№ 9.-S.98-100.*
9. *Vəzirova R. Elektron biblioqrafik məlumat bazası SBA-nın əsas tərkib hissəsidir // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal.-2007.-№ 2 (21).-S.76-85.*

10 بابلین،آلن، وآن گرفستین. سیر تحول کتابخانه های دانشگاهی: محیط شبکه ای. ترجمه شهناز.دوره.نما.سراج (دسترسی در88/2/15) هفتم شماره سوم www.irandoc.ac.ir/data/e-j/vol7/seraj.htm
11 " بهره برداری از بزرگترین کتابخانه استاندارد شمالغرب کشور در دانشگاه تبریز".مرکز اطلاع رسانی تحقیق و توسعه ایران. (دسترسی در 87/12/25 (www.irdic.ir/News/1386/04/20/6492.aspx
12 .. دانشگاه تبریز در یک نگاه. تبریز- روابط عمومی دانشگاه تبریز. 1387،- .9ص.
13 سرورالدین، محمد حسین . "دانشگاه تبریز هم دوره آموزش مجازی تاسیس میکند". اخبار و تحلیل های فناوری اطلاعات و ارتباطات ایسنا. (دسترسی در87/2/15) www.ictna.ir/news/archives/003869.html
14 علوی، محمد تقی .1387 ."معرفی و نامگذاری دا نشگاه تبریزبه عنوان تنها دانشگاه سبز کشور".خبرنامه آموزش عالی و پژوهشی کشور.(دسترسی در87/9/11) www.nameh.irhe.ir
15 شرکت پارس آذرخش. *پردازش و بازیابی اطلاعات از طریق سرویس جست وجو* نرم افزار جامع کتابخانه WinLib2000.- تهران،1387.- 233 ص.
16 شرکت پارس آذرخش. *ذخیره سازی با تاکید بر ظرفیت و اهمیت کاربردی اطلاعات* نرم افزار جامع کتابخانه WinLib2000 .- تهران،1386.- 167 ص.
17 شرکت پارس آذرخش. راهکارهای بهره برداری از میز امانت نرم افزار جامع کتابخانه Winlib2000 . -تهران، 1386 .- 101ص.
18 شرکت پارس آذرخش. *راهنمای نصب و راه اندازی نرم افزار جامع کتابخانه* نرم افزار جامع کتابخانه.- WinLib2000.تهران،1386 .- 92 ص.
19 شر کت پارس آذرخش. مهارت در فرآیند گزارش گیری نرم افزار جامع کتابخانه WinLib2000 .تهران، 1386 .-84 ص.
20 "کتابخانه مرکزی دانشگاه تبریز در هفته دولت افتتاح می شود". مرکز اطلاع رسانی تحقیق و توسعه ایران.
(دسترسی در87/2/15) www.irdic.ir/News/1386/06/05/7087.aspx
21 . آشنایی با نرم افزارهای کتابخانه ای. محمدی فرد، داود.- تهران،1384.- 146ص.
22 مزینانی،علی، کتابخانه و کتابداری.- تهران،سمت،1383. 394ص.

***M. DADAŞİ NASRİN***

## THE INFORMATION RETRIEVAL SYSTEM OF TABRIZ UNIVERSITY'S LIBRARIES

### *SUMMARY*

*This article is about information retrieval system of Tabriz University's libraries. Also in article is studied the general characteristic of the "Pars Azarakhsh" library software.*

**Afət RZAYEVA**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının aspirantı*

# MÜSTƏQİLİİYİN İLK İLLƏRİNDƏ AZƏRBAYCANDA MKS-lərin SORAQ-BİBLİOQRAFİYA FONDUNUN FORMALAŞMASI (1990-2000-ci illər)

Tarix XX əsrdə Azərbaycan xalqına ikinci dəfə dövlət müstəqilliyi elan etmək imkanı vermişdir. Azərbaycan Ali Sovetinin sessiyası 1991-ci il avqustun 30-da "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyini bərpa etmək haqqında" bəyannamə qəbul etdi. Oktyabrın 18-də isə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı" qəbul edildi. Lakin 1991-1992-ci illərdə Dağlıq Qarabağda vəziyyət daha da gərginləşdi. Azğınlaşmış erməni hərbi birləşmələri torpaqlarımızı işğal etməyə başladılar (3, 56-57).

Nəhayət, 1993-cü il iyunun 15-i Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsinə seçildiyi gün müasir dövr tarixinə "Qurtuluş günü" kimi daxil oldu. 1993-cü il oktyabrın 3-də isə Heydər Əliyev xalqın böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi (3, 58-59).

Çox çətin bir dövrdə hakimiyyətə gəlmiş görkəmli dövlət xadimi Heydər Əliyev tezliklə ölkəni vətəndaş müharibəsindən, parçalanmadan xilas etməyi, müstəqil Azərbaycan dövlətçiliyini qoruyub saxlamağı bacardı. Beləliklə, Azərbaycan dövləti 1993-cü ildən iqtisadiyyat və mədəni quruculuq sahəsində əsaslı islahatlar aparmağa, təhsil, elm, mədəniyyət və incəsənətin yenidən qurulması və inkişafı üçün böyük tədbirlər həyata keçirməyə başladı (3, 60-61).

Məlumdur ki, keçmiş sosializm cəmiyyətindən müstəqil Azərbaycan dövlətinə kitabxana işi sahəsində o qədər də ürəkaçan irs qalmamışdı. Doğrudur, 70-80-ci illərdə kitabxana quruculuğu sahəsində xeyli iş görülmüş, geniş kitabxanalar şəbəkəsi yaradılmış, əhaliyə kitabxana xidmətinin təşkilində mühüm addımlar atılmışdı. Belə ki, 1990-cı ilin əvvəllərində respublikada 120 milyondan artıq kitab fondu olan 10.000-ə yaxın kitabxana fəaliyyət göstərirdi. Bu kitabxanalar 4 milyon oxucuya xidmət edirdi (3, 76).

Sovet kitabxanalarında tətbiq edilən antidemokratik iş formalarından biri də kataloqların tərtibi sahəsində tətbiq edilən qaydalar idi. Bu qaydalara görə, böyük kitabxanalarda xidmət kataloqu və oxucu kataloqu tərtib edilirdi. Kitabxananın fondunda olan bütün kitabları əhatə edən xidmət kataloqu kitabxanaçıların istifadəsi üçün nəzərdə tutulurdu. Oxunmasına qadağa qoyulmayan kitabları əhatə edən "oxucu kataloqu" isə əhali kütləsinin istifadəsi üçün tərtib edi-

lirdi. Bu cür kataloq sisteminin yaradılmasında əsas məqsəd istifadəsinə icazə verilməyən kitabları oxuculardan gizlətmək idi. Öz mahiyyətinə görə antihumanist olan bu qaydalar böyük kitabxanaların fondunda saxlanılan qiymətli kitabların geniş oxucu kütləsi tərəfindən istifadəsinə ciddi maneçilik törədirdi.

1993-cü ilə qədər davam etmiş bu proses kitabxana işinə böyük zərbə vurmuş, torpaqlarımızın erməni vandalları tərəfindən işğalı zamanı 4 milyon nüsxə kitabı olan 982 kitabxana məhv edilmişdi. 1991-1992-ci illərdə bir sıra idarə və müəssisələrin, ictimai-siyasi təşkilatların kitabxanaları ləğv edildi. Belə ki, Azərbaycan Həmkarlar İttifaqının kitabxana şəbəkəsində 4 milyon nüsxə kitab fonduna malik 326 kitabxanadan 236-sı bağlandı, onların kitab fondu talan edildi. Bu dövrdə 100-ə yaxın texniki kitabxana da bağlandı (3, 78-80).

1995-ci il sentyabr ayının 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycan Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı fərman imzaladı (5).

Bu fərmanın imzalanması kitabxanaların qorunub saxlanmasına şərait yaratdı. Kitabxanalar müstəqil dövlətimizin əsas atributlarından biri kimi dövlət müəssisəsi statusuna malik oldu. Məhz Heydər Əliyevin bilavasitə rəhbərliyi və qayğısı sayəsində bu illərdə keçid dövrünün çətinliklərinə baxmayaraq kitabxanalar ləğv edilməkdən xilas oldular.

1996-cı ildə Azərbaycan Nazirlər Kabineti "Kitabxana işi haqqında" qərar qəbul etldi. Bu qərarda kitabxana şəbəkələrini qoruyub saxlamaq və əhaliyə xidmət işini yaxşılaşdırmaq üçün Azərbaycan Mədəniyyət Nazirliyinin qarşısında ciddi vəzifələr qoyulmuşdu. Qərar keçid dövründə kitabxanaların qorunub saxlanılmasına xeyli kömək göstərdi.

1994-cü ildən başlayaraq dövlət kitabxana şəbəkəsinin maliyyələşdirilməsinə diqqət artırıldı. Doğrudur, kitabxanalara ayrılan vəsait onların yeni ədəbiyyatla komplektləşdirilməsinə, avadanlıq alınmasına, binalarının təmir edilməsinə çatmırdı. Mədəniyyət Nazirliyi bu çətinlikləri aradan qaldırmaq, kitabxanaların işini təşkil etmək üçün yerli dövlət orqanları ilə birlikdə tədbirlər görür, kitabxanaları kitablarla və avadanlıqla təmin edirdi.

1990-cı ildə respublikamızda 68 mərkəzləşdirilmiş sistem və onların 4605 filialı var idi. Bu kitabxanaların fondunda 45,3 milyon nüsxə kitab saxlanılırdı. Kitabxanalar 6386 min oxucuya xidmət edirdi. Ölkəmizdə baş verən böyük iqtisadi, siyasi çətinliklərə baxmayaraq bu kitabxanalar qorunub saxlanıldı, əhaliyə xidmət işini müvəffəqiyyətlə davam etdirdilər.

Mədəniyyət Nazirliyi kitabxana işi sahəsində dövlət siyasətinin formalaşmasında yaxından iştirak etməklə kitabxana sisteminə elmi-metodik təminatın təşkilində də mühüm işlər görür. Hazırda Mədəniyyət Nazirliyi sistemində 1 milli kitabxana, 3 respublika əhəmiyyətli sahəvi kitabxana, 74 şəhər və mərkəzi rayon kitabxanası, 3744 kənd kitabxanası fəaliyyət göstərir. Orta hesabla

əhalinin hər 700 nəfərinə bir stasionar kitabxana düşür. Kitabxanaların fondunda 35,9 milyon nüsxə kitab (sənəd) toplanmışdır. Bir il ərzində kitabxanalara 121,76 nüsxə kitab, 22 min nüsxə audiovizual sənəd daxil olmuşdur ki, onun da 101,18 nüsxəsini Azərbaycan dilindəki nəşrlər təşkil edir (3, 91-92).

Müasir informasiyalaşdırma cəmiyyətində elmi-texniki tərəqqinin sürətlə artması ilə əlaqədar olaraq indiki dövrdə oxucuların tələbatlarının daha dolğun, operativ və keyfiyyətlə ödənilməsi məsələsi mühüm problemlərdən biri kimi qarşıda durur. Hazırda oxuculara kitabxana-informasiya xidmətinin səmərəli şəkildə yerinə yetirilməsi üçün kitabxanalarda soraq-biblioqrafiya aparatının daha da təkmilləşdirilməsinə böyük ehtiyac duyulur.

Elmi əsasla təşkil olunmuş soraq-biblioqrafiya aparatı kitabxananın bütün fəaliyyətinin zəruri əsasıdır. Onun köməkliyi ilə oxuculara kitabxana-informasiya, soraq-biblioqrafiya, məlumat-biblioqrafiya və tövsiyə-biblioqrafiya xidməti həyata keçirilir, kitabxana-biblioqrafiya biliyi təbliğ edilir, kitabxanaların işçiləri tərəfindən tərtib olunan biblioqrafik vəsaitlər üçün ədəbiyyat müəyyənləşdirilir. Qeyd edək ki, sovet dövründə kitabxanalar soraq-biblioqrafiya aparatını yaradarkən ilk növbədə kitabxana-biblioqrafiya işini qaydaya salan ilk rəsmi sənədə - 1987-ci il martın 18-də SSRİ Mədəniyyət Nazirliyi yanında Dövlət İdarələrarası Kitabxana Komissiyasının qərarı ilə təsdiq edilmiş "SSRİ-də kitabxanaların biblioqrafik işi haqqında Əsasnamə"yə əsaslanırdı (6). Müstəqil dövlətimizdə isə soraq-biblioqrafiya aparatı 1998-ci ildə Milli Məclisdə qəbul edilmiş və 1999-cu ildə prezident fərmanı ilə təsdiq edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir (4).

Soraq-biblioqrafiya aparatının quruluşu bütün kitabxanalarda eyni şəkildə yaradılır. O, kitabxana-biblioqrafiya işinin təşkili səviyyəsinə uyğunlaşdırılır. Məhz soraq-biblioqrafiya aparatının köməkliyi ilə kitabxanada biblioqrafik fəaliyyətin hər iki istiqaməti-biblioqrafiyalaşdırma və biblioqrafik xidmət həyata keçirilir. Bu onunla əlaqədardır ki, soraq-biblioqrafiya aparatı həm ilkin, həm də ikinci məlumat mənbələrini özündə əks etdirir. Soraq-biblioqrafiya aparatını sadə məlumat mənbələri ilə eyniləşdirmək olmaz. Digər məlumat mənbələrindən soraq-biblioqrafiya aparatı onunla fərqlənir ki, həmin aparatın köməkliyi ilə verilən məlumatlar operativ, kompleks, tam, həmçinin digər kəmiyyət və keyfiyyət xarakteristikasına malik olur (7, 26).

MKS şəraitində mərkəzi kitabxananın xidmət etdiyi rayonun profili, xüsusiyyəti və onun oxucu kontingenti soraq-biblioqrafiya aparatının məzmununa və tərkibinə təsir göstərir. Sənaye və kənd təsərrüfatı istehsalının bu və ya digər sahəsinin inkişafı üstünlüyü ölkədə və şəhərdə iri müəssisələrin, elmi və elmi-tədqiqat idarələrinin və təşkilatlarının, ali və orta ixtisas təhsili müəssisələrinin mövcudluğu soraq-biblioqrafiya aparatında əlaqədar mövzular üzrə ədəbiyyatın daha dolğun açılması, xüsusi kartotekalar yaradılması, məlumat fondunun profil üzrə komplektləşdirilməsi zəruriliyini müəyyən edir.

Hazırda biblioqrafik fəaliyyətdə soraq-biblioqrafiya aparatının rolunu yüksəltmək, oxuculara xidmət işinin təşkilində ondan daha səmərəli istifadə etməyin optimal yollarını müəyyənləşdirmək əsas vəzifələrdəndir. Oxucuların elmi-texniki məlumatlarla, habelə əvvəlki illərdə çap olunmuş materiallarla tanış olmalarında, bu materiallar üzrə axtarış aparmalarında MKS-lərdə təşkil edilmiş biblioqrafik xidmət sistemi mühüm əhəmiyyət kəsb edir. Müasir şəraitdə respublikamızda MKS-lərin əksəriyyətində biblioqrafik xidmət təşkil olunmuşdur və oxuculara müxtəlif istiqamətlərdə biblioqrafik xidmət göstərilir.

Belə kitabxanalardan biri də Bakı şəhərinin Xətai rayonundakı MKS-dir. MKS-in Mərkəzi Kitabxanası uzun illər ərzində biblioqrafik xidmət sahəsində müəyyən təcrübə toplamışdır. Ona görə də kitabxananın bu sahədəki fəaliyyətini tədqiq edib ümumiləşdirmək xüsusi aktuallıq kəsb edir.

Mərkəzi Kitabxana məqsədyönlü soraq-biblioqrafiya aparatına malikdir. Orada əlifba kataloqu və müxtəlif mövzularda tərtib edilmiş mövzu kartotekaları vardır. Mərkəzi kitabxanada biblioqrafiya xidmətinin təşkili üç istiqamətdə: soraq-biblioqrafiya xidməti, məlumat-biblioqrafiya xidməti və tövsiyə-biblioqrafiya xidməti istiqamətlərində yerinə yetirilir.

Kitabxanaya daxil olan mövzu arayışlarına “Heydər Əliyev və kitab”, “Heydər Əliyev surəti poeziyada”, “Heydər Əliyev və Azərbaycan”, “Bədii ədəbiyyatda Heydər Əliyev obrazı”, “Yeni insanın formalaşmasına dair hansı ədəbiyyat var?”, “Atom fizikasına dair yeni ədəbiyyat varmı?”, “Komsomol haqqında hansı kitablar var?”, “Əmək qəhrəmanları haqqında”, “Faşist Almaniyası üzərində qələbəmizin 50 illiyinə dair hansı materiallar var?” və s. misal göstərmək olar. Ümumiyyətlə, kitabxana hər il 200-dən çox arayışı yerinə yetirir. Təkcə 1998-ci ildə Qarabağ haqqında 55 sorğuya cavab verilmişdir (4).

Xətai rayon MKS-in Mərkəzi Kitabxanası şifahi yolla hər il xeyli sorğulara cavab versə də, bu istiqamətdə hələ lazımi təcrübə toplaya bilməmişdir. MKS-in hesabatlarında bu sahədə aparılan işlər faktik rəqəmlərlə öz əksini tapmamışdır. MKS-də kitabxana məlumat-biblioqrafiya xidməti soraq-biblioqrafiya xidməti ilə müqayisədə daha yaxşı təşkil olunmuşdur.

Məlumat-biblioqrafiya xidməti prosesində məlumat siyahılarından, kitab sərgilərindən, tematik rəflərdən, kitab xülasələrindən, məlumat günlərindən, mövzu kartotekalarından və s. metod və üsullardan geniş istifadə edilmişdir. Məsələn, 1998-ci ildə kitabxanada 23 kitabın xülasəsi keçirilmişdir. Həmin il kitabxanada “Sizin dərsliyinizin səhifələrində” mövzusunda kitab stellajı təşkil olunmuş və “Kimya məişətdə”, “Fizika əsrimizin elmidir”, “Riyaziyyat elmin açarıdır”, “Biliklər aləmi” və s. tematik bölmələr ayrılmışdır. Stellajdan istifadə edənlərə 138 kitab verilmişdir (4).

Yenə həmin ildə kitabxana yeni kitabların məlumat siyahısını tərtib edərək Bakı şəhər Məişət Kondisionerləri Zavoduna, 1 nömrəli Tibb texnikumuna, 13, 158 və 167 nömrəli orta məktəbələrə göndərmişdir. Siyahı ilə

tanış olanlar lazımi ədəbiyyatı almaq üçün kitabxanaya müraciət etmişlər. Mərkəzi Kitabxanada "Yeni kitablar" adlı daimi vitrin də təşkil olunmuşdur.

Xətai rayon MKS-in Mərkəzi Kitabxanası 1992-ci ildə M.F. Axundovun anadan olmasının 180 illiyi münasibətilə ədəbiyyat siyahısı və Azərbaycan Xalq Cümhuriyyətinin ildönümü ilə bağlı kartoteka tərtib etmişdir.

Kitabxanada məlumat-biblioqrafiya xidmətinin ən geniş yayılmış forması olan kitab sərgilərinin təşkilinə xüsusi diqqət yetirilir. 1997-ci ildə oxucular kitabxanada təşkil olunmuş "Kitablar sülhün xidmətində" adlı sərgi ilə tanış olmuş və oxuculara 435 kitab verilmişdir (4).

1995-ci ildə "Qələbəmizin 50 illiyi", Heydər Əliyevin anadan olmasının 75 illiyi münasibətilə "Dahi", "İstedadlar ailəsi", "Məhəmməd Əmin Rəsulzadə və Azərbaycan Xalq Cümhuriyyəti", 1996-cı ildə "Dünya azərbaycanlılarının qurultayı", "Elm və din", "Azərbaycanın idman həyatı" və b. mövzularda sərgilər təşkil olunmuşdur. 1995-ci ildə 32 mövzu sərgisi təşkil edilmiş və 21 biblioqrafik icmal keçirilmişdir (4).

MKS-in vahid fonduna daxil olan ədəbiyyat haqqında filial kitabxanaları, ayrı-ayrı idarə və müəssisələri tanış etməyin digər vasitəsi "Yeni ədəbiyyat bülletenləri"dir. MKS-in çoxunda, eləcə də Bakı şəhərinin Xətai və Nizami rayon MKS-də mərkəzi kitabxana vahid fonda daxil olan yeni ədəbiyyatı makinada çap edib filiallara, bəzi idarə və müəssisələrə göndərir. Bunlar müxtəlif sahələr üzrə qruplaşdırılır. "Bədii ədəbiyyatın yenilikləri", "Pedaqoji ədəbiyyatın yenilikləri", "Uşaq ədəbiyyatının yeni nəşri" və s.

MKS-in Mərkəzi Kitabxanası 1996-cı ildə 15 məlumat bülleteni hazırlayıb müxtəlif idarə və müəssisələrə, filial kitabxanalara göndərmişdir. "Pedaqoji ədəbiyyatın yenilikləri" adlı bülleten 17, 32, 138, 171 və 269 №-li məktəblərə, "Texniki ədəbiyyatın yenilikləri" adlı bülleten isə Yeni Bakı Neftayırma Zavoduna, Neft Emalı Zavoduna göndərilmişdir (4).

Xətai rayon MKS-in Mərkəzi kitabxanasında təşkil edilən soraq-biblioqrafiya aparatından geniş şəkildə istifadə edərək oxucu mütaliəsinə fərdi rəhbərlik məqsədilə tövsiyə-ədəbiyyat göstəriciləri və siyahılar tərtib edilir. 1995-ci ildə Mərkəzi Kitabxana "Müharibə. Xalq. Qələbə", uşaqlar üçün "Milli qəhrəmanlar" adlı tövsiyə göstəricisi və "Azərbaycan Xalq Cümhuriyyəti haqqında nə oxumalı" adlı tövsiyə ədəbiyyat siyahısı tərtib edib oxucuların istifadəsinə vermişdir. Bu tövsiyə vəsaitlərinin tərtibində biblioqraf soraq-biblioqrafiya aparatının mövzu kartotekasından daha çox istifadə etmişdir (4).

1997-ci ildə Xətai rayon Mərkəzi Kitabxanası müvafiq oxucu qruplarına daha səmərəli xidmət göstərmək məqsədilə başqa obyektlərdə də müxtəlif tədbirlər vasitəsilə biblioqrafik xidmət işini həyata keçirir. Məsələn, kitabxana ərazisində yerləşən məktəblərdə "Bütün peşələr yaxşıdır", "Elm sənin peşəndir", "Həyata vəsiqə", "Qarabağ qəhrəmanları haqqında" və s. mövzularda kartoteka, sərgi, biblioqrafik icmallar və digər tədbirlər həyata keçirmişdir (4).

Xətai rayon MKS-də biblioqrafik xidmətin əsas istiqamətlərindən biri də tövsiyə-biblioqrafiya xidmətinin təşkilidir. Bu xidmətin əsas məqsədi oxucularda müəyyən bir sahəyə maraq oyatmaq, mütaliə mədəniyyətini inkişaf etdirmək, konkret mövzu üzrə ədəbiyyat axtarışında düzgün istiqamət vermək və onların şəxsi təhsilinə, sistemli mütaliəsinə kömək göstərməkdən ibarətdir.

Xətai rayon MKS-də bu istiqamətdə də bəzi işlər görülmüşdür. Kitabxana bu günləri keçirərkən əvvəlcədən hazırlıq işləri görür, müvafiq biblioqrafik göstəriciləri seçir, qruplaşdırır, sonra oxucuları kitabxanaya dəvət edir. 1998-ci ildə 3 dəfə "Biblioqrafik vəsaitlər günü" keçirilmiş, "Həyat naminə", "İnsan əməklə ucalır", "Planetimizin gəncləri", "Təbiəti qoruyaq", "Görkəmli adamların həyatı" və s. adlı göstəricilər nəzərdən keçirilmiş, onlardan istifadə qaydaları oxuculara başa salınmışdır. Eyni zamanda oxucuları maraqlandıran, göstəricilərdə tövsiyə olunan bəzi kitabların xülasəsi aparılmışdır.

1999-cu ildə Xətai rayon MKS-in Mərkəzi Kitabxanasında keçirilmiş biblioqrafik vəsaitlər günü tədbirlərində "Vətənimizin tarixi", "Azərbaycan Silahlı Qüvvələri", "Ümummilli liderimiz", "Erməni işğalına son qoyulmalıdır!", "Dünya dövlətləri təcavüzkara "Yox!" desin" və s. adlı göstəricilər haqqında oxuculara məlumat verilmişdir (4).

Nəticə olaraq qeyd etmək lazımdır ki, Xətai rayon MKS-in Mərkəzi Kitabxanasında oxuculara biblioqrafik xidmət sahəsində müəyyən təcrübə əldə edilmişdir. Xüsusilə məlumat-biblioqrafiya xidməti sahəsində aparılan işlər sevindiricidir. Bununla belə, müasir şəraitdə kitabxananın görüləsi işləri çoxdur. Belə ki, Mərkəzi kitabxana soraq və biblioqrafik nəşrlər fondunu daha da təkmilləşdirməli, soraq-biblioqrafiya və tövsiyə-biblioqrafiya xidməti sahəsindəki işləri canlandırmalı, respublikamızın iri kitabxanaları ilə daim əlaqə saxlamalı, onların iş təcrübələrini diqqətlə öyrənməlidir. Bunlarla yanaşı, biblioqrafik biliyin daha geniş təbliğinə nail olmaq üçün mərkəzi kitabxanada ödənilmiş arayışlar fondu yaradılmalı, yazılı sorğular təşkil edilməlidir.

Müasir dövrdə oxuculara göstərilən müxtəlif istiqamətli biblioqrafik xidmətin səmərəli şəkildə yerinə yetirilməsi üçün kitabxanalarda soraq-biblioqrafiya aparatının daha da təkmilləşdirilməsinə böyük ehtiyac duyulur.

Adətən kitabxanalarda soraq-biblioqrafiya işinin nəticələri təhlil edilərkən məlum olur ki, soraq-biblioqrafiya aparatının müxtəlif hissələrinə kifayət qədər müraciət olunmur. Onun səbəbi ancaq həmin hissələrin səliqəsiz, oxucuların tələbatlarını ödəyəcək səviyyədə tərtib olunmaması ilə izah edilir. Bu vəziyyət, əlbəttə, soraq-biblioqrafiya aparatından istifadənin səmərəliliyinə mənfi təsir göstərir. Hazırda MKS-də soraq-biblioqrafiya aparatının biblioqrafik fəaliyyətdə rolunu yüksəltmək, oxuculara xidmət işinin təşkilində ondan daha səmərəli istifadə etməyin optimal yollarını müəyyənləşdirmək əsas vəzifələrdəndir.

## ƏDƏBİYYAT

1. *"Azərbaycan Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan.–1995.–12 noyabr.*
2. *Библиография. Общий курс: Учебник.–М., 1981.–С.385.*
3. *Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.–B.: Azərnəşr, 2006.–312 s.*
4. *Xətai rayon MKS-in 1995-2000-ci illərə dair hesabatları.*
5. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan.–1999.–14 mart.*
6. *Коготков Д.Я. Библиографическая работа централизованных библиотечных систем на современном этапе.–М., 1984.–С.13.*
7. *Моргенштерн И.Г. Справочно-библиографический аппарат библиотеки // Сов. библиография.–1982.–№2.–С.26.*
8. *SSRİ-də kitabxanaların biblioqrafik işi haqqında Əsasnamə.–B.,1987.-24 s.*

***А. РЗАЕВА***

## ФОРМИРОВАНИЕ СПРАВОЧНО-БИБЛИОГРАФИЧЕСКОГО ФОНДА В ЦБС АЗЕРБАЙДЖАНА В ГОДЫ НЕЗАВИСИМОСТИ (1990-2000 гг.)

***Р Е З Ю М Е***

*В статье анализировано развития справочно-библиографический аппарат ЦБС Хатаинского районе за годы независимости, также покАзаны существующие недостатки.*

***A. RZAYEVA***

## FORMATION OF QUESTIONARY-BIBLIOGRAPHIC FUND IN CBS OF AZERBAIJAN IN THE YEARS OF INDEPENDENCE (YEARS OF 1990-2000)

***SUMMARY***

*In the article the development of CBS of questionary-bibliographic apparatus of Khatai region during the years of independence is analysed and shown the existing lacks as well.*

**Xəyalə ZÜLFİYEVA**
*Magistrant*

## RESPUBLİKA ELMİ-PEDAQOJİ KİTABXANASININ ELMİ-METODİK FƏALİYYƏTİ (2002-2009-cu illər)

Müasir dövrdə cəmiyyətdə kitabxana-informasiya proseslərinin son dərəcə mürəkkəbləşdiyi, yeni texnologiya ilə zənginləşdiyi, kitabxanaların dünya informasiya məkanına fəal surətdə müdaxilə etdiyi bir şəraitdə onların idarə edilməsi prosesində metodik təminatın rolu və əhəmiyyəti getdikcə güclənir.

Müasir dövrdə kitabxana işinin idarə olunması prosesinin metodik təminatı dedikdə, metodik mərkəzlər tərəfindən kitabxanaların fəaliyyətinin dinamik inkişafına yönəlmiş, nəzəri əsaslara və mütərəqqi təcrübəyə söykənən, özündə rəngarəng forma və üsulları birləşdirən təşkilati-metodik əməliyyatların hazırlanıb həyata keçirilməsi nəzərdə tutulur. Belə əməliyyatlara əhalinin kitabxana xidmətinin optimallaşdırılması ilə əlaqədar meydana çıxan problemlərin həlli, idarəetmə orqanlarının qərar və sərəncamlarının icrası, kitabxana işçilərinin peşə səviyyəsinin artırılması, normativ sənədlərin yerinə yetirilməsi, əmək məhsuldarlığının artırılması, bir sözlə, kitabxanaların öz sosial funksiyalarının həyata keçirilməsinə yönəlmiş təşkilati-metodik tədbirlər daxildir. Bunlara yazılı metodik vəsaitlərin (tövsiyələrin, göstərişlərin, əsasnamələrin, təlimatların və s.) tərtib edilməsi, kitabxana işçilərinin yerlərdə təlimatlandırılması, kitabxana işinə dair müşavirə, seminar, konfrans, praktikum, treninqlərin təşkili, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi, kitabxana işinə dair məqsədli proqramların, strateji planların hazırlanması və həyata keçirilməsi və s. iş üsullarını misal göstərmək olar (4, s. 99-100).

Ölkəmizin çoxsaylı kitabxanaları içərisində Respublika Elmi Pedaqoji Kitabxanasının xüsusi yeri və rolu vardır. Bu respublika əhəmiyyətli kitabxana ölkəmizdə təhsilə dair ədəbiyyatı toplayıb saxlayır, təhsil işçilərinə, təhsil sistemində fəaliyyət göstərən müəssisələrə, nazirliyin kitabxana şəbəkəsinə məlumat-biblioqrafiya xidmətini həyata keçirir, ümumtəhsil peşə məktəbləri, orta ixtisas təhsil müəssisələri kitabxanaları üçün elmi-metodik mərkəz funksiyasını yerinə yetirir.

Təhsil Nazirliyinin "Respublika Elmi-Pedaqoji Kitabxanasının təkmilləşdirilməsi haqqında" 2002-ci il 3 may tarixli əmrinə əsasən kitabxanada struktur dəyişikliyi aparılmış, yeni nizamnamə hazırlanmışdır. Nizamnamədə deyilir: "Respublika Elmi Pedaqoji Kitabxanası (REPK) Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən təhsil və pedaqoji sahələrdə milli və xarici ədəbiyyat fondlarına malik olan elmi-sahəvi kitabxanadır" (5).

REPK təhsilin, təlim-tərbiyə işinin inkişafına yaxından köməklik etmək üçün ümumtəhsil, peşə məktəbləri və orta ixtisas müəssisələri kitabxanalarının fəaliyyəti haqqında 2002-ci ildən Məlumat (Verilənlər) Bazası yaradılmasına başlamış və bu bazanı müntəzəm olaraq təkmilləşdirmişdir. Kitabxana yaradılmış məlumat bazası əsasında 2003-cü ildə "Təhsil Nazirliyi sistemindəki ümumtəhsil məktəb kitabxanalarının fəaliyyəti" adlı 10 cilddən ibarət məlumat kitabı hazırlamışdır. Burada respublikamızın 10 zonası, bu zonaların hətta ən ucqar ərazidə yerləşən hər bir məktəb kitabxanası haqqında informasiya almaq olar.

Qeyd etdiyimiz kimi, kitabxananın fəaliyyətində məktəb kitabxanalarının metodik təminatı mühüm yer tutur. Öz statusuna görə respublika məktəb kitabxanalarının metodik mərkəzi hesab edilən REPK böyük elmi-metodik şöbə yaratmışdır ki, bu şöbədə bilavasitə məktəb kitabxanalarının metodik təminat sistemini təşkil edən metodistlər fəaliyyət göstərirlər. Onlar ümumtəhsil, peşə və orta ixtisas təhsili müəssisələrinin kitabxanaları üçün metodik vəsaitlər, təlimati metodik məktubların hazırlanmasında, yazılı və şifahi məsləhətlərin verilməsində, həmçinin bu məktəb kitabxanalarının fəaliyyətinə dair statistik məlumatların alınması, təhlil edilməsi və elektron baza yaddaşına köçürülməsi işində məktəb kitabxanalarının işinə kömək məqsədilə ezamiyyələrdə, müşavirə və konfranslarda iştirak edirlər.

Şöbə metodik işi planlaşdırır və onların icrasını təşkil edir. Həmçinin respublikada kitabxana işi üzrə aparılan elmi-tədqiqat işlərində iştirak edir, yeni informasiya texnologiyalarının tətbiqində məktəb kitabxanaçıları üçün REPK-da kurslar təşkil edir, Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən ümumtəhsil, peşə və orta ixtisas təhsili müəssisələrinin kitabxanaları arasında yeni informasiya texnologiyaları əsasında pedaqogikanın, məktəbşünaslığın və kitabxana işinin maraq doğuran sahələrinə dair məlumat mübadiləsi təşkil edir, onların fəaliyyətini öyrənir, təklif və tövsiyələrini verir, müəyyənləşdirilmiş qaydada onların illik statistik hesabatlarını alır və onları elektron məlumat bazasında yerləşdirir.

2007-ci ildə REPK Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 20 aprel 2007-ci il tarixli Sərəncamının III bəndinin icrasını təmin etmək məqsədilə Bakı şəhərində, Qazax, Şəmkir, Gəncə, Şəki, Yevlax, Kəlbəcər, Qəbələ rayonlarında məktəb kitabxanaçılarının seminar tədbirlərini təşkil edib keçirmiş və alınmış təkliflər ümumiləşdirilərək bu sərəncamın tələbinə uyğun tədbirlər planının hazırlanması işində nəzərə alınaraq istifadə edilmişdir (6).

Kitabxananın Elmi-metodik və təhlil şöbəsi "Məktəb kitabxanası işinin planlaşdırılması", "Kiçik yaşlı məktəblilərdə mütaliə mədəniyyətinin formalaşdırılması işinin məzmunu və prinsipləri", "Kitabxana işinə dair normativ aktlar" (2002), "Məktəb kitabxanalarının manifesti" (2003), "I-IV siniflər üçün

kitabxana-biblioqrafiya bilikləri proqramı" (2003), "İkirəqəmli cədvəl" (2006), "Kitabxana işçilərinin ideya-siyasi səviyyəsinin yüksəldilməsi və ixtisasının artırılması", "Məktəblərdə kitabxanaların texniki təşkilinə aid normativlər" (2007), "Məktəblilərə kitabxana xidməti və ədəbiyyatın təbliği", "Valideynlərlə iş", "Kitabxana şurası", "Siyasi aktuallığını itirmiş, məzmunca köhnəlmiş nəşr materialların kitabxana və məlumat-informasiya fondlarından çıxarılması haqqında", "Heydər Əliyev irsinin öyrənilməsi və təbliği sahəsində məktəb kitabxanalarının vəzifələri" (2008), "Universal Onluq Təsnifat Cədvəli"(2008) və s. metodik vəsaitlər tərtib edib bölgələrə göndərmişdir.

Kitabxana işinin müxtəlif sahələrinə həsr edilmiş belə metodik vəsaitlər və tövsiyələr kitabxanaçıların təcrübi işinə, peşə səviyyəsinin yüksəldilməsinə kömək edir.

Respublikamızda gedən geniş təhsil islahatlarında yaxından iştirak edən kitabxana məktəb kitabxanalarının işinin təhsil islahatları ilə əlaqələndirilməsinə, islahatların qarşıda qoyduğu vəzifələrlə əlaqədar məktəb kitabxanalarının işinin məzmununda baş verən yeni keyfiyyət dəyişikliklərinin ümumiləşdirilməsinə və yayılmasına böyük metodik köməklik göstərmişdir (3, s.123).

Etiraf etməliyik ki, bu uğurlarla yanaşı, çatışmayan cəhətlər də az deyil. Ümumiyyətlə, ölkəmizdə kitabxana işinin metodik təminatının vəziyyəti qənaətbəxş deyil. Maliyyə çatışmazlığı və müvafiq cavabdeh şəxslərin bu işə laqeyd yanaşması metodik mərkəz funksiyasını daşıyan kitabxanaların o cümlədən REPK-nın fəaliyyətinin yeni sosial-iqtisadi şəraitə uyğunlaşa bilməsinin qarşısını almışdır. Bu işin gələcəkdə yaxşılaşdırılması üçün REPK dünya kitabxana-informasiya proseslərinin inkişaf qanunauyğunluqlarını nəzərə almaqla respublika kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təşkilati-metodik mexanizmini hazırlamalıdır. Bunun üçün ölkə, regional, şəbəkə, şəbəkələrarası, MKS və eləcə də ayrı-ayrı kitabxanalar səviyyəsində kitabxana-informasiya xidmətinin optimallaşdırılmasına yönəlmiş kompleks və lokal xarakterli strateji və taktiki proqramlar hazırlanmalıdır.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" nın təsdiq edilməsi barədə verdiyi Sərəncamı ölkəmizdə kitabxanaların inkişafında yeni yol açmaqla Azərbaycan dövlətinin davamlı inkişafının mühüm strateji istiqamətini müəyyən edəcəkdir (1).

Ümid edirik ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 dekabr 2008-ci il tarixli 450 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir informasiya texnologiyaları ilə təchizatına dair Tədbirlər Planı"nın icrası üzrə Təhsil Nazirliyinin fəaliyyət planının uğurla yerinə yetirilməsi bu problemləri həll edəcəkdir (2).

## ƏDƏBİYYAT

1. *"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Respublika. - 7 oktyabr, 2008.*
2. *Fəaliyyət Planının təsdiq edilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin əmri // Azərbaycan müəllimi, 2009.- 18 sentyabr.*
3. *Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.-B., 2006.-312 s.*
4. *İsmayılov X.İ. Kitabxana menecmentinin əsasları.-B.,2005.-199s.*
5. *Respublika Elmi-Pedaqoji Kitabxanasının Nizamnaməsi.- 3 may, 2002.*
6. *REPK-nın 2002-2009-cu illər hesabatları.*



***Х. ЗУЛЬФИЕВА***


## НАУЧНО-МЕТОДИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ РЕСПУБЛИКАНСКОЙ НАУЧНО-ПЕДАГОГИЧЕСКОЙ БИБЛИОТЕКИ (2002-2009 гг.)


### *РЕЗЮМЕ*

*В статье раскрыта научно-методическая деятельность Республиканской Научно-Педагогической библиотеки на современном мире. Так же указывается методический материал, изданный этой библиотекой в последние годы.*



***Kh. ZULFİYEVA***


## SCİENTİFİC AND METHODİCAL ACTİVİTY OF THE REPUBLİCAN SCIENTİFİC PEDAGOGİCAL LİBRARY (2002-2009 YEARS)


### *SUMMARY*

*In the article describes contemporary scientific and methodical activity of the Republican Scientific Pedaqogical Library. Also shows methodical tools edited by this library at last years.*

**Elxan ƏJDƏROV**
*Magistrant*

# MİLLİ MƏDƏNİ-MƏNƏVİ İRSİN QORUNMASINDA KİTABXANALARIN VƏZİFƏLƏRİ

Bəşəriyyətin qiymətli məlumat daşıyıcısı olan kitab zəmanəmizdə nəinki bilik, informasiya daşıyıcısı olaraq rol oynayır, həmçinin yeni modern cəmiyyət quruculuğunun ən mühüm vasitələrindən birinə çevrilmişdir. İndi insan həyatını informasiya təminatı olmadan təsəvvür etmək qeyri-mümkündür.

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor A.Xələfov "Kitabxanaşünaslığa giriş" kitabında yazır: "Kitabxananın mahiyyətini dərk etmək, onun hazırda necə olduğunu və gələcəkdə necə olacağını müəyyənləşdirmək üçün onu yaratmış cəmiyyətin və onun xidmət edəcəyi cəmiyyətin təbiətini göstərən mədəni proseslərin mühiti ilə əlaqədar olaraq tədqiq etmək, öyrənmək zəruridir. Göründüyü kimi cəmiyyət özü də kitabxanalara möhtacdır. İnsan biliyini qoruyub saxlamaq, onu gələcək nəsillərə çatdırmaq üçün kitabxanalar ən münasib müəssisələrdir və uzun əsrlər boyu həm ibtidai, həm də mürəkkəb cəmiyyətlərdə müvəffəqiyyətlə fəaliyyət göstərmiş, cəmiyyətin tərəqqisinə xidmət etmişdir" (1, 129).

Buradan belə bir qənaətə gəlmək olar ki, kitab ən etibarlı informasiya daşıyıcısıdırsa, kitabxana isə ən böyük informasiya bazası xəzinədir. Bu xəzinəni dərk etmək üçün 5 elementi qeyd etmək olar:

1) Fikir – ideya – informasiya.
2) Onu qoruyub saxlayan maddi daşıyıcı – kitab.
3) Kitabı saxlayan baza – kitabxana.
4) İnformasiya tələbatçısı – oxucu - insan və onun böyük modeli – cəmiyyət.
5) Bu prosesləri icra edən subyekt - kitabxanaçı.

Prof. A.Xələfov isə kitabxana barəsində bir mütəxəssis kimi belə bir fikri qeyd edir: "Dünya kitabxanaşünaslığı "genetik təhlil" metoduna əsaslanaraq belə bir nəticəyə gəlmişdir ki, kitabxana quruluşca dörd elementdən ibarətdir. Bu elementlərsiz heç bir kitabxananın mövcudluğu və fəaliyyəti mümkün deyildir. Bu elementlər aşağıdakıladır:

1) Sənəd;
2) Oxucu;
3) Kitabxanaçı;
4) Maddi-texniki baza (1, 267).

Həqiqətən təbiət və cəmiyyətdə bir çox elementlərin dialektik vəhdətdə bir tam kimi inkişafını sadəcə onları müşahidə etdikdə görmək olar. Diqqət etmək lazımdır ki, dialektik oxşarlıq hər bir xırda elementdə özünü büruzə

verir. Bu zaman biz kitabxana və cəmiyyətin ayrılmaz, daim bir-birilə informasiya mübadiləsi yönümündə stimul alaraq qarşılıqlı inkişaf etdiyini görəcəyik. Amma bunun üçün bu gün kitabxananın cəmiyyətə hansı incə bir məqamla bağlı olduğunu dərk etmək lazımdır.

Görkəmli Amerika kitabxanaşünas alimi C.X.Şira 1970-ci ildə nəşr etdirdiyi "Kitabxana işinin sosioloji əsasları" adlı kitabında bu problemə geniş yer ayırmışdır. O, kitabxananın struktur quruluşuna görə 3 elementdən ibarət olması ideyasını irəli sürmüş və kitabxananın modelini üçbucaq şəklində göstərmişdir. C.X.Şira yazır: "Əgər biz kitabxanaçının vəzifəsini üçbucaq formasında təsəvvür etsək, üçbucağın bir tərəfi kitabxana, başqa tərəfi insan, oturacağı isə kitab və insan olacaq" (1, 268).

Prof. A.Xələfovun verdiyi təhlil göstərir ki, kitabxana və cəmiyyət ayrılmaz, daim vəhdətdə, bir istiqamətdə mütləq, vahid bir qüvvə kimi hərəkət edəcək elementlərdir. Qətiyyən unutmaq olmaz ki, kitabxanaçının özü də cəmiyyətin bir üzvü olan fərd, insandır. Desək ki, kitabxana istənilən bir cəmiyyətin, dövlətin, millətin şüur səviyyəsini özündə əks etdirə biləcək bir güzgüdür, yanılmarıq. A.Xələfovun qeyd etdiyi kimi, oxucu da cəmiyyət adlandırdığımız toplumun üzvü, fərd və insandır. Kitabxana və cəmiyyət üzvləri oxucu, kitabxanaçı dövri olaraq bir-birinə təsir edəcək ayrılmaz elmentlərdir.

"Kitabxana", "Cəmiyyət", "Oxucu" terminlərini təhlil etdikcə burda müasir kitabxana və cəmiyyətimizdə ən ümdə problem olan mütaliə problemi ortaya çıxır. Artıq insanlar yazmağı, oxumağı öyrəndikcə mütaliə etməyin sirlərini öyrənmişlər. Mütaliə insanın cəmiyyətdə formalaşması üçün elə bir vasitə, üsuldur ki, bununla insan cinsindən, irqindən asılı olmayaraq əsrlər boyu müdriklərin təcrübəsindən süzülüb gələn irsi araşdıra, öyrənə bilir və eyni zamanda həyatına tətbiq edərək bəhrələnir. Qeyd edək ki, kitabxana cəmiyyətin, gənc nəslin tərbiyəsində əvəzedilməz bir rola malikdir. Cəmiyyətin bütün inkişaf mərhələlərində - gənc nəslin mənəvi-estetik tərbiyəsində, bədii təfəkkürün formalaşması, estetik dünyagörüşünün yaranmasında kitabxana və kitab vasitəsilə mütaliə çox böyük həlledici təsirə malikdir.

Bu barədə pedaqoji elmlər namizədi, dosent Knyaz Aslan belə qeyd edir: "Azərbaycanın müstəqillik yolu ilə inamla irəliləməsi, milli dövlətçiliyimizin dirçəlib çiçəklənməsi, mənəvi-estetik dəyərlərin yeni məna və məzmun daşıması mütaliə probleminin aktuallığını bir daha təsdiqləyir. Çünki uşaq və gənclərin yetkin mənəvi simasını formalaşdırmadan, onları fəal həyat mövqeyinə çıxarmadan, cəmiyyətin ləyaqətli qurucusu kimi yetişdirmədən, kamil şəxsiyyətlərə çevirmədən suveren dövlətin inkişafına və beynəlxalq aləmdə nüfuz qazanmasına nail olmaq mümkün deyil. Bununla yanaşı, düzgün həyat yolu seçmək, qüvvə və bacarığını, istedad və qabiliyyətini ən nəcib əməllər uğrunda mübarizəyə həsr edə bilmək xeyli dərəcədə insanın əxlaqi borcunu necə başa düşməsindən, mənəvi-estetik tərbiyəsinin səviyyəsindən asılıdır. Bu borcu başa

düşməkdə isə kitabxanaçılarımıza bədii və incəsənət ədəbiyyatının təbliği sahəsində gördüyü işlər, gəncləri təsirli sənət əsərləri vasitəsilə tərbiyələndirmək üçün keçirdiyi tədbirlər kömək edə bilər” (3, 98-99).

“Kitabxana və cəmiyyət” mövzusunun dərinliyinə bir az nüfuz etsək burada oxucuları lazımi informasiya ilə təmin edən kitab, kitabxana, oxucu elementləri və bunların vəhdətindən yaranan mütaliə problemi ortaya çıxır. Mütaliə probleminin incəliklərini təhlil etdikcə isə kitabxana və cəmiyyət anlayışının böyük bir dialektik model olmasını görürük. Onun kiçik modeli isə kitab və insan-oxucu anlayışlarıdır, desək, yanılmarıq. Bu iki elementin daim bir-birilə təması isə sanki böyük model - “kitabxana və cəmiyyət”in bazis, fundamentini törədir. Kitablar – kitabxana, insan-oxucular isə cəmiyyəti üçün bazis, fundament yaradır. Böyük mütəfəkkir alim Eynşteynin dediyi kimi, hər şey sadədən mürəkkəbə doğru inkişaf edir. Təbii ki, bu elementlərdə də həmçinin inkişaf sadədən mürəkkəbə doğru gedir.

Eyni zamanda yaddan çıxartmaq olmaz ki, mütaliənin milli irs problemində yerinə yetirdiyi işlər heç də az əhəmiyyət kəsb etmir. Belə ki, zaman və mühit daim inkişaf edir, nəsillər dəyişir. Bütün bunlar isə sanki bir zəncirli sistem olaraq daim dövriyyədədir. Bu böyük fonda hər yaranan yeni nəsil köhnə nəslin topladığı təcrübələri informasiya daşıyıcılarından mənimsəyir, öyrəndiklərinin daha təkmilləşmiş bir təfəkkürdə yeni formatını yaradır. Bu mənada cəmiyyətin informasiya axını ilə tənzim olunması, lazımlı və zərərli və yaxud lazımsız informasiya cəmiyyətin hər bir üzvünə - oxucusuna doğru istiqamətlənib hansı yeni şüur tərzini yaradacaq, bax bu müasir kitabxanaşünaslıq elminin ən ümdə məsələlərindən biri kimi hesab edilə bilər.

Kitabla insanın təması zamanı bir çox məsələlər üzə çıxır. İnsan uşaqlıqdan qocalana qədər ətraf aləmlə ünsiyyətdə olur. Ünsiyyət zamanı isə ətrafı duyğusu, hissləri, ağlı, dərrakəsi vasitəsilə qavramağa başlayır. Psixoloqların dediyi kimi hər bir insan ətrafdakı siqnallara reaksiya verən subyektdir və bu siqnallar vasitəsilə o, obyekti qavramağa başlayır. Bu siqnallarda isə müasir cəmiyyətdə “informasiya” anlayışının əks olunması özünü qabarıq göstərir. Texniki vasitələrin inkişafı və internetin yaratdığı qlobal informasiya məkanı daha da təkmiləşməkdədir. Bu məsələlərin təhlili istiqamətində kitabxanaların ən böyük missiyası isə cəmiyyətin milli irsinin – genetik fondunun təkmilləşərək sivil bir səviyyəyə yüksəlməsini təşkil etməkdir.

Prof. A.Xələfov “Heydər Əliyev və Azərbaycanda kitabxana işi” kitabında kitabxana işinə belə bir tərif vermişdir: “Kitabxana işi - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi Kitabxana sisteminin təşkili və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, hüquqi və fiziki şəxslərə kitabxana, informasiya və biblioqrafiya xidməti qaydalarını, kitabxanaçı-biblioqraf kadrların hazırlanmasını, kitabxanaların inkişafının elmi-metodik təminatını əhatə edən fəaliyyət sahəsidir” (2, 245).

Beləliklə, milli irsimizin - genetik kodlarımızın qorunub saxlanmasında kitabxanaların üzərinə düşən rol çox böyükdür. Burada sosioloji, psixoloji, eyni zamanda fəlsəfi tərəfləri tam nəzərə almadan kitabxananın milli irsin qorunub saxlanmasında hansı çəkiyə, qüdrətə malik olduğunu aydınlığı ilə tam dərk etmək çox çətin olacaq. Bu mənada verilən məsələni aydınlığı ilə dərk etmək üçün bu məqalədə məsələyə yanaşma yollarını qeyd etmək zərurəti meydana çıxmışdır. Unutmaq olmaz ki, həmin yanaşmaları xırdalığı ilə cilalasaq, vaxt və məqalə çərçivəsindən qırağa çıxmış olarıq. Ona görə də yekun olaraq qeyd etmək mütləqdir ki, kitabxana və onun millətin mənlik şüuru ilə əlaqəli inkişafı sivil bir cəmiyyətin yaranması üçün çox zəruri bir məsələdir.

## ƏDƏBİYYAT


1. *Xələfov A.A.Kitabxanaşünaslığa giriş (I hissə).-Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001.- 400 s.*
2. *Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.-Bakı: Azərnəşr, 2006.-312 s.*
3. *Knyaz Aslan. Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu.-Bakı, 2008.- 300 s.*



***Э. АЖДАРОВ***


## ФУНКЦИИ БИБЛИОТЕК В СОХРАНЕНИИ НАЦИОНАЛЬНОГО НАСЛЕДСТВИЯ

***РЕЗЮМЕ***


*В этой статье рассматриваются о функциях библиотек в сохранении национального наследствия. Особое внимание уделено проблемам библиотеки в современном мире. В статье приоритеты современный библиотековедение анализируется связи воспитанием национальной культуры общество.*



***E. AZHDAROV***


## İN PRESERVİNG THE NATİONAL HERİTAGE OF THE FUNCTİONS

***SUMMARY***


*This article discusses the functions of libraries in preserving the national heritage. Particular attention is paid to the library in the world today. The article analyzes the priorities of modern library science education context of national culture society.*

**Sevinc SALAMLI**
*magistrant*

# MÜASİR ŞƏRAİTDƏ KİTABXANALARDA ELEKTRON İNFORMASİYA XİDMƏTİNİN TƏTBİQİ

Müasir şəraitdə təbiətin və cəmiyyətin inkişaf qanunları ilə məlumatlanmağın ən mühüm vasitəsi mütaliədir. Hər hansı bir tələbatla əlaqədar olaraq məlumat əldə etmək üçün münasib şəraiti olan kitabxana mühitinin vacibliyi qaçılmazdır.

Kitabxana – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur (1).

Kitabxanaların əsas vəzifəsi olan oxuculara xidmətin səviyyəsindən kitabxananın cəmiyyətdəki imici və oxucu kontingentinin əhatə dairəsi asılıdır.

Kitabxana xidməti oxucu sorğusunun tam və dolğun ödənilməsi, mütaliənin məzmununa, xarakterinə kitabxanaçıların pedaqoji cəhətdən müdaxiləsi, planlı və sistemli mütaliənin təşkili məsələləri bir çox cəhətdən fondun necə təşkilindən, onun kataloq-kartoteka sistemində necə əks olunmasından asılıdır (5, s.5).

Kitabxana xidməti abonement, qiraət zalı, kitabxanalararası və beynəlxalq abonement, biblioqrafiya, elmi-texniki informasiya, fərdi və kütləvi, yazılı və şifahi, stasionar və qeyri-stasionar, qiyabi, kompleks vasitələrlə təşkil edilir. Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir (1).

Yüksək peşəkarlığı ilə seçilən kitabxanalar oxucuların gündəlik mütaliə sorğularını tam və dolğun ödəmək imkanına malik olduğundan kitabxanalarda oxuculara xidmət işini ən təcrübəli, savadlı və yüksək peşəkarlığı ilə seçilən kitabxanaçılara həvalə edirlər (5, s.140).

Hazırda oxucuların intellektual ehtiyacı ümumbəşəri problemlər üzrə baş verir. Bu baxımdan müasir kitabxanaçılar xidmət prosesini həm abonement, həm də qiraət salonlarının köməyi ilə həyata keçirərkən yalnız oxucuların konkret sorğularını ödəməklə kifayətlənməməli, həmçinin onları cəmiyyətdə baş verən yeniliklərlə maraqlanmağa istiqamətləndirməlidir.

Kitabxanalarımızın modernləşmə prosesinin sürətləndirilməsi, məlumat-baza bankının yaradılması, texniki resursların artırılması, beynəlxalq elektron

sisteminə keçid müasir şəraitdə ölkəmizin kitabxana xidməti sistemində oxuculara yeni xidmət növü – "informasiya xidməti" növünü yaratmışdır ki, məhz bu da kitabxana xidmətinin əsas mahiyyətini özündə birləşdirən, onların üzərində yüksələn, müasir tələblərə cavab verə bilən bir xidmət növüdür. İnformasiya xidməti formaca yeni bir xidmət növü kimi səslənsə də, başa düşülsə də, məzmunca "kitabxana xidmətinin" davamıdır.

İnformasiya xidməti oxucuların informasiya tələbatına tam cavab verə bilən müasir informasiya texnologiyasının tətbiqi və ondan istifadə əsasında internet vasitəsilə dünya müstəvisinə çıxan, elektron vasitələrin köməyi ilə oxucuların qarşısında böyük informasiya məkanı yaradan, bəşəri biliklər xəzinəsi, xəyali – virtual kitabxanaların köməyi ilə oxucuların malına çevirə bilən xidmət növüdür. İnformasiya xidməti oxucuların informasiya tələbatını ödəməyə yönəlmiş fəaliyyət sahəsidir (3, s.70 -71).

Müasir şəraitdə informasiya xidməti bir sıra oxucu qrupları ilə işdə ən üstün istiqamət hesab olunur. Bu sahədəki fəaliyyətin həcmi həm kəmiyyət baxımından, həm də ödənilən sorğuların mürəkkəbliyi baxımından daim genişlənir. Məlumatlandırmaq işi informasiya verməyin ən geniş yayılmış formalarından olub, kitabxanaçıdan yüksək peşə biliyi tələb edir (6, s.67).

Müasir şəraitdə dövlət kitabxanalarımızın oxucu xidmətinin müasir informasiya texnologiyası ilə təmin edilməsi sahəsində xeyli tədbirlər görür. Kitabxanaların internet şəbəkəsinə qoşulması, oxucular üçün ümumaçıq informasiya məkanının formalaşdırılması, xidmət prosesində elektron sənədləri və kataloqları, elektron poçtu, CD ROM və s. informasiya texnologiyasının tətbiqini təmin edən tədbirlər həyata keçirir. Kitabxanalarda xidmət işi ilə informatikanın qarşılıqlı elmi əlaqələrinin zənginləşməsinə şərait yaradılır.

İnformasiyalaşdırılmış cəmiyyətdə kitabxanalarda biblioqrafik yazıların maşınla oxunan MARC formatına əsaslanan Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemlərinin yaradılması mümkün olmuşdur. Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemlərinin yaradılması kitabxanaçı əməyinin, xidmət prosesinin avtomatlaşdırılmasına, qısa zaman ərzində məlumatlanmağa, informasiyanın çoxcəhətli axtarışına, oxucu sorğusunun on-line yerinə yetirilməsinə, ədəbiyyatın oxucu tələbatına uyğun komplektləşdirilməsinə, kitabxana hesabatının, planlarının, statistikasının uçotunun aparılmasına elektron nəzarəti artırır. Kitabxanalarımız bu sahədə kompüterləşmə işini dünya kitabxanalarında tətbiq edilmiş Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemləri proqramlarından istifadə etməklə həyata keçirməyə çalışır. Sevindirici haldır ki, bu sahədə respublikamızın bir çox kitabxanaları uğurlar qazanmağa müvəffəq olmuşdur.

İnformasiyalaşdırılmış cəmiyyətdə oxucu sorğularının ödənilməsi sahəsində həm ənənəvi, həm də elektron informasiya xidmətindən qarşılıqlı şəkildə istifadə edilir.

Müasir şəraitdə kitabxanalarda oxuculara yüksək xidmət təşkil etmək üçün sərf edilən vaxtı minimuma endirmək lazımdır. Ənənəvi kitabxanalarda oxucu ədəbiyyatı sifariş etmək üçün kataloq qarşısında xeyli vaxt sərf etməlidir. Ənənəvi kataloq ədəbiyyatın hərəkətini əks etdirmədiyindən, sifariş olunan ədəbiyyatın hər hansı bir nüsxəsi kitabxanada olmadıqda sərf olunan vaxtın hədər getdiyi aşkar olur. Elektron kataloq isə oxuculara lazım olan ədəbiyyatın qısa müddətdə kitabxanada olması haqqında dəqiq məlumat əldə etməsini təmin edir. Elektron kataloq ədəbiyyat fondu haqqında ənənəvi kataloqlardan daha dolğun biblioqrafik məlumata malik olduğundan oxucuya çoxelementli və çoxsəviyyəli axtarış imkanları təklif edir. Bunun nəticəsində ədəbiyyatın oxucuya çatmaq ehtimalı xeyli artır. Digər tərəfdən isə, oxucu elektron kataloq vasitəsilə uzaq məsafədən ədəbiyyat axtarıb, sifariş verə bilər. Qeyri-məhdud sayda oxucu eyni vaxtda elektron kataloqda ədəbiyyatın biblioqrafik təsvirinin bütün əsas elementləri üzrə axtarış apara və ədəbiyyatın kitabxanada olan nüsxəsini sifariş edə bilər.

Müasir cəmiyyətdə kitabxanalarda yeni xidmət növü kimi elektron sənəd göndərişi yaradılmışdır. Bu xidmət növü vasitəsilə kitabxanalar tammətnli informasiya mübadiləsi edir, oxucular isə öz informasiya tələbatını uzaq məsafədən ödəyə bilirlər.

Elektron sənəd göndərişi ödənişli xidmət növüdür və kitabxanaya əlavə maliyyə vəsaitlərinin daxil olmasını təmin edir. Ödənişin miqdarı bazar münasibətləri ilə tənzimlənir və sifarişin xarakterindən, göndəriş növündən asılıdır.

Elektron sənəd göndərişi xidməti kitabxanalarda elektron xidmətin ilk forması olmaqla, müasir dövrdə ən yeni informasiya xidməti olan elektron kitabxanaların yaradılması üçün baza rolu oynamışdır (4, s. 109).

Sifarişçi kitabxanaya gəlmədən öz sifarişini kitabxananın elektron ünvanına göndərə bilər. 1 saat ərzində o, fondda həmin kitabın olub olmadığı haqqında cavab alır. Bu cür xidmət sistemi oxucuya operativ informasiya təqdim etmək və vaxta qənaət etmək üçün çox əlverişlidir. Belə metod Amerika avtomatlaşdırılmış sistemidir və dünyanın bir çox böyük kitabxanalarında tətbiq edilmişdir.

Müasir oxucular ən operativ informasiyanı əldə etmək üçün internetdən istifadəni əvəzsiz sayırlar. Belə oxucuların marağını elektron kitabxanalar daha çox təmin edir. İnkişaf etmiş ölkələrdə kitabxanaların avtomatlaşdırılmış sistemlə işləməsi təcrübəsinin uğurları bizim ölkə kitabxanaları üçün də nümunəyə çevrilmişdir.

Elektron kitabxanalar informasiyalaşdırılmış cəmiyyət quruculuğunun sosial sifarişidir. Elektron kitabxanalar oxuculara informasiya xidmətinin kompüterləşdirilməsinin nəticəsi olub, ənənəvi kitabxanalara alternativ bir qurum deyil, yalnız bir xidmət növüdür.

Elektron kitabxanalar uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti göstərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Ənənəvi kitabxanalarda informasiya xidməti yalnız kitabxananın iş saatı müddətində və məhdud sayda oxuculara göstərildiyi halda, elektron kitabxanalar 24 saat müddətində fəaliyyət göstərir və dünyanın istənilən nöqtəsində yerləşən qeyri-məhdud sayda oxuculara eyni zamanda xidmət edir. Elektron kitabxanalar rahat və sərfəli xidmət növüdür. Müasir şəraitdə respublikamızın bəzi kitabxanalarında bu xidmətin təşkili qısa müddətə və az xərc sərf etməklə böyük informasiya ehtiyatlarının oxucuların istifadəsinə verilməsini və oxucu tələbatının operativ yerinə yetirilməsini təmin edir.

Elektron kitabxanalar müasir web texnologiyası əsasında fəaliyyət göstərir. Web texnologiya lokal və uzaqda yerləşmiş informasiya ehtiyatlarının inteqrasiyasını təmin edir. Axtarış və naviqasiya vasitələri onun mühüm elementidir. Məhz onun sayəsində müasir dövrdə oxucular kitabxanaların informasiya ehtiyatlarından istifadə edir. Axtarış aparatı oxucu sorğusu əsasında informasiya ehtiyatının metaverilənlər bazasında axtarış aparmağı təmin edən xüsusi moduldan ibarətdir. Naviqasiya elementləri isə konkret sənədə və ya sənədin konkret hissələrinə istinadı təmin edən hiperistinad siyahısından ibarətdir.

Elektron kitabxanadan istifadə çox asandır. Elektron kitabxana ehtiyatlarından istifadə internet şəbəkəsi vasitəsilə, xüsusi proqramlar – brauzer və FTP Klient proqramları ilə, müvafiq olaraq http və ftp protokolları əsasında təmin olunur. Kitabxanadan istifadə etmək üçün oxucudan internetə qoşulmuş kompüter və internetin www, FTP xidmətindən istifadə vərdişi tələb edir (4, s.174).

Beləliklə, informasiyalaşdırılmış cəmiyyətdə oxucu sorğularının tam və dolğun ödənilməsi üçün mövcud kitabxanaların qarşısında çox mühüm tələblər durur. Kitabxanaçıların oxuculara xidməti ilə əlaqədar olaraq yeni funksiyaları müasir tələblər səviyyəsində yerinə yetirmək əsas tələblərdən biridir (2, s.69).

Yekun demək olar ki, kitabxanalarda oxuculara xidmət sistemi qədim dövrlərdən kitabxanalarda meydana gəlmiş, tarixən formalaşmış, inkişaf etmiş, təkmilləşmişdir. Zaman keçdikcə müasir informasiya texnologiyası ilə silahlanmış, informasiya cəmiyyətinin tələblərinə müvafiq yenidən qurulmuşdur.

## ƏDƏBİYYAT


1. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu: 29 dekabr 1998- ci il.*
2. *Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar. – B., 2006. – 106 s.*
3. *Xələfov A.A. İnformasiya xidməti / Kitabxanalar biliklər cəmiyyətində (ikidilli Azərbaycan – Rusiya layihəsi). – B., 2006. – S.64 -74.*

4. *Xələfov A.A. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: Dərslik / A. Xələfov, A. Qurbanov. – B., 2007. – 199 s.*
5. *Rzayev S. M. Kitabxana xidməti. – B., 2009*
6. *Rzayev S. M. Kitabxana etikası və kitabxanaçı – oxucu münasibətləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. – B.: 2008. - № 2 (23). – S.63-67.*
7. *Quliyev O. Müasir informasiyalaşdırma cəmiyyətində elektron kataloqun tətbiqinin əhəmiyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri, metodik və təcrübi jurnal. – B.: 2008. - № 2 (23). – S.119-123.*

***С. САЛАМЛЫ***

**В СОВРЕМЕННЫХ УСЛОВИЯХ О ВНЕДРЕНИИ ЭЛЕКТРОННЫХ ИНФОРМАЦИОННЫХ ОБСЛУЖИВАНИЯХ В БИБЛИОТЕКАХ**

***РЕЗЮМЕ***

*В этой статье рассказывается о внедряемых новых электронных информационных обслуживаниях в современных условиях в системе библиотечного обслуживания. А также рассказывается о роли и важном значении для библиотек электронных каталогах, электронных библиотеках, об обмене электронной документацией.*

***S. SALAMLI***

**İN MODERN CONDİTİONS ABOUT İNTRODUCTİON OF ELECTRONİC İNFORMATİON SERVİCES İN LİBRARİES**

***SUMMARY***

*In this article it is told about introduced new electronic information services in modern conditions in system of library service. And also it is told about a role and great value for libraries electronic catalogues, electronic libraries, about an exchange of the electronic documentation.*

**Nadir İSMAYILOV**
***Biblioqrafiyaşünaslıq kafedrasının dosenti***
**Solmaz SADIQOVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi***

# FƏLSƏFƏ ELMİNƏ HƏSR OLUNMUŞ BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏLƏRİ

Biblioqrafik informasiyanın strukturunu və xassələrini, bu informasiyanın yaradılması və tələbatçılara çatdırılması proseslərini öyrənən elm olmaqla biblioqrafiyaşünaslıq nəinki bu proseslərə ümumilikdə yanaşır, həm də ayrı-ayrı elm və fəaliyyət sahələrinin informasiya tələbatını, həmin tələbatın öyrənilməsi problemlərini tədqiq edir. Həmin nöqteyi-nəzərdən sosial-siyasi elmlər kompleksi və bu kompleksin aparıcı elmlərindən biri olan fəlsəfənin biblioqrafik vəsaitlərlə təminatı probleminin tədqiqi mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, müasir biblioqrafiyaşünaslığın obyekt baxımından bir sıra sahələri vardır. Bu baxımdan fəlsəfənin biblioqrafiyası xüsusi biblioqrafiyaşünaslığın bir sıra sahələri ilə sıx bağlılığa malikdir. Bunlara misal olaraq dövlət biblioqrafiyası, elmi-köməkçi biblioqrafiya, tövsiyə biblioqrafiyası, universal biblioqrafiya, biblioqrafiyalaşdırma və biblioqrafik xidməti göstərmək mümkündür. Həqiqətən də dövlət biblioqrafiyası mənbələrində digər elm sahələri kimi fəlsəfəyə dair kitablar və məsələlər də əks olunur, xüsusi biblioqrafiyanın bölmələri olan elmi-köməkçi və tövsiyə biblioqrafiyası isə fəlsəfənin biblioqrafiyası üçün böyük əhəmiyyətə malikdir.

Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında deyilir: «Milli müstəqillik dövrü xalqımıza məxsus mədəni-mənəvi dəyərlərlə bağlı olan istiqamətlərdə bir çox məsələlərin yenidən, azərbaycançılıq məfkurəsi mövqeyindən işıqlandırılmasını aktuallaşdırmışdır» (2) .

Bu sahədə kitabxanalarımızın üzərinə böyük məsuliyyətli işlər düşür. “Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında” Azərbaycan Respublikasının Prezidentinin sərəncamında deyildiyi kimi, «Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir. Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır» (3).

Fəlsəfə elmi sosial-siyasi elmlərin mühüm tərkib hissəsindən biridir. Digər sosial-siyasi elmlərdən fərqli olaraq fəlsəfə elmi bir çox elmlərlə sıx surətdə bağlıdır. Məsələn, kimya, biologiya, fizika, riyaziyyat, humanitar elm-

lərlə, həmçinin sosial-siyasi elmlərlə əlaqəsi var. Ona görə də fəlsəfə elminin ayrı-ayrı elmlərlə əlaqədar məsələləri öyrənilərkən biblioqrafik mənbələrdən istifadə olunur. Fəlsəfə elminin ayrı-ayrı elmlərlə əlaqəsi nəticəsində ədəbiyyat nəşri ildən-ilə çoxalır. Ədəbiyyat nəşri ilə əlaqədar olaraq müxtəlif oxucu qrupları var. Oxucuların biblioqrafik təminatı məqsədilə fəlsəfənin müxtəlif xarakterli biblioqrafik mənbələri vardır.

Azərbaycanda fəlsəfi biblioqrafiyanın təşkili və inkişafında ayrı-ayrı elmi müəssisələr, idarə və təşkilatlar, kitabxanalar yaxından iştirak edir. Ona görə də Azərbaycanda fəlsəfə elminə dair ədəbiyyatın göstərici xarakterli mənbələri vardır. Bu cəhətdən məlumat nəşrlərinin əhəmiyyəti çoxdur. Azərbaycan Sovet Ensiklopediyasında fəlsəfə üzrə xüsusi bölmə verilmişdir. Məsələn, IX cilddə fəlsəfə bölməsi fəlsəfə elmi ilə əlaqədar oxucu sorğularının ödənilməsində əhəmiyyətli mənbə hesab olunur. Burada Azərbaycanda fəlsəfə elminin tarixinə, ədəbiyyat nəşrinə, o cümlədən filosofların həyat və fəaliyyətinə (Heydər Hüseynov, Firudin bəy Köçərli, Mehbalı Qasımov, Ziyəddin Göyüşov və b.) dair materiallar verilmişdir. Qeyd etməliyik ki, müəyyən tarixi məlumatların, biblioqrafik sorğuların ödənilməsi üçün məlumat nəşrlərinin ayrı-ayrı hissələrində fəlsəfə, o cümlədən sosial-siyasi elmlərlə əlaqədar olan məlumatları öyrənmək üçün ensiklopediyanın tərtibi metodikasını, materialların sistemləşdirilməsini və eləcə də əsas mövzunu müəyyənləşdirmək tələb olunur. Əsas mövzu daxilində müxtəlif xarakterli sorğular öz əksini tapmışdır. Fəlsəfə elminə aid ədəbiyyatın öyrənilməsində ümumi xarakterli nəşrlərin də əhəmiyyəti çoxdur. Bu cəhətdən «Azərbaycan kitabı»nın II cildinin I kitabı mühüm əhəmiyyətə malikdir. Burada «Fəlsəfə-ictimai-siyasi nəzəriyyə» adlı xüsusi bölmə verilmişdir. Bu bölmə daxilində 1920-1940-cı illərə qədər respublikada fəlsəfə elminə aid çap olunmuş elmi ədəbiyyat, tədris ədəbiyyatı, elmi-kütləvi ədəbiyyatı, bu sahə üzrə məşğul olan elmi müəssisələr, nəşriyyatlar, institutlar, cəmiyyətlər və s. haqqında ədəbiyyat öz əksini tapmışdır.

«Azərbaycan kitabı»nda fəlsəfə elmilə əlaqədar, mühüm bir bölmə verilmişdir. «Azərbaycan kitabı"nın II cildinin I kitabının əhatə etdiyi dövr ərzində ədəbiyyat nəşrinin öyrənilməsi mühüm biblioqrafik axtarış tələb edir.

Ona görə də ümumi xarakterli biblioqrafik göstəricinin bu sahədə əhəmiyyəti çoxdur. Belə bir ümumi xarakterli biblioqrafik nəşrə misal olaraq Azərbaycan MEA MEK tərəfindən çap edilmiş "Azərbaycan Milli Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası"nı göstərmək olar. Göstəricinin III cildinin VI kitabı tarix, iqtisadiyyat və hüquq elmlərinə həsr olunmuşdur.

Respublikamızda fəlsəfə elminin inkişafı mühüm aparıcı müəssisələrdən olan Fəlsəfə və Hüquq İnstitutunun adı ilə bağlıdır. Bu institut ilk dövrlərdə akademiyanın xüsusi bir bölməsi kimi fəaliyyət göstərirdi. 1945-ci ildə akademiya təşkil olunduqdan sonra akademiyanın nəzdində belə bir elmi-tədqiqat müəssisəsi yaradılmışdır. İnstitut respublikada filosof alimlərin yetişməsində

ədəbiyyat nəşrlərinin çoxalmasında, fəlsəfə üzrə elmi problemlərin həll olunmasında mühüm rol oynayır. Qeyd etdiyimiz biblioqrafik göstəricinin yaradılmasında həmin institutun rolu böyükdür.

"Azərbaycan Milli Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası" adlı biblioqrafik göstəricidə ayrı-ayrı elmlərlə yanaşı, fəlsəfə elmi üzrə xüsusi bölmə verilmişdir. Bu bölmə daxilində institutun 1945-ci ildən sonrakı dövrlərdə çap olunmuş ədəbiyyatı axtarıb tapmaq mümkün olur. Ona görə də akademiyanın bu mühüm biblioqrafik nəşrində bütün elm sahələri, o cümlədən fəlsəfə üzrə bütün ədəbiyyat öz əksini tapmışdır. Bu biblioqrafik göstərici müxtəlif dövrlər üzrə ədəbiyyatı özündə əks etdirmişdir. Biblioqrafik göstəricinin ayrı-ayrı buraxılışlarında fəlsəfə elmi üzrə ədəbiyyatın xüsusi bölməsi verilmişdir. Fəlsəfəyə aid ədəbiyyatın biblioqrafiyasının yaradılmasında institut alimlərinin xidmətlərini qeyd etmək lazımdır.

İnstitut tərəfindən xüsusi biblioqrafik göstərici çap edilmişdir. Məsələn, «Azərbaycan filosoflarının Moskva, Leninqrad və b. şəhərlərdə çap olunmuş əsərlərinin biblioqrafiyası» adlı biblioqrafik göstərici nəşr olunmuşdur. Bu biblioqrafik göstərici 1970-1981-ci illəri əhatə edir. Bu dövr ərzində Azərbaycan filosoflarının müxtəlif elmi jurnal, məcmuələrdə, konfrans materiallarında çap edilmiş biblioqrafik xarakterli məlumatı öyrənmək mümkündür. Ona görə də fəlsəfə elmilə əlaqədar olaraq müxtəlif bölmələr üzrə, məsələn, fəlsəfə tarixi, dialektik materializm, etika, estetika, məntiq və s. elmlərlə əlaqədar bölmələr əsasında materiallar sistemləşdirilmişdir. Burada ayrı-ayrı fəlsəfə elmilə əlaqədar başqa fəlsəfə elminin tarixinə aid ədəbiyyat öz əksini tapmışdır. Bu biblioqrafik göstərici elmi müəssisənin əməkdaşlarının respublikadan kənarda çap olunmuş elmi əsərlərinin yayılmasında əhəmiyyətə malikdir. Biblioqrafik göstərici oxucular üçün əhəmiyyətli olduğu kimi, müəyyən nöqsan cəhətləri də var. Məsələn, biblioqrafik göstəricinin əvvəlində girişin verilməməsi belə nöqsanlardan biridir. Çünki giriş biblioqrafik göstəricinin əhəmiyyətini, məqsəd və oxucu istiqaməti və s. məsələlər barədə oxucuları tanış edir. Buna görə də belə biblioqrafik göstəriciyə giriş yazılmalıdır.

Fəlsəfə sahəsində «Azərbaycan ensiklopediyası» Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən «Fəlsəfə ensiklopedik lüğəti» 1997-ci ildə 520 səhifə həcmində çapdan buraxılmışdır (10). Ali məktəb müəllimləri, tələbə və aspirantlar üçün gərəkli vəsait olan bu kitab ixtisasından asılı olmayaraq, fəlsəfi görüş dairəsini genişləndirmək istəyən hər bir oxucu üçün faydalıdır. Kitabda fəlsəfi fikir tarixindən, fəlsəfənin əsas kateqoriya və anlayışlarından, həmçinin dialektika problemlərindən, dünya filosoflarının həyatından bəhs edən yığcam məqalələr verilmişdir. Burada oxucular şərq fəlsəfəsinə, mütəfəkkir və filosofların həyatına, onların təlimlərinə aid materiallar haqqında informasiya əldə edə bilərlər. Belə bir ensiklopediyanın sahə mütəxəssislərinin informasiya

təminatında rolu sözsüzdür. Ensiklopediyanın elmi redaksiya şurasının sədri fəlsəfə elmləri doktoru, professor İ.Ə.Rüstəmovdur.

Son dövrlərdə dünyada və ölkəmizdə baş verən hadisələr, mövcud ictimai proseslər, siyasi və ideoloji münasibətlərin kəskinləşməsi fəlsəfənin də qarşısında yeni və çətin vəzifələr qoymuş, onun problemlərinin həlli yollarının obyektiv şərhini zəruriləşdirmişdir. Kitabda fəlsəfənin tarixi inkişaf mərhələlərinin və problemlərinin elmi şərhinə, mövcud siyasi vəziyyətlə əlaqədar daha da aktuallaşmış bir çox ictimai-sosial qayəli məsələlərə aid məqalələr əksini tapmışdır. Lüğətdə Azərbaycan xalqının fəlsəfi və ictimai fikrinin yaranması və fəaliyyəti ilə bağlı məqalələrin də verilmişdir.

Ayrı-ayrı dövrlərdə zərbaniliyin, zərdüştlüyün, maniliyin, məzdəkiliyin və s. Orta əsr Şərq ideoloji cərəyanlarının, onların görkəmli nümayəndələrinin tərcümeyi-halına, təlimlərinə həsr olunmuş məqalələr də kitaba salınmışdır (Kind, Fərabi, İbn Sina, İbn Rüşd, Qütbəddin Razi və b.).

Feodalizm dövründə Qərb ölkələrindən fərqli olaraq, müsəlman Şərqində sxolastika və mistika ilə bərabər, qeyri-dini fəlsəfi təlimlər də fəaliyyət göstərmişdir. Lüğətdə Şərq peripatetizminin azərbaycanlı nümayəndələrinə (Bəhmənyar, Əfsələddin Xunəci, Sircəddin Urməvi və b.), sufizmin panteist fəlsəfəsinin yaradıcısı Eynəlqüzzat Miyanəçi, işraqilik fəlsəfəsinin banisi Şihabəddin Sührəvərdi və onların davamçılarına da geniş yer verilmişdir.

Azərbaycan şəhərlərinə mənsubluğu ilə tanınmış Sührəvərdilər, Təbrizilər, Urməvilər, Xoylular və b. filosoflar, mütəfəkkirlər kitabda ayrıca yer tutur. Lüğətdə soraq-məlumat nəşrləri üçün birinci qəbul olunmuş bir sıra ixtisarlar təbliğ edilir. Məqalənin adı mətndə birinci hərflə əvəz olunur. Məsələn, «Aristotel» məqaləsində filosofun tam familiyasının əvəzinə A. hərfi yazılır. Əgər məqalənin adı bir neçə sözdən ibarətdirsə, onda onlar mətndə yalnız məqalənin birinci hərflərlə göstərilir. Məsələn, «Məzmun və forma» məqaləsinin mətnində tam adın əvəzində M. və F. kimi, üç sözdən artıq məqalə adları isə mətndə yalnız məqalənin birinci hərfi ilə göstərilir. Məqalələrdə kursivlə yığılmış bütün söz və terminlər lüğətdə onların haqqında ayrıca məqalə getdiyini göstərir.

1940-cı illərdə görkəmli filosof, akademik Heydər Hüseynovun tərtib etdiyi «Fəlsəfə lüğəti» istisna olmaqla, kitab ana dilimizdə bu sahədə nəşr edilən ilk böyük lüğətdir. Fəlsəfi biliklərin yeni təfəkkür baxımından işlənməsinə prof. İzzət Rüstəmov rəhbərlik etmişdir.

«Azərbaycan Ensiklopediyası» Nəşriyyat-Poliqrafiya Birliyi «Fəlsəfə ensiklopedik lüğəti»nin elmi-ideoloji sahədə müsbət rol oynayacağına, respublikamızda fəlsəfi mədəniyyətin yüksəlişi üçün faydalı olacağına əmindir.

Heydər Hüseynovun fəlsəfə sahəsində elmi fəaliyyəti yüksək təqdirəlayiqdir. O, Azərbaycanın ilk görkəmli filosofu olmaqla, Azərbaycan fəlsəfi fikir tarixinin öyrənilməsində böyük xidmətləri olmuşdur. Akademiyanın kitabxana-

sının işçisi Əhməd Mahmudov tərəfindən tərtib olunmuş «Heydər Hüseynov» (1965) adlı biblioqrafik göstəricidə (12), olduğu kimi Heydər Hüseynov halında çap olunmuş biblioqrafik göstəricinin də əsas məqsədi alimin bütün əsərlərini əks etdirmək olmuşdur. Bu məqsədlə biblioqrafik göstəricinin müəllifi geniş axtarışlar aparmışdır. O, H.Hüseynovun kitab haqqında çap olunmuş əsərlərini, dövri mətbuatda dərc edilmiş məqalələrini, məruzə və çıxışlarını toplamaqla alimin zəngin irsini toplamışdır. O, topladığı materiallar əsasında belə bir elmi köməkçi biblioqrafik göstəricini çap etdirmişdir.

Biblioqrafik göstəriciyə respublikamızın görkəmli ədəbiyyatşünas alimi Məmməd Arif Dadaşzadə tərəfindən geniş elmi giriş hissəsi verilmişdir. Giriş hissəsi biblioqrafik və elmi cəhətdən oxucular üçün mühüm mənbə hesab olunmuşdur. Burada Heydər Hüseynovun həyat və fəaliyyəti, tələbəlik illəri, elmi, ictimai-siyasi fəaliyyətilə əlaqədar olaraq, çox zəngin məlumatlar verilmişdir. Biblioqrafik göstəricinin əhəmiyyəti alimin biblioqrafik göstəriciyə yazdığı giriş hissədə geniş şərh olunmuşdur. M.Dadaşzadənin yazdığı giriş hissədə H.Hüseynov haqqında müxtəlif məlumatlar öyrənmək olur.

Biblioqrafik göstəricidə H.Hüseynovun əsərləri nəşr illərinə görə sistemləşdirilib təsvir edilmişdir. Bu da alimin əsərlərinin nəşri tarixinin öyrənilməsi cəhətdən əhəmiyyətlidir. Biblioqrafik göstərici alimin əsərlərinin çap olunduğu dilə görə iki hissədən ibarətdir: 1. Azərbaycanca əsərləri; 2. Rus dilində çap olunmuş əsərləri.

I hissədə olduğu kimi, II hissədə də nəşr ilinə görə çap olundu. Biblioqrafik göstəricidə H. Hüseynovun əsasən elmi əsərlərilə yanaşı, elmi məqalələri də verilməlidir. H.Hüseynov respublikamızın ictimai həyatında mühüm rol oynadı. Biblioqrafik göstəricidən istifadəni asanlaşdırmaq üçün köməkçi aparat yaradılmışdı. Məsələn, alimin əsərlərinin əlifba göstəricisi.

Biblioqrafik göstəricilərdən biri görkəmli filosof Aleksandr Osipoviç Makovelskiyə həsr olunmuşdur. O, Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunun direktoru (1945-1950) olmuşdur. Makovelski qədim yunan fəlsəfə tarixi, dialektik və tarixi materializm, məntiq və məntiq tarixi, pedaqogika, psixologiya sahəsində, xüsusilə yunan fəlsəfəsində sofistlər, Sokrataqədərki məktəblər (Milet və Pifaqor məktəbi; Heraklit və davamçıları; Eleya məktəbi və s.), atomistlər (Levkipp, Demokrit, Epikür və b.) barədə əsaslı tədqiqat aparmış, onların bir sıra əsərlərini tərcümə etmiş, onlara şərh yazmışdır. Azərbaycanın fəlsəfə tarixinə dair əsərlərində Makovelski zərdüştlük, Avesta, məzdəkilik, Şərqdə peripatetizm, neoplatonçuluq və atomizm, sufilik, «İxvan-əs-Səfa», «Nizami və onun Şərqdə yeri», XIX əsr ictimai və fəlsəfi fikri, M.Ş.Vazeh, M.F.Axundov kimi məsələləri əhatəli şəkildə tədqiq etmişdir. Azərbaycanda fəlsəfə üzrə kadrların yetişdirilməsində də onun böyük xidməti olmuşdur.

MEA Mərkəzi Elmi Kitabxanasının işçisi Syusorenkro alimin əsərlərini toplayıb «A.O.Makovelski. Şəxsi biblioqrafik göstərici»sini tərtib etmişdir.

Onun haqqında çap olunmuş şəxsi bibilioqrafik göstərici fəlsəfə elminin informasiya təminatında əhəmiyyətli rol oynayır.

Azərbaycan Elmlər Akademiyasının akademiki, Əməkdar elm xadimi, Azərbaycan fəlsəfəsi tarixi ixtisası üzrə görkəmli alim Firudin Qasım oğlu Köçərlinin əsərlərinin biblioqrafiyası 1950-1996-cı illəri əhatə edir (11). Göstəriciyə Azərbaycan və rus dillərində çıxan əsərləri, habelə dövri mətbuatda dərc olunmuş məqalələri daxil edilmişdir. 1997-ci ildə Azərbaycanın elm və mədəniyyət xadimləri seriyası ilə "Elm" nəşriyyatında çapdan çıxmış göstəricinin tərtibçisi Ç.Əhmədova, redaktoru F.Hüseynovadır. MEA Mərkəzi Elmi Kitabxanası «Elm» Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzi tərəfindən çapa hazırlanmış biblioqrafik göstəricidə 341 mənbə xronoloji prinsiplə düzülmüşdür. Göstəricinin aşağıdakı bölmələri vardır: Tərtibçidən; Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri; Həyatı və elmi fəaliyyəti haqqında qısa oçerk (oçerkin müəllifi MEA-nın müxbir üzvü Məqsəd Səttarovdur); Əsərlərinin biblioqrafiyası (burada 275 adda mənbə öz əksini tapmışdır); Redaktə etdiyi əsərlər (cəmi 42 adda); Dissertantlara elmi rəhbərlik və məsləhətçi (18 adda); Həyatı, elmi-pedaqoji, ictimai fəaliyyəti və əsərləri haqqında məlumat (7 adda) xronoloji ardıcıllıqla düzülmüşdür. Göstəricinin sonunda «Əsərlərinin əlifba göstəricisi», «Müştərək müəlliflərin əlifba göstəricisi» və "Haqqında yazan müəlliflərin əlifba göstəricisi" adlı köməkçi aparat verilmişdir. "Əsərlərinin biblioqrafiyası" bölməsinə baxdıqda məlum olur ki, Firudin Köçərlinin ilk əsəri dövri mətbuatda 1948-ci ildə çap olunmuşdur.

Göstəricidə qeyd olunur ki, Köçərli Firudin Qasım oğlu 1920-ci il dekabrın 8-də Gədəbəy rayonunun İsalı kəndində müəllim ailəsində anadan olmuşdur. 7 illik kənd məktəbini bitirdikdən sonra Kirovabad (Gəncə) şəhərində pedaqoji texnikumda təhsilini davam etdirmiş və 1939-1945-ci illər arasında özünün təhsil aldığı İsalı kənd məktəbində müəllim işləmişdir.

F.Köçərli 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsi nəzdində açılmış fəlsəfə şöbəsinə daxil olur. F.Köçərli hələ oxuduğu illərdə geniş ictimai iş aparır və tezliklə fəal ictimaiyyətçi kimi tanınır. O,universitetin Tələbə Elmi cəmiyyətinə rəhbərlik edir, birləşmiş yerli komitənin sədri və partiya komitəsinin üzvü seçilir. o, 1945-ci ilin mart ayında «Azərbaycan xalqının sosialist mədəniyyətinin təşəkkülü» mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. 1954-cü ilin mart ayından 1958-ci ilə qədər Azərbaycan Dövlət Universitetinin fəlsəfə kafedrasında baş müəllim, dosent vəzifələrində işləmişdir. Respublikamızda fəlsəfə elmi üzrə akademik A.O.Makovelski istisna olmaqla bir nəfər də olsun elmlər doktoru yox idi. Belə bir şəraitdə Respublika Elmlər Akademiyasında fəlsəfə elminə rəhbərlik etmək F.Köçərlinin üzərinə düşmüşdü. Qeyd etmək lazımdır ki, 60-cı illərdə elmlər namizədlərinin və doktorların sayı xeyli artdı və nəticə etibarı ilə 1968-ci ildə Fəlsəfə İnstitutunu bərpa etmək mümkün oldu. İnsitutun yenidən

təşkilində, əlbəttə, F.Köçərlinin əməyi böyük olmuşdur. O, 1950-ci ildə fəaliyyəti dayandırılan və nəhayət, yenidən təşkil edilən Fəlsəfə İnstitutuna ilk direktor təyin edildi. F.Köçərli 1966-cı ilin iyun ayında «Azərbaycanda inqilabi demokratik fikir və Nəriman Nərimanov» mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, Azərbaycanda inqilabi demokratiya probleminin xüsusiyyətləri barədə alim sözü söyləmiş, məsələnin qoyuluşuna tam aydınlıq gətirmişdir.

Oxucuya təqdim olunan göstəricidə ədəbiyyat xronoloji qaydada, hər ilin daxilində isə əlifba sırası ilə düzülmüşdür. F.Köçərlinin əsərlərinin biblioqrafiyasında yaradıcılığının əsas tarixləri, elmi-tədqiqat, təşkilati işlərinin qısa səciyyəsi göstərilir. Göstəricidə alimin dissertasiyalara elmi rəhbərliyi, həyat və yaradıcılığı haqqında ədəbiyyat ayrıca bölmələrdə verilmişdir.

Dünya şöhrətli Azərbaycan filosofu Şihabəddin Yəhya Sührəvərdiyə (1154-1191) həsr olunmuş biblioqrafik məlumat kitabında (14) həyatı və yaradıcılığı nəzərdən keçirilir, geniş mündəricəli traktatlar, onlara görkəmli filosoflar tərəfindən yazılmış şərhlər və haşiyələr, həmin əsərlərin çap və əlyazması nüsxələri barədə məlumat verilir. Şihabəddin Sührəvərdi haqqında mənbələr, habelə Şərq və Qərb dillərində tədqiqatlar onun dünya şöhrəti haqqında müəyyən təsəvvür yaradır.

Azərbaycan EA Rəyasət Heyəti Şihabəddin Yəhya Sührəvərdinin vəfatının 800 illik yubileyini keçirmək barədə qərar qəbul etmiş, tədbirlər planı hazırlamışdır. 2 aprel 1991-ci il tarixli bu sənəddə qərara alınmışdır ki, Şihabəddin Sührəvərdinin vəfatının 800 illiyi ilə əlaqədar 1991-ci ilin dekabrında elmi sessiya keçirilsin; Şihabəddin Sührəvərdi haqqında dövri mətbuatda, «Elm» qəzetində, «Xəbərlər» jurnalında məqalələr buraxılsın, radio və televiziya verilişləri təşkil edilsin; Şihabəddin Sührəvərdinin həyat və yaradıcılığı haqqında monoqrafiya və biblioqrafik məlumat çapa verilsin; o cümlədən, Avropa xalqları dillərinə tərcümə olunan əsərlərinin əldə edilməsi, tərcüməsinin təşkili, əsərlərinin həm orijinalın, həm də tərcüməsinin nəşrə hazırlanması haqqında təkliflər verilsin; Şihabəddin Sührəvərdinin portretinin yaradılması məqsədilə müsabiqə elan edilsin; Şihabəddin Sührəvərdinin xatirəsinin əbədiləşdirilməsi üçün adının Bakı şəhərindəki küçə, meydan və elmi idarələrdən birinə verilməsi haqqında vəsatat qaldırılsın; orta məktəblərin təhsil proqramında və dərsliklərdə digər Azərbaycan filosofları ilə yanaşı Şihabəddin Sührəvərdiyə həsr olunmuş bölmələrin nəzərdə tutulması Xalq Təhsili Nazirliyinə tövsiyə edilsin.

Şihabəddin Yəhya Sührəvərdinin elmi-fəlsəfi irsi şərqşünas fəlsəfə tarixçilərinin həmişə diqqət mərkəzində olmuşdur. Onun vəfatının hicri tarixi ilə 800 illiyi Qahirədə qeyd edilmiş, bu münasibətlə 1974 (1975)-cü ildə böyük bir məcmuə buraxılmışdır.

Şihabəddin Yəhya Sührəvərdi bəşər fəlsəfi fikrinin inkişafında özünə layiqli yer tutmuşdur. Onun misilsiz xidmətini işıqlandırmaq və təbliğ etmək bizim müqəddəs borcumuzdur.

Dünya şöhrətli Azərbaycan filosofunun yubileyi ilə əlaqədar qısa müddətdə hazırlanmış bu kitabça gələcək nəşrlərdə yəqin ki, daha da təkmilləşdiriləcək və genişləndiriləcək.

Biblioqrafik göstəricidə Şihabəddin Sührəvərdinin fəlsəfi irsi və onun dünyada yayılması; Zəngin irsin saxlanıldığı ünvanlar; Şihabəddin Sührəvərdinin əsərləri; Şihabəddin Sührəvərdinin əsərlərinə şərhlər və haşiyələr; Şihabəddin Sührəvərdi haqqında mənbələr; Şihabəddin Sührəvərdi haqqında tədqiqatlar (20 adda ərəb dilində, 14 adda fars dilində, 6 adda fransız dilində, 6 adda alman dilində, 4 adda ingilis dilində, 3 adda türk dilində, 30 adda Azərbaycan dilində, 8 adda rus dilində mənbə) öz əksini tapmışdır.

«Şihabəddin Sührəvərdinin fəlsəfi irsi və onun dünyada yayılması» adlı yazıdan məlum olur ki, Şihabəddin Əbülfütuh Yəhya ibn Həbəş Sührəvərdi Azərbaycanın qədim Zəncan şəhəri yaxınlığındakı Sührəvərd qəsəbəsində anadan olmuşdur. O dövrdə Sührəvərd özünün təbii gözəlliyi və abadlığı ilə bərabər, mədəni səviyyəsi ilə də məşhur idi. Cəlaləddin Ruminin atası Bahaəddin Vələd (…-1231) bu cəhəti xüsusi qeyd etmişdir. Sührəvərddən görkəmli alimlər, ictimai-siyasi xadimlər çıxmış, Yaxın və Orta Şərq ölkələrinin mədəniyyət tarixində layiqli yer tutmuşlar.

Şihabəddin Sührəvərdi kiçik yaşlarında Marağa şəhərinə getmiş, orada Məcəddin Cilidən fəlsəfəni və fiqhin (müsəlman hüququnun) əsaslarını öyrənmişdir. O, sonra İsfahan şəhərində Zəhirəddin Fəraisinin yanında peripatetik filosof İbn Səhlan Savinin (…-1058) məntiq, metafizika və fizika (təbiətşünaslıq) hissələrindən ibarət «Bəsirətlər» («əl-Basir») kitabını mütaliə etmişdir.

Şihabəddin Sührəvərdi Azərbaycanın, ümumiyyətlə, Yaxın və Orta Şərqin mühüm şəhərlərin, o cümlədən, Ərdəbil, Miyanə, Diyarbəkir, Xərbut, Konya, Sivas, Mardin, Bağdad, Dəməşq və Hələbi gəzmişdir. Həmin səfərlərdə onun əsas məqsədi orijinal elmi-fəlsəfi doktrinalarını yaymaq idi. Öz şagirdi Şəmsəddin Şəhrəzuri (…-1250) bu barədə yazır: «Allah ruhunu təqdis eləmiş, (Şihabəddin Sührəvərdi) çoxlu ölkələr gəzib dolaşmış, elmlərdə özünə həmfikir tapmağa güclü şövq göstərmişdir».

Mosulda İbn Yunus (1154-1242), Mardində Fəxrəddin Mardini (…-1195), digər yerlərdə Seyfəddin Amidi (1156-1233) kimi tanınmış alimlər, filosoflar onun ideyalarını qızğın müdafiə edirdilər.

Azərbaycan fəlsəfəsində, sosial ekologiyasında, mifoloji problemlərin tədqiqində özünəməxsus yer tutan alimlərdən biri Ağayar Şükürovdur. Onun qələmindən çıxan məqalə, monoqrafiya və dərsliklər orijinal tədqiqat metodu və metodologiyası, yazılış tərzi, dili, ümumiləşdirmə priyomları ilə seçilir. Tədqiq etdiyi problemlər özünün orijinallığı və aktuallığı ilə diqqəti cəlb edir.

Müasir mərhələdə Azərbaycan filosofları arasında öz məhsuldar fəaliyyəti ilə seçilən, xalqımızın mənəvi mədəniyyət xəzinəsini zənginləşdirən sanballı alimlərimiz arasında fəlsəfə elmləri doktoru, professor Ağayar Şükürovun özünəməxsus yeri vardır. Onun hərtərəfli və geniş yaradıcılığı xüsusi tədqiq olunmalıdır. Son dövrlərdə onun Azərbaycan elminə verdiyi töhfələr, yəni elmi ictimaiyyətimiz tərəfindən xüsusi rəğbətlə qarşılanan tədqiqat əsərləri Azərbaycan ictimai fikir tarixində böyük əhəmiyyətə malikdir.

Alim haqqında Azərbaycan MEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu 2000-ci ildə Ağayar Şükürova həsr olunmuş biblioqrafik göstərici çap etdirmişdir (4). 107 səhifəlik biblioqrafik göstərici Yadigar Babayev və Ariz Gözəlov tərəfindən tərtib olunmuşdur. Biblioqrafik göstəricinin redaktoru Əflatun Amaşovdur. 169 biblioqrafik təsviri özündə cəmləşdirən bu biblioqrafik göstəricidə «Tərtibçidən»; «Həyatı və elmi ictimai fəaliyyətinin əsas tarixləri»; «Yorulmaz tədqiqatçı» (oçerk fəlsəfə elmləri doktoru Vəli Həbiboğlu tərəfindən yazılmışdır); «Əsərlərinin biblioqrafiyası» (18 adda kitabı, 5 adda dərsliyi öz əksini tapmışdır); «Elmi jurnal və məcmuələrdə çap olunmuş məqalələri» (83 adda); «Qəzet məqalələri» (43 adda); «Elmi rəhbərliyi altında müdafiə olunmuş namizədlik dissertasiyaları» (cəmi 8 nəfər)  xronoloji ardıcıllıqla verilmişdir. «Ağayar Şükürovun kitabları haqqında rəylər» bölməsində 13 müəllifin rəyi haqqında informasiya əldə etmək mümkündür. Sonda isə «Əsərlərinin əlifba göstəricisi»; «Müştərək müəlliflərin əlifba göstəricisi»; «Haqqında yazmış müəlliflərin əlifba göstəricisi» adlı köməkçi göstəricilər vasitəsilə biblioqrafik mənbənin axtarış imkanları daha da zənginləşmişdir.

Biblioqrafik göstəricidən məlum olur ki, Ağayar Məhəmməd oğlu Şükürov 25 mart 1946-cı ildə Biləsuvar rayonunun Əmənkənd kəndində anadan olmuşdur. O, 1963-cü ildə orta məktəbi bitirmişdir. Uşaqlıqdan ədəbiyyat və tarixə həvəs göstərmiş, şeirlər də yazmışdır. O vaxtlar müəyyən maneələr olduğuna görə jurnalistika fakültəsinə deyil, tarix fakültəsinə imtahanları daxil olmuşdur. Onun «Nəsiminin ictimai-fəlsəfi görüşləri» mövzusunda yazdığı diplom işi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir. 1969-cu ildə A.Şükürov Azərbaycan MEA Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasına daxil olmuşdur. O, 1975-ci ildə fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almaq üçün «Milli və dini ənənələr» mövzusunda yazdığı dissertasiyanı müdafiə etmişdir. 1984-cü ildə "Elm" nəşriyyatında çap etdirdiyi «Müasir dövrün qlobal, ekoloji və demoqrafik problemlərinin sosial-fəlsəfi mahiyyəti" əsəri ilə o, Azərbaycan fəlsəfəsində yeni qlobal problemlər istiqamətinin bünövrəsini qoymuşdur. 1989-cu ildə A.Şükürov «Müasir qlobalistikada ekoloji problemlərin yeri və rolu» adlı doktorluq disertasiyasını müdafiə etmişdir. 1991-ci ildə o, SSRİ məkanında ilk dəfə olaraq «Ekologiyanın fəlsəfi problemləri» şöbəsini yaratdı. Təkcə bunu demək kifayətdir ki, 2000-ci ilə qədər şöbənin təşəbbüsü ilə «Ekologiya. Fəlsəfə. Mədəniyyət» adlı məcmuənin 24 buraxılışı çap olun-

muşdur. Professor Ağayar Şükürov bir sıra Beynəlxalq konfranslarda iştirak və çıxış etmişdir. Əsərləri Rusiyada və Türkiyədə çap olunmuşdur.

Göstəricinin «Yorulmaz tədqiqatçı» başlıqlı oçerkində qeyd edilir ki, onun yazdığı kitablara, monoqrafiyalara, dərsliklərə, məqalələrə diqqətlə nəzər salsaq, xalqını, vətənini, tarixi keçmişini dərindən düşünən bir alimin, ziyalının, vətəndaşın ürək döyüntülərini, mənəvi dünyasını aydın görə bilərik. A.Şükürovun namizədlik dissertasiyası «Milli və dini ənənələr» mövzusunda olduğuna görə o, dinin tarixi köklərini, əsl mahiyyətini, cəmiyyətdə mövqeyini, dini adət və ənənələri, ümumiyyətlə, ateizm problemlərini çox dərindən öyrənmişdir. Qeyd edək ki, Sovet cəmiyyətində dini adət və ənənələrin öyrənilməsinə, ateizm tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirilirdi. Bu cəhətdən gənc alimin ilk çap məhsulu da məhz həmin mövzuda olmuşdur. O, 1979-cu ildə «Bilik» cəmiyyətinin xəttilə nəşr etdirdiyi «Sosialist adət, ənənələri və ateizm tərbiyəsi» kitabında adət, ənənə, onların mahiyyəti, sosialist adət-ənənələrinin təşəkkülü gedişində dini ayin və mərasimlərin aradan qaldırılması və s. mühüm problemləri şərh etmiş, ateizm tərbiyəsi ilə bağlı müəyyən mülahizələrini bildirmişdir. Nəzərə almaq lazımdır ki, həmin dövrdə bu qəbildən olan tədqiqat işlərinin aparılmasına böyük ehtiyac duyulurdu. Lakin gənc tədqiqatçı ateizm tərbiyəsi ilə bağlı yazdığı mövzulara heç də ehkamçılıq mövqeyindən yanaşmırdı, o yeri gəldikcə dinin mütərəqqi xüsusiyyətlərini, eləcə də insanları fanatizmə, mövhumata səsləyən xüsusiyyətləri də açıb göstərirdi. Biz bu cəhətlərə «İslam-adət və ənənə», «Sosial tərəqqi və ateizm» kitablarında rast gələ bilərik.

Müstəqillik şəraitində dövlətimiz və xalqımız, alimlərimiz, ziyalılarımız, bütün qəbildən olan mütəxəssislərimizin qarşısında duran ən mühüm vəzifə müasir Azərbaycan cəmiyyətini informasiyalaşdırmaqdır.

Ümumiyyətlə, informasiyalaşdırma cəmiyyət üzvlərinin, dövlət idarə orqanlarının, yerli özünüidarə orqanlarının, cəmiyyətin bütün sosial strukturlarının, ictimai təşkilatların informasiya ehtiyatlarını formalaşdırmaq və ondan istifadə etmək əsasında informasiya tələbatını ödəmək üçün optimal şərait yaradan, həmçinin bu sahədə vətəndaşların hüququnu həyata keçirən, təşkil edən sosial-iqtisadi və elmi-texniki prosesdir.

Müasir dövrdə cəmiyyətin informasiyalaşdırılması cari biblioqrafik məlumatın dolğunluğunu, ardıcıllığını və operativliyini daha da artırmağı tələb edir. Buna görə də ənənəvi nəşrlərlə yanaşı, avtomatlaşdırılmış sistemlərin yaradılması, elektron nəşrlərin hazırlanması da dövrün zəruri şərtlərindədir. Burada kitabxanalar və biblioqrafik fəaliyyətin digər subyektləri bilavasitə dövlət və məhəlli informasiya-kitabxana ideologiyasının formalaşmasında, öz fəaliyyətlərinin hüquqi əsaslarının hazırlanmasında fəal iştirak edə bilirlər.

Nəticə olaraq qeyd etmək lazımdır ki, fəlsəfə elminə dair biblioqrafik informasiya təminatına həsr olunmuş mövzu araşdırılarkən məlum olmuşdur ki, bu sahəyə dair biblioqrafik nəşrlər kifayət qədər deyil. Ona görə də bu

sahədə müvafiq sahənin oxucu qruplarının informasiya təminatını daha da yaxşılaşdırmaq məqsədilə biblioqrafik göstəricilərin tərtibini artırmaq, eyni zamanda müasir informasiya texnologiyalarının tətbiqindən yararlanaraq onların elektron variantını da informasiya istifadəçilərinin ixtiyarına vermək məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. *«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. – 1999. – №1. – S.3 – 16.*
2. *Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2008. –11 aprel. – S.1.*
3. *Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2007. – 21 aprel.*
4. *Ağayar Şükürov: Biblioqrafiya / Tərt. ed.: Y.Babayev, A.Gözəlov; Red.: Ə.Amaşov; Azərb. EA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. – B.: Ruh, 2000. – 107s.*
5. *Azərbaycan SSR Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası III c. (1960-1965). VI kitab. Tarix, iqtisadiyyat, Fəlsəfə və hüquq elmləri /Tərt. ed.: T.D.Sadıxova, H.Ə.Zülalova, N.M.Teymurova, Ç.N.Əhmədova; Red.: Z.V.Mustafayeva, L.N.Markina; Azərb. EA MEKA. – B.: Elm, 1984. – 201 s.*
6. *İsmayılov N. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası. Biblioqrafik vəsaitlərin göstəricisi.- B.: Mütərcim, 2003.- 112 s.*
7. *Əliyev Z.H. Azərbaycanda biblioqrafik fəaliyyətin bəzi təşkili məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya. – 2003. - №1. – S.63-77.*
8. *Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi. – B., 2007. – 195 s.*
9. *Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsati.–B.:Bakı Universiteti Nəşriyyatı, 2001.–145 s.*
10. *Fəlsəfə ensiklopedik lüğəti.-B.: «Azərbaycan Ensiklopediyası». Nəşriyyat-Poliqrafiya Birliyi, 1997, 520s.*
11. *Firudin Qasım oğlu Köçərli: Biblioqrafiya / Tərt. ed. Ç.N.Əhmədova; Red.: F.İ.Hüseynova. – B.: Elm, 1997. – 65s. («Azərbaycanın elm və mədəniyyət xadimləri» ser).*
12. *Heydər Hüseynov (1908-1950): Biblioqrafiya / Tərt. ed.: H.Z.Mahmudov; Red.: M.A.Dadaşzadə, İ.A.Səfərov; Azərb. EA MEK. – B.: Azərbaycan SSR EA nəşri, 1965. – 46s. («Azərbaycanın elm və mədəniyyət xadimləri» ser).*

*13. Xələfov A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri // Respublika. – 2002. – 17 aprel.*

*14. Məmmədov Z. Şihabəddin Yəhya Sührəvərdi: Qısa biblioqrafik məlumat / Azərb. EA MEK. – B.: Elm, 1991. – 40s.*

*15. Vəzirova R., İsmayılov N. Biblioqrafik tərtibatın metodikası. – B.: Mütərcim, 2004. – 52 s.*

*16. Библиографическая работа в библиотеке: организация и методика: Учебник. – М.: Книжная палата, 1990. – 256 с.*

***Н. И.ИСМАИЛОВ***
***С.А. САДЫГОВА***

## БИБЛИОГРАФИЧЕСКИЕ ИНФОРМАЦИОННЫЕ ИСТОЧНИКИ, ПОСВЯЩЕННЫЕ ФИЛОСОФСКОЙ НАУКЕ

### *РЕЗЮМЕ*

*Философская наука одна из компонентов социально-политической науки. В статье говориться о комплексе социально-политических наук и об исследовании проблемы обеспечения библиографическими пособиями философской науки, которая является одной из ведущий наук этого комплекса.*

***N.İ. İSMAİLOV***
***S. A.SADİGOVA***

## BİBLİOGRAPHİC SOURCES WHİCH WERE DEVOTED TO PHİLOSOPHY

### *SUMMARY*

*Philosophy is one of the structures of social-political sciences. İn article is speaking about the complex of social-political sciences and also about investigation of problem of providing with bibliographic sources of philosophy, which is the one of the leading science of this complex.*

**Raifə VƏZİROVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi***

# KİTABXANALARDA BİBLİOQRAFİK İŞİN PLANLAŞDIRILMASININ TƏŞKİLİ MƏSƏLƏLƏRİ

Biblioqrafik fəaliyyətin təşkilində, inkişafında, informasiya mənbələrinin yaradılmasında, informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasir texnologiyanın tətbiqi istiqamətlərini nizama salan mərkəzlərdən biri də idarəedici müəssisə və təşkilatlardır. Təsadüfi deyildir ki, "Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamında da aparıcı kitabxanaların qarşısında cəmiyyətin informasiya təminatının həyata keçirilməsi, müasir texnologiyaların tətbiqi və Azərbaycanda kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramının hazırlanması məsələləri ön plana çəkilmişdir (1).

Bütün kitabxana işində, o cümlədən biblioqrafik proseslərin yerinə yetirilməsi sahəsində müəyyən nailiyyətlərin əldə edilməsi üçün idarəedici müəssisə və təşkilatların rolu və əhəmiyyəti böyükdür. Onlar kitabxanalarda aparılan biblioqrafik fəaliyyətin həm biblioqrafiyalaşdırma (biblioqrafik məlumat mənbələrinin yaradılması) və həm də biblioqrafik xidmət (biblioqrafik məlumatın oxuculara çatdırılması) sahələrinin intensivləşdirilməsi, gələcək perspektivlərin müəyyənləşdirilməsi üçün müxtəlif tədbirlər həyata keçirirlər.

Kitabxanalarda biblioqrafiya işinin təşkili və müxtəlif aspektlərini nizama salan rəsmi sənədlərin qəbulu, eləcə də müxtəlif biblioqrafik iş proseslərinə dair plan formaları, təlimatlar və uçot nümunələrinin tərtib edilib kitabxanalar arasında yayılması da biblioqrafik işin müvəffəqiyyətlə həyata keçirilməsinə öz müsbət təsirini göstərir. Belə ki, bütün kitabxanalar vahid qayda, təlimat və uçot formaları əsasında işləyir ki, bu da kitabxanalarda aparılan biblioqrafik iş proseslərinin planlaşdırılması, uçot və hesabatının dəqiq yerinə yetirilməsinə və onlara vahid nəzarət edilməsinə imkan yaradır.

İdarəetmə funksiyasının məzmunu idarəetmə obyektindən asılıdır. Hər bir halda idarəetmə funksiyasının tərkibi, idarə olunan sistemdə baş verən hər bir dəyişikliyə qarşı vaxtında öz münasibətini bildirməyi bacarmalıdır. Kitabxanalarda biblioqrafik fəaliyyətin idarə olunmasının funksiyaları aşağıdakılardır: planlaşdırma, biblioqrafik işin təşkili, nəzarət, uçot və tənzimləşdirmə (2).

Bu funksiyalar bir-biri ilə qarşılıqlı əlaqəyə malikdir. Belə ki, planlaşdırma, nəzarət, uçot və nizama salmaq işi təşkil etməyi tələb edir. Eləcə də təşkilati prosesi plansız qaydaya salmaq mümkün deyil. Kitabxananın təşkilati quruluşundan asılı olaraq biblioqrafik fəaliyyətin idarə olunması da ona uyğunlaşdırılmalıdır.

İdarəetmənin müəyyənedici funksiyalarından biri planlaşdırmadır. Onu qeyd etmək kifayətdir ki, qalan funksiyaların yerinə yetirilməsində biblioqrafik fəaliyyətin nailiyyətlərinin nəticəsi planda verilmiş məsələlərdən çox asılıdır.

Kitabxanalarda biblioqrafik fəaliyyətin planlaşdırılması əməyin təşkilini yüksəldir. Eyni zamanda uçot və hesabat işlərinin proseslərinə sistemli nəzarət edir. Hər bir kitabxanada biblioqrafik iş əvvəlcədən tərtib olunmuş plan əsasında aparılır. Biblioqrafik proseslərin planlaşdırılmasının dəqiqliyi və elmi cəhətdən əsaslandırılması kadrların düzgün yerləşdirilməsini, kitabxana işçiləri arasında optimal vəzifə bölgüsü aparılmasını, maddi-texniki və maliyyə ehtiyatlarından səmərəli istifadə olunmasını təmin edir. Biblioqrafik işin planlaşdırılması ümumi prinsiplərə əsaslanır. Bu prinsiplər elmi cəhətdən əsaslandırma və direktivlikdir. Planlaşdırılan işin elmi cəhətdən əsaslandırılması kitabxananın real şəraitini və imkanlarını hesaba almağı, biblioqrafik nəzəriyyə və təcrübənin nailiyyətlərindən istifadə etməyi, mütərəqqi texnologiyanın və qabaqcıl iş təcrübələrinin tətbiqini nəzərdə tutur. Bir-biri ilə bağlı olan proseslər üzrə iş planlarının yekdilliyini də təmin etmək vacibdir.

Rəhbərlik tərəfindən təsdiq edilmiş plan sözsüz yerinə yetirilməsini tələb edən direktiv sənəd qüvvəsinə malik olur. Yalnız rəhbərliyin icazəsi ilə müvafiq dəlillər olduqda planda dəyişikliklər və əlavələr edilə bilər. Yeni ictimai şəraitlə əlaqədar olaraq cəmiyyətimizin bütün sahələrində olduğu kimi, kitabxana işi sahəsində də planlaşdırma tamamilə yeni məzmun və əhəmiyyət kəsb etmişdir. Bütün sosial institutlar kimi, kitabxanalar da müvafiq plan əsasında işləməlidir. Sadəcə olaraq hazırki şəraitdə planlar bütün ideoloji tabeliyi aradan qaldırmaqla tərtib edilməlidir. Bu baxımdan kitabxananın işinin planlaşdırılmasının müvafiq prinsipləri, ona verilən tələblər müasir şəraitə uyğun olaraq yeni xüsusiyyətlər kəsb etməklə öz əhəmiyyətini saxlamaqdadır.

Beləliklə, müasir şəraitdə kitabxanalarda biblioqrafiya işinin planlaşdırılmasında respublikamızın tam müstəqilliyə malik olması ideyası əsas götürülməli və bütün plan göstəriciləri bu ideyanın həyata keçirilməsi istiqamətində tərtib edilməlidir. Planlaşdırmada real şərait və kitabxananın imkanları nəzərə alınmalı, bütün göstəricilər dəqiq hesablanmalı və bir-biri ilə əlaqələndirilməlidir. Kitabxanaların iş təçrübəsində planlaşdırmanın iki növü formalaşmışdır - perspektiv və operativ (cari). Daha çox uzun müddətə tərtib edilən perspektiv plan ümumi xarakter daşıyır və kitabxananın biblioqrafik fəaliyyətin inkişafı ənənəsini əks etdirir. Orada soraq-biblioqrafiya aparatının təkmilləşdirilməsinə dair əsas tədbirlər, tərtib olunması planlaşdırılan biblioqrafik vəsaitlərin xarakteri və mövzusu, biblioqrafik-informasiya xidmətinin inkişafı və s. göstərilir. Hər il həyata keçirilən operativ-cari planlaşdırma bütün kitabxanalar üçün vacibdir. Biblioqrafik işin planı kitabxananın ümumi illik planının bir bölməsindən ibarətdir. Orada biblioqrafik fəaliyyətin bütün istiqamətləri, işin həcmi, icra müddəti və konkret icraçılar müəyyənləşdirilir.

Xüsusi kitabxanalar üçün xidmət etdikləri müəssisə və təşkilatların konkret elmi və istehsalat planlarını öyrənmək olduqca vacibdir. Onlarda təkcə problem deyil, həm də yeni texnikanın, texnologiyanın tətbiqi müddəti, texniki, tədbirlər, elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin yerinə yetirilməsi mərhələləri əks olunur. Bu materiallarla yanaşı keçən ilin nəticələri və cari ilin planını səciyyənləndirən əsas illik göstəricilər təhlil olunur. Təhlil zamanı nəinki miqdar göstəricilərinə diqqət yetirmək lazımdır, hətta işdə olan müsbət cəhətləri və çatışmazlıqları, plandan kənara çıxma hallarını və onların səbəblərini aşkar etmək lazımdır ki, növbəti ilin planının tərtibində onlar nəzərə alınsın.

Kitabxananın ümumi illik planı: kitabxananın növbəti ildə əsas vəzifələrinin ifadəsini, müvafiq bölmələr üzrə konkret işin rəqəm göstəriciləri ilə siyahısını əks etdirən mətn hissəsindən; planı şərh edən qeyddən ibarətdir. Metodik mərkəzlər tərəfindən müxtəlif tipli kitabxanalar üçün plan forması və planlaşdırılan götəricilərin əks olunmasına dair tövsiyələr işlənmişdir.

Kitabxanalarda biblioqrafik iş bu əsas istiqamətlər üzrə planlaşdırılır:

- Biblioqrafik informasiya xidməti;
- Soraq-biblioqrafiya xidməti;
- Biblioqrafik vəsaitlərin tərtibi və oxucularla işdə onlardan istifadə olunması;
- Oxuculara kitabxana-biblioqrafiya biliklərinin təbliği;
- Kitabxanalara biblioqrafik iş məsələlərinə dair metodik köməklik;
- Kitabxananın elmi-tədqiqat işində iştirak etmək4
- Biblioqrafik bölmə işçilərinin ixtisaslarını artırmaq (2).

Xüsusi biblioqrafiya şöbəsi olmayan məhəlli səviyyəli kitabxanaların planlaşdırılmasında soraq-biblioqrafiya aparatı ilə iş, soraq-biblioqrafiya və informasiya xidməti, kitabxana-biblioqrafiya biliklərinin tabliği məsələləri öz əksini tapır. Biblioqrafik işin planlaşdırılmasında ayrı-ayrı proseslərin ehtimallıq xarakterindən irəli gələn məlum çətinlikləri vardır. Birinci növbədə bu, soraq-biblioqrafiya xidməti işinə aiddir. Ona görə müxtəlif tipli biblioqrafik arayışların miqdarını planlaşdırarkən bir qayda olaraq ayrı-ayrı oxucuların, təşkilat və idarələrin sorğularının mövzusuna təsir edə biləcək bəzi zahiri amillər nəzərə alınmaqla əvvəlki ildə əldə edilmiş səviyyədən nəticə çıxarırlar.

Kitabxanada illik planı üç hissədə tərtib etmək məsləhət görülür. Birinci hissədə yəni mətn hissəsində şöbənin il ərzində qarşıda duran vəzifələri izah edilir. İkinci hissədə əsas göstəricilər cədvəl şəklində verilir. Ücüncü hissədə isə biblioqrafik proseslərin siyahısı göstərilir. Biblioqrafik fəaliyyətin idarə olunması nöqteyi-nəzərincə planın ücüncü hissəsi daha böyük əhəmiyyətə malikdir. Burada hər bir biblioqrafik prosesin yerinə yetirilmə norması, vaxtı və ümumi həcmi qeyd edilir. İllik planın məhz bu hissəsi planlaşdırılmış sənəd rolunu oynayır və biblioqrafik proseslərin idarə olunmasında əsasdır.

Planlaşdırma işin həcmini düzgün müəyyənləşdirir və biblioqrafik prosesin ümumi məzmununa sərf olunacaq əməyin hesablanmasına imkan yaradan normalar əsasında həyata keçirir. Hər bir kitabxana müvafiq metodik mərkəzin, tabeçilik mənsubiyyətli kitabxanaların spesifik işlərini nəzərə almaqla öz şəbəkəsi üçün hazırladığı normalardan istifadə edir. Az işçi ştatına malik olan kitabxanalar üçün adətən birləşmiş proseslər üzrə kompleks normalar işlənilir. Hər hansı bir proses üçün vaxt normaları olmadıqda onların bilavasitə kitabxanada təcrübə qoymaq yolu ilə müəyyənləşdirir və ya başqa böyük kitabxanaya tövsiyə edilən əməliyyatlar üzrə normalar təhlil olunmaqla hesablanılır.

Planlaşdırmanın qarşısında duran tələblərdən biri proseslərin dəqiq müəyyənləşdirilməsindən ibarətdir. Plan o zaman real olur ki, nəzərdə tutulan işin həcmi biblioqrafiya şöbəsinin ştatda olan işçilərinin ümumi iş vaxtlarına uyğun gəlsin. Ona görə kitabxananın planlaşdırılan işi yerinə yetirmək üçün təmin edə biləcəyi real vaxtının hesablanması vacibdir.

Saatla planlaşdırılan işin həcmini (ağırlığını) normalardan istifadə etməklə asan hesablamaq mümkün olur ki, bu da nəticədə real iş vaxtına uyğun gəlməlidir. Planlaşdırmaya bu cür yanaşıldıqda biblioqrafiya şöbəsinin əməkdaşları arasında tapşırılıqların bölgüsü yüngülləşəcək, onlardan hər biri təhkim olunduqları işin növlərini və planlaşdırılan bütün dövr üçün işin ümumi həcmini biləcək. Yerinə yetirilmə müddəti planlaşdırılan işin həcmindən asılı olaraq biblioqrafiya şöbəsinin şəraiti nəzərə alınmaqla müəyyənləşdirilir.

İllik planın layihəsi biblioqrafik istehsalat müşavirəsində müzakirə olunur və kitabxananın rəhbərliyi tərəfindən təsdiq edilir. İllik plan əsasında bütün şöbələrin rüblük planı, bölmələrin rüblük planları və şöbə işçilərinin fərdi planı tərtib olunur. Rüblük planlar tərtib olunarkən hər rübün xüsusi cəhəti (məsələn, oxucuların kitabxanaya müraciət etməsi ardıcıllığı nöqteyi-nəzərdən) və bölmənin iş vaxtının rüblük fondları nəzərə alınır. Rüblük planlarda, həm də, irəli sürülən yeni vəzifələrlə əlaqədar baş verə biləcək işlər nəzərdə tutulur (kitabxananın planlarında onları həmişə nəzərə almaq mümkün olmur). Biblioqrafik bölmədə illik və rüblük planlarla yanaşı işin ayrı-ayrı növlərinə-konkret elmi-tədqiqatın aparılmasına, retrospektiv biblioqrafik vəsaitin tərtibinə və s. dair xüsusi (məqsədli) planlar da tərtib olunur. Belə məqsədli planlar elmi-köməkçi göstəricilərin tərtibi zamanı xüsusilə vacibdir. Onlar vəsaitin proqramı ilə yanaşı işin hər bir mərhələsinə nəzarəti həyata keçirməyə və onun müəyyən olunmuş müddətdə başa çatdırılması üçün tədbir görülməsinə imkan verir.

Biblioqrafik işin planlaşdırılması nəinki əməyin təşkilinin yaxşılaşdırılmasını təmin edir, həm də bütün proseslərə müntəzəm nəzarəti, uçot və hesabatı qaydaya salmağa imkan verir. Biblioqrafların cari işi fərdi gündəliklərin də, həmcinin biblioqrafik bölmənin planda göstərilmiş əsas bölmələr üzrə uçotu aparılan vahid jurnalda nəzərə alınır. Bəzi kitabxanalarda kitabxana işçisinin biblioqrafik proses adlarını, yerinə yetirilən işin həcmini və sərf olunan vaxtı

qeyd etdiyi xüsusi uçot forması (“Ucot vərəqəsi”) hazırlanır. Bu cür ilkin uçot proseslər üzrə aylıq işə yekun vurmağa, bütün proseslərin yerinə yetirilməsinə sərf olunan vaxtı hesablamağa, həmçinin hər rübün fərdi hesabatını tərtib etməyə imkan verir. Soraq-biblioqrafiya işinin uçotu spesifik xüsusiyyətə malikdir. Onu yalnız biblioqrafik bölmədə deyil, həm də soraq-biblioqrafiya xidməti ilə məşğul olan bütün başqa şöbələrdə vahid forma üzrə aparmaq məqsədəmüvafiqdir. Vahid uçotun aparılması həmin işin düzgün və əsaslı şəkildə planlaşdırılmasını, sorğuların öyrənilməsini, işçilərin ixtisasının artırılmasını təmin edir.

Müxtəlif biblioqrafik və faktoqrafik sorğular, onların arayış və məsləhətlər formasında yerinə yetirilən cavabları, həmçinin başqa kitabxanalara və ya məlumat xidmətlərinə göndərilmiş sorğular və onların yerinə yetirilməsinə dair yox cavabları uçotun obyektinə aiddir. Şifahi və ya yazılı formalı bir arayış (müsbət və ya mənfi cavab verilməsindən asılı olmayaraq) və ya bir biblioqrafik məsləhət uçot vahidi hesab olunur. Bir dəfəlik sorğular və ya cavabları, başqa kitabxanalara göndərilən sorğular soraq-biblioqrafiya xidmətinin təhlilində nəzərə alınır, lakin kitabxananın əsas göstəricilərinə daxil edilmir.

Rüblük və illik planların bütün iş həcmi üzrə yerinə yetirilməsi nəticələri (biblioqrafiya şöbəsinin və bütövlükdə kitabxananın) uçotunun, nəzarətinin və hesabatının həlledici hissəsi olan rüblük və illik hesabatlarda yekun vurulur. Planın quruluşu hesabatın forma və quruluşuna uyğun gəlməlidir. Proseslərin adları, ölçü və uçot vahidləri, proseslərin saat hesabı yerinə yetirilməsi normaları plandan (həmin ardıcıllıqla) hesabata köçürülür. Hesabatın müvafiq qrafalarında hər proses üzrə yerinə yetirilmiş işin həcmini və onların yerinə yetirilməsinə sərf olunmuş vaxtı əks etdirirlər. Hesabatın belə forması hər bir proses üzrə planın yerinə yetirilməsini təhlil etməyə imkan verir. İllik hesabatın statistika ilə yanaşı mətn hissəsi də olur ki, burada kitabxananın biblioqrafik işi hərtərəfli səciyyələndirilir. İllik hesabat qabaqcıl təcrübənin öyrənilməsi və yayılmasının mühüm mənbəyidir. Ona görə də hesabatın mətn hissəsində əsas diqqət biblioqrafik xidmətlə əlaqədar proseslərə verilir. Hesabatdakı təhlil əsasında il ərzindəki işin uğurları və çatışmayan cəhətlər meydana çıxarılır, biblioqrafik informasiya xidməti səciyyələndirilir, daha uğurlu tədbirlər qeyd edilir.

Qeyd etmək lazımdır ki, nəinki kitabxanada biblioqrafik fəaliyyətin planlaşdırılması həmçinin ümumilikdə kitabxana fəaliyyətinin planlaşdırılması istər nəzəri, istərsə də təcrübi cəhətdən cox az işlənmiş bir problemdir. Halbuki bu məsələ kitabxanaların inkişafında əsas və aparıcı funksiyaya malikdir.

Professor X.İsmayılovun dediyi kimi: “Açıq etiraf etmək lazımdır ki, ancaq iri universal kitabxanaların bəziləri kollektivin sosial inkişaf planı əsasında öz fəaliyyətlərini qururlar. Ümumiyyətlə qeyd etmək lazımdır ki, kitabxana kollektivin sosial planlaşdırılmasının bu cür metodu respublikamızda eləcə də ondan kənarda hələlik işlənilməmişdir” (5, s 30).

Bu gün M.F.Axundov adına Azerbaycan Milli Kitabxanası, sahəvi mərkəzi elmi kitabxanalar metodik mərkəz kimi biblioqrafik fəaliyyətin planlaşdırılmasına dair müxtəlif məqsədli plan formaları hazırlayıb kitabxanalara təqdim etməlidirlər. Bu planlar kitabxananın tipi, profili oxucu kontingenti və avtomatlaşdırılmanın tətbiqi səviyyəsi nəzərə alınaraq tərtib edilməlidir.

## ƏDƏBİYYAT


1. *"Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncami // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. -B., 2009.-№1.S.7.*
2. *Əliyev Z. Müasir biblioqrafik fəaliyyətin təşkili, inkişafı və tətbiqi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya.- B.,2009.-№1.- S.91-98.*
3. *Xələfov A.A. XXI əsrin əvvəllərində kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar.) – B., 2006.- 106 s.*
4. *İsmayılov X. Kitabxanaların idarə edilməsinin müasir problemləri. //Kitabxanaşünaslıq və biblioqrafiya.-B.,2009.-№1.-S.27-35.*
5. *İsmayılov X. Kitabxanaların idarə edilməsinin strateji əsasları.// Kitabxanaşünaslıq və biblioqrafiya.- B.,2008.-№1.-S.27-39.*



***Р.А.ВЕЗИРОВА***


## ВОПРОСЫ ОРГАНИЗАЦИИ ПЛАНИРОВАНИЯ БИБЛИОГРАФИЧЕСКОЙ РАБОТЫ В БИБЛИОТЕКАХ


***РЕЗЮМЕ***

*Одной из функций управления библиографической деятельности библиотек является планирование. В статье дается теоретический анализ видов планирования и методика их составления, которое оказывает положительное влияние на все аспекты библиографической деятельности библиотеки.*



***R.A.VAZİROVA***


## THE QUESTIONS OF ORGANIZATION OF PLANNING OF BIBLIOGRAPHIC ACTIVITY IN THE LIBRARIES


***SUMMARY***

*One of functions of management of bibliographic activity in the libraries is planning. Given article describes theoretical issues of planning, ways of plan composing and influence of planning to the bibliographic activity of the library.*

**Sima İSMAYILOVA**
*Biblioqrafiyaşünaslıq kafedrasının*
*baş müəllimi*

## UŞAQ ƏDƏBİYYATINA DAİR BİBLİOQRAFİK İNFORMASİYAYA SOSİAL TƏLƏBAT

Respublikamızın müstəqillik yolu ilə inamla irəlilədiyi bir zamanda böyüməkdə olan uşaq və yeniyetmələrin düzgün və məqsədyönlü tərbiyəsi, ana vətənə, müqəddəs torpağa məhəbbət, şəhidlərimizin unudulmaz xatirəsinə ehtiram və gələcəyə inam ruhunda yetişdirilməsi, gənclərin dünyagörüşünün formalaşdırılması, vətənə layiqli vətəndaş kimi yetişdirilməsində uşaq ədəbiyyatının rolu böyükdür.

Uşaq ədəbiyyatı tarixinin bəşər övladının yaşı qədər çox qədim dövrlərdən başladığını söyləsək səhv etmərik. Yuxularımızı ərşə çəkən sehrli nağıllar, analarımızın laylaları, bayatıları uzun illər mənəvi dünyamızın zəngin xəzinəsi olmuşdur. Uşaq ədəbiyyatı bütün insanların bəhrələndiyi və çox sevdiyi bir ədəbiyyatdır. Dünyanın ən uca sərkərdələri, sənət dühaları belə uşaq ədəbiyyatının gözündən su içib zaman-zaman öz adlarını tarixin səhifələrinə yazmışlar.

Uşaqlar bizim gələcəyimizdir. Bu müdrik firkin məna çalarları çoxdur. Onların məhz xoş sabahımız olmaları bu günün necəliyindən çox asılıdır. Elə buna görə də ölkə başçısı cənab İlham Əliyev 22 dekabr 2008-ci ildə “2009 – cu ilin “Uşaq ili” élan edilməsi haqqında” sərəncam imzalayıb.

Sərəncamdan irəli gələn vəzifələrin həllində ölkədə fəaliyət göstərən dövlət qurumları ilə yanaşı kitabxanaların da vəzifələri müəyyənləşdirilmişdir. Cəmiyyətin mədəni sərvəti və informasiya bazası olan kitabxanalar müasir dövrdə olduqca mürəkkəb sosial funksiyaları yerinə yetirməklə, uşaqların mütaliə mədəniyyətinin formalaşmasına səmərəli təsir göstərir. Kitabxanaların yerinə yetirdikləri funksiyalar “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda daha ətraflı öz əksini tapmışdır. Qanunda yazılır: “Kitabxana – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb, mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellectual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur” (1).

Bəşər sivilizasiyasının ən böyük nailiyyətlərindən biri olan kitab nəsildən-nəslə məhz kitabxanalar vasitəsilə çatdırılır. Ulu öndərimiz H.Əliyev kitabxanaların fəaliyyətini yüksək qiymətləndirərək demişdir: “Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir”(2).

Müasir dövrdə kitabxanalar bəşəriyyətin elmi sərvətini toplayıb, qoruyub onları insanların istifadəsinə verməklə elmin, mədəniyyətin və yeniyetmələrin dünyagörüşünün formalaşdırılması, elmin və texnikanın yeni nailiyyətlərini, ətraf aləmdə baş verən təbiət və cəmiyyət hadisələrinin mahiyyətinin dərk edilməsinə uyğun iş aparmaq, respublikamızın həyatında baş verən əlamətdar hadisələrin təbliğinin günün tələbləri səviyyəsində qurmaq kimi mühüm vəzifələri yerinə yetirirlər.

Milli-mənəvi dəyərlərimizi özündə əks etdirən uşaq ədəbiyyatına olan qayğı və diqqətin nəticəsi olaraq ədəbi irsimizin qorunmasınhda ulu öndər H.Əliyevin davamçısı cənab president İlham Əliyev “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncamı imzalamışdır. Bu sərəncama əsasən təkrar nəşr edilən kitablar ölkə kitabxanalarına hədiyyə edilir, bununla da uşaq ədəbiyyatına olan biblioqrafik informasiya tələbatının ödənilməsində əhəmiyyətli rol oynayır.

Uşaq ədəbiyyatı hər bir yeniyetmənin, gəncin gələcəyini müəyyənləşdirir, sənət, ixtisas seçimində, elmin sirlərinə yiyələnməkdə yardımçısı olur. Bundan başqa uşaq ədəbiyyatı uşaqların mütaliə mədəniyyətinin yüksəldilməsinə də öz təsirini göstərir. Uşaqlar bədii ədəbiyyat vasitəsilə keçmişi, bugünkü həyatımızı və inkişafımızı bədii şəkildə öyrənirlər. Ona görə də uşaqların yaş xüsusiyyətlərinə və bilik səviyyələrinə uyğun ən yaxşı əsərlərin təbliğ edilməsi mühüm əhəmiyyətə malikdir. Uşaq əsərlərinin təbliği üçün biblioqrafiyaya böyük ehtiyac vardır. Azərbaycan ədəbiyyatı biblioqrafiyasının əsas qollarından birini uşaq ədəbiyyatının biblioqrafiyası təşkil edir. Uşaq ədəbiyyatının müxtəlif yaşlı oxucular arasında təbliğ edilib yayılması, onun biblioqrafiyasının daha da inkişaf etdirilməsini tələb edir. Uşaq ədəbiyyatının biblioqrafiyası ədəbiyyat təbliğində və şagirdlərin mütaliəsinə rəhbərlikdə ən mühüm vasitə hesab olunur.

Müstəqil respubmlikamızda uşaq kitabxanaları tərəfindən həyata keçirilən bütün biblioqrafik işlər, müxtəlif yaşlı uşaqların mütaliəsinə rəhbərlik və ümumi biblioqrafik informasiyanın genişlənməsinə kömək etməklə bərabər, həm də uşaqların mütaliə mədəniyyətinin tərbiyəsi ilə bağlıdır.

Gələcəyimiz olan uşaqların, bugünkü məktəblilərin dünyagörüşünün zənginləşməsində, estetik və mənəvi tərbiyəsində, tədris prosesində, onların əxlaqi tərbiyəsində, bir sözlə uşaq və gənclərin formalaşmasında uşaq kitabxanalarının rolu böyükdür. Uşaq kitabxanalarında əsas tərbiyə vasitəsi kitabdır. Bütün şüurlu həyatı boyu insanı müşayiət edən kitab onun etibarlı məsləhətçisi və dostudur, mənəviyyat məbəyidir.

Müstəqillik dövründə cəmiyyətimizin bütün sahələrində əsaslı dəyişikliklər getdiyi bir zamanda kitabın rolu və əhəmiyyəti daha da artmışdır. Çünki kitab dövlət quruculuğumuzun alovlu təbliğatçısıdır. Kitab uşaq oxucularının psixologiyasının dəyişməsinə kömək edir, onların formalaşmasının, tərbiyələnmələrinin etibarlı silahıdır. Müasir dövrdə qarşıda duran ən

mühüm vəzifələrdən biri hərtərəfli inkişaf etmiş şəxsiyyətlər yetişdirməkdir. Milli şüur və ləyaqətin tarixi kökləri təsdiq edir ki, hər bir xalq, həmçinin Azərbaycan xalqı özünün tarixi şəxsiyyətlərilə öyünməyə mənəvi haqqı vardır. Milli şüurun formalaşmasına müxtəlif amillər təsir göstərir ki, bunlardan da əsası uzun illər respublikamızda formalaşmış uşaq ədəbiyyatıdır.

Uşaq ədəbiyyatı bəşəriyyətin yaratmış olduğu bütün maddi və mənəvi sərvətləri yeni nəslə öyrədir, onları bu sərvətin əsl varisi kimi tərbiyə edir.

Uşaq ədəbiyyatı - ədəbiyyatın tərkib hissəsi olub, məqsəd və vəzifəsinə görə 17 yaşına qədər müxtəlif oxucu qruplarının təlim, təhsil və əxlaqi-estetik tərbiyəsinə yönəldilən əsərlərə deyilir. (3)

Oxucuların yaş xüsusiyyətlərini nəzərə alan uşaq ədəbiyyatı, əxlaqi-tərbiyəvi məzmunu ilə bərabər, özünəməxsus mövzu, ideya, dil-üslub xüsusiyyətlərinə də malikdir. Uşaqlar üçün yazmaq olduqca çətindir.Onun özünəməxsus xüsusiyyətləri yazıçıdan fitri istedadla, elmi biliklərə yiyələnməklə yanaşı, uşaq aləmini dərindən öyrənməyi tələb edir. Müxtəlif yaşlı uşaqların maraq dairəsini, estetik zövqünü öyrənmədən, onu müəyyən məqsədə döğru yönəltmək, onun fərdi meylini inkişaf etdirmək olmaz. Məlumdur ki, hər bir insanın müxtəlif xarakterə və məzmuna malik çoxlu informasiya tələbatları ola bilər.

Uşaqların biblioqrafik informasiya almaqla bağli olan sənəd tələbatları, maraqları və sorğuları müxtəlifdir. Cəmiyyətdə sənəd tələbatı obyektiv olaraq həmişə var və baş verdiyi dövrün konkret sosial şəraiti ilə şərtləşir. Fərdi tələbat isə fərdin şəxsi xüsusiyyətlərinə görə dürüstləşdirilir.

Uşaqların tələbatları maraqları vasitəsilə reallaşır. Maraq tələbatın səciyyəvi mövcudluq formasıdır. Maraq öz növbəsində informasiya istifadəçisində subyektiv şəkildə formalaşan sorğuya çevrilir. Sənəd maraqları və sorğuları sənəd tələbatlarının səciyyəvi mövcudluq formasıdır.

Uşaq ədəbiyyatı uşaqların yaş səviyyəsinə münasib bir üslubda yazılır. Pedaqoji təlimə əsasən 17 yaşına qədər olan oxucular dörq qrupa bölünür: I Bağçayaşlı uşaqlar (3-7), II Kiçik yaşlı məktəblilər (7-11), III Orta yaşlı məktəblilər (11-15), IV Yuxarı yaşlı məktəblilər və yaxud gənclər (15-17). (3)

Uşaqlar üçün əsər yazan hər bir yazıçı bu bölgünü nəzərə alır. Eyni zamanda bilir ki, uşaq ədəbiyyatı oxucuların yalnız yaşı ilə müəyyənləşmir. Burada uşağın ictimai mühiti, inkişafı, idrakı, zövqü, nitqi, bilik dairəsi də nəzərə alınır. Uşaq oxucularının tələbatlarını və maraqlarını öyrənərkən bu cəhətlərə diqqət yetirilməlidir. Uşaq yazıçısı bu xüsusiyyətləri nəzərə almadan öz əsərinin ünvanını düzgün müəyyənləşdirə bilməz. Uşaq aləminə dərindən bələd olan yazıçı yeniyetmələrin yaş xüsusiyyətləri ilə bağlı tələbləri nəzərə alır.

Məzmun və mündəricəsindən, məqsəd və vəzifəsindən göründüyü kimi, uşaq ədəbiyyatı ayrı-ayrı elmlərlə təmasda yaranıb inkişaf edir. Pedaqoqika, psixologiya, etika, estetika, incəsənət, təbabət və dəqiq elmlər uşaq ədəbiyyatında bu və ya digər dərəcədə qovuşur. Bu elmlərsiz uşaq ədəbiyyatı

bəsit və məzmunsuz görünərdi. Çünki, gəncliyin hərtərəfli inkişaf etməsində bu elmlərin hər birinin özünəməxsus yeri vardır.

Tarixin müxtəlif keçidlərində yaranan uşaq ədəbiyyatı klassik ədəbiyyatın ənənələrini davam etdirməklə xalq həyatını daha dolğun, hərtərəfli işıqlandırmışdır. Beləliklə, uşaq ədəbiyyatı mənəvi-estetik və ideya-məfkurəvi tərbiyə məktəbinə çevrilmişdir. Öz qaynaqlarını əsrlərin dərinliyindən alan Azərbaycan uşaq ədəbiyyatı təravətli, təsirli və uzunömürlüdür. Şifahi xalq ədəbiyyatı xəzinəsinin inciləri – nağıllar, mahnılar, dastanlar, atalar sözləri, lətifələr və s. uşaq ədəbiyyatını xəlqilik və bədii sənətkarlıq baxımından zənginləşdirir.

Məlumdur ki, hər hansı milli ədəbiyyatın zənginləşməsində və inkişafında tərcümə ədəbiyyatı böyük əhəmiyyət kəsb edir. Tərcümə ədəbiyyatı vasitəsilə xalqlar bir-birinin həyat və məişət tərzini, adət və ənənələrini, psixologiyasını, mədəni tərəqqisini, inkişafını və mübarizə tarixini öyrənir. Bu eyni zamanda milli ədəbiyyatların qarşılıqlı inkişafına təsir göstərir.

Azərbaycan uşaq ədəbiyyatı rus və dünya ədəbiyyatının ən qabaqcıl təcrübələrini əxz etməklə daha da zənginləşir. Müasir dövrdə Azərbaycan uşaq ədəbiyyatının yayılması və təbliğində biblioqrafik informasiya mənbələrinin rolu əvəzsizdir. Biblioqrafiya sənəd-kommunikasiyaları sistemində vasitəçilərdən biri olmaqla uşaq ədəbiyyatının mövcudluğu, tərkibi, forma və məzmunu haqqında cəmiyyət üzvlərinə biblioqrafik informasiya çatdırır. Biblioqrafiya öhdəsinə düşən bu mühüm funksiyanı müxtəlif formalarda təzahür edən biblioqrafik informasiya vasitəsilə həyata keçirir. Biblioqrafik informasiyanın cəmiyyətdə zahiri təzahür formasının əsasını vəsaitlər təşkil edir. Uşaq ədəbiyyatını özündə əks etdirən biblioqrafik vəsaitlər həm ümumi, xüsusi və şəxsi biblioqrafik mənbələr şəklində mövcuddur. Eyni zamanda bu biblioqrafik mənbələr oxucu və məqsəd istiqamətinə görə tövsiyə və elmi-köməkçi xarakterli vəsaitlərdir. Uşaq ədəbiyyatına dair biblioqrafik informasiyaya olan tələbatın ödənilməsində mühüm rol oynayan bu vəsaitlər Respublika Dövlət Kitab Palatası, M.F.Axundov adına Milli Kitabxana və F.B.Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanası tərəfindən tərtib edilib nəşr edilmişdir.

Bu mərkəzlər içərisində respublikamızda uşaq ədəbiyyatının təbliğində, uşaq mütaliəsinə rəhbərlikdə, uşaqları düşündürən və maraqlandıran məsələlərə dair tədbirlərin təşkili və keçirilməsində F.Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanası mühüm rol oynayır. Respublika Uşaq Kitabxanası uşaq ədəbiyyatının tövsiyə biblioqrafiyasının mərkəzi hesab olunur. Kitabxana fəaliyyətə başladıqdan sonra onun biblioqrafik fəaliyyəti genişlənmiş və müxtəlif yaşlı məktəblilər üçün tövsiyə vasaitləri buraxmağa başlamışdır. Müxtəlif yaş dərəcəsinə malik olan şagirdlərin sinifdən xaric mütaliəsinə rəhbərlikdə tövsiyə biblioqrafik vəsaitlərinin əhəmiyyəti olduqca çoxdur.

Müasir dövrdə Azərbaycan uşaq ədəbiyyatının yayılması və təsir dairəsi genişlənmiş və artmışdır. Ölkəmizin xarici ölkələrlə qarşılıqlı mədəni əlaqəsi

uşaq ədəbiyyatının zənginləşməsi üçün zəmin yaratmışdır. Eyni zamanda müasir dövrdə cəmiyyətin informasiyalaşdırılmasında informasiya texnologiyalarının geniş tətbiqi elə bir zirvəyə qalxmışdır ki, kompüter və internet vasitəsilə yer üzərində yaşayan bütün xalqların həyat tərzi ilə gündəlik tanış olmaq mümkündür. Müasir gənclik bəşəriyyətin sivil inkişafını öyrənməli, öz xalqının yaratmış olduğu mənəvi sərvəti də dünyaya yaymağı bacarmalıdır. Bu işdə uşaq ədəbiyyatı ən mühüm vasitələrdən biridir.

## ƏDƏBİYYAT


1. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu.-B.,1998.-16 s.*
2. *Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanasında çıxışı //Azərbaycan.-1995.- 6 iyun.*
3. *Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı.-B.,BUN.,2007.-444s.*
4. *Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası.-B.,Elm,1998.-300s.*
5. *Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik.-B.:BUN,2007.-190s.*



***С. П. ИСМАИЛОВА***


## СОЦИАЛЬНЫЕ ПОТРЕБНОСТИ НА БИБЛИОГРАФИЧЕСКУЮ ИНФОРМАЦИЮ ПО ДЕТСКОЙ ЛИТЕРАТУРЕ

### *РЕЗЮМЕ*


*В статье рассмотрены вопросы значения и роли источников библиографической информации в руководстве чтением детской литературы, в учебном процессе и в воспитании чувства любви к родной земле, в пропаганде детской литературы.*



***S. P. İSMAYILOVA***


## SOCİAL DEMANDS ON BİBLİOGRAPHİC İNFORMATİON ABOUT CHILDREN LİTERATURE

### *SUMMARY*


*There were described the issues of importance of bibliographic information in promotion of children literature, in children reading mentorship, in teaching and upturning process and in instilling love to motherland in the article.*

**Əliyusif MƏMMƏDOV**
***Biblioqrafiyaşünaslıq kafedrasının***
***baş müəllimi***

# BİBLİOQRAFİK MƏNBƏLƏRDƏ SƏNƏD HAQQINDA İNFORMASİYANIN ƏKS OLUNMASININ BƏZİ MƏSƏLƏLƏRİ

Biblioqrafik informasiyanın öz ictimai funksiyasının yerinə yetirməsinə təsir edən əsas amil ona olan ictimai tələbatdır. Məhz həmin tələbatın təsiri ilə biblioqrafik informasiya bu və ya digər mövcudluq forması alır, bu və ya digər metodla biblioqrafik məhsul yaradılır və ya biblioqrafik xidmət həyata keçirilir. Bu sözlər tam mənada təbiət elmlərinə dair biblioqrafik informasiyaya da aid edilə bilər.

Məlumdur ki, insanların sənəd-informasiya tələbatı ictimai inkişaf nəticəsində bu tələbatın ödənilməsinə yardımçı olan biblioqrafik informasiyanın və bu informasiyanın yaradılaraq tələbatçılara çatdırılması ilə məşğul olan biblioqrafik fəaliyyətin yaranıb inkişaf etməsinə səbəb olmuşdur. Lakin tarixi inkişaf nəticəsində biblioqrafik fəaliyyət get-gedə yeni xassələr qazanmış, tələbatçıların sənəd-informasiya tələbatını ödəməyə yönəlmiş daha dolğun məlumat formaları meydana çıxmışdır.

Biblioqrafik informasiyanın tarixi inkişafdan asılı olaraq bir sıra formaları yaranıb inkişaf etmişdir ki, bütün bu formaları əmələ gətirən ibtidai özək biblioqrafik çatdırmadır.

Biblioqrafik çatdırma biblioqrafiyalaşdırılan sənədlər haqqında elə ünsürlər toplusudur ki, onlar (müəllif, sərlövhə, buraxılış məlumatları və s.) ya sənədin özündən, ya da başqa mənbələrdən götürülür (1, 5). Əgər biblioqrafik çatdırma sənəd şəklində qeyd olunursa, buna biblioqrafik yazı deyilir. Konkret şəraitdən, tələbatın xüsusiyyətlərindən asılı olaraq biblioqrafik yazı müxtəlif əhatəli və dərinliyə malik ola bilər və özündə bir çox ünsürləri əhatə edə bilər. Biblioqrafik yazının ən müxtəsər forması biblioqrafik təsvirdir.

Biblioqrafik təsvir, sənəd, onun tərkib hissəsi və ya sənədlər qrupu haqqında müəyyən qaydada verilmiş, sənədin ümumi səciyyələndirilməsi və identifikasiyası üçün zəruri və kafi olan biblioqrafik əlamətlərin toplusudur. Biblioqrafik fəaliyyətdə ən geniş yayılmış məhsul növü olan biblioqrafik təsvirə çox yüksək tələblər qoyulur. Çünki o, elə bir əlamətlər məcmusudur ki, məhz bu məcmu vasitəsi ilə bir sənədi digərindən fərqləndirmək, saysız-hesabsız sənədlər içində məhz axtarılanı tapmaq mümkün olur. Buna görə də biblioqrafik təsvirin hər bir ünsürü, onların sırası, onların tərtibi xüsusiyyətləri çox aydın və birmənalı şəkildə reqlamentlənir və məhz bu məqsədlə də biblioqrafik təsvirin tərtibinə dair xüsusi Milli və beynəlxalq səviyyəli təlimatlar, standartlar işlənib

hazırlanır və tətbiq edilir. Bunlara misal olaraq Kitab təsvirinə dair Beynəlxalq Standartı (İSBD), Anqlo-Amerikan Kataloqlaşdırma Qaydalarını (AACR), SSRİ Dövlət Ümumittifaq Standartı (İndiki MDB ölkələrinin Dövlətlərarası Standartı) QOST 7.1-2003 və s. göstərilə bilər(2). Təsvirin ünsürlərindən təsvirin başlığı, sərlövhə, nəşr haqqında məlumat, nəşr yeri, nəşr tarixi, həcm (səhifələrin miqdarı), İSBN kimi ünsürlər xüsusi əhəmiyyətə malikdir. Bunlar təsvirin məcburi ünsürləridir ki, bunlardan əlavə təsvirin «fakultativ» adlanan bir sıra digər ünsürləri də vardır ki, biblioqrafiyalaşdırıcı müəssisə öz funksiyasından, şərait və tələbatından asılı olaraq təsvirdə həmin fakultativ ünsürləri də əks etdirə bilər. Hər bir müəssisə (kitabxana, informasiya müəssisəsi, kitab ticarəti şirkəti) öz biblioqrafik məhsulunda verilən biblioqrafik təsvirlərdəki fakultativ elementlərin toplusunu sabit şəkildə verməlidir. Məsələn, kitabxananın sistemli kataloqundakı biblioqrafik yazılarda, təsvirdə istifadə edilən fakultativ ünsürlər dəsti eyni olmalıdır. Hər bir sənəd növü öz nəşr forması üçün biblioqrafik təsvirin xüsusi modifikasiyası tətbiq edilir. Məsələn, yuxarıda adı çəkilən standartda bir cildli kitabın, çoxcildli kitabın, seriyalı nəşrin, məqalənin, normativ-texniki sənədin və s. təsvir qaydası ayrıca olaraq şərh olunur.

Biblioqrafik praktikanın zəngin təcrübəsi sübut edir ki, biblioqrafik çatdırmanın ən geniş yayılmış növü biblioqrafik yazıdır. Eləcə də biblioqrafik yazının öz dərinliyinə, əhatəliyinə görə müxtəlif formalarda ola bilər. Əlbəttə ki, bunların içərisində biblioqrafik təsvir müstəsna əhəmiyyətə malikdir.

Biz biblioqrafik yazıya nəzər salsaq görə bilərik ki, onun tərkibində formalaşmış sözün tam mənasında biblioqrafik səciyyəli məlumatlar məhz biblioqrafik təsvirdə verilmişdir. Lakin biblioqrafik praktikada bir çox halda təsvirlə yanaşı biblioqrafik yazının bir sıra digər ünsürləri də istifadə edilir. Buna nümunə olaraq kitabxanalardakı müxtəlif kataloqları, annotasiyalı biblioqrafik göstəriciləri, cari xarakterli elmi-köməkçi göstəriciləri, siqnal informasiya, ekspres informasiya bülletenlərinin, referativ jurnallar kimi janrlarda tətbiq edilən biblioqrafik yazı formalarını göstərmək mümkündür. Bu tipli çoxünsürlü biblioqrafik yazılarda sənədin biblioqrafik təsvirindən savayı hansı ünsürlərin verildiyini əyani şəkildə göstərmək üçün Kitab Palatasının mərkəzləşdirilmiş kataloqlaşdırma üçün tərtib və nəşr etdirdiyi çap kartoçkasına nəzər yetirmək mümkündür.

Burada yazının tərkibində biblioqrafik təsvirlə yanaşı müəllif işarəsi, annotasiya, təsnifat indeksi, kartoçkanı nəşr edən təşkilat barədə məlumat verilmişdir. Bu ünsürləri iki əsas qrupa ayırmaq olar. Bunlardan birinci sırf biblioqrafik ünsürlər olub biblioqrafik təsvir qaydalarına əsasən tərtib edilmiş formallaşmış ünsürlərdən ibarətdir. İkinci qrup ünsür isə qeyri formal, məzmun səciyyəli məlumatlardır ki, gətirilmiş bu misalda həmin ünsürlərdən ən səciyyəvi olanı annotasiyadır. Burada annotasiya sənədin məzmunu, onun oxucu təyinatı, istifadə imkanları barədə məlumat verməklə, tələbatçıya (oxucuya)

çox halda sənədin özünə müraciət etmədən onun informasiya tələbatını nə dərəcədə ödəyə biləcəyi barədə təsəvvür əldə etməyə imkan yaradır. Beləliklə, tərkibində annotasiya olan biblioqrafik yazılar tələbatçıya təkcə sırf biblioqrafik informasiya ilə yanaşı, sənədin məzmunu barədə informasiya da verir. Bu halda, belə biblioqrafik yazılar komplekslilik xassəsinə malik olurlar.

Qeyd etmək lazımdır ki, komplekslilik xassəsi təkcə tərkibində annotasiya olan biblioqrafik yazılara deyil, həm də referatı olan biblioqrafik yazılara xasdır. Əlbəttə, biblioqrafik fəaliyyətdə sənədin məzmununa nüfuz edilməsi və əldə edilmiş konkret informasiyanın biblioqrafik yazının tərkibinə daxil edilərək ona komplekslilik xassəsi verilməsi təkcə annotasiyaya və referata aid deyildir. Belə xassə həm də sənədə verilmiş təsnifat indeksi, predmet rubrikaları vasitəsi ilə də yaranır. Lakin praktika göstərir ki, tələbatçıların sənədin məzmunu barədə məlumat əldə etməsində annotasiya və referat xüsusən geniş istifadə edilir. Buna görə də, komplekslilik xassəsindən bəhs edərkən əsas diqqətin annotasiya və referata yönəldilməsi daha məqsədəuyğundur.

Bəs annotasiya və referatların yaradılması və biblioqrafik təsvirlərin onlarla təchiz edilməsi biblioqrafik praktikanın hansı istiqamətində, necə baş verir? Bu prosesi düzgün anlamaq üçün biblioqrafik fəaliyyətə və onun əsas istiqamətlərinə nəzər salmaq lazımdır. Məlumdur ki, QOST 7.0-84 «İnformasiya-kitabxana fəaliyyəti. Biblioqrafiya» adlı Dövlətlərarası standaotda biblioqrafik fəaliyyət biblioqrafik informasiyaya olan tələbatın ödənilməsi üzrə fəaliyyət kimi səciyyələndirilir (3, 4). Lakin bilirik ki, biblioqrafik fəaliyyət özü də yekcins bir məfhum deyildir və özündə əməli (təcrübi), elmi-tədqiqat, tədris və idarəetmə istiqamətlərini birləşdirir.

Əməli (təcrübi) biblioqrafik fəaliyyət insan cəmiyyətinin biblioqrafik informasiyaya tələbatını biblioqrafik məhsulun hazırlanıb təqdim edilməsi (və ya biblioqrafiyalaşdırma) və biblioqrafik xidmət vasitəsi ilə ödəyir. Əməli biblioqrafik fəaliyyətin bu iki istiqamətləri ixtisas ədəbiyyatında biblioqrafik proseslər kimi də şərh edilir.

Beləliklə, biblioqrafik məhsulun yaradılması və ya biblioqrafiyalaşdırma biblioqrafik proseslərin iki əsas istiqamətindən biridir. Hər bir fəaliyyət istiqamətində, prosesdə olduğu kimi, biblioqrafiyalaşdırmada da özəl metodlardan istifadə edilir ki, bunlara da analitik metodlar və sintetik metodlar aid edilə bilər.

Analitik metodlara aşağıdakılar aid edilə bilər:

1. Sənədin ümumi biblioqrafik təhlili (analizi). (Bu metod, sənədin əsas mövzusunun, forma və məzmun xüsusiyyətlərinin, üstünlük və nöqsanlarının, məqsəd və oxucu təyinatının müəyyən edilməsi üçün həyata keçirilir);

2. Sənədin biblioqrafik təsviri;

3. Annotasiyalaşdırma və ya referatlaşdırma;

4. İndeksləşdirmə və predmetləşdirmə, yəni, sənədin məzmununun hansı bir təsnifat sisteminin şərti işarələri və ya predmet rubrikaları vasitəsi ilə ifadə edilməsi.

Biblioqrafiyalaşdırmanın analitik və sintetik kimi mərhələyə bölünməsi xeyli dərəcədə şərtidir. Çünki həqiqətdə biblioqrafik analiz və sintez dialektik cəhətdən biri digəri ilə sıx bağlıdır, biri digərini şərtləndirir və tamamlayır. Real biblioqrafik təcrübədə bu iki metod çox vaxt eyni zamanda həyata keçirilir.

Bizim üçün hal-hazırda biblioqrafiyalaşdırmanın metodu əlaməti və onun daxilində sənədin biblioqrafik baxımdan səciyyələndirilməsi üsulu maraq kəsb etdiyindən bu qrupa nəzər yetirək.

Bu əlamətə görə biblioqrafik vəsaitlərin siqnal, annotasiyalı, referativ və kodlanmış növləri fərqləndirilir. Faset təsnifatında annotasiyalı və referativ vəsaitlərin ayrıca növ kimi fərqləndirilməsi bu səciyyələndirmə üsulunun biblioqrafik praktika üçün vacib əhəmiyyətə malik olmasını sübut edir.

Müasir biblioqrafik praktikada annotasiyanın ümumi, analitik, qrup soraq və tövsiyə annotasiyası kimi növləri fərqləndirilir.

Əgər biz annotasiyaların yuxarıda göstərilən bu beş növünü qruplaşdırmağa çalışsaq, onda bu növlər annotasiyaların funksional təyinatına və annotasiyalaşdırılan sənədlərin səciyyələndirilməsi üsuluna görə bölünə bilər.

Funksional təyinat baxımından annotasiyalar soraq və tövsiyə annotasiyaları, sənədin səciyyələndirilməsi üsuluna görə isə, ümumi, analitik və qrup annotasiyalarına bölünə bilər. İndi isə bunları bir qədər ətraflı nəzərdən keçirək.

Annotasiyaların ən geniş yayılmış növlərindən biri soraq annotasiyasıdır.

Soraq annotasiyası ən çox o halda tərtib edilir ki, biblioqrafik təsvirdən, xüsusən də sənədin sərlövhəsindən onun məzmununu, janrını, təyinatını müəyyən etmək mümkün olmur. Annotasiyada verilən əlavə məlumatlar həmin qeyri-müəyyənliyi aradan götürməyə xidmət edir. Burada həm də müəllif haqqında maraq kəsb edən məlumatlar verilə bilər. Soraq annotasiyasının səciyyəvi cəhətlərindən biri onun müxtəsərliyidir. Burada verilən məlumatlar yalnız təsvirdə olmayan məqamları açmalıdır. Sənəd haqqında geniş məlumat vermək soraq annotasiyasının funksiyasına daxil deyildir.

Soraq annotasiyasının tətbiq dairəsinə gəldikdə isə o, əsasən elmi-köməkçi vəsaitlərdə tətbiq edilir. Tövsiyə göstəricilərində isə adətən o zaman tətbiq edilir ki, səciyyəsi verilən əsər əsasən soraq nəşri, tədris-metodik ədəbiyyat, normativ sənəd, təlimat, biblioqrafik göstərici və s. bu kimi ədəbiyyat olsun.

Tövsiyə annotasiyası da çox geniş tətbiq edilən annotasiya növüdür. Tövsiyə annotasiyasında vəsaitin, biblioqrafik yazının ünvanlandığı tələbatçı qrupunun peşəsi, yaşı, təhsil səviyyəsi və s. bu kimi əlamətləri xüsusi olaraq nəzərə alınır. Bu növ annotasiyalar təkcə tələbatçının məntiqi təfəkkürünə

deyil, həm də onun duyğularına təsir edir, müəyyən bir hadisəyə, fakta emosional yanaşma tərzinin yaranmasına səbəb olur.

Tövsiyə annotasiyası bir çox halda oxucuda məqsədyönlü, sistemli mütaliə mədəniyyətinin formalaşmasına xidmət edir. Buna görə də, belə annotasiyalarda pedaqoji funksiya üstünlük təşkil edir. Tövsiyə annotasiyasının bir məqsədi də oxucuya ali mənəvi dəyərlərin, yüksək əxlaqi keyfiyyətlərin aşılanmasıdır. Tövsiyə annotasiyasının aparıcı əlaməti onun mümkün qədər obyektiv tərtib edilməsi və əsərə düzgün qiymət verməsidir. Tövsiyə annotasiyasının həcmi də xüsusi əhəmiyyət kəsb edir. Tövsiyə annotasiyası soraq annotasiyasına nisbətən daha böyük həcmə malik ola bilər. Lakin bu, o demək deyildir ki, belə annotasiyanın həcmində məhdudiyyət yoxdur. Əlbəttə ki, tövsiyə annotasiyası da lakonik olmalı, burada sözçülüyə aludəlik olmamalıdır.

Tövsiyə annotasiyalarının məqsəd təyinatı da maraq doğuran məsələlərdən biridir. Belə annotasiyalar ilk növbədə kütləviləşdirmə, maarifləndirmə və özünütəhsil təyinatlı vəsaitlərdə daha çox verilir. Tövsiyə annotasiyaları məhdud miqdarda elmi-köməkçi vəsaitlərdə də tətbiq olunur. Bu vəsaitlərdə tövsiyə annotasiyaları elmi cəhətdən xüsusi əhəmiyyətə və dəyərə malik əsərləri səciyyələndirmək üçün tətbiq edilir.

Annotasiyaların sənədləri səciyyələndirmə baxımından növləri də xeyli maraq doğurur və bir sıra əhəmiyyətli xüsusiyyətlərə malikdir. Bu tipli annotasiyalarda ilk növbədə ümumi annotasiyalara diqqət yetirək.

Ümumi annotasiya sənədi bütövlükdə səciyyələndirir. Bu növlü annotasiyalar aşağıdakı hallarda istifadə edilir:

a) öz məzmununa görə bütünlüklə göstəricinin (və ya göstəricinin bir bölməsinin) mövzusuna aid olan əsərlərin səciyyələndirilməsi üçün istifadə edilən ümumi annotasiyalar.

Bu tipli annotasiyalar daha çox mövzu biblioqrafik göstəricilərində tətbiq edilir.

b) heç bir məzmun çərçivəsi ilə məhdudlaşmayan üniversal xarakterli vəsaitlərdə istifadə edilən ümumi annotasiyalar.

Belə annotasiyaların ən səciyyəvi nümunəsi mərkəzləşdirilmiş kataloqlaşdırma sistemində tətbiq edilən çap kartoçkalarındakı tətbiq edilən ümumi annotasiyadır.

Ümumi annotasiyaların əsas funksiyası əsərin elmi və ideya baxımından səciyyəsinin verilməsidir. Bir sıra hallarda ümumi annotasiyada əsərin müəllifi barədə, əsərin yazıldığı mühit və zaman barədə məlumatlar da verilə bilər. Belə annotasiyalar təbiət elmlərinə dair ədəbiyyatda geniş tətbiq edildiyindən, nümunə kimi geologiyaya dair aşağıdakı biblioqrafik yazıda tətbiq edilən annotasiyaya diqqət yetirək.

*Kazımov C.Ə. Geoloji tədqiqatlarda riyazi metodların tətbiq edilməsi xüsusiyyətləri. – B.: Azərnəşr, 1984. – 183 s.*

Kitabda geoloji kəşfiyyat işlərində, seysmilogiyada riyazi metodların tətbiqindən bəhs edilir. Burada əyani misallar neft yataqlarının geologiyası ilə əlaqədar tədqiqatlara əsasın verilmişdir. Kitab geologiya sahəsində tədqiqatlar aparan mütəxəssislər və eləcə də bu sahə üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

Sənədin səciyyələndirilməsi üsuluna görə annotasiyaların ikinci növü analitik annotasiyadır. Analitik annotasiya əsasən sənədin bir hissəsinə (fəslinə, bölməsinə, struktur vahidinə) verilir. Söhbət kitab və ya onun fəslindən gedərsə, analitik annotasiya o zaman verilir ki, tərtib edilən biblioqrafik vəsaitin mövzu istiqaməti ilə yalnız kitabın müəyyən fəsli və ya bölməsi uyğun gəlir. Məhz buna əsasən, analitik annotasiyanın əsas iki növü fərqləndirilir: a)sənədin müəyyən bir məzmununun aspektini açan, əks etdirən annotasiya: b) sənədin müəyyən bir hissəsinə, fəslinə , bölməsinə və s. verilən annotasiya.

Sənədin səciyyələndirmə üsuluna görə annotasiyaların ayrıca bir növü olan qrup annotasiyası da xeyli maraq doğuran annotasiya növüdür. Qrup annotasiyasının da özünün yarımnövləri vardır. Qrup annotasiyaları hər hansı bir əlamətinə, ən çox məzmununa görə birləşən bir neçə sənədin ümumiləşdirilmiş səviyyəsini verir. Qrup annotasiyasının üç əsas növü vardır ki, bunlar da aşağıdakılardır:

a) bir və ya bir neçə müəllifin müstəqil əsərlərini (kitablarını və ya məqalələrini) səciyyələndirən annotasiya;

b) vahid nəşriyyat forması ilə birləşən bir neçə əsəri səciyyələndirən (məsələn, elmi əsərlərin mövzu məcmuəsi) və məcmuənin mövzusunun ümumiləşdirilməsindən ibarət olan annotasiya. Belə annotasiyanın vəzifəsi həm də məcmuənin bölmələrinin və ya ona daxil edilmiş əsərlərin sadalanmasından ibarətdir ki, belə sadalanma məcmuənin tərkibini açmağa imkan verir;

c) bir əsərə verilmiş annotasiya hansı ki, bu annotasiyanın daxilində məzmunca və ya başqa əlamətə görə bu əsərlə bağlı digər əsər haqqında məlumat verilir.

Qrup annotasiyasına yaxın olan janr kimi biblioqrafik vəsaitin hər hansı bir bölməsinə verilmiş giriş məqalələrini göstərmək olar. Belə məqalələrdə bölməyə daxil edilən əsərlər barədə ümumi məlumat verilir və onlar belə giriş məqalələri (qeydləri) xüsusilə də tövsiyə biblioqrafik vəsaitləri üçün səciyyəvidir. Bu məqalələrdə (qeydlərdə) vəsaitdə nəzərdən keçirilən sualın, problemin məğzi təhlil olunur, istifadəçiyə nəyi, necə, hansı ardıcıllıqla öyrənmək barədə tövsiyələr verilir.Həmin məqalələrin (qeydlərin) verilməsi biblioqrafı hər bir əsərə ayrıca annotasiya vermək zərurətindən azad edir.

Deyilənlər sübut edir ki, annotasiyalar geniş növ müxtəlifliyinə malikdir və biblioqraf konkret vəziyyətdən, şəraitdən asılı olaraq annotasiyanın məqsədəmüvafiq növünü tətbiq edə bilər.

Annotasiya barədə yuxarıda bəhs edilənləri yekunlaşdıraraq onların əsas xüsusiyyətlərini aşağıdakı kimi qeyd etmək olar:

1. Annotasiya lakonik və konkret olmaqla və lazım gələrsə, burada rəqəmlərdən, adlardan, faktlardan istifadə edilməlidir;

2. Annotasiyanın dili sadə olmalıdır, qəliz sözlərdən, mürəkkəb budaq cümlələrindən istifadə edilməməlidir.

Burada qeyd edilənlər sübut edir ki, biblioqafik mənbələrdə sənəd barədə informasiyanın əks olunması, onun səciyyələndirilməsi çox əhəmiyyətli bir işdir və burada annotasiyalaşdırma mərhələsinə xüsusi diqqət yetirilməlidir.

## ƏDƏBİYYAT

*1. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti. – B.: Bakı Universiteti nəşriyyatı, 1985.-142 s.*

*2. ГОСТ 7.1-2003. Система стандартов по информации, библиотечному и издательскому делу. Библиографическая запись. Библиографическое описание. Общие требования и правила составления .-М., 2004.-53 с.*

*3. ГОСТ 7.0-99. Информационно-библиотечная деятельность, библиография. Термины и определения. – М., 2000. – 34 с.*

***А.М. МАММАДОВ***

## НЕКОТОРЫЕ ВОПРОСЫ ОТРАЖЕНИЯ ИНФОРМАЦИИ О ДОКУМЕНТЕ В БИБЛИОГРАФИЧЕСКИХ ИСТОЧНИКАХ

### *РЕЗЮМЕ*

*В статье рассмотрены некоторые вопросы характеристики документов, в частности аннотирование, широко применяемое в библиографической практике. Анализированы основные виды аннотаций, особенности их составления.*

***A. M. MAMMADOV***

## SOME ASPECTS OF REFLECTİNG THE İNFORMATİON ON DOCUMENT ON THE BİBLİOGRAPHİC SOURCES

### *SUMMARY*

*The bibliographic analyzing of document is very important direction of bibliographic activity of the library. The special attention in given article was paid to composing of bibliographic annotations and abstracts of document.*

**Əliyusif MƏMMƏDOV**
***Biblioqrafiyaşünaslıq kafedrasının***
***baş müəllimi***

# MİLAN DÜNYA KİTABXANA VƏ İNFORMASİYA KONQRESİNİN (İFLA-nın) 75-ci KONFRANSI ÖZ İŞİNİ UĞURLA BAŞA ÇATDIRDI

İFLA kitabxana işi, informasiya fəaliyyəti sahəsində dünyanın ən nüfuzlu təşkilatıdır. 1927-ci ildə Şotlandiyada təsis edilmiş bu təşkilat BMT ilə sıx əlaqələrə malikdir. BMT-nın himayəsi altında təşkil edilən Dünya İnformasiya Sammiti məhz İFLA-nın təşəbbüsü və təşkilatçılığı ilə keçirilir. İFLA dünyanın bir sıra digər nüfuzlu təşkilatları, o cümlədən YUNESKO ilə də sıx əlaqələrə malikdir və onunla birlikdə bir çox tədbirlər keçirir. Hazırda təşkilatın dünyanın 150 ölkəsini təmsil edən 1600 üzvü vardır. Onun mənzil qərargahı Niderlandda, Haaqa şəhərindədir.

İFLA-nın fəaliyyət dairəsi təkcə kitabxana fəaliyyəti ilə məhdudlaşmır. Son illərdə dünyada sənəd-informasiya təminatına verilən böyük əhəmiyyətin nəticəsi olaraq İFLA-nın ənənəvi konfransları öz əhatə dairəsini və müzakirə obyektini daha da genişləndirərək öz illik tədbirlərini Dünya Kitabxana və İnformasiya Konqresi formasında keçirməyə başlamışdır. Bu tədbirdə təkcə kitabxanaçılar deyil, həm də sənəd-informasiya təminatı ilə məşğul olan digər mütəxəssislər də iştirak edirlər və İFLA-nın ənənəvi konfransı və şurası Konqresin tərkibində keçirilən tədbirlər kimi dəyərləndirilir.

Milan Dünya Kitabxana və İnformasiya Konqresi Kitabxana Assosiasiyaları və Təsisatlarının Beynəlxalq Federasiyasının növbəti, yubiley səciyyəli 75-ci Konfransı və Şurası 2009-cu il avqusun 21-dən 27-dək Avropanın ən gədim və zəngin mədəni irsə malik şəhərlərindən biri olan Milan şəhərində (İtaliya) keçirilirdi. Bu tədbirdə respublikamızın kitabxana mütəxəssislərini Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının direktoru Mail Əhmədov və bu sətirlərin müəllifi təmsil edirdi.

Konqresdə iştirak etdiyimiz müddətdə biz xeyli intensiv işlədik: bu beynəlxalq tədbirin proqramına müvafiq olaraq onun açılış sessiyasında, bir sıra bölmə iclaslarında iştirak etdik, konqres iştirakçıları ilə fərdi söhbətlər apardıq, sərgidə təmsil olunan təşkilat və şirkətlərin stend və eksponatları ilə tanış olduq, eləcə də proqramla nəzərdə tutulan bir sıra kitabxanalarda olduq.

Avqustun 22-də biz Konqresin keçirildiyi "Ferra Milano" Konfrans Mərkəzinə gedərək, bu beynəlxalq tədbirin işi ilə əlaqədar lazımi materialları topladıq və iştirak edəcəyimiz tədbirləri müəyyənləşdirdik. Biz eləcə də Konqresin ev sahibi olan İtaliya mütəxəssisləri, Rusiya və Türkiyə nümayəndələri

ilə görüşərək ayrı-ayrı tədbirlərin əhəmiyyəti, mövzusu, aktuallığı barədə fikir mübadiləsi apardıq. Həmin gün biz həm də konfransda təmsil olunan ölkələrin, təşkilat və müəssisələrin çap edərək payladığı materialların məzmunu ilə də tanış olduq və onlardan nümunələr götürdük.

Ertəsi gün, avqustun 23-də biz Konqresin açılış sessiyasında iştirak etdik. Burada İFLA rəhbərliyinin açılış nitqini, Milanın yerləşdiyi Lombardiya vilayətinin və Milan şəhərinin hakimiyyət qurumlarının nümayəndələrinin çıxış və təbrik nitqlərini dinlədik, eləcə də italyan aktyorlarının ifasında kitab, mədəniyyət, mədəni irs və cəmiyyət mövzusunda qurulmuş çox maraqlı bədii hissəyə (tamaşaya) baxdıq.

Həmin gün biz həm də Konqresə yeni qatılan iştirakçılar üçün nəzərdə tutulmuş sessiyanın işində iştirak etdik. Burada İFLA-nın Baş Katibi Cennifer Nikolsonun, İFLA İdarəetmə Şürasının üzvü Bob Makkinin və digər rəsmi şəxslərin çıxışlarını dinlədik.

Avqustun 24-də "Parlamentlər üçün tədqiqat və kitabxana xidməti" bölməsinin iclasında iştirak etdik. İclasda biz Böyük Britaniyanın "Ravensburn Riserc Limited" şirkətinin nümayəndəsi Kristofer Mörfinin "Britaniya Parlament kitabxanası: tarix, beynəlxalq müqayisə və sabahın qanunvericilik üzrə kitabxanaları üçün bəzi ibrətlər" mövzusunda çıxışını dinlədik. Çıxışda Britaniyanın İcmalar Palatasının və Lordlar Palatasının fasiləsiz olaraq dünyanın ən qədim parlamentləri kimi fəaliyyət göstərməsindən və XVIII əsrdən etibarən burada fondu kitablardan və digər kağız sənədlərdən ibarət kiçik kitabxananın olmasından, onun sonrakı inkişafından bəhs olunurdu. Qeyd edilirdi ki, kitabxanaya daxil olan tədqiqat tələb edən sorğuların sayı ildən-ilə artır və kitabxana bu sorğuların dolğun ödənilməsi sahəsində gərgin fəaliyyət göstərir. Çıxışda həm də Britaniya Parlament Kitabxanasının fəaliyyəti ilə ABŞ Konqres Kitabxanasının fəaliyyəti müqayisəli təhlil edildi.

Həmin iclasda biz Polşa Seyminin kitabxanaçısı Voytsek Kulşeviçin, Yeni Zelandiya Parlament Kitabxanasının əməkdaşları Moyra Frazer və Con Martinin, Çernoqoriya Parlamenti Kitabxanasından Svetlana Aliqurdiçin, İtaliya Senatı Kitabxanasının nümayəndəsi Anna Qalluzinin və başqalarının çıxışlarını dinlədik.

Bu mövzuda maraqlı məruzələrdən biri Brüsseldəki Avropa Parlamentinin Kitabxanasının işçisi İan Vattın "Parlament Kitabxanasının dəyişən görünüşü" adlı məruzəsi oldu. İan Vatt parlament kitabxanalarının inkişafını bir neçə dövrə ayırır və qeyd edir ki, XX əsrin sonu bu tipli kitabxanaların inkişafında xüsusi mərhələ sayıla bilər. Həmin dövrdən etibarən parlament kitabxanalarının göstərdiyi xidmətlər içərisində İnternet əsasında təşkil edilən xidmətlər xüsusi yer tutmağa başladı. Bu isə parlament kitabxanalarının inkişafının XXI əsr üçün əsas istiqamətlərindən birinə çevrildi.

Maraq doğuran problemlərdən biri də ənənəvi (kağız) sənədlərin yeni, rəqəm formasına konvertasiya edilməsi problemi idi. Buna görə də biz "Rəqəmli mühafizə" bölməsinin iclasında iştirak etdik. Biz burada Haaqadan gəlmiş Edvin Kliyinin "Keyfiyyət və əhəmiyyət: Niderland Milli Kitabxanasında qəzetlərin rəqəmləşdirilməsi üzrə layihə" adlı maraqlı çıxışı dinlədik.

Digər maraqlı çıxış ABŞ Konqres Kitabxanasının əməkdaşı Mark Suinueyin "ABŞ Milli rəqəmli qəzet proqramı: Amerikanın tarixi qəzetlərinə müyəssərliyin əldə edilməsi üzrə paylaşdırılmış milli səylər" adlı məruzəsi idi. Bu məruzədə M.Suiney Amerikanın ictimai həyatının, millətin tarixinin öyrənilməsi üçün qəzetlərin xüsusi əhəmiyyətinin olduğunu vurğuladı. O göstərdi ki, "ABŞ Milli rəqəmli qəzet proqramı" (NDNP) "Humanitar Elmlər üzrə Milli Yardım" (NEH) adlı təşkilat və Konqres Kitabxanasının uzun müddətli layihəsi milli miqyaslı layihədir. Onun əsas vəzifəsi ölkənin tarixi qəzetləri barədə biblioqrafik informasiyanı özündə əks etdirmək və NEH tərəfindən maliyyələşdirilən müəssisələr tərəfindən rəqəmləşdirilmiş qəzetləri özündə əhatə edən informasiya resursu yaratmaqdır. Bu zaman ölkənin bütün ştatlarında və nəzarət altında olan ərazisində nəşr edilmiş qəzetlər əhatə edilir. Haqqında bəhs edilən layihə 1982-2009-cu illəri əhatə edən və NEH tərəfindən maliyyələşdirilən "ABŞ qəzet proqramı" adlı böyük layihənin davamı hesab edilə bilər. Bu yeni layihə 2004-cü ildən etibarən həyata keçirilməyə başlamışdır. NEH bu iş üçün 1,9 milyon dollar maliyyə vəsaiti ayırmışdı. Layihənin yerinə yetirilməsinə 6 təşkilat - Kaliforniya (Riversayd) Universiteti, Florida Universiteti, Kentukki Universiteti, Nyu York İctimai Kitabxanası, Yutah Universiteti və Virciniya Kitabxanası cəlb edilmişdi. Çünki onların fondlarında zəngin qəzet kolleksiyaları saxlanılır. Eləcə də bu qurumlar rəqəmli fondlar yaratmaq sahəsində xeyli təcrübəyə malikdirlər. Layihənin yerinə yetirilməsi nəticəsində yaradılmış informasiya resursu "Chronicling America" adı altında http:// www. loc. gov/ chroniclingamerica/ xüsusi İnternet səhifəsində yerləşdirilir. Son məlumatlara görə, burada 138 min sərlövhə altında 225 min axtarıla bilən səhifə yerləşdirilmişdir. Layihə indi də davam etdirilir və rəqəmləşdirilərək tələbatçıların istifadəsinə verilən materialların həcmi artmaqda davam edir.

Avqustun 25-də biz Konqresin plenar sessiyasında iştirak etdik. Burada Romadakı "Korpo di ballo" teatrının direktoru Karla Foraççininin "Mədəniyyət və incəsənət: dünyada, İtaliyada, xüsusən də Milanda" mövzusunda çıxışını dinləndik. Həmin gün "Rəqəmli kitabxanaların gələcəyi: istifadəçilərin perspektivləri və institutsional strategiyalar" bölməsinin işində də iştirak etdik. Burada Milan Universitetinin, İtaliya mədəni irs nazirliyinin, İFLA prezidentinin təbrikləri ilə açılan bu iclasda bir çox tanınmış, nüfuzlu alim və mütəxəssislərin çıxışlarını dinlədik. Növbəti günlərdə də Konqresin sessiya və iclaslarında iştirak etdik. Bölmədə ənənəvi sənəd növlərindən, yeni texnologiyalardan isti-

fadə etməklə pozulmayan, yanmayan, sonsuz dəfə nüsxələnə bilən rəqəmli kitabxanaların yaradılması və inkişafı mövzusunda xeyli maraqlı çıxışlar oldu.

Məlumdur ki, İFLA-nın hər konfransı sərgiylə müşayiət olunur. Milanda da belə sərgi təşkil edilmişdi. Burada İtaliya və digər ölkələrin nazirlikləri, kitabxanaları, qeyri-dövlət təşkilatları, nəşriyyatları, biznes qurumları öz stendlərini nümayiş etdirir, fəaliyyət, xidmət və məhsulları haqqında məlumat verirdilər. Lakin obyektivlik xatirinə qeyd etməliyəm ki, bu sərgi öz miqyasına, iştiralçilarının sayına görə 2001-ci ildə İFLA-nın Boston şəhərində (ABŞ) keçirilmiş 67-ci Konfransdakı möhtəşəm sərgidən xeyli geri qalırdı.

Bizi xüsusilə də kitabxana fondunun əsasını təşkil edən ənənəvi sənəd növləri (xüsusən də kitab, dövri nəşrlər) üzrə fondlar əsasında rəqəmli sənəd-informasiya fondlarının yaradılması məsələləri maraqlandırdığı üçün bu istiqamətdə fəaliyyət göstərən şirkətlərin stendləri ilə tanış olduq. Bu stendlərdə təqdim edilən avtomatik skanerlər xüsusi vakuum qurğuları vasitəsi ilə vərəqləri avtomatik çevirir və sənədin rəqəm formatını yaradır. Bu cür geniş imkanlı fotooptik qurğular əsasən ABŞ, Böyük Britaniya, Almaniya və İtaliya şirkətləri tərəfindən təqdim edilirdi. Bu avadanlığın üstün cəhəti ondan ibarət idi ki, onlar kompüter və ayrıca proqram təminatı ilə də təchiz edilir. Həmin avadanlığı nümayiş etdirən mütəxəssislər respublikamızın kitabxanalarında yüksək məhsuldarlığa malik professional skanerlərin tətbiqi məsələəri ilə, ənənəvi sənəd fondları əsasında rəqəmli kolleksiyaların yaradılmasının gedişi ilə əlaqədar suallar verdilər və lazımi dəstək göstərməyə hazır olduqlarını bildirdilər. Biz eləcə də sərgidə təmsil edilən bir sıra digər təşkilat və şirkətlərin stendləri ilə tanış olduq və onlara Azərbaycan Respublikası, bu orada kitabxana işinin vəziyyəti və təmsil etdiyimiz kitabxana haqqında geniş məlumatlar verdi, müxtəlif çap materialları payladıq.

Konfransın proqramına uyğun olaraq biz digər ölkələrdən gəlmiş kitabxanaçı mütəxəssislərlə birlikdə Milan şəhərinin universitet və kütləvi kitabxanalarında, Ambrozian kitabxanasında da olduq. Sonuncu kitabxanada qədim və nadir kitabların (o cümlədən Şərq ölkələrinə məxsus) saxlanma və mühafizə şəraiti, buradakı kitab fondunun qiymətli nümunələri ilə tanış olduq. Biz Prezident Kitabxanasının nəşrlərini, Azərbaycan haqqında multimediya nəşrləri, Ümummilli lider Heydər Əlıiyev haqqında Moskvada nəşr edilmiş "Görkəmli insanların həyatı" seriyasından olan kitabı Ambrozian kitabxanasına hədiyyə etdik.

İFLA-nın Baş Məclis və Şurasında təşkilatı dəyişikliklər də həyata keçirildi. Burada əvvəlki Prezident, Berlinli kitabxanaçı Klaudia Luks öz postunu bundan əvvəl Seçilmiş Prezident vəzifəsini icra edən Cənubi Afrika kitabxanaçısı Ellen Tiseyə verdi. Cənubi Afrika təmsilçisi ilk dəfə İFLA-nın Prezidenti oldu. Qeyd edək ki, keçən ilin noyabr ayında xanım Tisse ölkəmizə səfər etmiş, kitabxanaların işi ilə tanış olmuşdur. Konfransda İFLA-nı yeni Seçilmiş Prezidenti də müəyyən edildi. Bu, Kanadanın Britaniya Kolumbiyası əyalətindən

olan universitet kitabxanaçısı İnqrid Parent oldu. O, Prezident vəzifəsini 2011-2013-cü illərdə icra edəcəkdir. İFLA-nın Baş Katibi vəzifəsini isə 2008-ci ildən bu işdə çalışan Niderland kitabxanaçısı Cennifer Nikolson yerinə yetirir.

Konqres müddətində biz digər ölkələrdən gəlmiş mütəxəssislərlə tanış olaraq onlarla fikir mübadiləsi etdik. Məsələn, biz Fransa kitabxana mütəxəssisləri, ilk növbədə Fransa Milli Kitabxanasının əməkdaşları ilə görüşdük, onlarla fikir mübadiləsi apardıq. Bu zaman biz onlara Prezident Kitabxanasının nəşrlərini, Azərbaycan haqqında multimediya nəşrləri, Ümummilli lider haqqında kitabı da hədiyyə etdik. Belə maraqlı görüşü İtaliya kitabxana mütəxəssisləri ilə də keçirdik. Onlar bizə bu ölkədə kitabxanaların ictimai rolundan, bu işin təşkili xüsusiyyətlərindən danışdılar və bu ölkənin mədəni irsini, mədəni həyatını əks etdirən maraqlı nəşrlər hədiyyə etdilər. Biz də öz növbəmizdə italiyalı həmkarlarımıza respublikamız, onun ictimai-siyasi və mədəni həyatı, Azərbaycanın əzəli torpağı olan xalqımızın öz əzəli torpaqlarını qorumaq, işğaldan azad etmək yolunda ədalətli mübarizəsi, Prezident Kitabxanasının və digər kitabxanaların fəaliyyəti, kitabxanaçılıq təhsili barədə məlumatlar verdik və onlara öz hədiyyələrimizi təqdim etdik.

Qeyd edim ki, Milan həm İtaliyanın, həm də bütünlükdə Avropanın ən zəngin mədəni ənənələrə, tarixi irsə malik olan şəhərlərindən biridir. Burada çox sayda tarixi abidələr, qəsrlər, saraylar, gözəl tarixi binalar, muzeylər və digər tarixi abidələr var. Bütün İtaliyanın ən tanınmış, xalq sevgisini qazanmış insanlarının uyuduğu fəxri məzarlıq da Milanda yerləşir. Klassik musiqi, opera həvəskarları dunyanın hər yerindən Milanın məhşur La Skala operasının tamaşalarına baxmağa, müğənnilər isə buradakı vokal sənəti məktəblərində öz ustalıqlarını artırmağa, belkanto dərsləri götürməyə gəlirlər. Azərbaycanın professional opera vokal təhsili almış ilk müğənnisi Şövkət Məmmədova xeyriyyəçi və maarifçi Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə məhz Milanda oxumuşdur. XIX əsrin sonu-XX əsrin əvvəllərində milyonçuların sifarişi ilə Bakıda ucaldılmış bir sıra binaların tikintisində iştirak etmiş memarlar italyan, şübhəsiz, həm də Milan memarlıq məktəbi üslubundan istifadə etmişlər.

Milan İtaliyanın ən böyük sənaye, elm və mədəni mərkəzlərindən biridir. Hər il buraya dünyanın bir çox ölkələrindən yüz minlərlə turist gəlir. Milan dizaynerlərinin, rəssam-konstruktorlarının, modelyerlərinin yaratdığı bədii sənaye nümunələri çox məhşurdur. Milanın ən fərqli cəhətlərindən biri tarixi hissəsində yeni binaların demək olar ki, nəzərə çarpmamasıdır. Bu da milanlıların öz şəhərlərinin tarixi-memarlıq irsini necə ciddi şəkildə qoruduqlarını sübut edir. Şəhər təmizliyi, yaşıllıqları, gözəl qulluq edilmiş parkları, şəhər nəqliyyatının, o cümlədən elektrik nəqliyyatının bütün növlərinin ahəngdar işləməsi ilə diqqəti cəlb edir.

Milanda kitabxanalara da böyük diqqət göstərilir, qiymətli kitablar qayğı ilə mühafizə edilir, fondlar bütün tələbatçı qruplarını maraqlandıran ədəbiyyat-

la komplektləşdirilir. Hətta parkda istirahət edən insanlar üçün də ayrıca ictimai kitabxana fəaliyyət göstərir. Bütün kitabxanalarda avtomatlaşdırma sistemləri fəaliyyət göstərir və İnternetə çıxış vardır. İtalyan kitabxanaçıları öz peşələrini sevən, işgüzar, səmimi və yüksək peşəkar səviyyəli mütəxəssislərdir. Mən hesab edirəm ki, Azərbaycan və italyan kitabxana mütəxəssilərinin əməkdaşlığı iki dost ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da genişlənməsinə imkan yarada, ölkəmizdə kitabxana fəaliyyətinin müasir dünya səviyyəsinə yüksəldilməsinə yardım edə bilər.

Yekunda qeyd etmək istərdim ki, respublikamızın kitabxana mütəxəssislərinin beynəlxalq tədbirlərdə iştirak etməsi həm ölkəmizin bu sahədə beynəlxalq nüfuzunun artmasına yardım edir, həm də dünya təcrubəsinin öyrənilərək təbliğ və tətbiq edilməsi üçün münbit şərait yaradır. Bu səbəbdən də Azərbaycan kitabxana mütəxəssislərinin Dunya Kitabxana və İnformasiya Konqresində - İFLA-nın illik konfranslarında hər il təmsil olunması zəruridir.

***А.М. МАММАДОВ***

## МИРОВОЙ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ КОНГРЕСС-75-Я КОНФЕРЕНЦИЯ И СОВЕТ ИФЛА УДАЧНО ЗАВЕРШИЛИ СВОЮ РАБОТУ В МИЛАНЕ

***РЕЗЮМЕ***

*В статье участника этого значительного для библиотечно-информационной сферы мероприятия рассказывается о работе состоявшиеся в Милане (Италия) Мирового библиотечно-информационного конгресса-75-ой Конференции и Совета ИФЛА. Даются сведения о тематике докладов, о библиотеках и культурном наследии Милана, о богатой культурной программе Конференции.*

***A. M. MAMMADOV***

## WORLD LİBRARY AND İNFORMATİON CONGRESS- 75th CONFERENCE AND COUNCİL OF İFLA SUCCESSFULLY FİNİSHED İN MİLAN

**SUMMARY**

*In the article of participant of very important for library and information field event - World Library and Information Congress- 75th Conference and Council of IFLA in Milan described activities in frame of this event. Was given information on subjects of reports and speeches, about cultural program of Conference, on cultural heritage and libraries of Milan.*

Kompüter tərtibçisi: Esmira ZƏRBALİYEVA

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575. 27 mart 1997.*

*Yığılmağa verilmişdir: 19.11.2009*
*Çapa imzalanmışdır: 25.12.2009*
*Kağız formatı 70x100 1/16*
*Fiziki ç.v. 11*
*Sayı 300*
*Qiyməti müqavilə ilə.*

*Ünvan: AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23*
*Bakı Universiteti Nəşriyyatı*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*